# NUR TƏFSİRİ

**BEŞİNCİ CİLD**

**MÜƏLLİF: MÖHSÜN QƏRAƏTİ**
**TƏRCÜMƏ EDƏN: H. ARZU**

بسم الله الرحمن الرحیم

**نام کتاب:...................................................تفسیر نور (جلد-5)**
**مؤلف:...........................................................محسن قرائتی**
**مترجم:...............................................................ح. آرزو**
**ناشر:......................................................................فائز.**
**تاریخ چاپ:..............................................................1385**
**نوبت چاپ:...................................................................اول**
**تیراژ:.......................................................................2000**

**Kitabın adı:.....................Nur təfsiri (beşinci cild)**
**Müəllif:..................................................Möhsün Qəraəti**
**Tərcümə edən:............................................................H. Arzu**
**Nəşr edən:.......................................................................Faiz**
**Çap tarixi:.....................................................................2006**
**Çap növbəsi:..........................................................Birinci**
**Tiraj:..............................................................................2000**

Әзиз вә диггәтли охучу! Гур`ан тәфсири тәрҹүмәсинин нә дәрәҹәдә әһәмијјәтли вә инҹә иш олдуғуну анласаг да, нөгсанлардан гача билмәдик. “Һәјј” вә “гәјјум” кими јүзләрҹә мирвари тә`бирини бәсит шәкилдә тәрҹүмә етмәк зорунда галдыг. Ҝәләҹәкдә бу илаһи ишдә јардымчы олачағынызы дүшүнүрүк. Бизә үнванлајачағыныз гејдләр нөвбәти нәшрләрдә нәзәрә алынаҹаг.

*Дуа истәји илә тәрҹүмәчи.*

# RƏHMAN VƏ RƏHİM ALLAHIN ADI İLƏ

***Həmd olsun aləmlərin Rəbbinə! Allahın salamı olsun ağamız Məhəmməd (s) və onun məsum Əhli-beytinə!***

## Ön söz

Qum elmi hövzəsində ümumi (səth) mərhələni bitirdikdən sonra bir qədər də "Dərsi-xaric" oxuyub, Quranla daha dərindən tanış olmaq fikrinə düşdüm. Bəzi dostlarla birlikdə bu istiqamətdə fəaliyyətə başladıq. Hərəmiz bir təfsiri mütaliə edib, xülasə şəkildə qeydlər götürürdük. Beləcə, Quranın bir neçə cüzünü sonadək mütaliə etdik.

Həmin vaxt eşitdim ki, Ayətullah Məkarim Şirazi bir qrup alimlə təfsir yazmaq qərarına gəlib. O mənim təfsir yazılarımı görüb bəyəndi və mən də onlara qoşuldum.

İyirmi yeddi cildlik "Təfsiri-nümunə"nin başa çatması on beş il çəkdi. Həmin təfsir indiyədək dəfələrlə çap olunmuş və başqa dillərə tərcümə edilmişdir. "Təfsiri-nümunə"nin təqribən yarısı yazılıb tamamlandığı vaxt imam Xomeyninin (r) rəhbərliyi ilə İslam inqilabı qələbə çaldı. Elə həmin ilk günlərdə mərhum Əllamə Şəhid Mütəhhərinin göstərişi ilə televiziyaya getdim. Artıq iyirmi yeddi ilə yaxındır ki, hər cümə axşamı İran İslam Respublikasının televiziyasında "Quran dərsləri" adı altında proqramda çalışıram.

"Təfsiri-nümunə" başa çatanadək həmin heyətlə həmkarlıq etdim. Amma bu arada belə bir fikrə düşdüm ki, radioda hamının anlaya biləcəyi bir səviyyədə təfsir dərslərinə başlayım. Bu məqsədlə "Təfsiri-nümunə"dən əlavə, başqa on təfsirdən də qeydlər götürdüm. Artıq səkkiz ildir ki, həftədə bir gün, eləcə də, ramazan ayında hər gün "Ayineye vəhy" adı altında radio verilişləri yayımlanır.

Dəfələrlə təklif edildi ki, radiodan danışdıqlarımı kitab şəklində nəşr etdirim. Öz yazılarımdan bir neçə cüzünü Ayətullah hacı Seyyid Mehdi Ruhani, Ayətullah Misbah Yəzdi üçün oxudum və öz təfsir üslubuma daha çox əmin oldum. Qeydlərimi tərtib üçün höccətül-islam Məhəmmədi və höccətül-islam Mühəddisiyə təqdim etdim. Məcmuə hazır olduqdan sonra onu Qumun "Dər-rahe həqq" müəssisəsinə verdim ki, Ayətullah Ustadinin nəzarəti altında çap olunub, maraqlananların ixtiyarına verilsin.

## Həmkarlar

Qurani-kərimin ilk dörd cüzünün təfsirinin hazırlanmasında höccətül-islam Dehşiri və höccətül-islam Cəfəri həftənin yarı hissəsini Tehrana gəlib, mənə kömək etdilər.

Beşinci cüzdən on altıncı cüzədək isə höccətül-islam Seyyid Cavad Behişti və höccətül-islam Şeyx Mahmud Mütəvəssil bu müqəddəs işdə həmkarlıq etmişlər.

## İmtiyazlar

1. Bu təfsirdə yalnız xüsusi zümrənin anlaya biləcəyi ədəbi, fiqhi, kəlami, fəlsəfi terminlərdən pəhriz edilmişdir.
2. Rəy əsasında təfsirdən pəhriz olunmuş, yalnız Quran ayələri və Peyğəmbər (s) Əhli-beytindən (ə) olan rəvayətlərə istinad edilmişdir.
3. Bir çox bildiriş və dərslərdə mötəbər şiə və sünni təfsirlərindən istifadə edilmiş, bəzi nöqtələr isə müəllif və əziz həmkarlar tərəfindən açıqlanmışdır.

Allahdan istəyirik ki, hər birimizə ixlas, düşüncə, əməl, təbliğ və Quran maarifinin yayılması və bu müqəddəs işi başa çatdırmaq tövfiqi mərhəmət buyurub, Quranı bizim üçün dünya, bərzəx və qiyamət nuru qərar versin.

Xalqdan istəyim budur ki, Quran təlimində yalnız tilavət, təcvid, tərtil və təvaşihlə kifayətlənməyib, Quranda düşünməyi və ona əməl etməyi əsas götürsünlər.

Alim və fazillərdən təmənnam budur ki, təbliğ və tədrisdə Quran ali bir məqsəd kimi qarşıya qoyulsun və bütün məntəqələrdəki elmi mərkəzlərdə, mədəniyyət ocaqlarında, məscidlərdə və mədrəsələrdə Quran təfsiri dərsləri təşkil edilsin.

İslam, Quran və Peyğəmbər (s) Əhli-beyti (ə) ilə tanışlığımda rolu olanlara təkbətək təşəkkür edir, onlar üçün, xüsusi ilə də ustadlarım, atam-anam üçün bağışlayan Allahdan mərhəmət diləyirəm.

Eləcə də, bu təfsirin yazılmasında, tərtibində, islahında, çapında və yayılmasında mənə yardım edənlərə və işin təkmili üçün qurucu və faydalı tənqid və təklif verənlərə təşəkkür edirəm.

***MÖHSÜN QƏRAƏTİ***

## *Ayətullah hacı Seyyid Mehdi Ruhanidən bir neçə xoş söz*

**Rəhman və Rəhim Allahın adı ilə**

Bəşər həyatında, tarixi dönəmlərdə, xüsusi ilə də müsəlman tarixində böyük təsirə malik olan Qurani-kərimə onun məqamına layiq səviyyədə diqqət yetirilmədiyindən bu ilahi kitab xalq arasında qərib qalmışdır. Hansı ki, Quranda "Biz Quranı öyüd üçün asan etdik" buyurulur. Bununla belə, bir çoxları Quran dəyərlərini yaddan çıxarıb ona diqqətsizlik göstərmişlər. Necə ki, keçmiş ümmətlər haqqında Quranda buyurulur: "Onlara xatırladılanların bir hissəsini unutdular..."[1]

Qurani-məcid əvvəldən axıradək bəşər üçün ilahi göstərişlərdən ibarətdir. Bütün bu bəyanatlarla tanış olmaq zəruridir. Xüsusi ilə də bəşəriyyətin dünyəvi və əbədi səadət yolunu göstərən ayələr və onlardakı nöqtələr haqqında düşünmək lazımdır. Qurani-məciddə həzrət Peyğəmbərə (s) belə müraciət olunur: "Sənə nazil etdiyimiz mübarək bir kitabdır ki, onun ayələrini düşünüb dərk etsinlər və ağıl sahibləri öyüd götürsünlər."[2]

Bu müqəddimənin istəyi Qurani-məcidin bütövlükdə elə bir təfsirinin hazırlanmasıdır ki, bu təfsirdə əsas diqqət ayələrin mənasının dərk olunmasına yönəldilsin. Məlum olsun ki, hər bir ayənin məqsədi nədir, nəyə etiraz edir? Müasir dillə desək, bu təfsir "bəyani" bir təfsir olsun.

Adətən, təfsir kitabları daha çox ədəbiyyat, onun şöbələri, kəlam elmi, məzhəbi mübahisələr istiqamətində peşəkar araşdırmalarla məşğul olur. Hər bir mütəxəssis öz ixtisasına aid terminlərlə araşdırma aparır. Bundan əlavə, mövzu haqqında söhbətlər olduqca uzun çəkir və bu hal insanların Qurani-məcidlə bütövlükdə tanış olmasına mane olur. Bəziləri isə Quran ayələrini şəxsi, çox vaxt isə yanlış əqidəsinin sübutu üçün əsas gətirir.

Son zamanlar elm adamlarının ehtiyacına cavab verəcək bir təfsirin hazırlanması zəruri görünürdü. Həmin təfsirin hazırlanmasında aşağıdakı məsələlərə diqqət yetirilməli idi:

1. Təfsir həm sadə və yetərli, həm də güclü olmalı idi;
2. Quranın dərk olunmasını çətinləşdirən xüsusi terminlərdən pəhriz edilməli idi;
3. Həyat problemlərini həll edən, müsəlman cəmiyyətinə təqdim olunası, hətta tərcümə edilib bütün dünyaya yayılası (bəşəriyyəti, təqva sahiblərini hidayət edəsi) mövzular araşdırılmalı idi. Çünki Quran mətləbləri konkret bir zaman, fərd və ya cəmiyyətə aid deyil;
4. Ayələrdən alınan nəticələrdə Quran ayələrinə istinad olunmalı idi. Rəyə və şəxsi istəklərə, zəif rəvayətlərə əsaslanmaq olmazdı;
5. Həzrət Peyğəmbərin (s) göstərişi əsasında "Səqəleyn"dən (iki əmanətdən) biri olan Əhli-beytdən nəql olunmuş mötəbər rəvayətlərə diqqət yetirilməli idi.

---

[1] "Maidə" 13.
[2] "Sad" 29.

Bu prinsiplər Möhsün Qəraətinin təfsirində nəzərə alınmışdı. Əgər həmin prinsiplərdən kənarlaşma müşahidə edilərsə, bu, məqsədli şəkildə edilməmişdir və inşallah, gələcəkdə islah olar.

Ümid edirəm ki, dəyərli alim höccətül-islam Möhsün Qəraəti elmi keyfiyyətlərindən əlavə, təfsir sahəsində zövq sahibidir və ilahi kəlmələrin lətafətini yaxşı dərk edir. Onun öz təfsirini bu üsul və imtiyazlarla sona çatdıracağına ümidvaram.

Uyğun təfsirin bir cüzdən çoxunu müəlliflə birlikdə müzakirə etdik və bəzi qeydlərimi ona bildirdim.

Əziz müəllif hər bir ayəni sadə və yetərli bir şəkildə tərcümə etdikdən sonra onun mahiyyətini şərh etmişdir. Uyğun şərhlərdə müəllifin "bildirişlər" adlandırdığı nöqtələrə toxunulmuşdur. Əslində bu nöqtələr təfsirin ruhunu açıqlayır. Düzünə qalsa, bir çox məqamlarda həmin nöqtələr müəllifin xüsusi ixtirasıdır və xüsusi təravətə malikdir.

Ümid edirəm ki, Qurani-kərim bir gün hövzə və universitetlərdə əsas mehvər olacaq. Necə ki, imam Zeynəlabidin (ə) "Səhifeye-səccadiyyə" kitabında Quranın xətm duasında buyurur: "Quran elə bir ədalət tərəzisidir ki, haqqın bəyanında dili qısa deyil."

Ümid edirəm ki, əziz müəllifin təfsir şivəsi və ixtiraçılıq yolu Quranın ali mətləblərinin gerçəkləşməsində irəliyə doğru bir addım olacaq. İnşallah, bu addım son addım olmaz və nəzər sahibləri növbəti addımlarda bu üsulu təkmilləşdirərlər.

***09 RƏBİUS-SANİ, 1414***

***MEHDİ HÜSEYNİ RUHANİ***

## *Müəllifdən*

Şəmsi 1378-ci ildə ilk cildin yenidən nəşri üçün növbəti dəfə "Nur təfsirini" diqqətlə mütaliə etdim. İxtisarlar və əlavələr oldu. Allahın lütfü ilə ağlıma gələn yeni mətləblər və "Təfsiri-rahnüma", "Nüxbətut-təfsir" kitablarındakı bəzi nöqtələr mətnlərə əlavə edildi.

Bir anlıq fikrə getdim. Düşündüm ki, cəmi iki-üç il keçmiş öz əlimlə dəyişdiyim yazı əgər qiyamətə çatsa, övliyaların, mələklərin, ən əsası Allahın nəzərindən keçsə, nə qədər dəyişəcək?! Bütün bu dəyişikliklər o zaman faydalı olur ki, işin canında qeyri-ilahi niyyət olmasın.

Hər halda xeyli zəhmət çəkdim. Amma qiyamətdə bu təfsirin bir səhifəsinin də mənim qurtuluşuma səbəb olub-olmayacağını bilmirəm!

Sözsüz ki, Quran nurdur. Təfsirdə nə nöqsan varsa, bizim nöqsanımızdır. Gülzarda torpaq gülə döndüyü kimi, ümid edirəm ki, Quranın nurani ayələri sayəsində bizim də yazılarımız nura çevrilsin. Amin!

***MÖHSÜN QƏRAƏTİ***

# BİSMİLLAHİR-RƏHMANİR-RƏHİM

# “TÖVBƏ” SURƏSİ

## 9-cu surə, 129 ayə

### On, on birinci cüzlər

### *“Tövbə” surəsinin siması*

Qur`ani-kərimin 129 ayədən ibarət olan 9-cu, “Tövbə” surəsi hicrətin 9-cu ilində nazil olmuşdur.[1] Surənin bir hissəsi Təbuk döyüşündən öncə, bir hissəsi döyüş gedişində, digər bir hissəsi döyüşdən sonra nazil olmuşdur.

Rəvayətlərdə surənin ən məşhur adları “Tövbə” və “Bəraətdir”. Surənin “Tövbə” adlandırılmasının səbəbi bu surədə insanın tövbəsinə, ilahi lütfün qayıdışına dəfələrlə işarə olunmasıdır. Surənin “Bəraət” adlanmasının səbəbi isə, onun müşriklərdən cana doymasının e`lanı ilə başlamasıdır.

Bə`zi təfsirçilər bu surədəki mövzuları “Ənfal” surəsinin davamı saymışlar. Onların nəzərincə, elə bu səbəbdən surə “Bismillahir-Rəhmanir-Rəhim”-siz başlamışdır. Amma bizim, peyğəmbər əhli-beytinə (ə) əsaslanan əqidəmizə görə, bu surə müstəqildir və onun “Bismillah”-sız başlamasının səbəbi onda müşriklərə qəzəbli tərzdə müraciət olunmasıdır. Çünki “Bismillah aman vermək üçün, bəraət isə amanın götürülməsi üçündür.”[2]

Surənin əhəmiyyətini anlamaq üçün həzrət Peyğəmbərin (s) bir buyruğunu xatırlamaq kifayət edir: “Bəraət” və “Tövhid” surələri yetmiş min mələyin müşayiəti ilə nazil oldu.”

**Ayə 1:**

﴿بَرَاءةٌ مِّنَ اللّهِ وَرَسُولِهِ إِلَى الَّذِينَ عَاهَدتُّم مِّنَ الْمُشْرِكِينَ﴾

**“(Bu ayələr) Allah və Onun peyğəmbəri tərəfindən müşriklərdən əhd-peyman bağladığınız kəslərə nifrət (və onlarla olan əhd-peymanın ləğv edilməsi və onlara verilən amanın aradan qaldırılması) bildirişidir.”**

### *Nöqtələr*

◘Bu surənin adı rəvayətlərdə “Bəraət” və “Tövbə” kimi qeyd olunduğundan, onun “Ənfal” surəsinin davamı yox, müstəqil bir surə olduğu anlaşılır.

◘Surənin hədələyici məzmun səbəbindən “Bismillah”sız gəlməsi göstərir ki, digər surələr sadəcə dəbdəbə xatirinə “Bismillah”la başlamamışdır. “Bismillah” həmin surələrin tərkib hissələridir.

---

[1] “Təfsire-Nurus-səqələyn”.
[2] “Təfsire-Məcməül-bəyan”.

◘Bəraət e`lan olunmasının səbəbi kafirlərin əhdi pozması idi. Bu məsələyə 7, 8-ci ayələrdə toxunulmuşdur. Ümumi qanunlara əsasən isə qarşı tərəf bağlanmış əhdi pozanadək bu əhdə sədaqət göstərilməlidir. 4-cü ayədə buyuruldu: "Əhdi pozmamış, fitnəyə yol verməmiş müşriklərlə müddət başa çatanadək əhdinizə vəfa qılın." Bundan əlavə, müsəlmanlar zəif olduqlarından belə bir peyman bağlamışdılar. Əslində isə onların arzusu şirkin mümkün qədər tez aradan götürülməsidir.

## *Ayələrin e`lan olunma macərası*

◘Hicrətin 8-ci ili Məkkə fəth olundu. Amma müşriklər hələ də xurafat və çaşqınlıq qatqılı ibadətlərini yerinə yetirmək üçün Məkkəyə gəlirdilər. Onların adətlərindən biri də bu idi ki, təvaf etdikləri libası sədəqə verirdilər. Birdən təvaf etmək istəyən qadının əlavə libası olmadıqda kafirlər onu çılpaq şəkildə təvaf etməyə məcbur edirdilər. Belə bir vəziyyətdə təvaf edən qadını ətrafdakılar seyr edirdilər.

Bu hal qüdrət zirvəsində olan Peyğəmbər və müsəlmanlar üçün dözüləsi hal deyildi. Həzrət Peyğəmbər (s) ilahi göstəriş intizarında olduğu vaxt Mədinədə bu surə nazil oldu. Həzrət (s) Əbu-Bəkrə göstəriş verdi ki, bu ayələri Məkkə əhlinə oxusun. Belə bir iş üçün Əbu-Bəkrin seçilməsi səbəbi onun yaşlı olması və kimsənin ona qarşı həssaslıq göstərməməsi ola bilərdi.

Amma Əbu-Bəkr Məkkəyə yaxınlaşdığı vaxt Cəbrail Allah tərəfindən belə bir göstəriş gətirdi ki, ayələri peyğəmbər ailəsindən olan bir şəxs oxumalıdır. Həzrət Peyğəmbər (s) bu iş üçün həzrət Əlini (ə) seçib buyurdu: "Mən ondanam, o isə məndən." Həzrət Əli (ə) Əbu-Bəkri yarıyolda saxlayıb ayələri ondan aldı və Məkkəyə gedib müşriklərə oxudu.

◘Bu surədəki ayələrin Həzrət Əli (ə) vasitəsi ilə çatdırılma macərası sünnə əhlinin də kitablarında nəql olunmuşdur. Bu məsələ səhabələr, Əbu-Bəkr, Əli (ə), İbn-Əbbas, Ənəs ibn Malik, Cabir ibn Abdullah Ənsari tərəfindən rəvayət edilmişdir. Bir çox digər mənbələrdə də uyğun məsələyə toxunulur.[1]

Fəxr-Razi və Alusi kimi bə`zi sünnə əhli alimləri çalışmışlar ki, bu seçimin əhəmiyyətini azaltsınlar və bu iş Həzrət Əli (ə) üçün imtiyaz sayılmasın. Onlar bildirirlər ki, uyğun iş üçün Əlinin (ə) seçilməsində məqsəd onun qəlbini ələ almaq olmuşdur. Düz belə bir məqsədlə təhlükəli iş tapşırılması mümkünsüzdür. Bir çox müşriklərin müsəlmanlarla savaşda öldürüldüyü, əksər müşriklərin qəlbində kin-küdurət alovlandığı bir vaxt uyğun ayələrin müşriklərə oxunması çox təhlükəli bir iş idi.

◘Allah-təala həzrət Musaya Fir`onun yanına gedib onu tövhidə də`vət etmək göstərişi verdiyi vaxt Musa dedi: "Pərvərdigara, mən onlardan birini öldürmüşəm və qorxuram ki, qisas alalar. Qardaşımı da mənimlə göndər. Halbuki Həzrət Əli (ə) bir çox şirk başçılarını öldürmüşdü. Belə bir vəziyyətdə o tək-tənha onların

---

[1] Əhməd Hənbəl, "Məsnəd", c. 3, s. 212-283; c. 1, s. 151-330; "Mustədrəke-səhiheyn", c. 3, s. 51; "Təfsire-əl-minar", c. 10, s. 157; "Təfsire-Təbəri", c. 10, s. 46; "Təfsire-ibn Kəsir", c. 2, s. 322-333; "İhqaqil-həqq", c. 5, s. 368; "Fəzailul-xəmsə", c. 2, s. 342; "Əl-ğədir", c. 6, s. 338.

yanına gedib, tam aramlıqla “Bəraət” ayələrini oxudu. Bu iş Mina və Cəmərəyi-əqəbə kənarı kimi həssas bir məhəldə gerçəkləşdi.

◘**Həzrət Əli (ə) tərəfindən kafirlərə e`lan olunan nöqtələr:** Bəraətin və peymanların ləğvinin e`lanı; növbəti ildə müşriklərə həcdə iştirakın qadağan olunması; çılpaq halda təvafa qadağa qoyulması; müşriklərin Allah evinə daxil olmasının qadağan edilməsi.

◘Qur`anın bir çox ayələrində Allah və Onun rəsulunun adı yanaşı çəkilir. O cümlədən: Hədiyyə və lütf məsələsində[1]; bey`ət məsələsində[2]; itaət və ardıcıllıq məsələsində[3]; başqalarından bəraət və üz çevirməkdə.

## *Bildirişlər*

1. Müşriklərlə peymanı rəhbər ləğv edə bilər. (Müsəlmanlar müşriklərlə bir-birlərinə hücum etməmək barədə peyman bağlamışdılar.)
2. Əhd-peymana vəfa qılmaq lazımdır, amma heç vaxt fitnəyə təslim olmamalıyıq.
3. Bağlanmış peyman hüquqi baxımdan möhtərəm olsa da, müşriklərdən və azğınlardan qəlbən üz çevrilməsi dini bir prinsipdir.[4]
4. Qanun Allah tərəfindən verilsə də,[5] əməldə peyğəmbər də iştirak edir.
5. Bəraət qətilik və iqtidar göstəricisidir. Düşmənin fitnəkarlığı qarşısında susmaq isə zəiflikdən danışır.
6. Müəyyən şərtlər daxilində müşriklərlə peyman bağlamaq olar.
7. Düşmənin fitnə və xəyanətkarlığı səbəbindən peyman ləğv olunduqda onlara bu barədə xəbərdarlıq etmək lazımdır.

**Ayə 2:**

﴿فَسِيحُواْ فِي الأَرْضِ أَرْبَعَةَ أَشْهُرٍ وَاعْلَمُواْ أَنَّكُمْ غَيْرُ مُعْجِزِي اللّهِ وَأَنَّ اللّهَ مُخْزِي الْكَافِرِينَ﴾

**“(Ey müşriklər,) yer üzündə (azad) dolanmağınız üçün dörd ay möhlətiniz var və bilin ki, Allahı məğlub edə bilməzsiniz. Allah kafirləri zəlil edəndir.”**

## *Nöqtələr*

◘Bəraət zilhiccəayının onuncu günü (Qurban bayramı) e`lan olundu. Deməк, dörd ay möhlət rəbius-sani ayının 10-da başa çatdı.[6]

◘Rəvayətlərə əsasən 4 ay möhlət öncədən peyman bağlamayanlara aid idi. Peyman bağlanmış insanlara isə həmin peymanda nəzərdə tutulmuş vaxta qədər möhlət verilmişdi. Bu müddət 4 aydan az və ya çox ola bilərdi.

---

[1] “Tövbə”, 74.
[2] “Fəth”, 10.
[3] “Nisa”, 80.
[4] “Təfsire-Ətyəbul-bəyan”.
[5] “Kəhf”, 26.
[6] “Kafi”, c. 4, s. 290.

## *Bildirişlər*

1. Müqaviləni pozduqdan sonra düşmənə düşünmək üçün möhlət verin. (Tarixi mənbələrdə bildirilir ki, həmin dörd ay möhlət zamanı müşriklərin çoxu İslamı qəbul etdi.)

2. İqtidarda olduğunuz vaxt e`lan etməmiş hücuma keçməyin.

3. İslamı qəbul etmək istəməyənlər bilməlidirlər ki, haraya getsələr, Allahın hakimiyyətindən qaça bilməyəcəklər.

4. İslamla döyüş Allahla savaşdır.

5. İlahi sünnə, qayda budur ki, haqqa qayıdış imkanını əldən verdikdə insan bədbəxt olur.

**Ayə 3:**

﴿وَأَذَانٌ مِّنَ اللّهِ وَرَسُولِهِ إِلَى النَّاسِ يَوْمَ الْحَجِّ الأَكْبَرِ أَنَّ اللّهَ بَرِيءٌ مِّنَ الْمُشْرِكِينَ وَرَسُولُهُ فَإِن تُبْتُمْ فَهُوَ خَيْرٌ لَّكُمْ وَإِن تَوَلَّيْتُمْ فَاعْلَمُواْ أَنَّكُمْ غَيْرُ مُعْجِزِي اللّهِ وَبَشِّرِ الَّذِينَ كَفَرُواْ بِعَذَابٍ أَلِيمٍ﴾

**“(Bu ayələr, e`lan) böyük həcc günü Allah və Onun rəsulu tərəfindəndir. Allah və Onun rəsulu müşriklərdən üz çevirmişlər. (Bununla belə,) əgər tövbə etsəniz, sizin üçün daha yaxşıdır. Əgər üz çevirsəniz, onda bilin ki, heç vaxt Allahı aciz qoya bilməzsiniz. Kafirləri dərdli əzabla müjdələ.”**

## *Nöqtələr*

◘Surənin ilk ayəsində bəraət müşriklərin özünə e`lan olunurdusa, burada bütün xalqın müşriklərdən bəraəti, üz çevirməsi e`lan edilir.

◘ “Həcce-Əkbər” dedikdə ya qurban bayramı günü, ya Ərəfə günü, ya da həcc mərasimi nəzərdə tutulur.[1] Ümrə isə “kiçik həcc” adlandırılır.

## *Bildirişlər*

1. Düşmənin özünü məzlum göstərməsinin və sizə qarşı təbliğatının qarşısını almaq üçün xalqı vəziyyətdən xəbərdar edin.

2. Təbliğdə zaman və məkan amilini nəzərdən qaçırmayın.

3. Həm təşviq, həm də hədədən istifadə edin.

4. Rabitələri kəsərkən onları bərpa etmək üçün baca saxlayın.

5. Dörd ay möhlət Allahın acizlik yox, lütfünü göstərir.

**Ayə 4:**

---

[1] “Kafi”, c. 4, s. 290.

﴿إِلاَّ الَّذِينَ عَاهَدتُّم مِّنَ الْمُشْرِكِينَ ثُمَّ لَمْ يَنقُصُوكُمْ شَيْئًا وَلَمْ يُظَاهِرُواْ عَلَيْكُمْ أَحَدًا فَأَتِمُّواْ إِلَيْهِمْ عَهْدَهُمْ إِلَى مُدَّتِهِمْ إِنَّ اللّهَ يُحِبُّ الْمُتَّقِينَ﴾

**"Peyman bağladığınız, sizə münasibətdə öhdəçiliyini pozmayan və sizə qarşı çıxanlara yardım göstərməyən müşriklərlə peymanlarınızı müddəti başa çatanadək saxlayın. (Əhdinizə vəfalı olun.) Həqiqətən, Allah təqva əhlini sevir."**

### *Nöqtələr*

◘Yalnız əhdi pozmuş və fitnəkar müşriklərə bəraət e`lan etmək olar. Bənu-Zumərə və Bənu-Xəzimə kimi əhdinə vəfa edən qəbilələrlə peymanı qorumaq lazımdır. Ayədə onlar istisna olunur.

◘Həzrət Əli (ə) buyurmuşdur: "Müddətli peymanlarınıza müddət başa çatanadək vəfa qılın. Müddətsiz peyman bağladığınız kəslərə 4 ay möhlət verin."

### *Bildirişlər*

1. Peymana hörmətlə yanaşanlarla bağlanmış peymanlar möhtərəmdir.
2. Hətta müşriklərlə də olsa, bağlanmış peymana vəfa qılmaq lazımdır.
3. Düşməninizə yardım göstərən şəxs sizə düşməndir. Peymanın qorunma şərtlərindən biri qarşı tərəfin İslam düşmənlərinə yardım göstərməməsidir. İslam düşmənlərinə yardım göstərən kəs bu şərti pozmuşdur və sizə düşməndir.)
4. Əhd-peymana vəfa təqva nişanəsidir.

**Ayə 5:**

﴿فَإِذَا انسَلَخَ الأَشْهُرُ الْحُرُمُ فَاقْتُلُواْ الْمُشْرِكِينَ حَيْثُ وَجَدتُّمُوهُمْ وَخُذُوهُمْ وَاحْصُرُوهُمْ وَاقْعُدُواْ لَهُمْ كُلَّ مَرْصَدٍ فَإِن تَابُواْ وَأَقَامُواْ الصَّلاَةَ وَآتَوُاْ الزَّكَاةَ فَخَلُّواْ سَبِيلَهُمْ إِنَّ اللّهَ غَفُورٌ رَّحِيمٌ﴾

**"Haram aylar ötüb keçdikdən sonra müşrikləri harada tapsanız öldürün, həbs edin, mühasirəyə salın, hər yerdə onlara pusqu qurun. Tövbə etsələr, namaz qılsalar, zəkat ödəsələr onlara yol açın (azad buraxın). Həqiqətən, Allah bağışlayan və mehribandır."**

### *Nöqtələr*

◘Məkkədə on üç il peyğəmbəri və müsəlmanları incitmiş və hicrətdən sonra da 9 il məkrindən əl çəkməmiş kafirlər məhvə layiqdirlər.

◘ "Həys" (حيث) sözü həm zaman, həm də məkanla bağlı işlədilir.

◘İmam Baqir (ə) buyurmuşdur: "Şirkdən tövbə yolu iman gətirməkdir."[1]

---

[1] "Kafi", c. 5, s. 10.

### *Bildirişlər*

1. Bütün də`vət mərhələlərini adladıqdan sonra müşriklər yenə də düşmənçiliyə əl atarsa, onların məhvi üçün bütün yollardan istifadə edin. Məsələn, öldürün, əsir götürün, yollarını bağlayın, mühasirəyə salın.

2. Həm qətiyyət, həm də mülayimlik lazımdır.

3. Səmavi din azadlığı qəbuldur. Amma düşüncə azğınlığı, ağıl və insanlığın süqutu dözüləsi deyil.

4. Müsəlmanlar daim fitnəkarları nəzarətdə saxlaalı, bir növ pusquda dayanmalıdırlar.

5. Müsəlmanların təhlükəsizlik şəbəkələri hətta sərhəd xaricində fitnəkarları nəzarət altında saxlamalıdır.

6. Fitnəkar düşmənlərin məhvi üçün bütün sərhədlərə və nüfuz yollarına nəzarət edilməlidir.

7. Hətta döyüş gedişində tövbəni qəbul edək. Çünki İslam düşmənçilik və intiqam yox, mərhəmət və böyüklük dinidir.

8. Tövbə əməllə müşayiət olunmalıdır. Əməlsiz tövbələrə aldanmayaq.

9. Şirkin tövbəsi iman gətirməkdir. Həqiqi tövbə nişanəsi namaz və zəkatdır.

10. Namaz ibadətlərin birincisidir. Dini şüarlara (namaz və zəkata) hörmətlə yanaşanlara qarşı çıxmayaq.

**Ayə 6:**

﴿وَإِنْ أَحَدٌ مِّنَ الْمُشْرِكِينَ اسْتَجَارَكَ فَأَجِرْهُ حَتَّى يَسْمَعَ كَلاَمَ اللّهِ ثُمَّ أَبْلِغْهُ مَأْمَنَهُ ذَلِكَ بِأَنَّهُمْ قَوْمٌ لاَّ يَعْلَمُونَ﴾

**“Əgər müşriklərdən biri səndən aman və pənah istəsə, ona Allah kəlamını eşitməsi üçün pənah ver, sonra onu əmin-aman məkana çatdır. Çünki onlar xəbərsiz bir qövmdür.”**

### *Bildirişlər*

1. Düşmən sığınacaq istədikdə islami düşüncəni götür-qoy edib araşdırması üçün ona müsbət cavab verin.

2. Hətta müşriklər üçün də düşüncə və götür-qoy yolu açıqdır. Bir nəfərin doğru yola gələcəyini ehtimal edərək fərqli hesab aparmalıyıq.

3. İslam mərhəmət, şərafət və kəramət dinidir.

4. Düşmənə də düşünmək üçün fürsət verin. Hətta döyüş gedişində xalqı düşünmək imkanından məhrum etməyin.

5. Haqqın müəyyənləşdirilməsi və doğru əqidənin seçilməsi üçün möhlət lazımdır.

6. Qur`an dərk olunası kəlamdır və hidayət üçün zəmin hazırlayır. Qur`an insan düşüncəsinin qavrayacağı kitabdır.

7. İslam hökuməti azğınlar üçün şərait yaratmalıdır ki, onlar Qur`an kəlamını eşitsinlər. Çünki bə`zilərində çaşqınlığın səbəbi onların həqiqətdən xəbərsizliyi, təbliğatın olmamasıdır. Ola bilsin ki, bir çoxları haqqı eşitsə qəbul edər.

8. İslam azadlıq dinidir. Qorxu-hürkü ilə yox, düşüncə ilə əldə edilən iman dəyərlidir.

9. Məntiqə əsaslanan əqidə məktəbində tələskənlik yoxdur. Düşmənə düşünmək üçün fürsət verin və ona rahat götür-qoy etmək üçün şərait yaradın.

10. Bə`zilərinin küfrü cəhalətdən qaynaqlanır. Əgər onlar xəbərdar olsalar, haqqı qəbul edərlər.

**Ayə 7:**

﴿كَيْفَ يَكُونُ لِلْمُشْرِكِينَ عَهْدٌ عِندَ اللّهِ وَعِندَ رَسُولِهِ إِلاَّ الَّذِينَ عَاهَدتُّمْ عِندَ الْمَسْجِدِ الْحَرَامِ فَمَا اسْتَقَامُواْ لَكُمْ فَاسْتَقِيمُواْ لَهُمْ إِنَّ اللّهَ يُحِبُّ الْمُتَّقِينَ﴾

**“Necə ola bilər ki, Allah və Onun rəsulunun müşriklərlə bir peymanı olsun? Məscidül-həramın yanında peyman bağladığınız kəslər istisnadır. Nə qədər ki, əhdlərinə vəfalıdırlar, siz də vəfa qılın. Allah təqvalıları sevir.”**

## *Nöqtələr*

◘Bu ayə “bəraət” surəsinin başlanğıc ayələrini açıqlayır, bəraət və uzaqlaşma üçün dəlillər göstərir. Bəli, onlar öz əhdlərinə vəfa qılmadılar.

◘Kə`bənin 48 mil radiuslu dairəsi “Hərəm” sayılır. Bu məntəqədə bağlanmış peymanlar “İndəl-məscidil-həram” adlanır. Məsələn, Məkkədən on beş mil aralı bağlanmış “Hüdəybiyyə” peymanı bu qəbildəndir.

◘Peyman yerinin bəyanı zamanı Məscidül-həramın adının çəkilməsi həmin məkanın əhəmiyyətini göstərir. Amma Məscidül-həramdan kənarda bağlanmış peymanlara da vəfa qılmaq lazımdır.

## *Bildirişlər*

1. Yəhudilər və müşriklər müsəlmanlarla daha çox düşmən olduqlarından[1] onların çoxundan vəfa gözləməyin.

2. Tənqid edərkən sağlam fərdləri istisna edək.

3. Öz düşmənlərinizlə bağladığınız peymanlara münasibətdə onlar kimi rəftar edin.

4. Təqva üçün əhdə vəfa, əhdə vəfa üçün təqva lazımdır.

**Ayə 8:**

﴿كَيْفَ وَإِن يَظْهَرُوا عَلَيْكُمْ لاَ يَرْقُبُواْ فِيكُمْ إِلاًّ وَلاَ ذِمَّةً يُرْضُونَكُم بِأَفْوَاهِهِمْ وَتَأْبَى قُلُوبُهُمْ وَأَكْثَرُهُمْ فَاسِقُونَ﴾

---

[1] “Maidə”, 85.

**“Axı necə (onlarla peyman bağlamaq olar), bir halda ki, sizə qalib gəldikdə heç bir yaxınlıq və peymanı nəzərə almazlar, sizi öz yumşaq dilləri ilə razı salarlar, amma qəlbən qəbul etmirlər. Onların çoxu həddi aşanlardır.”**

## *Nöqtələr*

◘ “İll” deyərkən yaxınlıq, qonşuluq və qəlb bağlılıqları nəzərdə tutulur. (İlkin İslam dövrünün müsəlmanları və müşriklər arasında yaxınlıq, əhd-peymana vəfa etmək lazımdır. Hər kəs bu peymanı pozsa, xalq tərəfindən məzəmmət olunur.

◘Bu ayələr əhdi pozmuş müşriklərlə sərt rəftar göstərişinin növbəti bir dəlilidir.

◘”Düşmən bizə qalib gəlsə, pislik edər”, deyə ona hücum etmək olmaz. Düşmənə qarşı təcavüz üçün dəlillər olmalıdır. Əks-təqdirdə, qarşı tərəfə hücum “cinayətdən öncə qisas” sayılar.

## *Bildirişlər*

1. Düşmənin nə dərəcədə kinli olduğu o qüdrətə çatdığı vaxt müəyyənləşir.
2. Qalib gələcəyi təqdirdə həddi aşacağı gözlənilən düşmən qarşısında sükut və sadəlövhlük günahdır.
3. Müşriklər nə insanlıq və qonşuluq çərçivəsini gözləyir, nə də əhd-peymana hörmət qoyurlar.
4. Düşmənin siyasi oyunlarına və azdırıcı təbliğatına aldanmayaq.
5. Əhdi pozmaq, nifaq, maskalanma, siyasətbazlıq günahdır.
6. Müşriklərin əksəri günahkardır. Amma onların da arasında sağlam fərdlər tapılır. (Münasibətlərimizdə insaflı olaq.)

**Ayə 9:**

﴿اشْتَرَوْاْ بِآيَاتِ اللّهِ ثَمَنًا قَلِيلاً فَصَدُّواْ عَن سَبِيلِهِ إِنَّهُمْ سَاء مَا كَانُواْ يَعْمَلُونَ﴾

**“(Əhdi pozan müşriklər) Allahın ayələrini ucuz qiymətə satdılar və (xalqı) Allahın yolundan çəkindirdilər. Həqiqətən, onlar pis işlər görürdülər.”**

## *Bildirişlər*

1. İnsanın əməl və yol seçimində seçim haqqı var.
2. İlahi ayələri itirmək müqabilində hər nə qazansaq yenə azdır.
3. Dünyapərəstlik səbəbindən insan dinlə mübarizə aparır, xalqı Allahın yolundan çəkindirir.
4. İlahi razılığı əbədi behişti ötəri və bəlalı dünya həyatına satmaq ən zərərli işdir. Çünki Allahın mö`minlərə lütfü qarşısında bütün dünya və onda olanlar əhəmiyyətsizdir.

**Ayə 10:**

﴿لاَ يَرْقُبُونَ فِي مُؤْمِنٍ إِلاًّ وَلاَ ذِمَّةً وَأُوْلَئِكَ هُمُ الْمُعْتَدُونَ﴾

**“(Əhdi pozan müşriklər təkcə sizə münasibətdə yox) heç bir mö`minə münasibətdə yaxınlıq haqqına və əhd-peymana riayət etməyəcəklər. Onlar həmin təcavüzkarlardır.”**

## *Nöqtələr*

◘Bu ayə də müşriklərdən bəraətlə bağlı ciddi ilahi göstərişi bəyan edir.

◘Ötən iki ayədə sizə münasibətdə peymanlara əməl olunmamasından danışıldı. Bu ayədə isə onların bütün iman əhli ilə düşmənçilikləri qeyd edildi.

## *Bildirişlər*

1. Müşriklər mö`minlərlə düşməndirlər. Belə isə, onlarla sərt rəftarda tərəddüd göstərməyin.
2. Kafirlərin nəzərində müsəlmanların ən böyük günahı onların Allaha iman gətirmələridir. Onların iman əhli ilə düşmənçilikdə bəhanələri budur.[1]
3. Əhdi pozmaq təcavüzkarlıqdır.
4. Qohumların hüququna riayət və əhdə vəfalı olmaq vacibdir. Bu göstərişlərə e`tinasızlıq təcavüzkarlıq ruhundan doğur.
5. Əhdi pozmuş müşriklərlə döyüş müdafiə xarakteri daşıyır. On üçüncü ayədə qeyd olunduğu kimi bu döyüşü müsəlmanlar başlamamışdır.

**Ayə 11:**

﴿فَإِن تَابُواْ وَأَقَامُواْ الصَّلاَةَ وَآتَوُاْ الزَّكَاةَ فَإِخْوَانُكُمْ فِي الدِّينِ وَنُفَصِّلُ الآيَاتِ لِقَوْمٍ يَعْلَمُونَ﴾

**“Amma tövbə edib namaz qılsalar və zəkat ödəsələr, bu halda sizin din qardaşınızdırlar. Biz Öz ayələrimizi bilən (düşünən) qövm üçün ətraflı bəyan edirik.”**

## *Nöqtələr*

◘Allah-təala ötən ayələrdə buyurdu ki, əgər müşriklər tövbə etsələr, namaz qılsalar, zəkat ödəsələr, onlara qarşı çıxılmasın. Bu ayədə isə qeyd olunur ki, nəinki onlara əziyyət verməyin, hətta keçmişləri unudub, onlarla qardaşcasına rəftar edin.

## *Bildirişlər*

1. Öz rəftarınızda “addım-addım, tədricən” prinsipinə riayət edin. Öncə təcavüzdən çəkinmək, sonra isə ülfət və qardaşlıq!
2. Gerçək tövbə əməl ilə müşayiət olunur.
3. Namaz və zəkatı tərk edənlər bizə din qardaşı deyillər.
4. Dini qardaşlıq dairəsinə daxil olma şərti namaz və zəkatdır.

---

[1] “Büruc”, 8.

5. Müsəlmanın rabitələrinin, sevgi və nifrətinin kökü əqidə məktəbindədir.
6. Peşman olmuş və tövbə etmiş insanla qardaşcasına rəftar edin.
7. İslam döyüşlərinin əsas məqsədi müşrikləri tövhidə qaytarmaqdır.
8. Dünənədək qətli vacib olanlar tövbə, namaz və zəkat sayəsində müsəlmanlarla bərabər ictimai hüquq əldə edirlər və onlarla döyüş haram olur.
9. Elm və bilik ilahi ayələrin dərki üçün zəmindir.

**Ayə 12:**

﴿وَإِن نَّكَثُواْ أَيْمَانَهُم مِّن بَعْدِ عَهْدِهِمْ وَطَعَنُواْ فِي دِينِكُمْ فَقَاتِلُواْ أَئِمَّةَ الْكُفْرِ إِنَّهُمْ لاَ أَيْمَانَ لَهُمْ لَعَلَّهُمْ يَنتَهُونَ﴾

**“Amma əgər (tövbə yerinə) peyman bağladıqdan sonra andlarını pozsalar, dininizə tə`nə etsələr, küfr başçıları ilə döyüşün. Çünki onlar üçün heç bir and yoxdur. Bəlkə öz rəftarlarından çəkinələr.”**

## *Nöqtələr*

◘Həzrət Əlidən (ə) soruşdular: “Nə üçün Siffeyn döyüşündə fərariləri tə`qib etdiniz, Cəməl döyüşündə isə onları azad buraxdınız?” Həzrət buyurdu: “Siffeyn döyüşündə küfr başçısı sağ idi və qaçanlar onun ətrafında toplanırdılar. Cəməl savaşında isə başçı öldürüldüyündən növbəti dəfə toplanmaq üçün bir mərkəz yox idi.”

◘İmam Sadiq (ə) buyurmuşdur: “Hər kəs sizin dininizə tə`nə etsə, hökmən, kafir olar.” Sonra həzrət uyğun ayəni oxudu.[1]

## *Bildirişlər*

1. Əhdi pozmağın və əqidə məktəbini məsxərəyə qoymağın bir nümunəsi də dindən çıxmaqdır.
2. İslama qarşı tə`nə və onun xar edilməsinin cəzası e`damdır.
3. İslami cihadın məqsədi əqidə məktəbinin müdafiəsidir.
4.Əhdi pozan və dini məsxərəyə qoyan küfr başçıları ilə mübarizə aparın.
5. Mübarizədə fitnə başçılarının, düşmən komandanlığının məhvi ilkin vəzifələrdəndir.
6. Qarşı tərəfin hər andı sizi aldatmasın. Əhdi pozanların andı e`tibarsızdır.
7. Düşmən planlarının qarşısının alınması İslam cihadının məqsədlərindəndir.

**Ayə 13:**

﴿أَلاَ تُقَاتِلُونَ قَوْمًا نَّكَثُواْ أَيْمَانَهُمْ وَهَمُّواْ بِإِخْرَاجِ الرَّسُولِ وَهُم بَدَؤُوكُمْ أَوَّلَ مَرَّةٍ أَتَخْشَوْنَهُمْ فَاللّهُ أَحَقُّ أَن تَخْشَوْهُ إِن كُنتُم مُّؤُمِنِينَ﴾

---

[1] “Təfsire-Nurus-səqələyn”.

**“Öz andını pozmuş, Peyğəmbəri (vətənindən) çıxarmağa sə`y göstərmiş, sizinlə ilkin olaraq döyüşə başlamış qövmlə döyüşmürsünüzmü? Yoxsa onlardan qorxursunuz? Əgər imanınız varsa, Allahdan qorxmağınız daha yaxşıdır.”**

## *Bildirişlər*

1. Müsəlman döyüşçü üçün döyüşün məqsədi aydın olmalıdır. Düşmənin öz əhdini pozması, Peyğəmbərə (s) qarşı pis niyyəti və döyüşə başlaması qeyd olunur).

2. Sizin döyüş müdafiə döyüşüdür və bu döyüşü düşmən başlamışdır.

3. Döyüş zamanı döyüş odu ilə cəhənnəm odunu müqayisə edin. Belə bir müqayisə döyüş əzmini möhkəmləndirir.

4. Həqiqi mö`min yalnız Allahdan qorxur.

**Ayə 14:**

﴿قَاتِلُوهُمْ يُعَذِّبْهُمُ اللّهُ بِأَيْدِيكُمْ وَيُخْزِهِمْ وَيَنصُرْكُمْ عَلَيْهِمْ وَيَشْفِ صُدُورَ قَوْمٍ مُّؤْمِنِينَ﴾

**“Onlarla döyüşün ki, Allah sizin əlinizlə onlara əzab versin, onları xar, etsin, sizi isə qalib etsin və mö`minlərin qəlbinə məlhəm qoysun.”**

## *Nöqtələr*

▫***Sual:*** “Ənfal” surəsinin 32-ci ayəsində buyurulurdu ki, Peyğəmbərin (s) xalq arasında olması xalqı əzabdan qoruyur. Bu ayədə deyilənlər həmin buyruqla zidd deyilmi?

▫***Cavab:*** Əgər “Ənfal” surəsində Ad və Səmud qövmünə nazil olmuş əzab kimi səmavi və sarsıdıcı əzab nəzərdə tutulurdusa, bu ayədə döyüş çətinliklərinə işarə olunur.

## *Bildirişlər*

1. Döyüş cəbhələri ilahi yardımların nazil olduğu məhəllərdir. (Cihad sizdən, yardım isə Allahdandır.)

2. Mücahidlər haqqın vuran əli, ilahi hökmün icra amilidir.

3. İlahi sünnələr təbii yolla, səbəblər əsasında həyata keçir.

4. Düşmənin hərbi məğlubiyyətinin ardınca onun ruhi və siyasi məğlubiyyəti gəlir.

5. Allah din düşmənlərinin süqutu və mö`minlərin izzətə çatması istəyindədir.

6. Küfrün məhvi, kafirlərin süqutu və mö`minlərin rahatlığı döyüş məqsədlərindəndir.

7. Döyüşdən öncə təşviq və təbliğə ehtiyac var. Allah mö`minlərə qəti müjdə verir.

8. İlkin İslam dövründə müsəlmanların qəlbi yaralanmışdı, onlar incidilmişdilər.

9. Döyüşdə bir dəstə şəhid olsa da, İslam ümməti izzət və aramlığa çatır.

10. İctimai məsələlərdə mö`minlərin taleyi bir-birinə bağlıdır. Sizin qələbəniz digər mö`minlərin qəlbinə şəfa olur.

**Ayə 15:**

﴿وَيُذْهِبْ غَيْظَ قُلُوبِهِمْ وَيَتُوبُ اللّهُ عَلَى مَن يَشَاء وَاللّهُ عَلِيمٌ حَكِيمٌ﴾

**“(Onlarla vuruşun ki, Allah) mö`minlərin qəlbindən qeyz-qəzəbi çıxarsın. Allah Öz lütfünü istədiyi kəsə nazil edər (istədiyi kəs üçün tövbə yolunu açar.) Allah biləndir və hikmət sahibidir.”**

## *Bildirişlər*

1. Döyüşdə məqsəd Allahın razılığı, müdafiə, şirkin və fitnənin qarşısının alınması olsa da, digər bir məqsəd qəlblərin təskinlik tapması, ruhların aramlaşmasıdır.[1]

2. Qələbə çaldıqdan sonra sizə qoşulmaq istəyənlərə “bu vaxtadək harada idiniz” deməyin, onları yaxşı qarşılayın.

3. Tövbənin qəbul olunması Allahın istək və iradəsindən asılıdır.

4. Sizə yaxınlaşanları “hiylə gəlirlər” deyə özünüzdən uzaqlaşdırmayın. Allah həqiqi və riyakar tövbədən xəbərdardır. İlahi hikmətə əsasən, şəhadət kəlmələrini deyən kəs qəbul olunmalıdır.

**Ayə 16:**

﴿أَمْ حَسِبْتُمْ أَن تُتْرَكُواْ وَلَمَّا يَعْلَمِ اللّهُ الَّذِينَ جَاهَدُواْ مِنكُمْ وَلَمْ يَتَّخِذُواْ مِن دُونِ اللّهِ وَلاَ رَسُولِهِ وَلاَ الْمُؤْمِنِينَ وَلِيجَةً وَاللّهُ خَبِيرٌ بِمَا تَعْمَلُونَ﴾

**“Yoxsa güman edirdiniz ki, Allah sizlərdən cihad edib, Allahı, Onun rəsulunu və mö`minləri sirdaş seçənləri müəyyənləşdirməmiş azad buraxılarsınız?! Allah etdiyiniz işlərdən agahdır.”**

## *Nöqtələr*

◘Bu ayə də ötən ayələr kimi cihada təşviq üçündür.

◘ “Vəlicətən” sözü sirr, gizli iş mə`nasını bildirir. Burada həmin söz sirdaş mə`nasında işlədilmişdir.

◘Çoxsaylı rəvayətlərə əsasən, ayədə sirr veriləsi mö`minlər deyilərkən, səmavi rəhbərlər nəzərdə tutulur.[2]

---

[1] “Təlaq”, 7; “İnşirah”, 6.

[2] “Təfsire-Nurus-səqəleyn”.

## *Bildirişlər*

1. Varlıq aləmi və ondakı proqramlar məqsədlidir. İnsanlar və onların gələcəyi öz başına buraxılmamışdır. Bu səbəbdən də xəyal dünyasından çıxıb gerçəyi görməliyik.

2. "İmanlıyam" demək bəs etmir. İnsanları bir-birindən fərqləndirən amil əməl, cihad və sınaqdır.

3. İman sınağından o kəslər müvəffəqiyyətlə çıxır ki, İslam cəmiyyətinin sirlərini yalnız Allaha, Onun rəsuluna və gerçək mö`minlərə açırlar. (İlkin İslam dövründə bə`ziləri biganələrlə əlaqə saxlayırdı)

4. Biganələrə sirr vermək, onları məhrəm saymaq haramdır, zəiflik və imansızlıq nişanəsidir və məzəmmət olunur.

5. Müsəlmanların vəzifəsi xarici düşmənlərlə döyüş, daxili düşmənlərə sirr verməməkdir.

6. Allah xalqın vəziyyətindən agahdır və onları sınamağa ehtiyac duymur. Amma hər bir insanın sınağa çəkilməsi ilahi bir sünnədir. (İlahi sınaqda insan öz kimliyini anlayır)

7. Əgər biganəyə sirr açsanız, Allah bilər və hesabınıza yetişər.

**Ayə 17:**

﴿مَا كَانَ لِلْمُشْرِكِينَ أَن يَعْمُرُواْ مَسَاجِدَ الله شَاهِدِينَ عَلَى أَنفُسِهِمْ بِالْكُفْرِ أُوْلَئِكَ حَبِطَتْ أَعْمَالُهُمْ وَفِي النَّارِ هُمْ خَالِدُونَ﴾

**"Müşriklər öz küfrlərinə aşkar şahid olduqları halda Allah məscidlərini tə`mir edə bilməzlər. Onların işi puça çıxmışdır və onlar odda əbədi qalacaqlar."**

## *Nöqtələr*

◘Ayə Məscidül-həramın tə`miri ilə bağlı nazil olsa da, onda bəyan olunmuş hökmlər bütün məscidlərə aiddir. Ona görə də ayədə "məscid" yox, "məscidlər" sözü işlədilmişdir.

◘İlkin İslam dövründə Məkkənin fəthindən qabaq Məscidül-həramın işlərinin idarəçiliyi və tə`miri müşriklərin ixtiyarında idi.

◘Həzrət Əli (ə) tərəfindən bəyan olunmuş bəraətdəki məsələlərdən biri də müşriklərdən Məscidül-harama qəyyumluq haqqının alınması idi. Onlara hətta Məscidül-harama daxil olmağa icazə verilmirdi. (27-ci ayədə bu məsələyə işarə olunur)

## *Bildirişlər*

1. Məscidlərin və müsəlman dini mərkəzlərinin inşasında kafirlər və müşriklər iştirak etmirlər.

2. Müqəddəs mərkəzlərin tikintisinə və idarəçiliyinə biganələrin müdaxilə etməməsi üçün bu işlərdə onlardan pul almayın.

3. Əsas rol oynayan amil əməl yox, niyyətdir.

4. Bə`zən qazanc qeyri-şər`i, iştirak isə dəyərsiz olur. Məscidlərin abad edilməsi xatirinə kafirlərin sizin dini işlərinizə nüfuz etmələrinə yol verməyin.

5. Özünü dinsiz göstərən kəslərin dini işlərə müdaxilə haqqı yoxdur.

6. Müşrik elə həmin kafirdir.

7. Küfr kafirlərin məhvinə, fəsad törətmələrinə və əməllərinin dəyərdən düşməsinə səbəb olur.

**Ayə 18:**

﴿إِنَّمَا يَعْمُرُ مَسَاجِدَ اللّهِ مَنْ آمَنَ بِاللّهِ وَالْيَوْمِ الآخِرِ وَأَقَامَ الصَّلاَةَ وَآتَى الزَّكَاةَ وَلَمْ يَخْشَ إِلاَّ اللّهَ فَعَسَى أُوْلَئِكَ أَن يَكُونُواْ مِنَ الْمُهْتَدِينَ﴾

**“Allahın məscidlərini yalnız Allaha və qiyamət gününə inanan, namazı bərpa edən, zəkat ödəyən və Allahdan başqasından qorxmayan kəslər tə`mir etməlidirlər. Ümid var ki, onlar doğru yolu tapmışlardan olalar.”**

## *Nöqtələr*

◘Məscid müsəlmanların mühüm ibadət və yığıncaq yerləridir. Bu səbəbdən də məscidin qəyyumları saleh, proqramları tərbiyəvi, büdcəsi halal, əhli təqvalı olmalıdır. Əgər məscidi tikənlər zalım, pişnamaz qorxaq, xidmətçilər süst olarsa, təbii ki, həmin məkanda əsas məqsəd ödənməyəcək, mə`nəvi abadlıq olmayacaq.

◘Mərhum Feyz Kaşaninin “Təfsire-Safidə” qeyd etdiyi kimi, “məscidin tə`miri” dedikdə onun binasının bərpası, təmizliyi, döşənməsi, işıqlandırılması, eləcə də, orada tədris və təbliğ nəzərdə tutulur.

◘Zəkat sözü Qur`anda otuz iki dəfə zikr edilmişdir. 28 məqamda zəkat sözü namaz sözü ilə yanaşı qeyd olunur.

◘Həzrət Peyğəmbər (s) buyurmuşdur: “Bir şəxsin məscidə gedib-gəldiyini gördükdə, onun imanına şahid durun.”[1]

◘Hədislərdə məscid əhli üçün bir çox faydalar zikr olunmuşdur: Dini dost və qardaş tapmaq, faydalı agahlıqlar əldə etmək, günahdan uzaqlaşmaq, ilahi ne`mət və rəhmətdən bəhrələnmə.[2]

## *Bildirişlər*

1. Məscidə qəyyumluğun və onun tə`mirinin şərtləri var:

a) Məscidi tə`mir edən şəxs e`tiqad baxımından yaranış və məada e`tiqadlı olmalıdır.

b) Qəyyum əməl baxımından namaz qılmalı və zəkat ödəməlidir.

v) Həmin şəxs ruhi baxımdan şücaətli olmalı və kənar tə`sir altına düşməməlidir. (Əgər məscidin qəyyumu şücaətli olsa, məscid də zülmə qarşı hərəkət mərkəzi olar)

---

[1] “Təfsire-Dürrül-Mənsur”.

[2] “Vəsailüş-şiə”; “Təfsire-Dürrül-Mənsur”.

2. Məhrumların qayğısına qalmaq məscid qəyyumlarının və onu tə`mir edənlərin vəzifəsidir.

3. İman əməldən, namaz zəkatdan, məscid inqilabdan ayrı deyildir.

4. İmanımız, saleh əməlimiz, namazımız, zəkatımız və şücaətimiz olsa da, qürrələnməyək və bilək ki, büdrəmə təhlükəsi hələ də var.

**Ayə 19:**

﴿أَجَعَلْتُمْ سِقَايَةَ الْحَاجِّ وَعِمَارَةَ الْمَسْجِدِ الْحَرَامِ كَمَنْ آمَنَ بِاللّهِ وَالْيَوْمِ الآخِرِ وَجَاهَدَ فِي سَبِيلِ اللّهِ لاَ يَسْتَوُونَ عِندَ اللّهِ وَاللّهُ لاَ يَهْدِي الْقَوْمَ الظَّالِمِينَ﴾

**“Yoxsa hacılara su verməyi, Məscidül-həramı tə`mir etməyi Allah və qiyamət gününə iman gətirib Allah yolunda cihad edənin işi ilə eyni tutursunuz? Bu iki iş Allah yolunda eyni ola bilməz. Allah zalım qövmü hidayət etməz.”**

## *Nöqtələr*

◘Peyğəmbərin (s) əmisi Abbas və Şeybə öz işlərini bir-birlərinə sadalayıb lovğalanırdılar. Abbas Allah evinin ziyarətçilərinə su verdiyi, Şeybə Kə`bə açarlarını gəzdirdiyi üçün qürrələnirdi.

Həzrət Əli (ə) buyurdu: “Amma mən öz az yaşımla iftixar edirəm ki, siz mənim cihad və qılıncıma iman gətirdiniz.” Abbas Həzrət Əlinin (ə) bu sözlərindən narahat olub ondan Peyğəmbərə (s) şikayət etdi. Bu vaxt həmin ayə nazil oldu.[1]

◘Həzrət Əli (ə) öz öncüllüyünün sübutunda dəfələrlə bu ayəyə istinad etmişdir. Bəli, iman və cihad mə`nəvi dəyərdən məhrum şirk dövründəki xidmətlərdən üstündür.

## *Bildirişlər*

1. Əməllərimizə uymayaq. İmansız əməl puç bir ilğım, cansız cəsəddir.

2. İxlaslı döyüşçülər başqalarından üstündürlər.

3. İmanlı mücahidləri başqaları ilə bir tutmaq məzəmmət olunur və ictimai zülmlərdən sayılır.

**Ayə 20:**

﴿الَّذِينَ آمَنُواْ وَهَاجَرُواْ وَجَاهَدُواْ فِي سَبِيلِ اللّهِ بِأَمْوَالِهِمْ وَأَنفُسِهِمْ أَعْظَمُ دَرَجَةً عِندَ اللّهِ وَأُوْلَئِكَ هُمُ الْفَائِزُونَ﴾

**“İman gətirib hicrət edənlər, malı və canı ilə Allah yolunda cihad edənlər Allah yanında ən böyük dərəcəyə malikdirlər. Onlar həmin nicat tapanlardır.”**

---

[1] “Təfsire-nümunə”; “Kafi”, c. 8, s. 204.

### *Bildirişlər*

1. İman, hicrət, cihad və təqva bütün dəyərlərin başında dayanır.

2. Əgər xalq üçün dəyər ölçüsü qohumluq əlaqələridirsə, Allah hesabında bu ölçü iman, hicrət və cihaddır. (Əgər bütün müsəlmanlar və Peyğəmbər (s) səhabələri bir cərgədə düzülsələr, Həzrət Əlinin (ə) ilkin iman gətirməsi, cəbhədə daha çox olub, daha çox zərbə alması aşkar olar.)

3. İman digər kamilliklər üçün şərtdir.

4. Bütün müqəddəs işlərin dəyəri insanın niyyətindən asılıdır.

5. Qurtuluş yalnız iman, hicrət və cihad sayəsində əldə olunur.

**Ayə 21:**

﴿يُبَشِّرُهُمْ رَبُّهُم بِرَحْمَةٍ مِّنْهُ وَرِضْوَانٍ وَجَنَّاتٍ لَّهُمْ فِيهَا نَعِيمٌ مُّقِيمٌ﴾

**"Rəbləri onları Öz tərəfindən bir rəhmət, razılıq və behiştdən bağlarla müjdələyər. Orada onlar üçün həmişəlik ne`mətlər var."**

**Ayə 22:**

﴿خَالِدِينَ فِيهَا أَبَدًا إِنَّ اللّهَ عِندَهُ أَجْرٌ عَظِيمٌ﴾

**"Onlar orada əbədi qalarlar. Həqiqətən, Allahın yanında böyük mükafat var."**

### *Bildirişlər*

1. Allah hicrət etmiş mücahid mö`minləri behiştlə müjdələmişdir. (Başqa ayələrdə digər müjdələr sadalanır.)

2. Əqidə məktəbinin komplekslik nişanələrindən biri də fitrətin nəzərə alınması ilə yanaşı ardıcıllara ümid verilməsidir.

3. Müjdə və mükafat rübubiyyət şə`nindəndir.

4. İlahi rəhmət və behiştdən bəhrələnmə qurtuluş göstəricilərindəndir.

5. Allahın rəhmət və razılığı maddi ne`mətlərdən öndə gəlir.

6. Behişt bağları ne`mətlə doludur.

7. Fani ne`mətləri Allaha xatir boşlasaq, əbədi ne`mətlərə çatarıq.

8. Fəna və zaval dünya ne`mətlərinə məxsus böyük bəlalardandır. Qiyamətdə bu sayaq bəlalar yoxdur.

9. Böyük mükafat yalnız Allahın əlindədir. Başqalarının mükafatı istənilən bir halda kiçikdir.

10. Bütün dünyanı "qəlil"(az) adlandıran Allah mücahidlərin mükafatını "əzim" (böyük) kimi təqdim edir.

11. Allah əlimizdəki az və fani ne`mətləri ən yuxarı qiymətə alır. Halbuki elə bu cüz`i ne`mətləri də Özü verib.

**Ayə 23:**

﴿يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ لاَ تَتَّخِذُواْ آبَاءكُمْ وَإِخْوَانَكُمْ أَوْلِيَاء إَنِ اسْتَحَبُّواْ الْكُفْرَ عَلَى الإِيمَانِ وَمَن يَتَوَلَّهُم مِّنكُمْ فَأُوْلَئِكَ هُمُ الظَّالِمُونَ﴾

**“Ey iman gətirənlər! Əgər ata-qardaşlarınız küfrü imandan üstün tutarsa, onlara tabe olmayın. Sizlərdən hər kəs onların dostluğunu və vilayətini qəbul etsə, həmin sitəmkarlardandır.”**

## *Nöqtələr*

◘Kafirlərin vilayətinin qəbulu ilə bağlı Qur`anın xəbərdarlıqları insanı silkələyir. “Maidə” surəsində oxuyuruq: “Hər kəs onların vilayətini qəbul etsə, elə onlardandır.[1] “Ali-İmran” surəsində isə belə oxuyuruq: “Bu sayaq hərəkət edən kəsin Allahla rabitəsi kəsilmişdir.”[2]

◘Bə`zi müsəlmanlar Mədinəyə hicrət zamanı kafir valideynlərinin qəzəbinə tuş gəlmişdilər. Amma onlar dinlərinin qorunmasını kafir valideynlərin razılığından üstün tutdular.

Qeyd etməliyik ki, kafir ata-anaya tabe olmamaq onlara yaxşılıq etməmək deyil. Bütün hallarda ata-anaya yaxşılıq zəruridir.

## *Bildirişlər*

1. Müsəlman övlad kafir atanın tabeçiliyində deyil. Əqidə rabitələri ailə rabitələrindən öndə gəlir.
2. Daxili hisslər dini dəyərlərdən önə keçməməlidir.
3. Ən yaxın şəxs olsa da, kafirə tabeçilik qadağandır.
4. Dini bağlılıq bütün bağlılıqlardan üstündür.
5. Kafirlərin hakimiyyətinin qəbulu zülmdür.

---

[1] “Maidə”, 51.
[2] “Ali-İmran”, 28.

**Ayə 24:**

﴿قُلْ إِن كَانَ آبَاؤُكُمْ وَأَبْنَآؤُكُمْ وَإِخْوَانُكُمْ وَأَزْوَاجُكُمْ وَعَشِيرَتُكُمْ وَأَمْوَالٌ اقْتَرَفْتُمُوهَا
وَتِجَارَةٌ تَخْشَوْنَ كَسَادَهَا وَمَسَاكِنُ تَرْضَوْنَهَا أَحَبَّ إِلَيْكُم مِّنَ اللّهِ وَرَسُولِهِ وَجِهَادٍ فِي
سَبِيلِهِ فَتَرَبَّصُواْ حَتَّى يَأْتِيَ اللّهُ بِأَمْرِهِ وَاللّهُ لاَ يَهْدِي الْقَوْمَ الْفَاسِقِينَ﴾

**“De ki, əgər atalarınız, övladlarınız, qardaşlarınız, zövcələriniz, ailəniz, topladığınız sərvət, kasadlığından qorxduğunuz ticarət, qəlbinizi isidən evlər sizin üçün Allah, Onun rəsulu və Allah yolunda cihaddan sevimli olsa, Allahın Öz (qəzəb) fərmanını gerçəkləşdirməsi intizarında olun. Allah itaətsiz qövmü hidayət etməz.”**

## *Nöqtələr*

◘Həzrət Əli (ə) bir dəstəyə buyurdu: “Nə üçün siz İslama yardım üçün Mədinəyə hicrət etmir, Peyğəmbərə (s) qoşulmursunuz?” Onlar dedilər: “Biz qardaşlarımız və qohumlarımızlayıq və öz evlərimizi qoruyuruq.”[1]

◘Bu ayədə adı çəkilən dəstələr bir nümunədir. Burada ata ilə yanaşı ana, oğulla yanaşı qız, qardaşla yanaşı bacı da nəzərdə tutulur.

## *Bildirişlər*

1. İman dərəcəsi dünya və axirət kimi iki yol ayrıcında dayanarkən mə`lum olur.
2. Cihad İslamın sütunlarındandır və onun adı tövhid və nübuvvətlə yanaşı çəkilir.
3. Maddiyyat körpülərindən salamat keçmək üçün Allahla bağlılığı gücləndirmək lazımdır.
4. Ailə bağlılığı, maddi imkanlar cihada mane olmamalıdır. Cihadın qarşısını alan bağlılıq ilahi qəzəb doğurur. (Allahla dostluq yolunda hər şeydən və hər kəsdən keçmək lazım gəlir. Çünki dinin qorunması ailə rabitələrinin, iqtisadi mənafe`lərin hifzindən öndə gəlir.)
5. Dünyapərəst müsəlman kafir kimidir. Ayədə dünyapərəst müsəlmanlara kafirlər kimi müraciət olunur.
6. Rifah, firavan yaşayış həyat məqsədinə çevrildikdə insan süquta uğrayır. Belə bir yol onu Allah və Onun rəsulundan uzaqlığa, ilahi qəhr-qəzəbə aparır.
7. Məs`uliyyətdən qaçan dünyapərəstlər ilahi hidayətə nail olmurlar.
8. Maddiyyatı mə`nəviyyatdan üstün tutmaq günah nişanəsidir.

**Ayə 25:**

[1] “Təfsire-Əl-mizan”.

﴿لَقَدْ نَصَرَكُمُ اللّهُ فِي مَوَاطِنَ كَثِيرَةٍ وَيَوْمَ حُنَيْنٍ إِذْ أَعْجَبَتْكُمْ كَثْرَتُكُمْ فَلَمْ تُغْنِ عَنكُمْ
شَيْئًا وَضَاقَتْ عَلَيْكُمُ الأَرْضُ بِمَا رَحُبَتْ ثُمَّ وَلَّيْتُم مُّدْبِرِينَ﴾

**"Həqiqətən, Allah bir çox məqamlarda sizə yardım etmişdir. Hüneyn günü də (sizə yardım edildi), o zaman ki, qoşununuzun çoxluğu sizi qürrələndirdi. Amma bu say çoxluğunun sizə heç bir faydası olmadı. Yer bütün genişliyi ilə sizə dar gəldi. Düşmənə arxa çevirib qaçdınız."**

## *Nöqtələr*

◘Ötən ayələrdə cihada təşviq, dünyəvi bağlılıqlar məsələsinə toxunuldu. Bu ayədə ilahi lütf və yardımlar yada salınır və bununla da cihad amili gücləndirilir.

◘Bu ayədə "Məvatinə kəsirə" tə`biri ilə yad edilən Peyğəmbər (s) döyüşlərinin sayı 80-ə çatır.[1] Nəql olunur ki, Mütəvəkkil Abbasi xəstələndiyi vaxt sağalması üçün çoxlu dirhəm (pul) nəzir edir. Mütəvəkkil sağaldıqdan sonra bu miqdarı tə`yin etməkdə çətinlik çəkir və İmam Hadiyə (ə) bu barədə sual ünvanlayır. İmam Hadi (ə) haqqında danışılan ayəyə istinad edərək Mütəvəkkilə 80 dirhəm nəzir verməyi tövsiyə edir.[2]

## *Hüneyn döyüşünün siması*

◘Hüneyn döyüşü Taif yaxınlığındakı bir məntəqədə baş verdi. Bu döyüşdə müsəlmanlar Həvazən qəbiləsi ilə qarşılaşmışdılar. Elə bu səbəbdən də həmin döyüşə Həvazən döyüşü də deyilir.

Hicri 8-ci ildə Peyğəmbər (s) bu qəbilənin fitnəsinin qarşısını almaq üçün həmin məntəqəyə qoşun yeritdi. Məkkəni fəth etmiş on minlik qoşun İslamı yenicə qəbul etmiş başqa iki min nəfərlə birlikdə həmin məntəqəyə yola düşdü.

Döyüş sübh namazından sonra başladı. Həvazən qəbiləsinin qəfil hücumuna tuş gəlmiş müsəlmanların bir çoxu qaçmağa başladı. İslam qoşunundakı nizam pozuldu. Amma böyük çətinlikdən sonra qaçanları saxlayıb yenidən hücuma keçmək mümkün oldu. Allahın yardımı ilə Hüneyn döyüşü müsəlmanların qələbəsi ilə başa çatdı. Bu döyüşdə 100 müşrik öldürüldü, qalanları təslim oldu, böyük qənimətlər ələ keçirildi. Bu döyüşdəki əsirlərin sayı, qənimətin miqdarı və necə bölünməsi məsələləri ilə daha ətraflı tanış olmaq üçün tarix kitablarına müraciət etmək lazımdır.

## *Bildirişlər*

1. İlkin İslam dövründə döyüşlərdə əldə olunan qələbələrin səbəbi ilahi yardım idi.
2. İlahi mərhəmətlərin xatırlanması ruhiyyə və imanı gücləndirən amillərdəndir.

---

[1] "Təfsire-Nurus-səqələyn"; "Kafi", c. 8, s. 464.
[2] "Təfsire-Ətyəbul-bəyan".

3. Hüneyn döyüşünün böyük əhəmiyyəti vardır.("Məvatinə kəsirə" tə`biri Hüneyn döyüşünə da aiddir. Amma xüsusi əhəmiyyət daşıdığından ayrıca qeyd olunmuşdur.)

4. Bə`zən cəmiyyətin və maddi imkanların çoxluğu insanı qürrələndirir, onu qəflətə uğradır və məğlubiyyətlə nəticələnir.

5. Bütün hallarda ilahi yardımlara ehtiyac var. Bədr döyüşündə azsaylı, Hüneyn döyüşündən isə çoxsaylı müsəlmanlara ilahi yardım nazil oldu.

6. İlahi iradə olmayan yerdə maddi vasitələr tə`sirsizdir.

7. Bə`zən bəndəlik və təvazökarlıq ruhiyyəsinin yaranması üçün zəif nöqtələr üzə çıxarılır. Zəiflik üzə çıxdıqda qürura yer qalmır.

**Ayə 26:**

﴿ثُمَّ أَنَزلَ اللّهُ سَكِينَتَهُ عَلَى رَسُولِهِ وَعَلَى الْمُؤْمِنِينَ وَأَنزَلَ جُنُودًا لَّمْ تَرَوْهَا وَعذَّبَ الَّذِينَ كَفَرُواْ وَذَلِكَ جَزَاء الْكَافِرِينَ﴾

**"Sonra Allah Öz peyğəmbərinə və mö`minlərə aramlıq nazil etdi. Görə bilmədiyiniz döyüşçülər göndərdi və kafirləri əzaba saldı. Bu, kafirlərin cəzasıdır."**

## *Nöqtələr*

◘Qur`ani-kərimdə "Səkinə" sözü altı yerdə işlədilmişdir. Bunlardan beşi döyüşlə bağlı ayələrə təsadüf edir.

◘Hüneyn döyüşündə Allah mö`minlərə dörd şeyi lütf buyurdu: "Səkinə (aramlıq), görünməyən döyüşçülər, kafirlərə qəzəb, fərarilərin tövbəsinin qəbulu. (Növbəti ayədə bu nöqtəyə toxunulacaq.)

◘Bə`zi kafir əsirlər müsəlmanlardan soruşurdular: "Bizi öldürən ağ libaslılar haradadır?"[1] Onlar kafirlərin gözünə ağ libasda görünən mələkləri nəzərdə tuturdular.

## *Bildirişlər*

1. Döyüşçülərin cəbhədə büdrəməsi qeybi yardımların kəsilməsinə səbəb olmur.

2. Qeybi yardımlar müsəlmanların qələbə rəmzidir.

3. Yaxşı əhval-ruhiyyə, imandan doğan arxayınlıq döyüşdə qələbənin əsas səbəblərindəndir.

4. Aramlıq və arxayınlıq həm rəhbərə, həm də onun ardıcıllarına lazımdır. Peyğəmbəri narahat edən ətrafdakıların qaçması, xalqı narahat edən isə qorxu hissi idi.

5. Mö`minlərdəki ruhi aramlıq Allah tərəfindən idi.[2]

---

[1] "Təfsire-Safi".
[2] "Bəqərə", 248.

6. Döyüşdə mö`minlərə yardım üçün mələklərin iştirakı Qur`andan doğan bir əqidədir.
7. Öldürülmək yaranış və məada imanı olan insan üçün iftixar, kafirlər üçün isə əzabdır.
8. Bütün kafirlərin aqibəti məğlubiyyət və zillətdir.

**Ayə 27:**

﴿ثُمَّ يَتُوبُ اللّهُ مِن بَعْدِ ذَلِكَ عَلَى مَن يَشَاء وَاللّهُ غَفُورٌ رَّحِيمٌ﴾

**“Sonra Allah bunun (fərariliyin) ardınca istədiyinə Öz lütfünü nazil edər. (Fərarilərin tövbəsini qəbul edər.) Allah bağışlayan və mehribandır.”**

## *Nöqtələr*

◘“Tövbə” dedikdə nəyin nəzərdə tutulması barədə bir neçə ehtimal var: cəbhədən fərarilik günahından tövbə; şirkdən tövbə; qürurdan, cəmiyyətin çoxluğuna arxayınçılıqdan tövbə.

## *Bildirişlər*

1. Tövbə qapıları həmişə və hamının üzünə açıqdır. Hətta kafir əsirlər və fərarilər də tövbə edə bilərlər. (Fe`lin indiki zaman forması davam bildirir.)
2. Tövbənin qəbulu Allaha vacib deyil. Allah-təala bir fəzl olaraq tövbəni qəbul edir və bu iş Onun hikmətindən qaynaqlanır.
3. Allah-təala həm günahları örtür, həm də insanı sevir.

**Ayə 28:**

﴿يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ إِنَّمَا الْمُشْرِكُونَ نَجَسٌ فَلاَ يَقْرَبُواْ الْمَسْجِدَ الْحَرَامَ بَعْدَ عَامِهِمْ هَذَا وَإِنْ خِفْتُمْ عَيْلَةً فَسَوْفَ يُغْنِيكُمُ اللّهُ مِن فَضْلِهِ إِن شَاء إِنَّ اللّهَ عَلِيمٌ حَكِيمٌ﴾

**“Ey iman gətirənlər! Şübhəsiz, müşriklər çirkin və murdardırlar. Gələn ildən Məscidül-harama yaxınlaşmamalıdırlar. Əgər (kafirlərlə alış-verişin kəsilməsi ilə bağlı) yoxsulluqdan qorxursunuzsa, (bilin ki,) əgər Allah istəsə, tezliklə Öz fəzli ilə sizi ehtiyacsız edəcək. Həqiqətən, Allah agahdır və hikmət sahibidir.”**

## *Nöqtələr*

◘Hicrətin 9-cu ili həcc mərasimində Həzrət Əlinin (ə) müşriklərə oxuduğu dörd göstərişdən biri bu idi ki, növbəti ildən müşriklər Məscidül-harama daxil ola bilməzlər.

## *Bildirişlər*

1. Şirk murdarlıqdır. Gerçək paklıq iman sayəsində mümkündür.
2. Mö`min insan qəlbində müşrikə qarşı nifrət hissi duymalıdır.
3. Dini hökmləri utancaqlıqla yox, qətiyyətlə yerinə yetirmək lazımdır.

4. Proqram və baxışın e`lanında icra gücümüzü nəzərə alaq. (Müşriklər elə əvvəlcədən çirkin idilər. Amma müsəlmanlar yalnız qüdrətə çatdıqdan sonra bəraət e`lan etdilər.)

5. Girişə yaxınlaşmaq daxil olmağa şərait yaratdığından, müşriklər müqəddəs yerlərə yaxınlaşmamalıdır.

6. Qur`ani-kərimdə bə`zi qadağaların fəlsəfəsi bəyan olunmuşdur.

7. Müqəddəslik baxımından yer üzünün ayrı-ayrı hissələri bir-birlərindən fərqlənir.

8. Müxaliflərlə keçinib, onlara möhlət verək.

9. Göstəriş və proqramlarda onların doğuracağı reaksiya və nəticələrə qarşı diqqətli olaq.

10. İqtisadi sıxıntılar bizi dinimizə biganələşdirməsin.

11. İctimai nigarançılıq yarandıqda xalqa ümid və təvəkkül ruhiyyəsi verilməlidir.

12. Ruzimiz başqalarının yox, yalnız Allahın əlindədir.

13. Əqidəyə görə kafirlərlə iqtisadi əlaqələri kəsdikdə narahat olmayaq.

14. Xalqın razılığında rəhbərliyin zirəkliyindən, müdiriyyətindən çox, Allahın fəzl və mərhəməti rol oynayır.

15. Dini hökmlər ilahi elm və hikmətə əsaslanır.

**Ayə 29:**

﴿قَاتِلُواْ الَّذِينَ لاَ يُؤْمِنُونَ بِاللّهِ وَلاَ بِالْيَوْمِ الآخِرِ وَلاَ يُحَرِّمُونَ مَا حَرَّمَ اللّهُ وَرَسُولُهُ وَلاَ يَدِينُونَ دِينَ الْحَقِّ مِنَ الَّذِينَ أُوتُواْ الْكِتَابَ حَتَّى يُعْطُواْ الْجِزْيَةَ عَن يَدٍ وَهُمْ صَاغِرُونَ﴾

**“Allaha və qiyamət gününə iman gətirməyən, Allahın və Onun rəsulunun haram etdiyini haram saymayan, haqq dinə boyun əyməyən kitab əhli ilə, onlar xar və zəlilcəsinə öz əlləri ilə cizyə verənədək vuruşun.”**

## *Nöqtələr*

◘Ötən ayələrdə müşriklərin murdarlığından və onlarla savaşdan danışıldı. Bu ayədə qarşısında döyüş və ya cizyə ödəmək kimi iki yol olan kitab əhli ilə rəftar qaydası bəyan olunur.

◘Müsəlmanlar xüms və zəkat ödəməklə İslam dövlətinə kömək edib onun xidmətlərindən faydalandıqları kimi, kitab əhli də cizyə adlı bir məbləğ ödəməklə bu hakimiyyətin himayəsinə sığınırlar.

Cizyənin miqdarı müsəlmanların rəhbəri tərəfindən tə`yin olunur. Əlbəttə, bu miqdarı ödəmək kitab əhlinə çətin gəlməlidir.

İmam Sadiq (ə) buyurmuşdur: “Əgər cizyə miqdarı az olsa, onu ödəyib-ödəməməyin fərqi olmaz və bu ödənc həqarət doğurmaz.”[1]

[1] “Təfsire-Nurus-səqəleyn”; “Kafi”, c. 3, s. 577.

◘Kitab əhli hansısa şəkildə Allaha və qiyamət gününə inansa da, ayə onların gerçək iman gətirmədiyini bildirir. Çünki Qur`an ilahi maarifin bir hissəsini qəbul edib, o biri hissəsini inkar edənləri kafir sayır.[1] Eləcə də, xurafata qatışmış e`tiqadlar küfr sayılır.[2]

## *Bildirişlər*

1. Kitab əhli öz peyğəmbərlərinin göstərişlərinə əməl etməsə günahkar sayılır.
2. Haqq din yalnız İslamdır. Digər dinlərdə təhrif və xurafata yol verildiyindən onlar həqiqi sayılmır.
3. Kitab əhlindən olan və iman gətirməyən kafirlərlə iki şəkildə rəftar etmək olar: döyüş və ya cizyə ödənməsi.
4. Kitab əhlindən illik vergi alınması zəruridir. Bu vergi ciddi tələb edilməli və nağd ödənməlidir. Qarşı tərəf bu vergini müt`iliklə ödəməlidir.
5. İslam hökuməti elə bir qüdrətə sahib olmalıdır ki, başqaları asanlıqla təslim olsun.
6. Dini azlıqlar İslam hakimiyyətinə tabe olub, onun himayəsinə sığınmalıdırlar.

[1] "Nisa", 150.
[2] "Təfsire-Safi".

**Ayə 30:**

﴿وَقَالَتِ الْيَهُودُ عُزَيْرٌ ابْنُ اللّهِ وَقَالَتْ النَّصَارَى الْمَسِيحُ ابْنُ اللّهِ ذَلِكَ قَوْلُهُم بِأَفْوَاهِهِمْ يُضَاهِؤُونَ قَوْلَ الَّذِينَ كَفَرُواْ مِن قَبْلُ قَاتَلَهُمُ اللّهُ أَنَّى يُؤْفَكُونَ﴾

**“Yəhudilər deyirdilər: “Üzeyir Allahın oğludur.” Məsihilər isə deyir: “Məsih (İsa) Allahın oğludur.” Onların ağızlarına aldıqları bu sözlər öncə kafir olanların sözlərinə oxşayır. (Onlar deyirdilər: “Mələklər Allahın qızlarıdır”) Onları Allah öldürsün! Necə də üz döndərirlər!”**

## *Nöqtələr*

◘“Üzeyir” “Əzra” sözünün ərəbləşmiş formasıdır. Necə ki, “İsa” “Yəsu”, “Yəhya” “Yuhanna” sözündən düzəlmişdir.

Üzeyir böyük yəhudi alimlərindən idi. Ona “yəhudilərin xilaskarı” ləqəbi verilmişdi. Çünki Büxtün-Nəsr tərəfindən xalqın qırğını və mə`bədlərin xaraba qoyulub, Tövratın yandırılmasından, qadınların əsir götürülüb Kuvroş tərəfindən Babilin fəth edilməsindən sonra Üzeyir Kuvroşun yanına gəlib yəhudilərə himayə istədi.

◘Bu ayə “kitab əhli Allaha və qiyamətə iman gətirməmişdir” ayəsini bir növ izah edir.

◘Tədqiqatçıların nəzərincə, Tövrat və İncil Budda, Brahma və yunan xurafatları ilə qatışdırılmışdır. İncildəki bir çox əhvalatlar eynən budda və Brahma məzhəblərində mövcuddur. Bu günkü yəhudilər Üzeyiri Allahın oğlu saymasalar da, İslam peyğəmbərinin dövründə belə bir e`tiqad vardı. Məhz bu inanclarına xatir həzrət Peyğəmbər (s) onlardan soruşmuşdu: “Musanın məqamı daha üstün olduğu halda nə üçün onu Allahın oğlu saymırsınız?” Təbii ki, onlar bu suala cavab tapmamışdılar.[1]

## *Bildirişlər*

1. Yəhudilərdən bir dəstəsi Üzeyiri Allahın oğlu saydığı və digər bir dəstənin də onların bu işi müqabilində susduğu üçün uyğun büdrəmə onların hamısına aid edilir.
2. Dini və ilahi şəxsiyyətlər haqqında uydurma yolverilməzdir.
3. Yəhudilərin və məsihilərin əqidələri xurafatla qarışmışdır.
4. Müşriklər bütləri Allahın şəriki, mələkləri Onun qızları sayırdılar. Yəhudilər və məsihilər isə Üzeyir və İsanı Allahın oğlu kimi qəbul edirdilər. Bu baxımdan onların sözləri kafirlərin sözlərinə oxşayırdı.
5. Yəhudi və məsihi dinlərindəki xurafatın kökü qədim kafirlərin əqidəsindəndir.

**Ayə 31:**

---

[1] “Təfsire-nümunə”.

﴿اتَّخَذُواْ أَحْبَارَهُمْ وَرُهْبَانَهُمْ أَرْبَابًا مِّن دُونِ اللّهِ وَالْمَسِيحَ ابْنَ مَرْيَمَ وَمَا أُمِرُواْ إِلاَّ لِيَعْبُدُواْ إِلَهًا وَاحِدًا لاَّ إِلَهَ إِلاَّ هُوَ سُبْحَانَهُ عَمَّا يُشْرِكُونَ﴾

**“(Kitab əhli) öz alimlərini, rahiblərini, Məryəm oğlu Məsihi Allah əvəzinə mə`bud götürdülər. Halbuki Allahdan qeyri bir mə`buda pərəstiş etməmək göstərişi almışdılar. Allah Ona şərik qoşulan hər bir şeydən pakdır.”**

## *Nöqtələr*

◘“Hibr” sözünün cəm forması olan “əbvar” sözü alim, “rahib” sözünün cəm forması “röhban” sözü tərki-dünya mə`nasını bildirir. Bu şəxslər bütün müqəddəsliklərinə baxmayaraq, mə`bud yox, bəndədirlər.

◘Rahiblərə qeyd-şərtsiz itaət bir növ onlara pərəstişdir. İmam Sadiq (ə) buyurmuşdur: “Hər kəs günah yolunda bir başqasına tabe olsa, ona pərəstiş etmişdir.”[1]

◘İmam Sadiq (ə) buyurmuşdur: “Kitab əhli namaz və orucu alimlərinə xatir yerinə yetirmirdi. Sadəcə, onların alimləri haramları halal, halalları haram etmişdilər və xalq onlara itaət edirdi.[2]

◘Müşriklər Allaha şərik qoşduqları üçün qiyamət günü peşman olacaqlar.[3]

## *Bildirişlər*

1. Allahdan qeyrisinə qeyd-şərtsiz itaət bir növ həmin ünvana ibadətdir.
2. İstənilən bir formada insana pərəstiş etmək şirkdir. Heç bir şəxsiyyət büt olmamalıdır.
3. Düşüncə və məqsədi yalnız Allah olan mə`sum peyğəmbər alimlərdən fərqlənir. Ona görə də həzrət Məsihin adı ayrıca qeyd olunur.
4. Sevgilərin, dostluqların, itaətlərin həddi olmalıdır. Vəhyə əsaslanmayan istənilən bir quruluş, qütb, məqsəd, mürşid və ya təşkilata itaət şirkdir.
5. Tövhiddən şirkə büdrəmə təhlükəsi həmişə olmuşdur.
6. Qanun vermək yalnız Allahın haqqıdır. Qeyri-ilahi qanun qəbul edənlər İslam çərçivəsindən xaricdirlər.
7. Peyğəmbərlərə münasibətdə ifrata varmaq, onlara pərəstiş etmək və ya onları Allahın övladı adlandırmaq şirkdir.

**Ayə 32:**

﴿يُرِيدُونَ أَن يُطْفِؤُواْ نُورَ اللّهِ بِأَفْوَاهِهِمْ وَيَأْبَى اللّهُ إِلاَّ أَن يُتِمَّ نُورَهُ وَلَوْ كَرِهَ الْكَافِرُونَ﴾

[1] “Təfsire-Nurus-səqəleyn”.
[2] “Bihar”, c. 2, s. 98.
[3] “Şuəra”, 98.

**“Onlar Allahın nurunu ağızları ilə keçirmək istəyirlər. Amma Allah, kafirlər narahat olsalar da belə, Öz nurunu kamala çatdırmaq əzmindədir.”**

### *Nöqtələr*

Həzrət Peyğəmbər (s) buyurmuşdur: “Allah-təala yer əhlinə nəzər salıb məni seçdi. İkinci dəfə nəzər salıb Əli ibn Əbi-Talibi ayırdı. Məndən sonra yer üzünün nuru odur.” Sonra həzrət (s) bu ayəni tilavət etdi.[1]

### *Bildirişlər*

1. Düşmənlərin fitnəkarlığı daimidir.
2. İslam hökmləri və Allahın dini bir nur, nur isə öz növbəsində həyat qaynağıdır.
3. Kafir dəstələri fərqli sə`ylər göstərsələr də, onların son məqsədi din nurunu söndürməkdir.
4. Kafirlərin dinlə mübarizəsi günəşi üfürmək kimidir.
5. Din düşmənlərinin əsas fəaliyyəti təbliğat üzərində qurulmuşdur.
6. Əgər peyğəmbərin dilindən İslam nidası nurdursa, onun imamət şəklində davamı nurun tamamlanmasıdır.
7. Allah haqq tərəfdarlarına qələbə və`d etmişdir.
8. Allah din nurunu nəinki hifz edir, hətta genişləndirir.
9. Kafirlər bilsinlər ki, onlar dinə qarşı çıxmaqla Allahın qəti iradəsinə qarşı çıxmışlar. İslam məktəbinə qarşı istənilən bir sə`y məğlubiyyətə məhkumdur.
10. İslam əbədi məktəbdir, onun müxalifləri kafirdirlər.
11. Allah kafirlərə xoş gəlməsə də, Öz peyğəmbərini razı salmaq istəyindədir. (Allah İslam Peyğəmbərinin (s) razılığına xatir qibləni dəyişdi.)

**Ayə 33:**

﴿هُوَ الَّذِي أَرْسَلَ رَسُولَهُ بِالْهُدَى وَدِينِ الْحَقِّ لِيُظْهِرَهُ عَلَى الدِّينِ كُلِّهِ وَلَوْ كَرِهَ الْمُشْرِكُونَ﴾

**“(Allah) O kəsdir ki, Öz peyğəmbərini müşriklərin narahatçılığına baxmayaraq bütün dinlərə qalib gəlmək üçün hidayət və haqq dinlə göndərdi.”**

---

[1] “Bihar”, c. 23, s. 320.

## *Nöqtələr*

◘Bu ayə "Fəth" (ayə 28) və "Səff" (ayə 9) surələrində də zikr olunmuşdur.

◘İslam məntiq baxımından həmişə qalib olsa da, bu ayə İslamın bütün dünyaya real hakimiyyətini və`d edir. Çünki digər ayələrdə də "Zəhərə" sözü istila mə`nasında işlədilmişdir.[1]

◘Bu və`d hələlik həyata keçməsə də, Allahın və`di qətidir və bir çox rəvayətlərdə bildirildiyi kimi, həzrət Mehdinin (ə) zühuru ilə həyata keçəsidir.

◘Həzrət Mehdinin (ə) qiyamı bir çox şiə və sünni mənbələrində nəql olunmuş həqiqətdir. Bu həqiqət müsəlmanların prinsipial e`tiqadlarındandır. Amma bə`ziləri, o cümlədən vəhhabilər bu əqidənin şiələr tərəfindən uydurulduğunu iddia edirlər.[2]

◘İmam Baqir (ə) buyurmuşdur: "Bir dövr gələcək ki, həzrət Məhəmmədin (s) risalətini e`tiraf edənlərdən savay kimsə qalmayacaq."[3]

Bütün yer üzünü bürüyəcək dini hakimiyyətlə bağlı hədislər çoxdur. Həzrət Əli (ə) buyurur ki, əsrin imamının (ə) zühuru zamanı İslamın daxil olmadığı bir ev, bir şəhər qalmayacaq. Bütün məntəqələrdə sübh və axşam azan sədası ucalacaq."[4]

## *Bildirişlər*

1. İslam dini haqq üzərində qurulmuşdur. (Digər səmavi dinlər təhrif səbəbindən bu səciyyəni itirmişdir.)
2. Haqq batilə qalibdir.
3. Öz istək və hərəkətlərimizi Allahın iradəsi ilə uyğunlaşdıraq. Əks-təqdirdə məhv olasıyıq.

**Ayə 34:**

﴿يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ إِنَّ كَثِيرًا مِّنَ الأَحْبَارِ وَالرُّهْبَانِ لَيَأْكُلُونَ أَمْوَالَ النَّاسِ بِالْبَاطِلِ وَيَصُدُّونَ عَن سَبِيلِ اللّهِ وَالَّذِينَ يَكْنِزُونَ الذَّهَبَ وَالْفِضَّةَ وَلاَ يُنفِقُونَهَا فِي سَبِيلِ اللّهِ فَبَشِّرْهُم بِعَذَابٍ أَلِيمٍ﴾

**"Ey iman gətirənlər! Bir çox alimlər və rahiblər (öz məqamlarından istifadə edərək) xalqın malını nahaqdan yeyir, onları Allah yolundan uzaqlaşdırırlar. Qızıl-gümüş yığıb, onu Allah yolunda infaq etməyənləri dərdli əzabla müjdələ!"**

---

1 "Kəhf", 20; "Tövbə", 8.
2 "Muntəxəbul-əsər".
3 "Təfsire-Nurus-səqəleyn".
4 "Təfsire-Safi".

## *Nöqtələr*

◘Otuz birinci ayədə "Əhbar" və "röhban" sözlərinin mə`nası açıqlandı.

◘"Zəhəbə" "getdi" mə`nasını bildirir. Qızıl tez əldən çıxdığından və ya xalq ona tərəf getdiyindən "zəhəb" adlandırılmışdır. "Fizzə" "paylanma", "dağılma" mə`nalarını bildirir. Gümüş tez bir zamanda dağıldığından və ya xalq ona cəzb olunmadığından "fizzə" adlandırılır.

◘Yəhudi alimləri öz maddi mənafe`lərinə xatir haqqı gizlədir, İslam dininin haqq olmasını e`tiraf etmir, rüşvət alıb günah bağışlayır, əqidələrdə təftiş aparıb böhtan atırdılar.

◘Üçüncü xəlifə ayədə "vəlləzinə" sözünü "əlləzinə" şəklinə salmaq istəmişdir. Bu sözün önündən "vav" hərfi götürüldükdə ayədəki sifətlər yalnız qızıl toplayan əhbar və rahiblərə aid olur. Amma bir qrup müsəlman xəlifənin bu işinə ciddi şəkildə e`tiraz bildirdi.[1]

## *Rəvayətlərdə zəkat məsələsi*

◘İmam Sadiqdən (ə) soruşdular: "Hansı miqdar mala zəkat vacibdir?" Həzrət buyurdu: "Zahiri zəkat, yoxsa batini zəkat?" Dedilər: "Hər ikisi." Həzrət əvvəlcə zahiri zəkat üçün ölçü hədlərindən danışdı, sonra isə batini zəkat məsələsinə keçərək buyurdu: "Din qardaşının səndən daha çox ehtiyac duyduğu şeyi ona verəsən."[2]

◘Digər bir rəvayətdə imam buyurur: "Allah sizə artıq mal əta edib ki, xəzinəyə yığmayıb, Onun razılığı yolunda xərcləyəsiniz."[3]

◘Rəvayətlərə əsasən, imam Mehdi (ə) zühur etdiyi vaxt xəzinə saxlamağı haram buyurub, bütün xəzinələri öz mübarizəsi yolunda sərf edər.

◘Həzrət Peyğəmbər (s) buyurmuşdur: "Allah varlı müsəlmanların malından fəqirlərin ehtiyacını ödəyəcək qədər zəkat vacib etmişdir. Agah ol! Həqiqətən, əgər vəzifələrinə əməl etməsələr, Allah onlarla ciddi hesab çəkəcək."[4]

◘Həzrət Peyğəmbər (s) başqa bir məqamda buyurur: "Zəkatı ödənməyən hər bir mal aşkarda saxlansa da, qızıl-gümüş olmasa da, "kənz" (haram xəzinə) hökmündədir."[5]

## *Əbuzər və "Kənz" ayəsi*

◘Həzrət Peyğəmbərin (s) böyük səhabəsi Əbuzər Qəffari Müaviyə, Osman və onların nümayəndələrinin qızıl-gümüş toplamasına e`tiraz edərək hər vaxt haqqında danışılan ayəni uca səslə oxuyardı. O bu ayəni Müaviyə və Osmanın nəzərinə çatdırıb deyirdi: "Bu ayə təkcə zəkata maneçilik haqqında yox, istənilən növ qızıl-gümüş toplamaq haqqındadır."

---

[1] "Təfsire-Fürqan".
[2] "Təfsire-Safi".
[3] "Təfsire-Safi".
[4] "Təfsire-Safi".
[5] "Təfsire-kənzud-dəqaiq".

Qiymətli "Əl-mizan" təfsirində bildirilir ki, Əbuzərin Osman, Müaviyə və Kə`bül-Əhbarla rəftarından anlaşılır ki, yoxsul cəmiyyətdə hətta halal yolla, zəkatını ödəməklə sərvət toplamaq haramdır.

Bə`ziləri belə düşünürlər ki, Əbuzər bu hökmü özündən vermişdir. Əbuzər isə bu barədə belə deyir: "Dediklərimi Peyğəmbərdən (s) eşitmişəm." Bunu da qeyd etməliyik ki, Əbuzərin sadiqliyi həzrət Peyğəmbər (s) tərəfindən qeyd olunmuşdur.

Əbuzərin öz dövrünün hakimlərinə əmr və nəhy etməsi, büdcə məsələləri barədə Osmanla çəkişmələri onun həyatının parlaq səhifələrindəndir.

Amma Osman Əbuzərin bu hərəkətlərinə dözməyib sevimli Peyğəmbər (s) səhabəsini Şama sürgün etdi. Müaviyə Şamda Əbuzərin çıxışlarına dözməyib onun ağır vəziyyətdə Mədinəyə qaytarılmasına nail oldu. İnqilabçı səhabə növbəti dəfə susuz Rəbəzə çölünə sürgün olundu və həmin yerdə məzlumcasına dünyasını dəyişdi. Bu həqiqətlər Osman hökumətinin həqiqi simasını göstərir.

Osmanın müdafiəçiləri ona bəraət qazandırmaq üçün Əbuzərə qarşı bir sıra əsassız ittihamlar irəli sürmüşlər. Belə ki, onlar Əbuzəri sosialist düşüncə tərzinə görə qınamış, xüsusi mülkiyyətə düşmən saymışlar. Amma böyük alim əllamə Əmini öz "Əl-qədir" kitabında bu barədə ətraflı danışaraq həmin ittihamları rədd edir.[1]

Əbuzərin hökumətlə qarşıdurmalara görə ardıcıl şəkildə sürgün edilməsi, onun Osmana, Müaviyəyə, Kə`bul-Əhbara tuşlanmış tənqidləri şiə və sünnilərin tarix kitablarında öz əksini tapmışdır.[2] Bə`ziləri cəhd göstərirlər ki, Əbuzərlə Osman arasındakı münaqişələri söz və əqidə azadlığı kimi qələmə versinlər. Onlar Əbuzərin sürgün olunmasına haqq qazandırmaq üçün "şərin dəfi mənfəət qazanmaqdan üstündür" prinsipini önə çəkirlər. Onlar Əbuzərin Mədinə və Şamdakı çıxışlarını şər kimi təqdim edir və onun sürgününü məqsədəuyğun sayırlar.[3] Amma Peyğəmbərin (s) yalnız öz vəzifəsinə əməl etmək fikrində olan sədaqətli və təqvalı səhabəsi ilə bu sayaq rəftara heç bir don geyindirmək mümkün deyil.

## *Bildirişlər*

1. Kitab əhli alimlərini istisnasız olaraq pis saymaq olmaz.[4]
2. Vəzifədən sui-istifadə haramdır. Din alimləri üçün ən böyük təhlükə maddiyyatla bağlıdır. (İxtiyarında dini büdcə olan və onu lazımi istiqamətlərdə xərcləməyən kəs bu ayənin hədəfidir.)
3. Din alimlərinin xalqın sərvətindən faydalanıb onlara xeyir verməməsi dinə qarşı rəğbətsizlik yaradır.
4. Yəhudi və məsihi alimləri dünya malı tamahı ilə xalqı haqq yoldan azdırırlar.

---

[1] "Əl-ğədir", c. 8, s. 335.
[2] "Təfsire-nümunə".
[3] "Təfsire-əl-minar".
[4] "Maidə", 82.

5. İslam var-dövlətə məhdudiyyət qoymur. Amma var-dövlətin əldə olunması yolunda şərtlər vardır. Qızıl toplamaq və sərvəti pis yolda xərcləmək haramdır. (Şübhəsiz ki, qızıl toplamaq haramdırsa, möhtəkirlik də haramdır.)

6. Var-dövlət yığmaq ictimai bir bəladır. Xəsislik bundan da pis, möhtəkirlik və var-dövləti pisləmək daha pisdir. Bütün bu hallar cəmiyyət üçün xeyli problem yaradır.

7. Alimlərin dünyapərəstliyi və varlıların xəzinə toplaması ilahi qəzəbə səbəb olur.

8. Qızıl-gümüş, pul toplamaq, infaq etməmək və möhtəkirlik kəbirə (böyük) günahdır. Bu işlərə görə əzab və`d edilmişdir.

**Ayə 35:**

﴿يَوْمَ يُحْمَى عَلَيْهَا فِي نَارِ جَهَنَّمَ فَتُكْوَى بِهَا جِبَاهُهُمْ وَجُنوبُهُمْ وَظُهُورُهُمْ هَذَا مَا كَنَزْتُمْ لأَنفُسِكُمْ فَذُوقُواْ مَا كُنتُمْ تَكْنِزُونَ﴾

**"Həmin qızıl-gümüşlər cəhənnəm odunda qızdırılar və onların alınlarına, kürəklərinə və bellərinə dağ basılar. (Əzab mələkləri onlara deyərlər:) Budur özünüz üçün yığdıqlarınız, yığdıqlarınızın ləzzətini dadın!"**

## *Nöqtələr*

◘"Tukva" deyərkən qızdırılmış şeyin bədən üzvünə yapışdırılması başa düşülür.

◘Ayədə insan vücudunun üç hissəsinin qeyd olunması həmin hissələrin istiyə daha həssas olması ilə izah edilə bilər.[1] Başqa bir səbəb varlıların fəqirlərə qaşqabaqlı üzlə baxması, onlara arxa çevirməsi ola bilər. Mümkündür ki, üz dedikdə bədənin qabaq, bel dedikdə arxa hissəsi nəzərdə tutulsun. Kürək dedikdə bədənin iki tərəfinə işarə oluna bilər. Bu üç hissənin dağlanması bütün bədənin dağlanmasını göstərir.

◘İmam Sadiq (ə) bu ayəyə istinad edərək zəkatın tərk edilməsini böyük günah saymışdır.[2]

◘Bir rəvayətdə Əbuzər deyir: "Həzrət Peyğəmbər (s) Kə`bə kənarında iki dəfə təkrarladı: "And olsun Kə`bənin Allahına! Onlar ən böyük ziyankarlardır." Soruşdum ki, atam-anam sənə fəda olsun, kimi nəzərdə tutursan? Həzrət buyurdu: "Qızıl yığanları."[3]

## *Bildirişlər*

1. İnsanı ilkin şəklinə qaytaran Allah cansız cisimləri, qızıl-gümüşü də ilkin surətinə gətirə bilər.

---

[1] "Təfsire-nümunə".
[2] "Təfsire-kənzüd-dəqaiq".
[3] "Təfsire-Məcməül-bəyan".

2. İnsanın qiyamətdəki mükafat və cəzası onun dünyadakı əməllərinə uyğundur.

3. Qiyamət səhnəsində işgəncə vasitələrindən biri dünyadakı mallardır.

4. Allah qiyamət günü var-dövlətin şirinliyini qızıl toplayanların burnundan tökər.

**Ayə 36:**

﴿إِنَّ عِدَّةَ الشُّهُورِ عِندَ اللّهِ اثْنَا عَشَرَ شَهْرًا فِي كِتَابِ اللّهِ يَوْمَ خَلَقَ السَّمَاوَات وَالأَرْضَ مِنْهَا أَرْبَعَةٌ حُرُمٌ ذَلِكَ الدِّينُ الْقَيِّمُ فَلاَ تَظْلِمُواْ فِيهِنَّ أَنفُسَكُمْ وَقَاتِلُواْ الْمُشْرِكِينَ كَآفَّةً كَمَا يُقَاتِلُونَكُمْ كَآفَّةً وَاعْلَمُواْ أَنَّ اللّهَ مَعَ الْمُتَّقِينَ﴾

**"Həqiqətən, Allah yanında, Allah kitabında ayların sayı göyləri və yeri yaratdığı gündən on iki aydır. Onlardan dördü (döyüş üçün) haramdır. Bu ayin sabit və möhkəmdir. Bu aylarda savaş, qan tökməklə özünüzə sitəm qılmayın. Müşriklər birlikdə sizinlə döyüşdüyü kimi siz də hamılıqla müşriklərlə döyüşün. Bilin ki, Allah Ondan çəkinənlərlədir."**

## *Nöqtələr*

◘Hər il on iki aydan ibarətdir. "Şəhr" (ay) sözü də Qur`anda on iki dəfə işlədilmişdir.[1]

◘Qur`anda dəfələrlə təkrarlanmış on iki ədədi mübarək bir ədəddir. Bəni-İsrail rəhbərlərinin, Musanın mö`cüzəsi ilə çıxan bulaqların, əhli-beytin mə`sum imamlarının sayı on iki olmuşdur.

◘Zil-qədə, zil-hiccə, məhərrəm və rəcəb aylarında döyüş haramdır. İlk üç ay ardıcıl gəlir.[2]

◘Ayın yer ətrafında və digər planetlərin Allah iradəsi ilə hərəkət nizamı ilkin yaranışdan mövcuddur.

Yalnız düşmən hücum etmədikdə haram aylarda döyüşdən çəkinmək zəruridir. Düşmən hücum etdikdə isə müdafiə zəruridir.[3] Hörməti gözlənilləsi bütün işlərdə qisas var. Qarşı tərəf mövcud qanundan sui-istifadə etdikdə siz də onun kimi rəftar edə bilərsiniz.

---

[1] "Qur`anın ədəd mö`cüzələri".
[2] "Kafi", c. 4, s. 240.
[3] "Bəqərə", 194.

◘Bu qanunların sabitliyinin qeyd olunması onların bütün səmavi dinlərdə mövcudluğuna işarə ola bilər.[1]

◘İmam Baqirdən (ə) nəql olunmuş rəvayətlərdə bu ayə İslam peyğəmbərindən sonra on iki imamın gəlişinə işarə kimi qeyd olunmuşdur.[2]

## *Bildirişlər*

1. Ən üstün təqvim sabit, təbii və həmahəng təqvimdir. Qəməri təqvimdə bu üç xüsusiyyət vardır.
2. Təqvimdəki on iki ay tədricən formalaşmamışdır, ilkin yaranışdan mövcuddur.
3. Döyüşçülər və onların ailələrinin qayğıya, təhsilə, istirahətə və dolanışığa ehtiyacları var. Bu səbəbdən də savaş ilin üçdə birində döyüş məcburi şəkildə dayandırılır. Hətta döyüş zamanı da xəbərsiz qalanlar, qadınlar, qocalar və uşaqlar nəzərdən qaçırılmamalı, qəfil hücuma yol verilməməlidir.
4. İlin bütün ayları eyni deyil. Vaxtın da müqəddəsi olur.
5. İslamın həm əmin-aman məkanı (Məkkə), həm də əmin-aman zamanı (haram aylar) var. Dörd haram aydan üçünün mehvəri həcc ayıdır.
6. Haram aylara biganəliyin zərəri insanlara aiddir.
7. İslam savaş məqsədində deyil. Əksinə, bu ilahi din düşüncə, dəlil, hikmət, moizə və əmin-aman həyat prinsiplərinə əsaslanır. Amma düşmənlər təcavüz etdikdə müsəlmanların müdafiə haqqı var. Hətta haram aylarda da müdafiə zəruridir.
8. Düşmənə icazə verməyin ki, sizin dini müqəddəsliklərinizdən və fiqh hökmlərinizdən sui-istifadə etsin. Düşmən haram aylarda hücuma keçdikdə özünüzü müqəddəs göstərib bir yerdə dayanmayın, müdafiə olunun!
9. Düşmənə onun hücum üslubunda cavab verin.
10. Qələbə təqva sayəsində əldə olunur.

**Ayə 37:**

**﴿إِنَّمَا النَّسِيءُ زِيَادَةٌ فِي الْكُفْرِ يُضَلُّ بِهِ الَّذِينَ كَفَرُواْ يُحِلِّونَهُ عَامًا وَيُحَرِّمُونَهُ عَامًا لِّيُوَاطِؤُواْ عِدَّةَ مَا حَرَّمَ اللّهُ فَيُحِلُّواْ مَا حَرَّمَ اللّهُ زُيِّنَ لَهُمْ سُوءُ أَعْمَالِهِمْ وَاللّهُ لاَ يَهْدِي الْقَوْمَ الْكَافِرِينَ﴾**

**“Həqiqətən, tə`xir (haram ayların qeyri aylarla dəyişməsi) küfrün güclənməsinə səbəb olur. Bu yolla kafirlər azırlar. (Onlar) bir ili halal, digərini haram sayırlar ki, Allahın haram buyurduğu ayların sayı ilə uyğun gəlsin. Bu səbəbdən də Allahın haram buyurduğunu halal edirlər. Pis işləri onların nəzərlərində gözəl cilvələnmişdir. Allah kafirləri hidayət etməz.”**

---

[1] “Rəvayətlərə əsasən”.
[2] “Təfsire-kənzüd-dəqaiq”.

## *Nöqtələr*

◘“Nəsi” və “Nisyə” sözləri eyni kökdəndir. Malı alıb, onun pulunu sonradan ödəmək nisyə adlanır. Döyüşün haram sayıldığı günlərin yerini dəyişmək “nəsi” adlandırılmışdır.

◘Kafirlər bə`zən ziyalılıq göstərib ilahi qanuna əl atır, döyüşün qızğın yerində haram ayların çatdığını görüb onu başqa vaxta keçirmək istəyirdilər.[1]

## *Bildirişlər*

1. Müqəddəsliklərə ehtiramla yanaşaq. İlahi qanunlara müdaxilə, onlarla əylənmək küfrdür. Söhbət yalnız dörd aydan yox, bütün ilahi göstərişlərdən gedir.
2. Küfrün dərəcələri və mərhələləri var.
3. Kafirlərin azğınlıq səbəblərindən biri haram ayların yerlərinin dəyişilməsi idi.
4. Xalqın çaşqınlıq səbəblərindən biri ilahi hökm və qanunların yanlış təfsir və təhlilidir.
5. Cahil ərəblər haram ayların yerini dəyişsələr də, onun davam müddətinə e`tiqadlı idilər.
6. Yalnız öz əməlini pis bilən şəxs hidayət ola bilər. Çirkin işlərini gözəl görən insanın doğru yola gəlməsi mümkünsüzdür.

**Ayə 38:**

﴿يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ مَا لَكُمْ إِذَا قِيلَ لَكُمُ انفِرُواْ فِي سَبِيلِ اللّهِ اثَّاقَلْتُمْ إِلَى الأَرْضِ
أَرَضِيتُم بِالْحَيَاةِ الدُّنْيَا مِنَ الآخِرَةِ فَمَا مَتَاعُ الْحَيَاةِ الدُّنْيَا فِي الآخِرَةِ إِلاَّ قَلِيلٌ﴾

**“Ey iman gətirən kəslər! Nə üçün sizə Allah yolunda hərəkət etmək tapşırılanda ağırlaşıb yerə oturursunuz? Yoxsa axirət yerinə dünya həyatına razı olmusunuz? Bilin ki, axirətlə müqayisədə dünya həyatının bəhrəsi cüz`idir.”**

## *Nöqtələr*

◘Bu ayədə Təbuk döyüşündə işarə olunmuşdur. Bə`ziləri bu döyüşdə süstlük göstərmişdi. Onlar Mədinə ilə Təbuk arasındakı məsafənin uzunluğunu (təqribən altı yüz km), havanın istiliyini, məhsul yığımı dövrü olduğunu, Rum qoşununun qüdrətli olmasını bəhanə gətirirdilər.

## *Bildirişlər*

1. Bə`zən mö`minlərin də tənqidə və nəsihətə ehtiyacı olur.
2. Müsəlmanlar üçün döyüş hazırlığı zəruridir. Komandanın kim olması isə mühüm deyil.

---

[1] “Təfsire-Nurus-səqələyn”.

3. Dünya və maddiyyata bağlılıq insanın torpaqdan ayrılıb ərşə yüksəlməsinə mane olur.

4. İnsan o zaman dəyərli olur ki, dünyanı əhəmiyyətsiz saysın.

5. Axirəti dünyadan üstün tutan insan döyüş meydanına həvəslə qədəm qoyur.

**Ayə 39:**

﴿إِلاَّ تَنفِرُواْ يُعَذِّبْكُمْ عَذَابًا أَلِيمًا وَيَسْتَبْدِلْ قَوْمًا غَيْرَكُمْ وَلاَ تَضُرُّوهُ شَيْئًا وَاللّهُ عَلَى
كُلِّ شَيْءٍ قَدِيرٌ﴾

**“Əgər (döyüş meydanına) tələsməsəniz, Allah sizi ağrılı əzaba düçar edər və sizi başqa bir qövmlə əvəz edər. Siz (cəbhəni tərk etməklə) Allaha zərər vurmursunuz. Allah hər şeyə qadirdir.”**

## *Nöqtələr*

◘Bu və bundan öncəki ayələrdə səkkiz yolla cihad məsələsi üzərində dayanıldı: Əgər iman əhlisinizsə nə üçün süstsünüz; məzəmmətlə müşayiət olunan sual; cihad Allah yoludur; hərəkət göstərişi; əzabla hədələmə; yerdəyişmə ilə hədələmə; siz tərəfdən cəbhənin tərk olunmasının tə`sirsizliyi ilə hədələmə; ilahi qüdrətlə hədələmə.

## *Bildirişlər*

1. Cəbhəni tərk etməyin cəzası həm dünya əzabı, həm də axirət cəzasıdır.

2. Allah üçün bizi başqaları ilə əvəz etmək asandır. O istədiyi vaxt bu işi görə bilər.

3. Süstlüyümüzdən Allah yox, özümüz əziyyət çəkəsiyik.

4. Zəif qövmün yerinə başqa bir qövm gətirmək ilahi bir sünnədir.

5. Bir qövmün başqası ilə əvəz olunması ilahi qüdrət sayəsində baş tutur.

6. Sonsuz qüdrəti olan kəs heç vaxt zərər görməz.

**Ayə 40:**

﴿إِلاَّ تَنصُرُوهُ فَقَدْ نَصَرَهُ اللّهُ إِذْ أَخْرَجَهُ الَّذِينَ كَفَرُواْ ثَانِيَ اثْنَيْنِ إِذْ هُمَا فِي الْغَارِ إِذْ
يَقُولُ لِصَاحِبِهِ لاَ تَحْزَنْ إِنَّ اللّهَ مَعَنَا فَأَنزَلَ اللّهُ سَكِينَتَهُ عَلَيْهِ وَأَيَّدَهُ بِجُنُودٍ لَّمْ تَرَوْهَا
وَجَعَلَ كَلِمَةَ الَّذِينَ كَفَرُواْ السُّفْلَى وَكَلِمَةُ اللّهِ هِيَ الْعُلْيَا وَاللّهُ عَزِيزٌ حَكِيمٌ﴾

**“Əgər peyğəmbərə yardım göstərməsəniz, həqiqətən, Allah ona−kafirlər onu Məkkədən çıxardığı vaxtda olduğu kimi kömək göstərər. Halbuki o, iki nəfərdən biri idi, o zaman ki, o iki nəfər mağarada idilər. (Peyğəmbər) öz yoldaşına (Əbu-Bəkrə) deyirdi: “Qəm yemə, Allah bizimlədir.” Allah ona aramlıq nazil etdi, görmədiyiniz döyüşçülərlə ona yardım göstərdi, kafirlərin planlarını alt-üst etdi. Allahın sözü üstündür, Allah qüvvət və hikmət sahibidir.”**

## *Nöqtələr*

◘Ayədə Peyğəmbərin (s) qətlə yetirilməsi ilə bağlı müşriklərin qurğularına işarə olunur. Müşriklər qərara gəlmişdilər ki, hər qəbilədən bir nəfər seçilsin və hazırlanmış dəstə gecə ikən Peyğəmbərin (s) evinə daxil olub onu öldürsün. Həzrət Peyğəmbər (s) Əli ibn Əbu-Talibi öz yerində yatırdıb, gecə Əbi- Bəkrlə birlikdə Sur mağarasına üz tutdu. Peyğəmbəri (s) yatağında tapmayan kafirlər onu tə`qib etməyə başladılar. Amma Sur mağarasının ağzında qurulmuş hörümçək toru onları çaşdırdı və elə düşündülər ki, Peyğəmbər (s) mağarada deyil. Həmin vaxt Əbi-Bəkrin qulamı (Amir ibn Fəhrə) onlar üçün qida gətirir, Əli (ə) isə Mədinə səfərinə hazırlıq görürdü. Üç gün sonra Əlinin (ə) hazırladığı üç dəvə ilə Peyğəmbər (s), Əbu-Bəkr və bələdçi Mədinəyə yola düşdü.[1]

◘***Sual***: Bu səfərdə Peyğəmbərin (s) Əbi-Bəkrin müdafiəsinə ehtiyacı vardımı?

***Cavab***: Müşriklərin səfərbər qüvvəsi qarşısında qoca bir kişi nə edə bilərdi?!

◘***Sual***: Ayədə "li sahibihi" tə`biri ilə yad olunması Əbu-Bəkrə Peyğəmbərdən (s) sonra canişinlik ləyaqəti vermirmi?

***Cavab***: "Sahib" tə`biri ləyaqət göstəricisi deyil. Düşüncə, əqidə baxımından fərqli insanlar da müsahib ola bilər. Bu fərqi "Kəhf" surəsinin 37-ci ayəsi də təsdiqləyir.

◘***Sual***: Çoxsaylı səhabələr arasından yalnız Əbu-Bəkrin Peyğəmbərlə (s) yola düşməsi onun ləyaqətindən danışmırmı?

***Cavab***: Həmin gecə Həzrət Əli (ə) canından keçərək Peyğəmbərin (s) yatağında uzanmışdı. Əbu-Bəkr isə vəzifə olaraq Peyğəmbəri (s) müşayiət edirdi.

◘***Sual***: Əbu-Bəkr öz canından, yoxsa Peyğəmbərin (s) canından qorxurdu?

***Cavab***: Əgər Əbu-Bəkr Peyğəmbərə (s) görə narahat idisə, belə bir narahatlıq hər bir müsəlmanın vəzifəsidir.

◘***Sual***: Fəzilətə malik "Kisa əshabı" beş, mağara əshabı isə iki nəfər idi. Məgər ikinci hal daha xüsusi və mühüm deyilmi?

***Cavab***: Peyğəmbər (s) öz əhli-beyti olan Kisa əshabı üçün dua edirdi və hər bir namazın təşəhhüdündə bu əshaba salavat göndərmək müsəlmanlara vacibdir. Bütün hallarda bu iki əshabın məqamı fərqlidir.

◘***Sual***: Bu ayədə Allahın Peyğəmbər (s) və Əbu-Bəkrlə olduğu bildirilir. Digər ayələrdə isə Allahın müttəqilərlə olduğu bəyan olunur. Bu o demək deyilmi ki, Əbu-Bəkr də müttəqilərdən idi?

***Cavab***: Nə qədər ki, insan ehsan və təqva dairəsindədir, Allah onunladır. Elə ki, bu dairədən çıxdı, Allahın lütfündən məhrum olur. Hərəkətlərin və mövqelərin Qədire-Xum və bey`ət hadisəsinə münasibətdə necə dəyişdiyinə diqqət lazımdır.

◘***Sual***: Ayədə buyurulur ki, Allah ona (Əbu-Bəkrə) aramlıq bəxş etdi. Məgər bu imtiyaz deyilmi?

***Cavab***: Bu ayədə işlənmiş beş əvəzliyin hər biri Peyğəmbərə (s) aiddir. Necə ola bilər ki, "Ələyhi" əvəzliyi Əbu-Bəkrə aid olsun?!

[1] "Təfsire-Əl-mizan"; "Təfsire-Dürrül-Mənsur".

## *Bildirişlər*

1. İslam bizim himayəmizə ehtiyaclı deyil. İslamın hamisi Allahdır. Belədirsə, öz qələbəmizlə qürrələnməyək.

2. Allah-təala müsəlmanların qələbəsini Təbukda təzmin etdi.

3. Müsəlmanların qələbələri ilahi qüdrət nümunələrindəndir.

4. Peyğəmbər mövcud vəziyyət və kafirlərin təzyiqlərinə xatir Məkkədən çıxdı.

5. Əgər Allah istəsə, yaranmışların əşrəfini (Peyğəmbəri (s)) ən zəif hörgü ilə (hörümçək toru ilə) hifz edər.

6. Aramlıq və arxayınlıq ilahi hədiyyədir və maddi vasitələrlə əldə olunmaz.

7. Mələklər Allahın əmri ilə mö`minlərə yardım göstərir.

8. Hicrət İslamın izzət və küfrün süqut səbəbidir.

9. Allahın iradəsi bütün istək və iradələrdən üstündür.

10. Zalımların qüdrəti qəlb aramlığına malik mö`minlərin qarşısında acizdir.[1]

11. Allah kəlməsinin qüvvəsi və kafirlərin qurğularının puça çıxması ilahi qüvvət və hikmət cilvəsidir.

**Ayə 41:**

﴿انْفِرُواْ خِفَافًا وَثِقَالاً وَجَاهِدُواْ بِأَمْوَالِكُمْ وَأَنفُسِكُمْ فِي سَبِيلِ اللّهِ ذَلِكُمْ خَيْرٌ لَّكُمْ إِن كُنتُمْ تَعْلَمُونَ﴾

**“Yüngül və ağır yüklə (cəbhə və cihada doğru) köç edin. Allah yolunda malınız və canınızla cihada qalxın. Əgər bilsəydiniz,bu sizin üçün daha yaxşıdır.”**

## *Nöqtələr*

◘“Xifaf” və “siqal” dedikdə, subay və ailəli, fəqir və varlı, piyada və süvari, kiçik ailəli və böyük ailəli, asudə və giriftar, ticarət və əkinçilik kimi əks mə`nalar anlaşılır.

İmam Sadiq (ə) buyurmuşdur: “Xifaf” və “siqal” deyərkən qoca və cavan nəzərdə tutulur.”[2]

◘“Fi zilalil-Qur`an” təfsirində deyilir: “Əbu-Əyyub Ənsari, Miqdad və Əbu-Təlhə kimi şəxslər qoca yaşlarında cəbhəyə gəlmişdilər. Yaşlı olduqları onların nəzərinə çatdırıldıqda bu ayəni tilavət etməklə cavab verərdilər.

## *Bildirişlər*

1. Ümumi səfərbərlik zamanı bəhanə axtarmayın. (Dolanışıq çətinlikləri cihada getməmək üçün səbəb deyil.)

2. Bə`zən hərbi təchizat zəif olsa da, bütün xalqın səfərbər edilməsi lazım gəlir.

3. Əqidə məktəbi maldan və candan dəyərlidir. Hər şey məktəbə fəda olmalıdır.

4. Fəqirlərə təkcə canla, varlılara həm mal, həm də canla cihad etmək vacibdir.

---

[1] “Ənfal”, 30.

[2] “Bihar”, c. 97, s. 48.

5. Dəyər ölçüsü ixlasdır.

6. İlahi hökmlər, eləcə də cihad göstərişi insanın gerçək ehtiyaclarının tə`mini üçündür.

7. Xalq öz həqiqi ehtiyacından xəbərsizdir.

8. Gerçək dəyərləri elm və mə`rifət sayəsində əldə etmək olar.

**Ayə 42:**

﴿لَوْ كَانَ عَرَضًا قَرِيبًا وَسَفَرًا قَاصِدًا لاَّتَّبَعُوكَ وَلَكِن بَعُدَتْ عَلَيْهِمُ الشُّقَّةُ وَسَيَحْلِفُونَ بِاللّهِ لَوِ اسْتَطَعْنَا لَخَرَجْنَا مَعَكُمْ يُهْلِكُونَ أَنفُسَهُمْ وَاللّهُ يَعْلَمُ إِنَّهُمْ لَكَاذِبُونَ﴾

**“Əgər qənimət yaxın, səfər qısa olsaydı, şübhəsiz, (münafiqlər) sənin ardınca gələrdilər. Amma həmin yol onlara uzaq və çətin göründü. Allaha and içəcəklər ki, əgər bacarsaydıq sizinlə birlikdə (döyüşə) çıxardıq. Onlar bu yolla özlərini həlak edirlər. Allah bilir ki, onlar yalançıdırlar.”**

## *Nöqtələr*

◘Bu ayə Qur`anın qeybi xəbərlərindəndir. Ayədə Təbuk döyüşündə hələ ki, baş verməmiş hadisə bəyan olunur. Təbuk məntəqəsi ilə Mədinə arasında uzun bir məsafə vardı. Hazırda Təbuk Hicaz sərhədində yerləşir.

◘İmam Baqir (ə) buyurmuşdur: “Ərəzən qəribən” deyərkən yaxın qənimət nəzərdə tutulur.”[1]

## *Bildirişlər*

1. Mal-mülk və dünyəvi qənimətlər həmişəlik deyil.

2. Döyüş insanların imtahana çəkilməsində gözəl me`yardır.

3. Münafiqlərin içinin açılması zəruridir.

4. Münafiqlər maddi mənafe xatirinə bə`zi döyüşlərdə iştirak edirlər.

5. Rahat və mənfəətli işləri öhdəyə götürmək kamillik və fədakarlıq nişanəsi deyil.

6. Müsəlmanlıq qarınqulu25luq və rahattələbliklə bir araya sığmır.

7. Yalan nifaqa, nifaq yalana aparır. Münafiqlər işdən boyun qaçırmaq üçün yalandan and içirdilər.

8. Yalan and münafiq işidir.

9. Bəhanə və yalanla cihadın acı sonluğu olan bədbəxtlik və fəlakətdən qaçmaq olmaz.

10. Cəbhədən fərariliyin acısı elə fərarilərə nəsib olur.

---

[1] “Təfsire-Nurus-səqələyn”.

**Ayə 43:**

﴿عَفَا اللّهُ عَنكَ لِمَ أَذِنتَ لَهُمْ حَتَّى يَتَبَيَّنَ لَكَ الَّذِينَ صَدَقُواْ وَتَعْلَمَ الْكَاذِبِينَ﴾

**"Allah səni bağışladı. Nə üçün doğruçular müəyyənləşməmiş, yalançıları tanımamış onlara icazə verdin?"**

### *Nöqtələr*

◘Deyilənə görə, bə`zi münafiqlər heç bir üzr olmadan Peyğəmbərin (s) yanına gəlib Təbuk cəbhəsinə getməmək üçün bəhanə gətirirdilər. Həzrət Peyğəmbər (s) də onlara icazə verirdi. Bu ayədə belə bir icazə məzəmmət olunur və bildirilir ki, yalnız gerçək üzrü olanlara icazə verilə bilər.

◘Növbəti ayədə bildirilir ki, Allah münafiqləri cəbhəyə getmək tövfiqindən məhrum etmişdir. Demək, Peyğəmbərin (s) izni münafiqlərin cəbhədə iştirakına Allahın ikrahı sayəsində mümkün olmuşdur. Məzəmmət isə daha tez ifşa xatirinədir. 47-ci ayədə də münafiqlərin cəbhədə iştirakının zərərli olması önə çəkilir. Demək, həzrət Peyğəmbərin (s) icazəsi nə günah, nə də idarəçiliyin zəiflik nişanəsidir.

### *Bildirişlər*

1. Müdiriyyət və tədbiri tənqidi mərhəmətlə müşayiət olunan Allahdan öyrənmək lazımdır.
2. Hərbi əməliyyat gedişində məzuniyyətə icazə yoxdur.
3. Bəhanə yolunu münafiqlərin üzünə bağlayın.
4. Yalnız rəhbərin icazəsi ilə döyüşdə iştirak etməmək olar.
5. Döyüş zamanı fərdlərin şəxsiyyətini daha yaxşı tanımaq olur.
6. Bə`zən eyb örtmək yox, ifşa zəruri olur.
7. Münafiqləri tanımaq üçün onların cəbhə və cihaddakı əməllərini araşdırmaq lazımdır.
8. İslam cəmiyyəti elə sadiq rəftar etməlidir ki, münafiqlər rüsvay olsun.
9. Münafiqlərin cəbhədə iştirakı faydalı deyil. Amma onlar cəbhədən qaçmaqla özlərini rüsvay edirlər.

**Ayə 44:**

﴿لاَ يَسْتَأْذِنُكَ الَّذِينَ يُؤْمِنُونَ بِاللّهِ وَالْيَوْمِ الآخِرِ أَن يُجَاهِدُواْ بِأَمْوَالِهِمْ وَأَنفُسِهِمْ وَاللّهُ عَلِيمٌ بِالْمُتَّقِينَ﴾

**"Allaha və qiyamət gününə iman gətirənlər mal və canları ilə cihaddan məzuniyyətə çıxmaq üçün heç vaxt icazə istəməzlər. Allah təqvalılardan agahdır."**

## *Nöqtələr*

◘Cihad və şəhadət aşiqi olan gerçək mö`min ölümdən qorxmur və məzuniyyətə çıxmaq üçün icazə istəmir. İlkin İslam dövründə israrla cəbhəyə getmək istəyənlər vardı. Onlar Peyğəmbər (s) onların istədiyini yerinə yetirmədikdə narahat olub ağlayardılar.[1]

◘Həzrət Peyğəmbər (s) Təbuk döyüşündə getdiyi vaxt Həzrət Əlini (ə) Mədinədə öz canişini tə`yin etdi. Döyüşdə iştirak edə bilməməsi Həzrət Əlini (ə) kədərləndirdi. Həzrət Peyğəmbər (s) ona təsəlli verib buyurdu: "Harun Musa üçün necə idisə, sən də mənim üçün eləsən."

## *Bildirişlər*

1. Mö`min işdən qaçmır.
2. Təbuk döyüşündən qaçanlar imansız bir dəstə idi.
3. Təqva, şəhadət, cəbhədə iştirakın əsas amili yaranış və məada imandır.
4. Gerçək mücahidlər həm malları, həm də canları ilə fədakarlıq göstərirlər.
5. Təqva mal və canla cihaddan fərariliyə mane olur.
6. Allahın xəbərdar olmasına iman cihadda insan qəlbini isidir.
7. Təqvalı insan əmin-amanlıq dövründə yox, döyüş və cəbhədə tanınır.

**Ayə 45:**

﴿إِنَّمَا يَسْتَأْذِنُكَ الَّذِينَ لاَ يُؤْمِنُونَ بِاللّهِ وَالْيَوْمِ الآخِرِ وَارْتَابَتْ قُلُوبُهُمْ فَهُمْ فِي رَيْبِهِمْ يَتَرَدَّدُونَ﴾

**"Yalnız Allah və qiyamət gününə iman gətirməyənlər, qəlblərində tərəddüd olanlar səndən (cəbhəyə getməmək üçün) icazə alırlar. Onlar öz şəkk-şübhələrində vurnuxurlar."**

## *Nöqtələr*

◘Həzrət Əli (ə) buyurmuşdur: "Şəkk-şübhə içində qalan kəsi şeytanlar ayaq altına alırlar."[2]

## *Bildirişlər*

1. Döyüş inam və e`tiqadların sınağı üçün bir meydandır.
2. Münafiqlər məqsədə imansız olduqlarından daim bəhanə axtarır, cəbhədən uzaqlaşmaq istəyirlər.
3. İnsanın cəbhədə iştirak edib-etməməsi onun imanlı olub-olmmasından asılıdır.
4. Tərəddüddən də pisi şəkk-şübhə üzərində dayanmaqdır.

---

[1] "Tövbə", 92.
[2] "Nəhcül-bəlağə", h. 31.

**Ayə 46:**

﴿وَلَوْ أَرَادُواْ الْخُرُوجَ لأَعَدُّواْ لَهُ عُدَّةً وَلَكِن كَرِهَ اللّهُ انبِعَاثَهُمْ فَثَبَّطَهُمْ وَقِيلَ اقْعُدُواْ
مَعَ الْقَاعِدِينَ﴾

**“(Münafiqlərin) cəbhəyə getmək üçün ciddi qərarları olsaydı, cihad üçün hazırlıq görərdilər. Amma Allah (ləyaqətsizliklərinə görə) onların səfərbərliyindən xoşlanmadı və onları saxladı. Onlara deyildi: “Evdə oturanlarla yoldaş olun.”**

## *Nöqtələr*

◘Allahın cihadda iştirakın qarşısını alması maneçilik yox, tövfiqdən məhrum etmək mə`nasındadır.

## *Bildirişlər*

1. Münafiqlər heç vaxt cəbhəyə getmək fikrində olmurlar.
2. Zəruri müqəddimə vacibdir.
3. Mö`min insan cəbhəyə biganə deyil, cihada hazırlıq görür və yola düşmək intizarındadır.
4. Cihadda iştirak ləyaqətsizlərin məhrum edildiyi ilahi tövfiqdir.
5. Döyüş və cihadı tərk edənlər alçaldılmalıdır.

**Ayə 47:**

﴿لَوْ خَرَجُواْ فِيكُم مَّا زَادُوكُمْ إِلاَّ خَبَالاً ولأَوْضَعُواْ خِلاَلَكُمْ يَبْغُونَكُمُ الْفِتْنَةَ وَفِيكُمْ
سَمَّاعُونَ لَهُمْ وَاللّهُ عَلِيمٌ بِالظَّالِمِينَ﴾

**“Əgər (münafiqlər) sizinlə birlikdə döyüş üçün xaric oldularsa, sizə yalnız fəsad (dərd, iztirab) artırdılar. Yubanmadan aranızda qarışıqlıq salırdılar ki, fitnə yaransın. Onların sözünə qulaq, könül verənləriniz (tə`sirləndilər). Allah sitəmkarların halından agahdır.”**

## *Nöqtələr*

◘“Xəbal” iztirab, tərəddüd mə`nasını bildirir. “Xəbəl” dəlilik, “Xəbl” isə fəsad deməkdir. “İza” sözündən olan “Əvzəu” sözü hərəkət və nüfuzda sür`ət mə`nasını ifadə edir. “Fitnə” sözü ayədə təfriqə və azğınlıq mə`nasında işlədilmişdir. “Səmma” dedikdə düşmənin xeyrinə söz gəzdirən casus nəzərdə tutulur.

## *Bildirişlər*

1. İslam ordusu seçilmiş və xalis olmalıdır. Say, kəmiyyət əsas deyil.

2. Allah mö`minlərə təsəlli verir ki, münafiqlərin cəbhədən qaçması onları nigaran etməsin.

3. Münafiqlərin cəbhədə iştirakı ruhiyyəni zəiflədir, təfriqə və tərəddüd yaradır.

4. Münafiqlər sür`ətlə hərəkət edirlər.

5. Bə`zi müsəlmanlar münafiqlərin nə dərəcədə təhlükəli olduqlarını dərk etmirlər. Onlar sadəlövhcəsinə qısa bir zamanda münafiqlərin tə`siri altına düşürlər.

6. Münafiq zalımdır və Allah bu zümrəyə xəbərdarlıq etmişdir.

**Ayə 48:**

﴿لَقَدِ ابْتَغَوُاْ الْفِتْنَةَ مِن قَبْلُ وَقَلَّبُواْ لَكَ الأُمُورَ حَتَّى جَاء الْحَقُّ وَظَهَرَ أَمْرُ اللّهِ وَهُمْ كَارِهُونَ﴾

**“(Münafiqlər) bundan öncə fitnəkarlığa çalışır, işləri sənə dolaşıq göstərirdilər. Nəhayət, onlar narahat olan halda haqq gəldi və Allahın əmri aşkar oldu (qalib gəldiniz).”**

## *Bildirişlər*

1. Münafiqlər məqsədli şəkildə fitnə törədirlər.

2. Təfriqə və fitnə ilə rastlaşdıqda münafiqlərin izini axtarın.

3. Gerçək tövbə etməyənlərin keçmişinə diqqətli olun.

4. Rəhbərə yanlış və təhrif olunmuş mə`lumatlar verməк münafiqlikdir.

5. İslam ümmətinin rəhbəri ayıq olmalı, hər mə`lumata e`timad göstərməməlidir.

6. Fitnəkarlıq və təfriqəçilik münafiqlərin daimi işi olmuşdur. Haqq cəbhəsi tam qələbə çalanadək onlar şeytançılıqdan əl çəkmirlər.

7. İlahi yardımlar münafiqlərin planlarını puça çıxarır. İslamın bütün fitnələrə qarşı cavabı var.

8. Münafiqlər heç vaxt İslam quruluşuna qəlbən təslim olmurlar.

**Ayə 49:**

﴿وَمِنْهُم مَّن يَقُولُ ائْذَن لِّي وَلاَ تَفْتِنِّي أَلاَ فِي الْفِتْنَةِ سَقَطُواْ وَإِنَّ جَهَنَّمَ لَمُحِيطَةٌ بِالْكَافِرِينَ﴾

**“Onlardan bə`ziləri deyirlər: “Mənə icazə ver və məni fitnəyə salma.” Agah olun ki, beləlari fitnəyə yuvarlanmışlar. Həqiqətən, cəhənnəm kafirləri əhatə edər.”**

## *Nöqtələr*

◘Bəni-Sələmə qəbiləsinin münafiq başçılarından biri Təbuk döyüşünə getməmək üçün Peyğəmbərdən (s) icazə istədi. O, bəhanə gətirirdi ki, gözünə qadın dəydikdə aldanıb günaha düşür. Həzrət bu şəxsə icazə verdi. Ayə nazil oldu və cəbhədə iştirak etmədiyinə görə həmin şəxsi günahkar və fitnəyə uğramış

bildirdi. Həzrət Peyğəmbər (s) onu qəbilə başçılığından uzaqlaşdırıb, səxavətli və xoşxasiyyət Buşr ibn Bərranı onun yerinə tə`yin etdi.[1]

## *Bildirişlər*

1. Hərbi qüvvələrə komandanlıq Peyğəmbər (s) və İslam cəmiyyətinin rəhbərinə aid məs`uliyyətlərdəndir.
2. Hədəfsiz münafiqlər həzrət Peyğəmbəri(s) fitnəkar sayırdılar.
3. Münafiqlərin nəzərində Allah yolunda cihad bəladır.
4. Döyüş fitnə və sınaq butasıdır.
5. Bə`zi münafiqlər imanlı insanları aldatmaq üçün dini məsələlərdən istifadə edirlər. (Onlar Rum qızlarına baxmamaq bəhanəsi ilə Allah və Onun rəsulunun əmrini ayaq altına alırlar.)
6. Döyüş fitnəsindən qorxanlar daha üstün fitnəyə düçar olurlar.
7. İlahi sınaqdan qaçmaq mümkünsüzdür.[2]
8. Münafiqlərin cihaddan kənarlaşmaq üçün bəhanə gətirməsi küfr səbəbidir.
9. Günah kafirlərin vücudunu əhatə etdiyindən cəhənnəm odu da onları əhatəyə alır.[3]

**Ayə 50:**

﴿إِن تُصِبْكَ حَسَنَةٌ تَسُؤْهُمْ وَإِن تُصِبْكَ مُصِيبَةٌ يَقُولُواْ قَدْ أَخَذْنَا أَمْرَنَا مِن قَبْلُ وَيَتَوَلَّواْ وَّهُمْ فَرِحُونَ﴾

**“Sənə yaxşılıq üz verdikdə münafiqlər narahat olurlar. Sənə bir müsibət üz verdikdə isə deyirlər: “Biz öncədən özümüzə çarə qılmışıq” və xoşhallıqla dönüb gedirlər.”**

## *Bildirişlər*

1. Peyğəmbər və din rəhbəri İslam quruluşunun və ümmətin simasıdır.
2. Başqalarının xoş gününə narahat olan şəxsdə həsəd və münafiq sifəti vardır.
3. Dost-düşmənimizi acı və şirin hadisələr zamanı tanıyaq.
4. Peyğəmbər döyüşlərində həm qələbə olub, həm də məğlubiyyət.
5. Fürsəti qənimət sayan münafiqlər müsəlmanların rastlaşdıqları çətinliklərdən öz məqsədləri üçün istifadə edir və uzaqgörən olduqlarını bildirirdilər.

**Ayə 51:**

﴿قُل لَّن يُصِيبَنَا إِلاَّ مَا كَتَبَ اللّهُ لَنَا هُوَ مَوْلاَنَا وَعَلَى اللّهِ فَلْيَتَوَكَّلِ الْمُؤْمِنُونَ﴾

---

[1] “Təfsire-nümunə”.
[2] “Ənkəbut”, 2.
[3] “Bəqərə”, 81.

**“De ki, Allahın müəyyənləşdirdiyindən qeyri bir şey heç vaxt bizə yetişməyəcək. O, bizim mövlamızdır və mö`minlər yalnız Allaha təvəkkül etməlidirlər.”**

## *Bildirişlər*

1. Rəhbər və ümmət həm qəm, həm də şadlıqda şərikdir.

2. Biz vəzifəmizi yerinə yetirməliyik, nəticəyə cavabdeh deyilik. Biz cihad edirik, amma müqəddərat Allahın əlindədir.

3. Həqiqi mö`minlər hətta çətinlikləri də öz xeyirlərinə bilirlər.

4. İnsanın müqəddəratı öncədən yazılmışdır.

5. Ağa öz qulu üçün pislik istəməz. Allah mö`minlər üçün yalnız xeyir yazmışdır.

6. Mö min insan özünü ilahi hakimiyyət altında bilir.

7. Tövhidin ən üstün dərəcəsi ilahi qanun çərçivəsində hərəkət edilməsi və taleyin hikmət sahibi olan Allaha tapşırılmasıdır.

8. Yalnız Allaha sığınmaq lazımdır.

9. İman şərti Allaha təvəkküldür.

**Ayə 52:**

﴿قُلْ هَلْ تَرَبَّصُونَ بِنَا إِلاَّ إِحْدَى الْحُسْنَيَيْنِ وَنَحْنُ نَتَرَبَّصُ بِكُمْ أَن يُصِيبَكُمُ اللّهُ بِعَذَابٍ مِّنْ عِندِهِ أَوْ بِأَيْدِينَا فَتَرَبَّصُواْ إِنَّا مَعَكُم مُّتَرَبِّصُونَ﴾

**“(Ey Peyğəmbər! Münafiqlərə) de ki, bizim üçün iki yaxşıdan (qələbə və ya şəhadət) özgə bir şeymi gözləyirsiniz? Amma biz gözləyirik ki, Allahın əzabı ya Onun Özü tərəfindən, ya da bizim əlimizlə sizə yetişsin. Belə isə, siz intizarda olun, biz də sizinlə intizardayıq.”**

## *Nöqtələr*

▫Bu ayə Allahı mö`minlərin mövlası bilən, Onun yalnız xeyir yazdığını bəyan edən, hətta şəhidliyin də xeyir olduğunu bildirən ötən ayəni izah edir.

▫İmam Baqir (ə) “İhdəl-husnəyəyni” tə`biri haqqında buyurmuşdur: “Məqsəd ya Allah yolunda şəhadət, ya da əsrin imamının (ə) zühurunun dərkidir.”[1]

## *Bildirişlər*

1.”İki yaxşılıqdan biri” baxışını dost-düşmənə aydınlaşdırıb, təbliğ etmək lazımdır.

2. Mö`minlərin və münafiqlərin dəyərləndirmə ölçüsü fərqlidir. İman əhlinin nəzərində həyat və ölümün fərqi yoxdur. Əsas məsələ doğru yolda olmaqdır. Bu səbəbdən də həm qələbə, həm də şəhadət mö`minlər üçün qələbə sayılır.

---

[1] “Kafi”, c. 8, s. 286.

3. İslamla döyüş və çəkişmədə öldürülən münafiqlər cəhənnəm əhlidirlər. Onlar döyüş meydanından kənarda ölsələr də, cəhənnəmə düşəsidirlər. Demək, ya mö`minlərin əli ilə, ya da Allah tərəfindən əzaba düçar olurlar.

4. Mö`minlər öz işlərinin məqsəd və nəticəsinə əmindirlər.

**Ayə 53:**

﴿قُلْ أَنفِقُواْ طَوْعًا أَوْ كَرْهًا لَّن يُتَقَبَّلَ مِنكُمْ إِنَّكُمْ كُنتُمْ قَوْمًا فَاسِقِينَ﴾

**"(Cəbhədə iştirak əvəzinə maddi yardım göstərən münafiqlərə) de ki, istər könüllü, istər ikrahla etdiyiniz infaq sizdən heç vaxt qəbul olunmayacaq. Çünki siz həddi aşmış qövmsünüz."**

## *Nöqtələr*

◘Təfsirlərə əsasən, Təbuk döyüşündə iştirak etməyən münafiqlər cəbhəyə maddi yardım göstərməklə qələbəyə şərik olmaq istəyirdilər.

◘Münafiqlərin infaqının qəbul olunmaması dedikdə, ya onlardan dünyada maddi yardımların qəbul olunmaması, ya da axirətdə onlara mükafat verilməməsi nəzərdə tutulur.

## *Bildirişlər*

1. İnfaq təkcə qarın doyurmaq üçün deyil. İslam infaqın ruhun islahına və mə`nəvi təkamülə tə`sirini nəzərdə tutur.

2. Fərdlərin ruhu, niyyəti və batini onların əməllərinin dəyərinə tə`sir göstərir. Müsəlmanların qələbəsindən qəmlənən, onların məğlubiyyətinə sevinən münafiqin əməlləri səmərəsizdir.

3. Münafiqlərin xidmətləri və infaqları dəyərsizdir və puça çıxar.

4. Hər adamdan hər köməyi qəbul etməyək.

5. Əməllərin qəbulu üçün təqva və pak qəlb lazımdır. Siyasi, ictimai, ibadi və əxlaqi məsələlər bir-birləri ilə əlaqəlidir.

6. Günah əməllərin qəbuluna mane olur.

**Ayə 54:**

﴿وَمَا مَنَعَهُمْ أَن تُقْبَلَ مِنْهُمْ نَفَقَاتُهُمْ إِلاَّ أَنَّهُمْ كَفَرُواْ بِاللّهِ وَبِرَسُولِهِ وَلاَ يَأْتُونَ الصَّلاَةَ إِلاَّ وَهُمْ كُسَالَى وَلاَ يُنفِقُونَ إِلاَّ وَهُمْ كَارِهُونَ﴾

**"Münafiqlərdən infaqın qəbul olunmamasının səbəbi yalnız Allah və Onun rəsuluna kafir olmaları, namazı süstlüklə, halsız qılmaları və ikrahla infaq etmələridir."**

## *Nöqtələr*

◘Ötən ayədə bəyan olundu ki, münafiqlərin istər könüllü, istər könülsüz infaqları qəbul deyil. Burada isə bəyan olunur ki, onların infaqı ikrahla müşayiət olunur.

◘İslam dövlətinin xüms, zəkat, sədəqə və infaq kimi gəlirlərinin digər dövlət gəlirlərindən üstünlükləri:

1. Fərdlər həmin gəlirləri öz istək və iradələri, dini vicdanları əsasında ödəyirlər;

2. Bu gəlir qorxusuz və Allaha yaxınlıq məqsədi ilə ödənir;

3. Xüms, zəkat, sədəqə və infaq verənlər öz verdiklərini qiyamət ehtiyatı sayırlar;

4. Dini ödənc almaq üçün ədalətli alim seçirlər;

5. Məsrəf yeri bilinir və nəzarətdə saxlanılır;

6. Alan üçün sadə həyat tərzi şərt sayılır və Allaha şükr edilir.

## *Bildirişlər*

1. Xeyir əməl küfr, süstlük və ikrahla müşayiət olunduqda qəbul olunmur.

2. Allah-təala Qur`ani-kərimdə münafiqi dəfələrlə kafir saymışdır.

3. Təbuk döyüşünə qarşı çıxanlar zahirən müsəlman, əslində isə kafirdirlər.

4. İşi dəyərli edən insanın niyyəti, razılığı və eşqidir. Bəli, əsas məsələ fiziki hərəkətlər yox, hərəkət amilidir. (Züleyxa qapıları bağlayıb Yusifi günaha çağırdığı vaxt Yusif qapıya doğru qaçdı. Züleyxa da onu tə`qib etdi. Zahirdə onlar hər ikisi qaçırdı. Amma bu qaçışlardakı məqsədlər kökündən fərqlənirdi.)

5. İnfaqda İslamın məqsədi seçim inkişafı və mə`nəvi təkamüldür. İnfaq təkcə qarın doyurmaq məqsədi daşımır. Bu səbəbdən də münafiqlərin yardımı qarın doyurur, amma mə`nəvi təkamülə səbəb olmur.

6. Namazın süstlüklə qılınması və ikrahla infaq edilməsi nifaq nişanələrindəndir.

**Ayə 55:**

﴿فَلاَ تُعْجِبْكَ أَمْوَالُهُمْ وَلاَ أَوْلاَدُهُمْ إِنَّمَا يُرِيدُ اللّهُ لِيُعَذِّبَهُم بِهَا فِي الْحَيَاةِ الدُّنْيَا
وَتَزْهَقَ أَنفُسُهُمْ وَهُمْ كَافِرُونَ﴾

**“Münafiqlərin var-dövləti və övladları səni təəccübləndirməsin. Allah bu vasitə ilə yalnız onu istəyir ki, onlara dünya həyatında əzab versin, canları küfr halında çıxsın.”**

## *Nöqtələr*

◘“Təzhəq” deyərkən çətinlik və təəssüflə xaric olmaq nəzərdə tutulur.

◘Allahın təəccüb etməməyə çağırışı peyğəmbərin təəccüb etməsinə dəlil sayılmır. Bu çağırışda məqsəd gözlənilən halı qabaqlamaqdır.

◘“Nəhcül-bəlağə”də bə`zilərinin canvermə halı təsvir olunmuşdur. Onlar ölən zaman var-dövlətləri gözlərinin önündə cilvələnir və onlar bu ayrılıqdan əzab duyurlar.[1]

◘Var-dövlət vasitəsi ilə əzab yollarına nəzər salaq: var-dövləti qazanmaq əzabı, var-dövləti oğrudan, yanğından qorumaq əzabı, can verən zaman var-dövlətdən ayrılmaq əzabı, qiyamətdə var-dövlətin necə qazanılıb, necə sərf olunması ilə bağlı sorğu əzabı.

## *Bildirişlər*

1. Peyğəmbərlərin müasiri olmuş mö`minlərin maddi durumu münafiqlərlə müqayisədə zəif idi.
2. Bə`zən ne`mət də insana bədbəxtlik gətirir və iqtisadi imkanlar insanın məhvinə səbəb olur.
3. Münafiq varlıları zillətə salmaq ilahi sünnələrdəndir.
4. İlahi əzab təkcə axirətə aid deyil, dünyada da insanın sorağına gəlir.
5. Ölüm yoxluq yox, ruhun bədəndən ayrılmasıdır.
6. Münafiqin canında çıxarılma ləyaqəti yoxdur, o özü xaric olur.
7. Varlı münafiq çətin can verir.
8. Münafiqin malik olduğu var-dövlət və övladlar onun dünyadan kafir getməsinə zəmin yaradır.
9. İşlərin gedişini yox, aqibətini nəzərə alın.

**Ayə 56:**

﴿وَيَحْلِفُونَ بِاللّهِ إِنَّهُمْ لَمِنكُمْ وَمَا هُم مِّنكُمْ وَلَكِنَّهُمْ قَوْمٌ يَفْرَقُونَ﴾

**“Münafiqlər Allaha and içirlər ki, həqiqətən, onlar sizdəndirlər. Halbuki (yalan deyildirlər,) sizdən deyillər. Onlar (sizdən) qorxan bir qövmdürlər.”**

## *Nöqtələr*

◘“Yəfrəqunə” deyərkən şiddətli, qəlbi parçalayan qorxu nəzərdə tutulur.

## *Bildirişlər*

1. Münafiqlər işdə yalan anddan istifadə edirlər.
2. Münafiqin tövbəsinin qəbuluna, onun iddialarına inanmağa tələsməyin. Çünki onlar yalançıdırlar.
3. Münafiqlərin həqiqi simasını ifşa etmək zəruridir.

---

[1] “Nəhcül-bəlağə”, x. 108.

4. Qorxu və dəhşət münafiqin digər nişanələrindəndir.

**Ayə 57:**

﴿لَوْ يَجِدُونَ مَلْجَأً أَوْ مَغَارَاتٍ أَوْ مُدَّخَلاً لَّوَلَّوْاْ إِلَيْهِ وَهُمْ يَجْمَحُونَ﴾

**“Əgər (münafiqlər) sığınacaq, mağara və ya qaçmağa yol tapsaydılar, şübhəsiz ki, tələsik ora üz tutardılar.”**

## *Nöqtələr*

◘“Məlcə`” sığınacaq, “məğarat” mağaralar, “muddəxəl” gizli, yeraltı yol mə`nasını bildirir. Qarşısı alınmayan tələsik hərəkət “yəcməhun”, dəlisov at “cəmuh” kimi ifadə olunur.

◘Münafiqlər ya qorxudan, ya da tamahdan “müsəlmanam” deyirlər. Ayə birinci halı nəzərdə tutur.”[1]

## *Bildirişlər*

1. Münafiq mövcud vəziyyətdən qaçmaq üçün fürsət sorağındadır.

2. Münafiqlərdə İslam cəmiyyətindəki mühitə dözüm yoxdur. (Münafiqlər avara həyat tərzi keçirir və müsəlmanlarla birlikdə yaşamaq onlar üçün dözülməzdir.)

3. Var-dövləti və ailə-övladı olduğu halda İslam həyat tərzindən sıxılmaq münafiqlərin dünyəvi əzab nümunələrindəndir.

4. Münafiqlər mö`minlərlə dava-dalaşda itidirlər.

**Ayə 58:**

﴿وَمِنْهُم مَّن يَلْمِزُكَ فِي الصَّدَقَاتِ فَإِنْ أُعْطُواْ مِنْهَا رَضُواْ وَإِن لَّمْ يُعْطَوْاْ مِنهَا إِذَا هُمْ يَسْخَطُونَ﴾

**“Münafiqlərdən bə`ziləri sədəqədə (zəkatın bölünməsində) sənə eyb tuturlar. Əgər onlara da bir şey verilsə razı qalarlar. Amma onlara bir şey verilməsə qəfil qəzəblənərlər ( və səni ədalətsizlikdə ittiham edərlər).”**

## *Nöqtələr*

◘“Ləmz” üzdə, “həmz” arxada eyb tutulmasını bildirir.

◘Sonralar yolunu azmış xəvaric və mariqinin rəhbəri olmuş şəxs Hüneyn döyüşündə qənimətin bölünməsinə e`tiraz edib Peyğəmbərə(s) dedi: “Ədalətlə rəftar et.”

Həzrət buyurdu: “Məndən ədalətlisi kimdir?” Ömər həmin şəxsi qabalığına görə öldürmək istədi. Həzrət Peyğəmbər (s) buyurdu: “Onu azad burax. Onun elə ardıcılları olacaq ki, həmin ardıcılların ibadətinə baxdıqda öz ibadətinizi heç sayacaqsınız. Bütün bu ibadətlərinə baxmayaraq, ox kamandan xaric olan tək

---

[1] “Təfsire-Ətyəbul-bəyan”.

dindən xaric olacaqlar.” (Həzrət quru ibadətə varmış Nəhrəvan şeyxlərinə işarə edirdi.) Nəhayət, Nəhrəvan döyüşündə Həzrət Əli (ə) bu şəxsin həyatına son qoydu.

## *Bildirişlər*

1. Münafiq hətta peyğəmbərə qarşı çıxıb, onu sancır.
2. Münafiqlərin hücum və təbliğatlarının itiliyi rəhbərlikdəndir.
3. Peyğəmbərin səhabələri arasında ədalət çərçivəsini aşanlar da olub.
4. İslam quruluşunun məs`ulları münafiqlərin iradlarından tə`sirlənməməlidirlər.
5. Ümumi malın bölünməsi o qədər həssas məsələdir ki, bə`zən Peyğəmbər (s) də bu məsələdə ittiham olunur.
6. Rəhbərə qarşı bir çox ədəbsizliklər insandakı eqoistlikdən doğur.
7. Bə`zi tənqidlərin arxasında canıyananlıq yox, şəxsi mənafelər dayanır.
8. İslam cəmiyyətində iqtisadi siyasətin müəyyənləşdirilməsi Peyğəmbər (s) və İslam rəhbərinin vəzifəsidir.
9. Münafiq öz haqqına qane olmur. O, eqoist və məntiqsizdir.
10. Bir çox insanların kin-küdurəti, düşmənçiliyi, tənə və mühakiməsi maddi mənafelərdən doğur. (İmam Sadiq (ə) buyurmuşdur: “Xalqın üçdə ikisindən çoxu belədir.”[1] (Bəli, bə`zi yanlış təhlillərin kökü iç amillər ilə bağlıdır.)

**Ayə 59:**

﴿وَلَوْ أَنَّهُمْ رَضُوْاْ مَا آتَاهُمُ اللّهُ وَرَسُولُهُ وَقَالُواْ حَسْبُنَا اللّهُ سَيُؤْتِينَا اللّهُ مِن فَضْلِهِ وَرَسُولُهُ إِنَّا إِلَى اللّهِ رَاغِبُونَ﴾

**“Əgər onlar Allah və Onun Peyğəmbərinin (s) verdiyi ilə razılaşsaydılar və desəydilər ki, Allah bizə bəsdir, Allah və Onun rəsulu tezliklə bizə fəzlini yetirər, biz yalnız Allaha ümidvarıq... (Belə desəydilər, daha yaxşı olardı.)”**

## *Nöqtələr*

◘Bu ayədə dörd məsələ önə çəkilir: İlahi təqdirdən razılıq və ona təslimçilik; Razılığın dillə bəyanı; Allahın fəzl və kəraminə ümid; Dünyaya bağlanmamaq və Allaha rəğbət.

## *Bildirişlər*

1. Münafiqlər heç vəchlə Allahdan və Onun təqdirlərindən razı qalmırlar.
2. Beytul-malın sərfində, iqtisadi məsələlərin həllində hansı siyasətin yürüdülməsi və hansı qərarların çıxarılması Allah, Onun rəsulu və İslam ümmətinin rəhbərinin ixtiyarındadır.
3. Yalnız çətinlikləri düşünüb bədbinləşmək olmaz. Səbir daha yetərli gələcəyi tə`min edir.

---

[1] “Kafi”, c. 2. s. 228.

4. Dünyadakı məhrumiyyətlərin acılığı Allahın qəti behişt və`dləri ilə şirinləşir.
5. Allahın bizə borcu yoxdur. Nə verirsə, Öz fəzlindən verir.
6. Allahın lütfləri peyğəmbərlər və övliyalar vasitəsi ilə çatdırılır.
7. İlahi məhəbbət səbir, razılıq və qənaət üçün zəmindir.

**Ayə 60:**

﴿إِنَّمَا الصَّدَقَاتُ لِلْفُقَرَاء وَالْمَسَاكِينِ وَالْعَامِلِينَ عَلَيْهَا وَالْمُؤَلَّفَةِ قُلُوبُهُمْ وَفِي الرِّقَابِ وَالْغَارِمِينَ وَفِي سَبِيلِ اللّهِ وَابْنِ السَّبِيلِ فَرِيضَةً مِّنَ اللّهِ وَاللّهُ عَلِيمٌ حَكِيمٌ﴾

**“Həqiqətən, sədəqələr (zəkat) ehtiyaclılar, miskinlər, zəkatı yerbəyer edənlər, qəlblərin cazibəsi, qulların azad edilməsi, borcluların borcunun ödənməsi, Allah yolunda (cihada) sərf və yolda qalanları tə`min etmək üçündür. Bu, Allah tərəfindən göstərişdir. Allah biləndir və hikmət sahibidir.”**

## *Nöqtələr*

◘Həm “sədəqə”, həm də “sidaq” sözü “sidq” sözündəndir. “Sədəqə” Allaha imanda sədaqət, “Sidaq” mehriyyə və ya həyat yoldaşına sədaqət nişanəsidir.

◘Bu ayədə sədəqə deyilərkən vacib zəkat nəzərdə tutulur.

“Fəqir” deyərkən yoxsulluq belini qırmış kəs başa düşülür. “Miskin” isə yoxsulluqdan evdə oturmuş şəxsdir. Rəvayətlərə əsasən, fəqir xalqa əl açmır, miskin isə çarəsizlikdən əl açmağa məcbur olur.[1]

◘Ötən ayədə münafiqlərin zəkatın bölünməsi ilə bağlı Peyğəmbərə (s) iradlarından danışılırdısa, bu ayədə sədəqənin ünvanları göstərilir. Elə başa düşülür ki, münafiqlərin zəkatda gözü varmış.

◘“Əl-amilinə ələyha” deyərkən zəkatı toplayanlar, saxlayanlar, onun hesabını aparanlar, yerinə çatdıranlar nəzərdə tutulur. Onlara zəkatdan zəhmət haqqı verilir.

◘“Əl-muəlləfəti-qulubuhum” deyərkən İslama meyli olmayanlar nəzərdə tutulur. Belələrini imana sövq etmək üçün zəkatdan pay ayrılır.

Əlbəttə ki, qəlblərin cazibəsi üçün zəkatdan pul xərcləmək o demək deyil ki, insanlar pulla iman gətirsinlər. Həmin məbləğ xərclənir ki, insanlar İslamı dərk etmək üçün təhsil alıb həqiqəti dərk etsinlər.[2]

◘“Əl-ğarimin” deyərkən səhvə yol vermədən borca düşənlər nəzərdə tutulur. Məsələn, təbiət hadisələri nəticəsində var-yoxunu əldən verənlər bu zümrəyə aid edilə bilər.

İmam Sadiq (ə) buyurmuşdur: “Günaha yol vermədən borca düşmüş müsəlman öldükdə onun borcunu imam ödəməlidir.”[3]

---

[1] “Təfsire-Əl-mizan”.
[2] “Təfsire-Nurus-səqəleyn”.
[3] “Təfsire-kənzüd-dəqaiq”.

◘"Fi səbilillah" deyərkən Allahın bəyəndiyi bütün işlər nəzərdə tutulur. Dini təbliğat, müsəlmanlara yardım bu qəbildəndir. Təfsirlərdə cihad bu tə`yinatın əsas ünvanı kimi göstərilir.

◘"İbnis-səbil" deyərkən vətənində imkanlı olduğu halda, səfərdə əliboş qalmış kəs nəzərdə tutulur.

## *Zəkatın siması*

◘Zəkat hökmü Məkkədə nazil olmuşdur. Amma həmin vaxt müsəlmanlar azsaylı, zəkat cüz`i olduğundan həmin məbləği hər kəs özü ödəyirdi. Mədinədə İslam hökuməti qurulduqdan sonra bu iş mərkəzləşdirildi və həmin büdcə din hakiminin ixtiyarına verildi.[1]

◘Zəkat təkcə İslama məxsus deyil. Digər dinlərdə də zəkat olmuşdur. Həzrət İsa hələ beşikdə ikən zəkat haqqında göstəriş vermişdir.[2] Bu barədə həzrət Musanın və bütün digər peyğəmbərlərin buyruqları var.[3]

◘Qur`anda zəkatla bağlı dörd tə`bir işlədilmişdir: "Malın verilməsi (i`nail-mal)"[4]; Sədəqə"[5]; İnfaq"[6]; Zəkat"[7]

◘Qur`anda, adətən, zəkat sözü namaz sözü ilə yanaşı işlədilir. Rəvayətlərə əsasən, zəkat namazın qəbul şərtidir. Bu, Allahla bağlılığın xalqla bağlılıqla əlaqəli olduğunu göstərir.

Qur`anda heç bir dini göstəriş namaza zəkat qədər yaxın bəyan olunmamışdır.

◘Seyyidlərin zəkat alması haramdır. Bəni-Haşimdən olan bir qrup İslam Peyğəmbərindən (s) zəkat bölgüsü ilə bağlı iş istədilər. Onlar heyvanların zəkatını toplamaq və bu işlərinə görə pay almaq fikrində idilər. Həzrət Peyğəmbər (s) buyurdu: "Zəkat mənə və sizə haramdır."[8] Seyyid yalnız o zaman zəkat ala bilər ki, zəkatı verən də seyyid olsun.

◘Zəkat göstərişi İslamın varlı və kasıb zümrələrin mövcudluğuna maraqlı olmasını göstərmir, sadəcə, qarşıda duran gerçək bir problemi həll etməkdir. Bə`zən varlılar özləri də təbii fəlakətlər səbəbindən yoxsulluğa düçar olurlar. İslam quruluşunda ictimai ehtiyacların tə`mini üçün büdcənin olması zəruridir.

◘Rəvayətdə deyilir: Allah-təala ehtiyaclıların çətinliyini həll etmək üçün varlıların malından pay müəyyənləşdirmişdir. Yetərli olmadıqda bu pay artırılır. Əgər insanlar fəqirlərin haqqını ödəsəydilər, hamı normal yaşayardı. Varlılar zəkat ödəsəydilər, yoxsul tapılmazdı.[9]

◘Şəxsi mülkiyyətə məhdudiyyət qoyan bə`zi ideologiyaların ziddinə olaraq, İslam insana mülkiyyət azadlığı verir. İslam quruluşunun himayəsində olan hər bir

---

[1] "Tövbə", 103.
[2] "Məryəm", 32.
[3] "Bəqərə",34; "Ənbiya", 73.
[4] "Bəqərə", 77.
[5] "Tövbə", 103.
[6] "İbrahim", 31.
[7] "Maidə", 55.
[8] "Təfsire-Nurus-səqəleyn"; "Kafi", c. 4, s. 58.
[9] "Vəsail", c. 6, s. 4.

şəxs öz iste`dad və bacarığını işə salıb istənilən qədər var-dövlət sahibi ola bilər. Amma zəkat ödəmək də zəruridir.

◘Zəkatın Allah yolunda xərclənməsi deyərkən təkcə yoxsullar nəzərdə tutulmur. İslam quruluşuna faydası olan istənilən bir cəhətdə zəkat sərf oluna bilər.[1]

◘İslam cəmiyyətini şər qüvvələrin fitnəsindən qorumaq üçün zəkatdan sərf oluna bilər.[2]

◘Əgər bir şəxs diyə ödəməli olarsa və buna gücü çatmazsa zəkatdan ona yardım göstərmək olar.[3]

◘Ola bilsin ki, "fir-riqab" tə`birinə əsasən, məhbusların azadlığı və onların ehtiyacının tə`mini üçün zəkatdan xərclənilsin.

◘Zəkatın səkkiz istiqamətdə bərabər bölünməsi zəruri deyil. İslam hakiminin nəzarəti altında hər sahəyə ehtiyac qədərində pay ayrılmalıdır.

◘Zəkat sərvətin tarazlıq amilidir.

◘Zəkat Allahın verdiklərinə əməli təşəkkürdür.

◘Zəkat təbəqələrarası fərqi azaldır, fəqirlərlə varlılar arasındakı kin-küdurəti aradan qaldırır.

◘Zəkat insanda səxavət və mərhəmət ruhunu dincəldir, dünyapərəstlik və maddiyyata bağlılıq hissini zəiflədir.

◘Zəkat məhrumlar üçün ictimai bir tə`minatdır – fəqirə deyilir ki, nigaran olma, varlıya deyilir ki, yenidən sə`y et, müsafirə deyilir ki, yolda qalmaqdan qorxma, fəhləyə deyilir ki, sənin payın qorunur, qula azadlıq və`d olunur, ilahi xidmət sahəsi rövnəq tapır, ətrafdakıların qəlbi İslama cəzb olunur.

◘Allah zikrindən qəflət xalqın istismarına, qəlbin daşlaşmasına, tüğyan və əyyaşlığa, var-dövlətlə öyünməyə səbəb olur. Zəkat bu xəstəliyin dərmanıdır.

◘Zəkat yoxsulluğu aradan qaldırmaqla yanaşı İslama rəğbət oyadır. Ən azı insanlar İslam düşmənləri ilə həmkarlıqdan çəkinir. Rəvayətlərdə bildirilir ki, maddi yardımlar və İslama yaxınlaşma ilə fərdlərin imanı möhkəmlənir.[4]

◘İslam quruluşunun səciyyəsi olan zəkat ictimai ədalətə, fəqirliyin aradan qaldırılmasına, fəhlələrin tə`minatına, beynəlmiləl yaxınlığa, qulların azad olunmasına, qüvvələrin hərəkətə gətirilməsinə, müsəlman ayinlərinin hifzinə və ümumi xidmətlərin genişlənməsinə zəmin yaradır.

## *Bildirişlər*

1. Zəkat iman izharında sədaqəti göstərir.
2. Zəkat umacaqlar yox, vəhy əsasında bölünür. Ayədə eyb axtaran münafiqlərə cavab verilir.
3. Zəkatı ayədə göstərilən tə`yinatlardan kənarda sərf etməyə icazə verilmir.
4. İslamın ictimai ədalət prinsiplərindən biri məhrumların dolanışıq tə`minatıdır.

---

[1] "Təfsire-ruhul-məani".
[2] "Təfsire-ruhul-məani".
[3] "Təfsire-marağī".
[4] "Təfsire-Nurus-səqəleyn".

5. İnsanın var-dövləti bütünlüklə onun deyil. Bu mülkiyyətdə başqalarının da payı var.

6. Zəkat verənlər fəqirlərə minnət qoymamalıdırlar. Çünki zəkat onların öz mülkləri deyildir.

7. Yoxsulluğun aradan qaldırılması İslam quruluşunun ilkin vəzifələrindəndir. Öncə fəqirliyin aradan qaldırılması, sonra digər tədbirlər bəyan olunur.

8. Dini hökmləri yerinə yetirənlərin dolanışığını tə`min etmək zəruridir.

9. İnsanın ehtiyaclı olub-olmamasından asılı olmayaraq onun gördüyü işin dəyəri var.

10. Hakimin rüşvət fikrinə düşməməsi üçün onu tə`min etmək lazım olduğu kimi, zəkatı yerbəyer edənləri də əyri yoldan çəkindirmək üçün tə`min etmək lazımdır.

11. Zəkatın toplanması üçün İslam hökuməti tərəfindən mə`murlar tə`yin olunmalıdır.

12. Maddi və mə`nəvi məsələlər bir-biri ilə əlaqəlidir.

13. İslam yalançı və boşboğaz istismarçıların xilafına olaraq, cəmiyyətin iqtisadi problemlərini həll etməklə, Allaha yaxınlıq məqsədi ilə, dəlil və çağırışla öz məktəbini genişləndirir.

14. Yardımlar vasitəsi ilə qəlbləri cəzb etmək İslam dövlətinin vəzifələrindəndir.

15. İslam dini qulların azad olunması üçün büdcə müəyyənləşdirmişdir.

16. Zəkat qurumunun xərclərini dövlət ödəmir, bu qurum özü özünü tə`min edir.

17. Fəqirlərin birbaşa varlılara müraciət edib özünü alçaltmaması üçün İslam hökuməti zəkatı toplamaq və yerinə çatdırmaq məs`uliyyəti daşıyır.[1]

18. Cihad və ölkənin müdafiə büdcəsi zəkatdan ödənir və xalqın boynunadır.

19. Maddiyyat insanın Allaha yaxınlığı üçün vasitə olmalıdır.

20. İslam yolda qalanlara büdcə ayırmaqla səfər, ticarət və səyahət məsələlərinə əhəmiyyət vermişdir.

21. Zəkat qanunu hesablanmış və hikmətə əsaslanan qanundur.

22. İslam təkcə ibadət dini deyil, onun iqtisadi qanunları da vardır.

**Ayə 61:**

﴿وَمِنْهُمُ الَّذِينَ يُؤْذُونَ النَّبِيَّ وَيِقُولُونَ هُوَ أُذُنٌ قُلْ أُذُنُ خَيْرٍ لَّكُمْ يُؤْمِنُ بِاللّهِ وَيُؤْمِنُ
لِلْمُؤْمِنِينَ وَرَحْمَةٌ لِّلَّذِينَ آمَنُواْ مِنكُمْ وَالَّذِينَ يُؤْذُونَ رَسُولَ اللّهِ لَهُمْ عَذَابٌ أَلِيمٌ﴾

**“Münafiqlərdən bə`ziləri Peyğəmbəri incidir və deyirlər: “O, başdan-ayağa qulaqdır (hər kəsin dediyinə qulaq asır.) De ki, onun dinləməyi sizin xeyrinizədir. O, Allaha inanır, mö`minləri təsdiq edir və sizlərdən iman gətirmiş hər bir kəs üçün rəhmət səbəbidir. Allahın rəsulunu incidənlər üçün ağrılı əzab vardır.”**

---

[1] “Tövbə”, 103.

## *Nöqtələr*

◘“Minhum” deyilərkən ya münafiq bir dəstə, ya da qorxudan cəbhədə iştirak etməyib döyüşdən sonra üzr və bəhanə gətirən süst imanlı fərdlər nəzərdə tutulur.

◘Rəvayətlərin bildirdiyinə görə, Peyğəmbər (s) Həzrət Əli (ə) ilə daimi təmasda olduğundan bə`zi münafiqlər onu sadəlövh və tez inanan kimi tanıtdırırdılar.[1]

◘Həzrət Peyğəmbər (s) buyurmuşdur: “Allahın lə`nəti olsun mənim əhli-beytimi incidən kəsə.”

Həzrət (s) öz qızı Fatimə (s) haqqında belə buyurmuşdur: “Fatiməni incidən məni incitmişdir.”[2]

## *Bildirişlər*

1. Həzrət Peyğəmbəri (s) ardıcıl şəkildə incidənlər vardı.
2. Peyğəmbərin (s) səhabələri arasında ədalətli olmayanlar, onu incidənlər vardı.
3. Ümmətin rəhbəri həm özününkülərin, həm də biganələrin əziyyətinə mə`ruz qalır.
4. Peyğəmbəri (s) incitmək küfrdür.[3]
5. Münafiqlər hətta Peyğəmbərə (s) qarşı təbliğat aparır, quyu qazırdılar.
6. Allah-təalaÖ Peyğəmbərini (s) müxaliflərin gizli söhbətlərindən və planlarından xəbərdar edirdi.
7. Sadəlövhlükdə ittiham edilsəniz də, bütün xalqa danışmaq icazəsi verin ki, “bizi dinləyən yoxdur” deyə bilməsinlər.
8. İnsanın bütün vücudu ilə danışana qulaq asması dinləmə ədəblərindəndir.”Başdan-ayağa qulaqdır” tə`biri qeyd olunan hala işarədir.
9. Bə`zən ümmətin ümumi xeyri üçün müəyyən sözlərdən vaz keçmək lazım gəlir.
10. Bə`zən tərbiyəvi, ictimai-siyasi baxımdan sükut danışmaqdan daha əhəmiyyətli olur.
11. Agah rəhbərin xüsusiyyətlərindən biri onun qəlb genişliyi, bütün dəstələrin sözünü dinləməsi, ətrafdakılarla xoş rəftar etməsi, eybləri örtməsi və xalq üçün tövbə yolu qoymasıdır.
12. Xoş üz və açıq qəlblə xalqı dinləyək.
13. Bir sözü eşidib susmaq həmin sözlə razı olmaq nişanəsi deyildir.
14. Əziyyətə düşmüş kəsi himayə edin. Peyğəmbəri (s) ittiham edənlərə Allah-təala o həzrətin dörd səciyyəsini sadalamaqla cavab verir.
15. Mö`min şəxslər bir xəbər gətirdikdə onu təsdiq edin.
16. Peyğəmbər (s) bütün aləmdə olanlara rəhmətdirsə də, bu rəhmətdən yalnız iman əhli bəhrələnir.
17. Peyğəmbəri (s) incitməkdən qorxun.

---

[1] “Təfsire-Nurus-səqəleyn”.
[2] “Molhəqati-ihqaqil-həqq.” 18, s. 439, 458.
[3] “Təfsire-əl-minar”.

**Ayə 62:**

﴿يَحْلِفُونَ بِاللّهِ لَكُمْ لِيُرْضُوكُمْ وَاللّهُ وَرَسُولُهُ أَحَقُّ أَن يُرْضُوهُ إِن كَانُواْ مُؤْمِنِينَ﴾

**“(Münafiqlər) and içirlər ki, sizi razı sala bilsinlər. Halbuki iman gətirsəydilər, Allah və Onun rəsulunu razı salmaq daha yaxşı olardı.”**

## *Bildirişlər*

1. Münafiq daim qorxu, dəhşət və iztirab içindədir. O, yalan andlarla xalqın inamından istifadə edib diqqəti özünə cəlb etmək istəyir.
2. Hər anda aldanmayın. Çünki bə`zən müqəddəsliklər çirkin insanların əlində alətə çevrilir.
3. Həqiqi mö`min üçün xalqın yox, Allahın razılığı mühümdür.
4. Peyğəmbərin (s) razılığı elə Allahın razılığıdır.
5. Xalqın razılığını Allahın razılığından üstün tutan kəsin nifaqdan payı var və belə bir şəxs məzəmmət olunmalıdır.

**Ayə 63:**

﴿أَلَمْ يَعْلَمُواْ أَنَّهُ مَن يُحَادِدِ اللّهَ وَرَسُولَهُ فَأَنَّ لَهُ نَارَ جَهَنَّمَ خَالِدًا فِيهَا ذَلِكَ الْخِزْيُ الْعَظِيمُ﴾

**“Bilmədilərmi ki, hər kəs Allah və Onun rəsulu ilə düşmənçilik etsə, cəzası cəhənnəm odudur və daim orada qalacaq? Budur böyük rüsvayçılıq!”**

## *Nöqtələr*

◘“Yuhadidillah” tə`biri ya Allahın qüdrətini məhdudlaşdırmaq mə`nasındadır, ya da Allahı əli bağlı bilmək mə`nasında.

Fəxr-Razi bu tə`biri “Hədid” sözünün əsasında sərtlik kimi mə`nalandıraraq demişdir: “Muhaddət” ya ilahi qanunlar çərçivəsini aşmaq, ya da özünü bir, Allahı digər bir tərəfdə bilmək mə`nasını daşıyır.

## *Bildirişlər*

1. Həqiqi rəhbərə qarşı müxalifət Allaha qarşı müxalifətdir.
2. Yalan and içməklə şəxsiyyəti qorumaq Allahla düşmənçilik nümunəsidir.
3. Agah insanların Allahın dininə qarşı sərtliyi əbədi cəhənnəmlə nəticələnir.
4. Cəhənnəm haqqında düşünmək insanı inadkarlıqdan çəkindirə bilər.

**Ayə 64:**

﴿يَحْذَرُ الْمُنَافِقُونَ أَن تُنَزَّلَ عَلَيْهِمْ سُورَةٌ تُنَبِّئُهُمْ بِمَا فِي قُلُوبِهِم قُلِ اسْتَهْزِؤُواْ إِنَّ اللّهَ مُخْرِجٌ مَّا تَحْذَرُونَ﴾

**“Münafiqlər qorxurlar ki, onların içindəkilərdən xəbər verən zərərlərinə tamamlanacaq bir surə nazil olsun. De ki, (istədiyiniz qədər) məsxərə edin. Şübhəsiz, Allah qorxduğunuz şeyləri aşkar edəcək.”**

## *Nöqtələr*

◘Ayənin nazil olma şə`ni haqqında deyilir: Münafiqlərdən bir dəstəsi qərara gəldilər ki, Təbuk döyüşündə qayıdarkən aşırımlardan birində Peyğəmbərin (s) dəvəsini hürküdüb onu qətlə yetirsinlər. Bu məsələ vəhy vasitəsi ilə Peyğəmbərə (s) xəbər verildi.

Həzrət Peyğəmbər (s) Əmmar və Hüzeyfənin müşayiəti ilə aşırıma çatdı. Münafiqlər hücuma keçdilər. Peyğəmbər (s) onları tanıyıb adlarını Hüzeyfəyə dedi. O soruşdu: “Nə üçün qətllərinə fərman vermirsən?” Həzrət (s) buyurdu: “İstəmirəm desinlər ki, Məhəmməd (s) qüdrətə çatandan sonra müsəlmanları öldürdü.”[1]

◘Münafiqlər Peyğəmbərin (s) arxasınca istehza ilə deyirdilər: “O Şam saraylarını fəth etmək istəyir.” Ayə nazil oldu və onlar rüsvayçılıqla hədələndilər.[2]

◘“Surə” deyərkən ilahi ayələr məcmusu nəzərdə tutulur. Qur`anın yüz on dörd hissəsi ilkin İslam dövründən surə adlandırılmışdır.

## *Bildirişlər*

1. Münafiq qorxur ki, hər an onun iç üzü açıla bilər.
2. Münafiqlər bilirdilər ki, Allah onların işindən agahdır, İslam Peyğəmbəri (s) haqdır və onun Allahla rabitəsi var. Bu səbəbdən də surələrin nazil olması onları narahat edirdi.
3. Qur`an ayələri ehtiyaclara uyğun tədricən nazil olmuşdur.
4. İstehza münafiqlərə məxsus şivədir. (İstehza deyərkən nifaq da nəzərdə tutula bilər.)
5. Münafiqlərin ifşa olunması ilahi sünnə və və`dlərdəndir.
6. Allahın iradəsi münafiqlərin istəklərinə qalibdir.
7. Münafiqləri hədələmək zəruridir.

**Ayə 65:**

﴿وَلَئِن سَأَلْتَهُمْ لَيَقُولُنَّ إِنَّمَا كُنَّا نَخُوضُ وَنَلْعَبُ قُلْ أَبِاللّهِ وَآيَاتِهِ وَرَسُولِهِ كُنتُمْ تَسْتَهْزِؤُونَ﴾

**“Əgər münafiqlərdən (nə üçün məsxərə etdiklərini) soruşsan, şübhəsiz ki, deyərlər: “Biz yalnız zarafat edir, əylənirik.” De ki, yoxsa Allahı, Onun ayələrini və Peyğəmbərini (s) məsxərəyə qoyursunuz?!”**

---

[1] “Təfsire-Əl-mizan”; “Təfsire-Fi Zilalil Qur`an”; “Təfsire-Məcməül-bəyan”; “Təfsire-Kəbire-Fəxr Razi”; “Təfsire-nümunə”.

[2] “Təfsire-Məcməül-bəyan”.

## *Nöqtələr*

“Xəvz” sözü palçığa batmaq (qədəm qoymaq) mə`nasını bildirir. Bu söz Qur`anda çirkin işlərə yol vermək mə`nasında işlədilmişdir.

Ayə Təbuk döyüşünə aiddir. Həmin döyüş ki, münafiqlər həzrət Peyğəmbəri (s) qətlə yetirmək fikrinə düşmüşdülər. Onlardan biri demişdi: “Əgər qurğumuz faş olsa, nə edək?” O biri demişdi: “Deyərik ki, əylənirdik.” Əslində günahdan da pis bir üzr gətirdilər.”[1]

## *Bildirişlər*

1. Yalan və don geyindirmək münafiqlərin daimi işlərindəndir.
2. Hətta qurğu ifşa olunmamış geri çəkilmək, zəiflik göstərmək, yalan və müxaliflik münafiqin nişanələrindəndir.
3. Allah münafiqlərin bəhanələri və gələcəkləri haqqında xəbər vermiş, onları rüsvay etmişdir.
4. Münafiqlər özlərinə haqq qazandırmaq üçün həm and içirdilər, həm də zarafat etdiklərini bildirirdilər.
5. Peyğəmbər (s) münafiqləri qınamağa borcludur.
6. Dini müqəddəsliklərlə zarafata icazə yoxdur.

**Ayə 66:**

﴾لاَ تَعْتَذِرُواْ قَدْ كَفَرْتُم بَعْدَ إِيمَانِكُمْ إِن نَّعْفُ عَن طَآئِفَةٍ مِّنكُمْ نُعَذِّبْ طَآئِفَةً بِأَنَّهُمْ كَانُواْ مُجْرِمِينَ﴿

**“(Səbəbsiz) üzr və bəhanə gətirməyin. Həqiqətən, siz iman gətirdikdən sonra kafir oldunuz. Əgər sizdən bir dəstəsini bağışlasaq, başqa bir dəstənizi keçmiş günahlarına görə cəzalandırarıq.”**

## *Nöqtələr*

◘Hansı münafiqlərin bağışlana biləcəyi barədə müəyyən bildirişlər var: tövbə edənlər[2]; istehza edənlərin yanında olsalar da, bu işə rəhbərlik edənlərdən sayılmayanlar[3]; bağışlanması məsləhət olanlar[4]; qısa bir müddət yolunu azıb köklü və davamlı günaha batmayanlar.

## *Bildirişlər*

1. Yalançıların və məsxərə edənlərin üzrü bə`zən qəbul olmur.
2. Mürtədlik səbəbindən üzr qəbul olunmur.
3. Bugünkü imanımıza görə qürrələnməyək. Çünki daim pis aqibət təhlükəsi var.

---

[1] “Təfsire-Məcməül-bəyan”.
[2] “Təfsire-Məcməül-bəyan”.
[3] “Təfsire-Kəbire-Fəxr Razi”.
[4] “Təfsire-Əl-mizan”.

4. Allah, Onun peyğəmbəri və ilahi ayələrə istehza küfrdür.

5. Münafiq əslində kafirdir.

6. Müxalifləri və münafiqləri hədələyərkən bütün yolları bağlamayaq.

7. Bə`zi münafiqlər tövbə etsələr, bağışlana bilərlər. (Nifaqın da dərəcələri var.)

8. Münafiqlər keçmiş küfr və günahlarına görə cəzalandırılırlar.

**Ayə 67:**

**﴿الْمُنَافِقُونَ وَالْمُنَافِقَاتُ بَعْضُهُم مِّن بَعْضٍ يَأْمُرُونَ بِالْمُنكَرِ وَيَنْهَوْنَ عَنِ الْمَعْرُوفِ وَيَقْبِضُونَ أَيْدِيَهُمْ نَسُواْ اللّهَ فَنَسِيَهُمْ إِنَّ الْمُنَافِقِينَ هُمُ الْفَاسِقُونَ﴾**

**“Münafiq kişilər və qadınlar bir-birlərindəndirlər. Onlar pis işə çağırır, yaxşı işə qadağa qoyurlar. Öz əllərini (bəxşiş və infaqda) bağlayırlar. Onlar Allahı yaddan çıxarmışlar. Allah da onları yaddan çıxarmışdır. Həqiqətən, münafiqlər həmin fasiqlərdir.”**

## *Nöqtələr*

◘İlkin İslam dövründə kişilər kimi fəsada uğramış münafiq qadınlar da var idi.

◘***Sual***: Allahda unutqanlıq olmadığı halda[1] Onun münafiqləri unutmasını necə başa düşmək olar?

***Cavab***: Allahın kimlərisə unutması məcazi mə`na daşıyır. Yə`ni Allah onlarla yaddan çıxmış kimi rəftar edir.

İmam Riza (ə) buyurmuşdur: “Allahı və qiyaməti unutmuş kəsin cəzası onun özünü unutmasıdır.”[2] Həzrət Əli (ə) buyurmuşdur: “Allahın unutması dedikdə Onun kimlərisə xeyirdən məhrum etməsi nəzərdə tutulur.”[3]

## *Bildirişlər*

1. Cəmiyyətin islahında həm qadın, həm də kişinin rolu var.

2. Münafiqlərdən bə`ziləri rəhbər, bə`ziləri ardıcıl rolunu oynayır.

3. Nifaq əhli müxtəlif dərəcələrə malik olsalar da, onların üsul və əməlləri müştərəkdir.

4. Münafiqlər sizinlə olduqlarına and içsələr də, onlara inanmayın.

5. Münafiqlər arasında möhkəm rabitə var.

6. Pis işlərin yayılması, günaha də`vət və yaxşılığa qadağa nifaq nişanələridir.

7. Münafiq düşüncəsində xeyirxahlığa yer yoxdur.

8. “Əmr be mə`ruf və nəhy əz münkər”in, eləcə də, Allah yolunda infaqın tərki Allahı unutmaq nişanəsidir.

9. İlahi lütfdən məhrum qalmaq və unudulmaq Allahı unutmağın nəticələridir.

10. İlahi cəzalar insanın əməllərinə münasibdir.

---

[1] “Məryəm”, 64.

[2] “Təfsire-Nurus-səqəleyn”.

[3] “Təfsire-bürhan”.

11. Münafiqlər öz hesablarında Allahı yox, xalqı nəzərə alırlar.
12. Nifaq və ikiüzlülük azğınlıqdır.

**Ayə 68:**

﴿وَعَدَ الله الْمُنَافِقِينَ وَالْمُنَافِقَاتِ وَالْكُفَّارَ نَارَ جَهَنَّمَ خَالِدِينَ فِيهَا هِيَ حَسْبُهُمْ وَلَعَنَهُمُ اللّهُ وَلَهُمْ عَذَابٌ مُّقِيمٌ﴾

**“Allah münafiq kişi və qadınlara, kafirlərə daim qalacaqları cəhənnəm odu və`d etmişdir. O (cəhənnəm) bəsləridir. Allah onları lə`nətləmişdir və onlar üçün davamlı əzab var.”**

## *Bildirişlər*

1. Qadın və kişi ilahi vəzifələr qarşısında bərabərdir.
2. İlahi cəzalar öz əməllərimizin nəticəsidir. (65-ci ayədə münafiqlər müsəlmanlara istehza edirdilər. Bu ayədə Allah “vəədə” və “həsbuhum” tə`birləri ilə bir növ münafiqlərə istehza edir)
3. Cəhənnəm və`di öncə münafiqlərə, sonra kafirlərə aiddir.
4. Münafiqlər dünyada mö`minlərin kənarında dayansa da, axirətdə kafirlərlə olasıdırlar.
5. Cəhənnəm bütün dərd-bəlaların məcmusudur. Münafiqlər və kafirlər üçün cəhənnəm bəs edər.

**Ayə 69:**

﴿كَالَّذِينَ مِن قَبْلِكُمْ كَانُواْ أَشَدَّ مِنكُمْ قُوَّةً وَأَكْثَرَ أَمْوَالاً وَأَوْلاَدًا فَاسْتَمْتَعُواْ بِخَلاقِهِمْ فَاسْتَمْتَعْتُم بِخَلاَقِكُمْ كَمَا اسْتَمْتَعَ الَّذِينَ مِن قَبْلِكُمْ بِخَلاَقِهِمْ وَخُضْتُمْ كَالَّذِي خَاضُواْ أُوْلَئِكَ حَبِطَتْ أَعْمَالُهُمْ فِي الدُّنْيَا وَالآخِرَةِ وَأُوْلَئِكَ هُمُ الْخَاسِرُونَ﴾

**“(Siz münafiqlərin halı) sizdən əvvəlkilərinki kimidir. (Halbuki) onlar sizdən daha güclü, daha varlı idilər və daha çox övladları vardı. Onlar öz paylarını aldılar. Siz də özünüzdən əvvəlkilər kimi bəhrələndiniz. (Öz batil yolunuzda) itib-batdınız. Onların əməlləri dünya və axirətdə puça çıxdı, onlar həmin ziyankarlardırlar.”**

## *Nöqtələr*

◘Ayədəki “xəlaq” sözü “mütləq bəhrə” mə`nasını bildirir. Halbuki bu sözün lüğət mə`nası əxlaq, insanın əldə etdiyi səciyyələrdir.

◘Dünyada əməllərin puça çıxması deyərkən, münafiqlərin iç üzünün açılması, yaxşı işlərinin dəyərdən düşməsi nəzərdə tutula bilər.

## *Bildirişlər*

1. Ümmətlərin tarixi və taleyi bir-birinə oxşardır.
2. Küfr və nifaq yolu həmişə olmuşdur və ilahi sünnə də eyni deyil.
3. Hərbi, iqtisadi və canlı qüvvə ilahi qəzəbə mane ola bilməz.
4. Münafiqlər, kafirlər öz güclərinə, mal-dövlətlərinə və övladlarına güvənirlər.
5. Dünyəvi manafe`lərdən bəhrələnmək üçün iman şərt deyil, kafirlərin və münafiqlərin də payı var.
6. Dünyəvi ləzzətlər ötəridir.
7. Peyğəmbər müxaliflərinin dünyadan bəhrələnməsi onların xasiyyət və sə`ylərindən asılıdır.
8. Bütün ləzzətləri və ne`mətləri ilahi lütf saymaq olmaz.
9. Allah-təala dünyada azğınlar üçün də pay ayırmışdır. Axirətdə isə onların əli boşdur.[1]
10. Fəsad etmək və dinlə döyüşə qalxmaq süqut amilidir. Hər bir günahdan sonra tövbə və haqqa qayıdış insanı xilas edə bilər.
11. Küfr və nifaq xeyir əməli puça çıxarır.

**Ayə70:**

﴿أَلَمْ يَأْتِهِمْ نَبَأُ الَّذِينَ مِن قَبْلِهِمْ قَوْمِ نُوحٍ وَعَادٍ وَثَمُودَ وَقَوْمِ إِبْرَاهِيمَ وَأَصْحَابِ مَدْيَنَ
وَالْمُؤْتَفِكَاتِ أَتَتْهُمْ رُسُلُهُم بِالْبَيِّنَاتِ فَمَا كَانَ اللّهُ لِيَظْلِمَهُمْ وَلَكِن كَانُواْ أَنفُسَهُمْ
يَظْلِمُونَ﴾

**“Özlərindən qabaqkıların, Nuh, Ad, Səmud, İbrahim qövmünün, Mədyən əshabının, alt-üst olmuş şəhərlərin xəbəri onlara çatmayıbmı? Peyğəmbərləri onlar üçün aşkar dəlillər gətirdilər (amma onlar inadkarlıq göstərib məhv oldular.) Allah onlara zülm etmədi. Onlar özləri özlərinə zülm etdilər.”**

## *Nöqtələr*

◘Nuh qövmü qərq olmaqla, Ad qövmü soyuq və zəhərli yellərlə, Səmud qövmü zəlzələ ilə, Mədyən qövmü odlu yağışla, Lut qövmü məskənlərinin xaraba qalmasıyla həlak oldu.

◘“Mo`təfikat” dedikdə “alt-üst olma” başa düşülür. Ayədə bu söz Lut qövmünün əzabına işarədir.

## *Bildirişlər*

1. Dünyəvi əzab və cəza ilahi sünnə, qanunlardandır.

---

[1] “Ali-İmran”, 77.

2. Agah insan daha çox məs`uldur. Peyğəmbər dövrünün insanları keçmiş qövmlərin aqibətindən agah idilər.

3. Keçmiş qövmlərin tarixi ilə tanışlıq mühümdür.

4. Tarixdən ibrət götürməyənlər məzəmmətə layiqdirlər. Bu gün üçün ən üstün dərs keçmiş tarixdən ibrət götürməkdir.

5. İlahi qəhr-qəzəb xəbərdarlıq başa çatdıqdan sonra nazil olur.

6. İlahi göstərişə itaətsizlik insanın özünə zülmüdür.

7. İnsan ixtiyar sahibidir və o, mö`cüzə ilə rastlaşdıqda müstəqil qərar çıxara bilər.

8. İlahi qəhr-qəzəbin səbəbi zülmün davamıdır.

**Ayə 71:**

﴿وَالْمُؤْمِنُونَ وَالْمُؤْمِنَاتُ بَعْضُهُمْ أَوْلِيَاء بَعْضٍ يَأْمُرُونَ بِالْمَعْرُوفِ وَيَنْهَوْنَ عَنِ الْمُنكَرِ
وَيُقِيمُونَ الصَّلاَةَ وَيُؤْتُونَ الزَّكَاةَ وَيُطِيعُونَ اللّهَ وَرَسُولَهُ أُوْلَـئِكَ سَيَرْحَمُهُمُ اللّهُ إِنَّ اللّهَ
عَزِيزٌ حَكِيمٌ﴾

**"İmanlı kişilər və qadınlar bir-birlərinin köməkçisi və himayədarıdırlar. (Onlar) yaxşılığı əmr edir, pisliyə qadağa qoyur, namazı iqamə edir, zəkat ödəyir, Allah və Onun rəsuluna itaət göstərirlər. Tezliklə Allah onları Öz rəhmətində qərar verəcəkdir. Həqiqətən, Allah qalibdir (qüvvəli) və hikmət sahibidir."**

## *Nöqtələr*

◘67-ci ayədə münafiqlər haqqında "bə`zuhum min bə`z" ("bir-birlərindəndir") tə`biri işlədilmişdi. Bu ayədə isə mö`minlər haqqında buyurulur: "Bir-birlərinin köməkçisi və himayədarıdırlar." Ola bilsin ki, bu fərq münafiqlər arasında dərin vəhdət, vilayət bağlılığının olmamasından doğur. Münafiqlərin birliyi zahiridir və onlar bu birliyi şəxsi mənafeyə qurban verirlər. Qur`an buyurur: "Onların vəhdətdə olduğunu güman edirsən, halbuki qəlbləri dağınıqdır."[1]

◘Yaxşılıq əmri və pisliyə qadağa digər vacib göstərişlərin icrasına şərait yaratdığından bu ayədə həmin əmr namaz və zəkat əmrindən öndə gəlir.[2]

## *Bildirişlər*

1.Cəmiyyətin islahında həm qadın, həm də kişinin rolu var.

2. İslam cəmiyyətində mö`minlər arasında himayə, yardım, nəzarət haqqı müəyyənləşdirilmişdir. Mö`minlər bir-birlərinə biganə deyillər.

3. Bütün imanlı kişi və qadınlara vacib buyurulmuş yaxşılıq əmri və pisliyə qadağa vəzifəsi qarşılıqlı himayə haqqına əsaslanır.

4. "Əmr be mə`ruf" və "nəhy əz münkər" (yaxşılıq əmri və pisliyə qadağa) zəif mövqedən bəyan olunmamalıdır.

5. Əmr və qadağa yalnız məhəbbət və vilayət sayəsində gerçəkləşə bilər.

6. Bütün ibadətlər yoxsullara diqqət və qayğı ilə müşayiət olunmalıdır.

7. Fərd və cəmiyyətin islahında imanın mühüm rolu var.

8. Əmr və qadağa, namazın bərpası, zəkat ödənməsi, Allah və Onun rəsuluna itaət mö`minlərin daimi vəzifələrindəndir.

9. Başqalarını xeyir əmələ çağıran özü də xeyir əhli olmalıdır.

10. Allah və Onun rəsuluna həvəslə itaət edilməlidir.

11. İbadi proqramlarda Allaha, hökumət proqramlarında peyğəmbərə itaət zəruridir.

---

[1] "Həşr", 14.

[2] "Tuhəful-Uqul".

12. İlahi rəhməti doğuran amil insanın öz əməlləridir.
13. İlahi rəhmətin əldə olunmasında qadın və kişi barabərdir.

**Ayə 72:**

﴿وَعَدَ اللّهُ الْمُؤْمِنِينَ وَالْمُؤْمِنَاتِ جَنَّاتٍ تَجْرِي مِن تَحْتِهَا الأَنْهَارُ خَالِدِينَ فِيهَا وَمَسَاكِنَ طَيِّبَةً فِي جَنَّاتِ عَدْنٍ وَرِضْوَانٌ مِّنَ اللّهِ أَكْبَرُ ذَلِكَ هُوَ الْفَوْزُ الْعَظِيمُ﴾

**“Allah imanlı kişi və qadınlara (ağacları) altından çaylar axan və əbədi qalacaqları bağlar, Ədn behiştdə könül oxşayan məskənlər və`d etmişdir. Amma Allahın razılığı daha üstün və ucadır. Bu həmin böyük qurtuluşdur.”**

## *Nöqtələr*

◘Bu ayə ötən ayədə haqqında danışılan rəhmətin necə gerçəkləşəcəyini bəyan edir.

◘Rəvayətlərə əsasən, “Ədn cənnətlər” dedikdə behiştin ən üstün və şərif məntəqəsi, peyğəmbərlərin, siddiqlərin və şəhidlərin yeri, gözəllik baxımından kimsənin xəyalına gəlməyəcək bir məkan nəzərdə tutulur.[1]

Surənin 67-68-ci və 71-72-ci ayələrinə əsasən, nifaq əhli ilə iman əhli arasında səkkiz fərqli səciyyə qeyd etmək olar.

| Nifaq Əhli | İman Əhli |
|---|---|
| بَعْضُهُمْ مِنْ بَعْض<br>“Bir-birlərindəndirlər.” | بَعْضُهُمْ اَوْلِياءُ بَعْض<br>“Bir-birinin himayədarıdır-lar.” |

[1] “Təfsire-kənzüd-dəqaiq”.

| | |
|---|---|
| يَأْمُرُونَ بالْمُنْكَرِ وَ يَنْهَوْنَ عَنِ الْمَعْرُوف<br>“Onlar pis işə çağırır, yax-şı işə qadağa qoyurlar.” | يَأْمُرُونَ بِالْمَعْرُوفِ وَ يَنْهَوْنَ عَنِ الْمُنْكَرِ<br>“Onlar yaxşılığı əmr edir, pisliyə qadağa qoyur.” |
| نَسُوا اللّٰهَ<br>“Onlar Allahı yaddan çıxar-mışlar.” | يُقِيمُونَ الصَّلَوةَ<br>“Namazı iqamə edir.” |
| يَقْبِضُونَ اَيْدِيَهُمْ<br>“Öz əllərini (bəxşiş və in-faqda) bağlayırlar.” | يُؤْتُونَ الزَّكَوةَ<br>“Zəkat ödəyir.” |
| فاسِقُونَ<br>“Həqiqətən, münafiqlər hə-min fasiqlərdir.” | يُطِيعُونَ اللّٰهَ<br>“Allaha itaət göstərirlər.” |
| نَارُ جَهَنَّم<br>Cəhənnəm odu və`d etmişdir.” | جَنَّات، مَساكِن<br>“Əbədi qalacaqları bağlar, könül oxşayan məskənlər və`d etmişdir.” |
| لَعَنَهُمُ اللّٰه<br>Allah onları lə`nətləmiş-dir.” | رِضْوانٌ مِنَ اللّٰه<br>“Allahın razılığı.” |
| عَذابُ جَهَنَّم<br>“Onlar üçün davamlı əzab var.” | فَوْزٌ عَظِيم<br>“Böyük qurtuluş.” |

## *Bildirişlər*

1. İlahi mükafatın əldə olunmasında qadın və kişi bərabərdir.
2. Behiştin ən böyük imtiyazı onun və ondakı ne`mətlərin əbədiliyidir.
3. Axirət həyatı təkcə mə`nəvi deyil. Bu həyat həm də maddi, cismanidir.
4. Yaxşı məskən yaxşı məntəqədə yerləşdikdə dəyərli olur.
5. İnsan təbiətindəki suya, yaşıllığa, bağ-bağçaya, mənzilə olan meyllərdən onun mə`nəviyyata meyli üçün istifadə edək.
6. Behiştin mə`nəvi ləzzətləri onun maddi ləzzətlərindən üstündür.
7. Behiştin də dərəcələri və mərtəbələri var.
8. Axirət mükafatına və ilahi razılığa çatmaq böyük qurtuluşdur.

**Ayə 73:**

﴿يَا أَيُّهَا النَّبِيُّ جَاهِدِ الْكُفَّارَ وَالْمُنَافِقِينَ وَاغْلُظْ عَلَيْهِمْ وَمَأْوَاهُمْ جَهَنَّمُ وَبِئْسَ الْمَصِيرُ﴾

**“Ey peyğəmbər! Kafirlər və münafiqlərlə vuruş, onlarla sərt ol, onların yeri cəhənnəmdir və pis aqibətləri var.”**

## *Nöqtələr*

Nə qədər ki, münafiqlər döyüşə qalxmayıb və kafirlər kimi hərbə əl atmayıblar, onlarla yalnız dillə cihad aparılmalıdır.[1]

Peyğəmbər (s) bu ayədən öncə münafiqlərlə mərhəmətli rəftar edirdi. Ayə nazil olduqdan sonra həzrət onlara qarşı sərt mövqe tutdu.[2]

## *Bildirişlər*

1. Cihad müsəlmanların rəhbərinin göstəriş və nəzəri əsasında gerçəkləşməlidir.
2. İslam quruluşunda hərbi qüvvələrin baş komandanı rəhbərdir.
3. İslam cihad, küfr və nifaqla mübarizə ayinidir.
4. Həm aşkar xarici, həm də gizli daxili düşmənlərlə mübarizə aparaq.
5. Müsəlmanların rəhbəri zalım qüvvələr qarşısında ciddi mövqe tutmalıdır.
6. Peyğəmbər rəhmət qaynağı olsa da, düşmənlərin küfr və nifaqı səbəbindən sərt rəftar əmri almışdır.
7. Kafir və münafiqlərin dünyəvi cəzası onlarla cihad, axirət cəzası isə cəhənnəmdir.
8. Münafiqi pis aqibət gözləyir.

---

[1] "Təfsire-əl-minar".

[2] "Təfsire-Fi Zilalil Qur`an".

**Ayə 74:**

﴿يَحْلِفُونَ بِاللّهِ مَا قَالُواْ وَلَقَدْ قَالُواْ كَلِمَةَ الْكُفْرِ وَكَفَرُواْ بَعْدَ إِسْلاَمِهِمْ وَهَمُّواْ بِمَا لَمْ يَنَالُواْ وَمَا نَقَمُواْ إِلاَّ أَنْ أَغْنَاهُمُ اللّهُ وَرَسُولُهُ مِن فَضْلِهِ فَإِن يَتُوبُواْ يَكُ خَيْرًا لَّهُمْ وَإِن يَتَوَلَّوْا يُعَذِّبْهُمُ اللّهُ عَذَابًا أَلِيمًا فِي الدُّنْيَا وَالآخِرَةِ وَمَا لَهُمْ فِي الأَرْضِ مِن وَلِيٍّ وَلاَ نَصِيرٍ﴾

**“(Münafiqlər) Allaha and içirlər ki, (küfr sözlər) danışmamışlar. Halbuki şübhəsiz, küfr demişlər. Onlar İslamı qəbul etdikdən sonra kafir oldular. Elə bir qərara gəldilər ki, ona əlləri çatmadı. (Peyğəmbəri qətlə yetirə bilmədilər.) Allah və rəsulunun onları öz lütfündən ehtiyacsız etməsindən savay (peyğəmbər və mö`minlər üçün) bir eyb tapmadılar. (Bununla belə,) əgər tövbə etsələr, onlar üçün daha yaxşıdır. Əgər üz döndərsələr, Allah onları dünya və axirətdə ağrılı əzaba düçar edər və yer üzündə onlar üçün heç bir dost və yardımçı tapılmaz.”**

## *Nöqtələr*

◘66-cı ayədə peyğəmbərin dili ilə münafiqlərə belə deyildi: “İman gətirdikdən sonra kafir oldunuz.” Bu ayədə isə Allah-təala belə buyurur: “Onlar İslamı qəbul etdikdən sonra kafir oldular.” Peyğəmbər “iman”, Allah isə “İslam” tə`birlərini işlətmişdir. Çünki peyğəmbər onları zahirən mö`min sayırdı. Amma Allah onların içindən xəbərdar olduğu üçün öz buyruğunda həmin tərəfi “mö`min” yox, “müsəlman kimi təqdim edir.

◘Ayədə münafiqlərin peyğəmbər və İslam ziddinə yönəlmiş bütün fitnələri nəzərdə tutulur. Amma əksər şiə və sünni təfsirlərində “leylətul-əqəbə” fitnəsi yada salınır. Münafiqlər həmin plana əsasən peyğəmbərin dəvəsini hürkütməklə onu aşırıma yuvarladıb qətlə yetirməli idilər. Amma onların qurğuları faş oldu və öz məqsədlərinə çata bilmədilər.

◘Nəql edirlər ki, Təbuk savaşında həzrət Peyğəmbər (s) çıxış etdiyi vaxt Həllas adlı bir münafiq dedi: “Əgər peyğəmbərin dedikləri düzdürsə, biz ulaqdan da pisik.” Amir ibn Qeys adlı səhabə onun sözlərini Peyğəmbərə (s) çatdırdı. Həzrət Peyğəmbər (s) münafiqi bu məsələ ilə bağlı sorğuya çəkdikdə, o, Amirin sözlərini inkar etdi. Peyğəmbərin göstərişi ilə hər iki şəxs minbərə yaxınlaşıb and içdi. Amma ayə nazil oldu və münafiqin yalanı üzə çıxdı.[1]

## *Bildirişlər*

1. Yalan və yalan and münafiqlik nişanələrindəndir.
2. Münafiqlər naşükürdürlər. Onlar İslam sayəsində xoş günə çatsalar da, eyb axtarmaqdan əl çəkmirlər.

---

[1] “Təfsire-Əl-mizan”.

3. Allahla yanaşı peyğəmbərin adını çəkib, hər hansı işi onların ikisinə də aid etmək şirk deyil.

4. Fəzilət qaynağı yalnız Allahdır. (62-ci ayədə də deyildiyi kimi.)

5. İslam ideoloji və əxlaqi tərbiyə ilə yanaşı maddi durumu da yaxşılaşdırdı.

6. Hətta peyğəmbəri qətlə yetirmək istəyənlər üçün də tövbə yolu açıqdır.

7. Münafiqlərin dünya həyatı da əzab içində keçir. Çünki yaranış nizamı sədaqət üzərində qurulmuşdur.

8. Münafiqlərin dünya əzabı onları daim iztirabda saxlayan himayəsizlik və mövqesizlikdir.[1]

9. Münafiqlər işin sonunda tənha qalar, onların təşkilatları dağılar. Onları nə xalq, nə də hakimiyyətlər himayə edər.

**Ayə 75:**

﴿وَمِنْهُم مَّنْ عَاهَدَ اللّهَ لَئِنْ آتَانَا مِن فَضْلِهِ لَنَصَّدَّقَنَّ وَلَنَكُونَنَّ مِنَ الصَّالِحِينَ﴾

**“Onlardan bə`ziləri Allahla belə bir peyman bağlamışdılar: Əgər Allah Öz fəzlindən bizə əta etsə, hökmən sədəqə verəcək və salehlərdən olacağıq.”**

**Ayə 76:**

﴿فَلَمَّا آتَاهُم مِّن فَضْلِهِ بَخِلُواْ بِهِ وَتَوَلَّواْ وَّهُم مُّعْرِضُونَ﴾

**“Elə ki, Allah onlara Öz fəzlindən əta etdi, xəsislik göstərdilər, arxa çevirib üz döndərdilər.”**

## *Nöqtələr*

◘Mədinədən olan yoxsul bir müsəlman (Sə`ləbə ibn Hatəb) var-dövlət sahibi olmaq üçün Peyğəmbərdən (s) dua istədi. Həzrət buyurdu: “Şükrünü yerinə yetirə biləcəyin az mal, şükrünü yerinə yetirə bilməyəcəyin çox maldan üstündür. “Sə`ləbə dedi: “Əgər Allah əta etsə, bütün vacib haqları ödəyəcəyəm.” Həzrət Peyğəmbər (s) həmin şəxs üçün dua etdi və o, var-dövlət sahibi oldu. Onun işi o qədər artdı ki, hətta cümə və cəmiyyət namazına gələ bilmədi. Zəkat yığan mə`mur onun yanına gedib müraciət etdikdə belə dedi: “Biz müsəlman olmuşuq ki, cizyə ödəməyək!”[2]

Fəxr-Razi deyir: “Sə`ləbə öz əməlindən peşman oldu və öhdəsinə düşən zəkatı həzrət Peyğəmbərin (s) hüzuruna gətirdi. Amma həzrət bu zəkatı qəbul etmədi.

Bəli, insan bilmir ki, onun məsləhəti, xeyiri haradadır. Bu səbəbdən də bə`zən öz zərərinə olan bir şey istəyir. Agah insan isə Allahın verdikləri ilə kifayətlənir.

◘Bu ayənin Allahla peymana əməl etməmək mövzusu ilə bağlı oxşarı “Ə`raf” surəsindədir: “Onlar hər ikisi Allaha dua etdilər ki, əgər onlara layiqli bir övlad

[1] “Munafiqun”, 4.
[2] “Təfsire-Nurus-səqəleyn”.

verilərsə, Allaha şükür edərlər. Elə ki, saleh övlad verildi, Allaha şərik qoşdular, peymanı yaddan çıxardılar."[1]

### *Bildirişlər*

1. İnsan naşükür və vəfasızdır.
2. Fəqirlik və sıxıntı halında edilən əhdə və verilən sözə bir o qədər də e`tibar yoxdur.
3. Ləyaqət və tutum olmadıqda ilahi ne`mətlər insan üçün bədbəxtlik gətirir. Yalnız insanı süquta uğratmayan var-dövlət dəyərlidir.
4. Dünyaya bağlılıq insanı bədbəxt edir. Zəkat və sədəqə ödəməkdə xəsislik göstərən kəs addım-addım dindən uzaqlaşır.

**Ayə 77:**

﴿فَأَعْقَبَهُمْ نِفَاقًا فِي قُلُوبِهِمْ إِلَى يَوْمِ يَلْقَوْنَهُ بِمَا أَخْلَفُواْ اللّهَ مَا وَعَدُوهُ وَبِمَا كَانُواْ يَكْذِبُونَ﴾

**"Nəhayət, Allahla bağladıqları əhdin ardınca və`dlərinə xilaf çıxdılar. Yalan danışdıqlarından (Allah) Onun görüşünə yetişənədək qəlblərində nifaq ruhu qərar verdi."**

### *Bildirişlər*

1. Allahla bağlanmış peymana vəfasızlıq və məhrumlara münasibətdə xəsislik insanı bədbəxt edir.
2. Nifaqın dərəcələri var: dil nifaqı, rəftar nifaqı, qəlb nifaqı.
3. Nifaq bə`zən müvəqqəti, bə`zən daimi olur. (Həzrət Əli (ə) "yəvmi yəlqəvnəhu" tə`birinin qiyamətə işarə olduğunu bildirmişdir.[2]
4. Əhdə vəfasızlıq və yalan insanda nifaq ruhiyyəsi yaradır. Günah, günah gətirir.
5. Bədbəxtliklərin qaynağı insan özüdür.

**Ayə 78:**

﴿أَلَمْ يَعْلَمُواْ أَنَّ اللّهَ يَعْلَمُ سِرَّهُمْ وَنَجْوَاهُمْ وَأَنَّ اللّهَ عَلاَّمُ الْغُيُوبِ﴾

**"Bilmədilərmi ki, Allah onların sirlərini və gizli söhbətlərini bilir və Allah bütün qeyblərdən xəbərdardır?!"**

---

[1] "Ə`raf", 189-190.
[2] "Bihar", c. 90, s. 132.

## *Nöqtələr*

◘Ola bilsin ki, “sirr” dedikdə münafiqlərin batini küfrü nəzərdə tutulmuşdur. “Nəcva” həmin dəstənin qurğusuna, “ğuyub” onların məqsədlərinə işarədir.[1]

## *Bildirişlər*

1. Münafiqlər öz qurğularını gizli saxlamağa çalışırlar, amma Allah onlara sirləri barədə xəbərdarlıq edir.

2. Nöqsanlı bilik nöqsanlı əmələ səbəb olur. Bəli, əgər insan Allahın gizli işlərdən agah olduğunu bilsə, daha təqvalı olar və nöqsana yol verib məzəmmət edilməz.

**Ayə 79:**

﴿الَّذِينَ يَلْمِزُونَ الْمُطَّوِّعِينَ مِنَ الْمُؤْمِنِينَ فِي الصَّدَقَاتِ وَالَّذِينَ لاَ يَجِدُونَ إِلاَّ
جُهْدَهُمْ فَيَسْخَرُونَ مِنْهُمْ سَخِرَ اللّهُ مِنْهُمْ وَلَهُمْ عَذَابٌ أَلِيمٌ﴾

**“Münafiqlər könüllü olaraq müstəhəb sədəqə verən, eləcə də, gücündən artıq bir şey tapmayan mö`minlərə eyb tutur, onları məsxərəyə qoyurlar. (Bilsinlər ki,) Allah onlara rişxənd edər və onlar üçün ağrılı əzab var.”**

## *Nöqtələr*

◘Həzrət Peyğəmbər (s) xalqdan cəbhəyə kömək istədi. İmkanlılar yetərincə, yoxsullar isə cüz`i yardım göstərdi. Münafiqlər varlıların yardımını riyakarlıq sayaraq onlara tə`nə etməyə başladılar. İmkansızların da cüz`i yardımı məsxərəyə qoyuldu. Münafiqlər həzrət Peyğəmbərin (s) hüzuruna cəbhəyə yardım üçün bir miqdar xurma gətirmiş Əbu-Əqil Ənsarini də lağa qoydular.

◘İnsanın infaq etməsi, yoxsullara əl tutması üçün onun var-dövlətli olması şərt deyil. İnfaq üçün ixlas, iman və səxavət kimi səciyyələrin olması zəruridir. 70-cu ayədə oxuduq ki, böyük var-dövlətə malik olan Sə`ləbə vacib dini haqları ödəmədi. Amma yoxsulluq içində yaşayan Əbu-Əqil tam ixlasla, səmimi qəlbdən bir neçə xurma gətirdi.

◘İmam Riza (ə) buyurmuşdur: “Allah məsxərə edər” deyərkən Onun istehza edənləri cəzalandırması nəzərdə tutulur.”[2]

## *Bildirişlər*

1. Məsxərə etmək münafiqlərin sifətidir. Onlar özləri yardım göstərmir, başqalarının da yardımını şübhə altına alırlar.

2. Mö`minlər səmimi qəlbdən infaq edirlər.

3. Cəbhəyə yardım ruhiyyəsini zəiflətmək haramdır və münafiqlərə məxsus bir işdir.

---

[1] “Təfsire-Fürqan”.

[2] “Bihar”, c.3, s. 319.

4. Münafiqlər təbliğat və istehza vasitəsi ilə xalqın cihada marağını öldürürlər.[1]

5. Münafiqlərin nəzərincə niyyət və məqsəd yox, malın miqdarı əhəmiyyətlidir. Bu səbəbdən də onlar fəqir mö`minlərin cüz`i infaqını əhəmiyyətsiz sayırdılar.

6. Cəmiyyətin ehtiyaclarını aradan qaldırmaq üçün bütün imkanlardan istifadə olunmalıdır.

7. Hər bir insan özü gücü həddində məs`uldur.

8. Öz vəzifəmizlə məşğul olaq və düşmənin istehzasına əhəmiyyət verməyək. Çünki onların cəzasını Allah verəcək.

9. Cəza əmələ münasib olmalıdır.

**Ayə 80:**

﴿اسْتَغْفِرْ لَهُمْ أَوْ لاَ تَسْتَغْفِرْ لَهُمْ إِن تَسْتَغْفِرْ لَهُمْ سَبْعِينَ مَرَّةً فَلَن يَغْفِرَ اللّهُ لَهُمْ
ذَلِكَ بِأَنَّهُمْ كَفَرُواْ بِاللّهِ وَرَسُولِهِ وَاللّهُ لاَ يَهْدِي الْقَوْمَ الْفَاسِقِينَ﴾

**“Münafiqlərin bağışlanmasını istəsən də, istəməsən də (fərqi yoxdur). Yetmiş dəfə də onlara bağışlanma diləsən, Allah onları bağışlamayacaq. Çünki onlar Allaha və onun rəsuluna qarşı küfr etdilər. Allah azğın qövmü hidayət etməz.”**

## *Nöqtələr*

◘Yetmiş rəqəmi konkret say yox, çoxluq bildirir. Yetmiş rəqəmi ilə işarə olunur ki, münafiqlər heç vəchlə bağışlanmayacaq.[2] Rəvayətlərdə həzrət Peyğəmbərin (s) belə buyurduğu nəql olunur: “Əgər yetmiş dəfədən çox bağışlanmalarını istəməyimin onlara nicat verəcəyini bilsəydim, bunu istəyərdim.”[3]

◘İnsan elə bir həddə süqut edə bilər ki, onu heç nə xilas edə bilməz. Necə ki, ruhu bədənindən ayrılmış xəstəyə həkimlərin sə`yi səmərə vermir.

## *Bildirişlər*

1. Dini məsxərə etmək o qədər günahdır ki, Peyğəmbər (s) də bu günahı bağışlatdıra bilmir.

2. Nə qədər ki, insan peşman olmayıb, onun daxilində qiyam baş qaldırmayıb, Peyğəmbərin (s) də duaları səmərəsizdir.

3. İnadkar münafiqə can yandırmaq faydasızdır.

4. Allah Öz mərhəmətini əsirgəmir. Sadəcə münafiqlərin bağışlanma qabiliyyəti yoxdur.

5. Küfr bağışlanmaya, azğınlıq hidayətə mane olur.

**Ayə 81:**

---

[1] “Münafiqun”, 7.

[2] “Münafiqun”, 6.

[3] “Təfsire-Məcməül-bəyan”,

﴿فَرِحَ الْمُخَلَّفُونَ بِمَقْعَدِهِمْ خِلاَفَ رَسُولِ اللّهِ وَكَرِهُواْ أَن يُجَاهِدُواْ بِأَمْوَالِهِمْ وَأَنفُسِهِمْ فِي سَبِيلِ اللّهِ وَقَالُواْ لاَ تَنفِرُواْ فِي الْحَرِّ قُلْ نَارُ جَهَنَّمَ أَشَدُّ حَرًّا لَّوْ كَانُوا يَفْقَهُونَ﴾

**“Allah rəsulunun ziddinə olaraq döyüşdən boyun qaçıran, evdə oturmasından fərəhlənən, malı və canı ilə Allah yolu ilə cihaddan ikrah duyan, başqalarına “bu istidə (döyüş üçün) çölə çıxmayın” deyən kəslərə söylə ki, əgər bilərdilərsə, cəhənnəm odu daha yandırıcıdır.”**

## *Nöqtələr*

◘Bu ayə Təbuk döyüşü haqqındadır. Aydə münafiqlərin üç əlaməti zikr olunur: cəbhədən imtinaya münasibətdə peşmanlıq əvəzində fərəh; mal və canla cihadın ağırlığı; başqalarının cəbhəyə getməsinə maneçilik.

◘Ötən ayələrə əsasən, münafiqlər başqalarının maddi yardım göstərməsinə mane olurdular. Bu ayəyə əsasən isə onlar cəbhəyə gedişin də qarşısını alır, soyuq münasibət yaradırdılar.

## *Bildirişlər*

1. Cəbhəyə getməməkdən fərəh duymaq, peyğəmbər göstərişinə qarşı çıxmaq nifaq nişanəsidir.
2. Cəbhəyə getməməkdən də pisi rəhbərə alçaldıcı münasibət və onun göstərişinə müxaliflikdir.
3. Allahın rəsuluna sorğu-sualsız itaət lazımdır.
4. Qorxaq mö`min münafiqdən fərqlənir. Qorxaq mö`min maddi yardım göstərir, cihadda iştirakı arzulayır. Münafiq isə nə kömək edir, nə də buna meyl göstərir.
5. Münafiqlər xalqı cihaddan saxlamaq üçün mənfi təbliğat aparır, havanın isti olması kimi bəhanələr gətirirlər.
6. Savaş astanasında hazır olmalıyıq ki, düşmənin mənfi təbliğatlarının qarşısını dərhal ala bilək.
7. Düşmən təbliğatına cavab verərkən onların öz sözlərindən istifadə edək.
8. Ölümdən sonrakı həyatı xatırlamaq cəbhəyə hərəkət üçün amil olur. Həqiqi mö`minlər heç vaxt havanın istiliyinə görə cihaddan qalmır.
9. Münafiqlər üzdən keçir, məsələnin dərinliyinə vara bilmirlər.

**Ayə: 82**

﴿فَلْيَضْحَكُواْ قَلِيلاً وَلْيَبْكُواْ كَثِيرًا جَزَاء بِمَا كَانُواْ يَكْسِبُونَ﴾

**“Qazandıqlarının cəzası olaraq az gülüb çox ağlasınlar.”**

## *Nöqtələr*

◘Münafiqlər cihadı tərk etməklə hansı ne`mətləri əldən verdiklərini bilsəydilər, az şadlanıb, çox ağlayardılar. Bu ne`mətlərdən məhrumluğa görə bir ömür ağlamaq da azdır.

## *Bildirişlər*

1. Çətinliklər səbəbindən ah-nalə çəkib ağlamaq cihaddan üz döndərənlərin dünyəvi cəzasıdır.
2. Cəza əmələ münasibdir.
3. Münafiqin bir neçə günlük fərəhi uzun-uzadı həsrət və göz yaşları ilə nəticələnir.

**Ayə 83:**

﴿فَإِن رَّجَعَكَ اللّهُ إِلَى طَآئِفَةٍ مِّنْهُمْ فَاسْتَأْذَنُوكَ لِلْخُرُوجِ فَقُل لَّن تَخْرُجُواْ مَعِيَ أَبَدًا وَلَن تُقَاتِلُواْ مَعِيَ عَدُوًّا إِنَّكُمْ رَضِيتُم بِالْقُعُودِ أَوَّلَ مَرَّةٍ فَاقْعُدُواْ مَعَ الْخَالِفِينَ﴾

**“Əgər Allah səni (bu döyüşdən sonra) münafiqlərdən olan bir tayfanın yanına qaytarsa və onlar səndən (digər bir döyüşə hərəkət üçün icazə istəsələr, de ki, siz heç vaxt mənimlə birlikdə döyüş üçün) çıxmayacaqsınız, heç vaxt mənimlə birlikdə heç bir düşmənlə vuruşmayacaqsınız. Çünki siz ilk dəfə evdə oturmaqla razılaşdınız. Belə isə (indi də) fərmandan çıxanlarla (evdə) oturun!”**

## *Nöqtələr*

◘“Xalif” dedikdə həm döyüşə qarşı çıxan, həm müxaliflik edən, həm də qocalıq və ya xəstəlik səbəbindən cəbhəyə gedə bilməyən kəs nəzərdə tutulur.

◘Sədaqətlə tövbə edənin tövbəsi qəbuldur. Münafiqlər isə riyakarlıq, özünü nümayiş səbəbindən cəbhəyə getmirdilər.

◘Ayədən mə`lum olur ki, Peyğəmbər (s) özü Təbuk döyüşü üçün Mədinədən xaric oldu və savaş qurtarandan sonra oraya qayıtdı. Ayə həm də “Peyğəmbər (s) münafiqlərin iç üzünü açsın” deyə onların gələcək rəftarlarından xəbər verir.

## *Bildirişlər*

1. Münafiqlərin cihadla bağlı istəklərinə e`timad göstərməyək. Onlar hərəkət zamanı qalmaq üçün, geriyə qayıtdıqdan sonra hərəkət üçün icazə istəyirlər.
2. Dünən fərarilik edib bu gün cihad istəyinə düşənlərdən qorxaq.
3. Fərdlərin pis keçmişini unutmayaq.
4. Münafiqlərin iç üzünü açıb onları alçaldaq. Peyğəmbərlə döyüş yoldaşı olmaq ilahi bir lütfdür. Cəbhəyə getməməkdən fərəhlənən münafiqlər bu lütfdən daim məhrum qalmalıdırlar.

**Ayə 84:**

﴿وَلاَ تُصَلِّ عَلَى أَحَدٍ مِّنْهُم مَّاتَ أَبَدًا وَلاَ تَقُمْ عَلَىَ قَبْرِهِ إِنَّهُمْ كَفَرُواْ بِاللّهِ وَرَسُولِهِ وَمَاتُواْ وَهُمْ فَاسِقُونَ﴾

**“Münafiqlərdən heç birisinin ölüsünə namaz qılma və dua üçün qəbri üstə dayanma. Çünki onlar Allaha və Onun rəsuluna kafir oldular, azğın halda dünyadan getdilər.”**

## *Nöqtələr*

◘Müsəlmanlardan biri öldükdə onun dəfnində iştirak etmək, onun üçün dua edib cənazə namazı qılmaq həzrət Peyğəmbərin (s) qaydası idi. Allah-təala bu ayəni nazil etməklə, münafiq halda ölənlərin mərasimində Peyğəmbərin (s) iştirakına qadağa qoydu.

◘İmam Sadiq (ə) buyurmuşdur: “Həzrət Peyğəmbər (s) meyyit namazında dördüncü təkbirdən (“Allahu əkbər”-dən) sonra ölü üçün dua edərdi. Bu ayə nazil olduqdan sonra həzrət bir daha belə dua etmədi.”[1]

## *Bildirişlər*

1. Münafiqlərlə mübarizə üsullarından biri mənfi mübarizə, yə`ni onlardan uzaqlıqdır.
2. Münafiqin ölüsünə də həqarətlə yanaşmaq lazımdır. Onların dəfnində iştirak etməyək və qəbirlərinin ziyarətinə getməyək.
3. Müxaliflərin tənbehi üçün namazdan da istifadə edək.
4. Meyit namazı və qəbir ziyarəti öləndən sonra mö`minə hörmət nişanəsi və bəyənilmiş işdir. Münafiqin isə belə bir hörməti yoxdur.
5. Münafiq kafir və azğındır.
6. İşin aqibəti mühümdür. Təhlükə odur ki, insan tövbə etmədən, azğın halda dünyasını dəyişsin.

**Ayə 85:**

﴿وَلاَ تُعْجِبْكَ أَمْوَالُهُمْ وَأَوْلاَدُهُمْ إِنَّمَا يُرِيدُ اللّهُ أَن يُعَذِّبَهُم بِهَا فِي الدُّنْيَا وَتَزْهَقَ أَنفُسُهُمْ وَهُمْ كَافِرُونَ﴾

**“Onların var-dövləti və övladları səni heyrətə gətirməsin. Həqiqətən, Allah bu vasitə ilə onlara dünyada əzab vermək, canlarının küfr halında çıxmasını istəyir.”**

## *Nöqtələr*

◘İlkin İslam dövründə münafiqlərin çoxlu var-dövləti, övladları və imkanları vardı. Müsəlmanlar isə bu baxımdan zəif idilər. Müsəlmanların ehtiyac

---

[1] “Təfsire-Nurus-səqəleyn”; “Kafi”, c. 3, s. 181.

səbəbindən münafiqlərə yaxınlaşma təhlükəsi olduğundan uyğun ayə vasitəsi ilə onlara xəbərdarlıq olundu. Bu surənin 55-ci ayəsində də eyni məsələyə toxunulur.

◘“Zəhuq” dedikdə çətinlik, təəssüb və həsrətlə xaric olmaq mə`nası başa düşülür.

## *Bildirişlər*

1. Başqalarının imkanlı olmasına görə özümüzü əskik saymayaq.
2. Var-dövlət və övlad bə`zən xoşbəxtliyə yox, əzaba aparır.
3. Allah bə`zən dünyəvi təzahürlərlə cəzalandırır.
4. Ölüm yoxluq yox, ruhun bədəndən çıxmasıdır.
5. Bir ömür küfr və naşükürlük insanın dünyadan kafir getməsinə səbəb olur.
6. Dəyər ölçüsü bir neçə günlük rifah yox, xeyir aqibət və imanlı ölümdür.

**Ayə 86:**

﴿وَإِذَآ أُنزِلَتْ سُورَةٌ أَنْ آمِنُواْ بِاللّهِ وَجَاهِدُواْ مَعَ رَسُولِهِ اسْتَأْذَنَكَ أُوْلُواْ الطَّوْلِ مِنْهُمْ وَقَالُواْ ذَرْنَا نَكُن مَّعَ الْقَاعِدِينَ﴾

**“Əgər surə nazil olsa ki, Allaha iman gətirin və peyğəmbərlə birlikdə cihad edin, sərvət sahibləri (münafiqlər) səndən (peyğəmbərdən) mürəxxəs olmaq icazəsi istəyib deyərlər: “Bizi azad burax, qoy evdə oturanlarla qalaq.”**

**Ayə 87:**

﴿رَضُواْ بِأَن يَكُونُواْ مَعَ الْخَوَالِفِ وَطُبِعَ عَلَى قُلُوبِهِمْ فَهُمْ لاَ يَفْقَهُونَ﴾

**“Onlar müxaliflər və evdə oturanlarla qalmağa razı oldular. Onların qəlblərinə möhür vurulmuşdur, bu səbəbdən də anlamırlar.”**

## *Nöqtələr*

◘“Təvl” dedikdə imkan və qüvvə, “ulut-təvl” dedikdə isə qüvvəlilər və sərvətlilər nəzərdə tutulur.

◘“Surə” dedikdə xüsusi mövzuları bəyan edən ayələr məcmusu nəzərdə tutulur. Bu səbəbdən də surənin müəyyən bir hissəsi də ”surə” adlandırılır.

## *Bildirişlər*

1. Cihad Allaha iman şərtidir.
2. Peyğəmbər (s) savaş meydanında öndə dayanırdı.
3. Cihad müsəlmanların rəhbərinin göstərişi və onunla birlikdə həyata keçməlidir.
4. Cihada münasibətdə zəifliyimizə, nifaq və qorxumuza mürəxxəs olma icazəsi ilə don geyindirməyək.

5. Canını sevən rifahtələblər cihaddan daha çox qorxurlar. Onlara ümid bağlamayaq.

6. Münafiqlər qəlbi ölmüşlərdirlər.

7. Dünyapərəstlik, rahattələblik və nifaq ruhiyyəsi insanı düzgün baxış və dərin mə`rifətdən məhrum qoyur.

**Ayə: 88**

**﴿لَكِنِ الرَّسُولُ وَالَّذِينَ آمَنُواْ مَعَهُ جَاهَدُواْ بِأَمْوَالِهِمْ وَأَنفُسِهِمْ وَأُوْلَئِكَ لَهُمُ الْخَيْرَاتُ وَأُوْلَئِكَ هُمُ الْمُفْلِحُونَ﴾**

**“Amma peyğəmbər və onunla birlikdə olan mö`minlər öz malları və canları ilə cihad etdilər. Onlardır bütün xeyir və yaxşılığa sahib olanlar, onlardır nicat tapanlar.”**

## *Bildirişlər*

1. Münafiqlərin və rahattələblərin döyüşdə iştirak etməməsinə görə narahat olmayaq.

2. Münafiqlər elə düşünürlər ki, onlar cihadda iştirak etməsə, İslam köməksiz qalacaq.

3. Rəhbər döyüşçülərdən öndədir.

4. Peyğəmbərə iman azdır, onun yanında olmaq lazımdır.

5. Cihad hərtərəfli olmalıdır.

6. Yalnız iman və cihad sayəsində nicat tapmaq olar.

7. Döyüş və cihad döyüşçülərə ilahi xeyir və bərəkət nazil olması ilə nəticələnir.

8. Mücahidlər qalib də gəlsələr, zahirən məğlub da olsalar, nicat tapmışlar.

**Ayə: 89**

**﴿أَعَدَّ اللّهُ لَهُمْ جَنَّاتٍ تَجْرِي مِن تَحْتِهَا الأَنْهَارُ خَالِدِينَ فِيهَا ذَلِكَ الْفَوْزُ الْعَظِيمُ﴾**

**“Allah onlar üçün altından çaylar axan bağlar hazırlamışdır və orada əbədi qalarlar. Bu, həmin böyük qurtuluşdur.”**

## *Bildirişlər*

1. Mücahidlərin mükafatı öncədən hazırlanmışdır.

2. Behişt yaradılmışdır və indi də mövcuddur.

3. Təbii meyl və istəklərdən inkişaf və hidayət yolunda istifadə edək. (İnsan təbii şəkildə səfalı guşə istəyindədir)

4. İlahi rəhmət behiştində daimi yaşayış əsl səadətdir.

**Ayə: 90**

﴿وَجَاء الْمُعَذِّرُونَ مِنَ الأَعْرَابِ لِيُؤْذَنَ لَهُمْ وَقَعَدَ الَّذِينَ كَذَبُواْ اللّهَ وَرَسُولَهُ سَيُصِيبُ
الَّذِينَ كَفَرُواْ مِنْهُمْ عَذَابٌ أَلِيمٌ﴾

**“Üzrü olan bədəvilər (sənin yanına) gəldilər ki, onlara (döyüşdə iştirak etməmək üçün) icazə verilsin. Amma Allaha və Onun peyğəmbərinə yalan deyənlər (üzrü olmayanlar) savaşdan boyun qaçırdılar. Onlardan küfr edənlərə tezliklə ağrılı əzab yetişəcək.”**

## *Nöqtələr*

◘“Muəzziruna” sözü həm həqiqətən üzrü olanlara, həm də bəhanə gətirib üzr istəyənlərə işarə ola bilər.

◘Bə`zilərinin həqiqətən də üzrü vardır. Bə`ziləri isə üzrsüz yerə cihadda iştirak etmirdilər və bu dəstə üçün əzab var.

◘Şəhər mədəniyyətindən uzaq, səhrada yaşayan bədəvi ərəblər “ə`rab” adlanırlar.

## *Bildirişlər*

1. Təbuk döyüşündə ümumi səfərbərlik e`lan olunmuşdu. Bu səfərbərliyə qatılmayan hər bir kəs üzrünü bildirib Peyğəmbərdən (s) icazə almalı idi.
2. Cihad fərdə yox, hökumətə aid bir işdir. Ona görə də cəbhəyə gedib-getməmək haqqında müsəlmanların rəhbəri icazə verməlidir.
3. Cihada e`tinasızlıq göstərib cəbhədən qaçanlar həqiqi iman sahibi deyillər.
4. Yalan təkcə dilə aid deyil. İddianın yalan olduğu bə`zən əməldə üzə çıxır.
5. Vəzifədən boyun qaçırmaq üçün bəhanə axtaranlar tezliklə tənbeh olunar.

**Ayə 91:**

﴿لَّيْسَ عَلَى الضُّعَفَاء وَلاَ عَلَى الْمَرْضَى وَلاَ عَلَى الَّذِينَ لاَ يَجِدُونَ مَا يُنفِقُونَ حَرَجٌ
إِذَا نَصَحُواْ لِلّهِ وَرَسُولِهِ مَا عَلَى الْمُحْسِنِينَ مِن سَبِيلٍ وَاللّهُ غَفُورٌ رَّحِيمٌ﴾

**“(Cihad yolunda) xərcləmək üçün bir şeyi olmayan zəiflərə, xəstələrə və əliboşlara irad yoxdur. Bir şərtlə ki, Allahın və Onun rəsulunun xeyirxahı olsunlar. Xeyir əməl sahibləri üçün bir qınaq yoxdur və Allah bağışlayan və mehribandır.”**

## *Nöqtələr*

◘Kor bir qoca Peyğəmbərin (s) yanına gəlib ərz etdi: “Əlimdən tutub məni cəbhəyə aparacaq bir kəsim yoxdur, zəif və qocayam. Mənim üzrüm qəbuldurmu?!” Həzrət Peyğəmbər (s) susdu. Nəhayət, bu ayə nazil oldu.

Əhsən İslam aşiqlərinə ki, qocalıq və korluqlarına baxmayaraq vicdanları rəhatlaşmır və cihadla bağlı Peyğəmbərə (s) sual verirlər!

◘Bə`zi ailələrin ehtiyacını yalnız evin kişisi tə`min edir və o, cəbhəyə getdikdə ailə aclıq çəkir. Ola bilsin ki, yoxsulluq deyərkən belə bir hal nəzərdə tutulmuşdur.[1]

◘İslamda güc çatmayan işlərə əmr olunmur. İslam üzrü qəbul edir və bu dində çıxılmaz vəziyyət yoxdur. İmam Sadiq (ə) buyurmuşdur: "İnsan gücü çatmayan bir işi görməyə vəzifəli deyil." Sonra həzrət bu ayəni tilavət etmişdir.[2]

## *Bildirişlər*

1. İlahi vəzifələr bəşərin gücünə uyğundur. (Fiziki cəhətdən gücsüz olan zəiflər və xəstələr cihaddan, yoxsullar isə cihada maddi yardımdan azaddır)

2. Xeyirxahlıq həmişə mümkündür. Zəiflər də bir yolla himayə göstərə bilər. Hətta gözü görməyən qoca dili və qəlbi ilə duaya, döyüşçülərə xeyirxahlığa vəzifəlidir.

3. Üzürlü səbəbdən cihada getməyən, amma getmək arzusunda olan şəxs xeyirxahlardan sayılır.

4. Yetərli üzrü olan və heç bir ziyan vurmayanlar məzəmmət olunmur və cərimə ödəmirlər. (İslam fiqhinə əsasən, yalnız öz işində məs`uliyyətsizliyə yol vermiş işçi cərimə oluna bilər.)

**Ayə 92:**

﴿وَلاَ عَلَى الَّذِينَ إِذَا مَا أَتَوْكَ لِتَحْمِلَهُمْ قُلْتَ لاَ أَجِدُ مَا أَحْمِلُكُمْ عَلَيْهِ تَوَلَّواْ
وَّأَعْيُنُهُمْ تَفِيضُ مِنَ الدَّمْعِ حَزَنًا أَلاَّ يَجِدُواْ مَا يُنفِقُونَ﴾

**"Miniyə süvar edib cəbhəyə göndərməyin üçün yanına gəldikdə "sizi süvar etmək üçün bir şey tapmıram" dediyin və bundan sonra dönüb gedənlər üçün də (irad yoxdur). Cihada xərcləmək üçün bir şeyləri olmadığından onların qəm-qüssədən gözləri yaşlı idi. (Bəli, cihad aşiqi olan belə yoxsullar üçün cəbhəyə getməmək günah deyil.)"**

## *Nöqtələr*

◘Ötən ayədə cəbhəyə yardım üçün imkanları olmayanlardan danışıldı. Bu ayədə isə cəbhədə iştirak üçün minik tapa bilməyən yoxsullardan söhbət gedir. Onlar imkansızlıqdan qəmlənir, göz yaşı axıdırdılar. Bu göz yaşlarına görə, döyüşçülərin mükafatına şərikdirlər. Necə ki, Həsən Bəsri deyir: Həzrət Peyğəmbər (s) Təbuk döyüşündəki döyüşçülərə buyurdu: "Mədinədə qalanlardan bir qrupu cəbhədə iştirak etmək istədiyi üçün bu yolda sizin xərclədiyiniz malın və aldığınız yaraların mükafatına şərikdirlər."[3]

---

[1] "Təfsire-rahnoma".
[2] Nurus-səqəleyn"; "Kafi", c. 1, s. 165.
[3] "Təfsire-Dürrül-Mənsur".

### *Bildirişlər*

1. Döyüşçülərin döyüş ehtiyacının tə`mini hökumətin öhdəsinədir.

2. İnsanların dəyəri təkcə onların hərəkətindən, maddi imkanından yox, məqsəd və ruhiyyələrindən da asılıdır. (Ayədə pulu və imkanı olmayan, amma cəbhəyə həvəs göstərənlər mədh olunurlar)

3. Mö`min insan cəbhədə iştirak edə bilmədiyi üçün narahat və ağlardır.

## ON BİRİNCİ CÜZ

**Ayə 93:**

﴿إِنَّمَا السَّبِيلُ عَلَى الَّذِينَ يَسْتَأْذِنُونَكَ وَهُمْ أَغْنِيَاء رَضُواْ بِأَن يَكُونُواْ مَعَ الْخَوَالِفِ
وَطَبَعَ اللّهُ عَلَى قُلُوبِهِمْ فَهُمْ لاَ يَعْلَمُونَ﴾

**“Yalnız imkanlı olduğu halda səndən izin istəyənləri, müxaliflərlə qalmağa razı olanları qınamağa yol var. Allah onların qəlblərinə möhür vurmuşdur, o səbəbdən bilmirlər.”**

### *Nöqtələr*

Mö`minlə münafiq insan arasında yerlə göy arası qədər fərq var. Ötən ayədə bildirildi ki, mö`min cəbhəyə gedə bilmədiyi üçün ağlayır. Bu ayədə isə imkanlı münafiqlərin cəbhəyə getməkdən israrla imtina etməsi və Peyğəmbərdən (s) icazə istəməsi bəyan olunur.

### *Bildirişlər*

1. Həm yoxsul, həm də varlı insan cəbhəyə getməyə borcludur. Sərvət cəbhədən tərxis olmaq üçün imtiyaz, üzr sayılmır.
2. Məs`uliyyətdən boyun qaçırmaq pis aqibətlə və agahlığı əldən verməklə nəticələnir.

**Ayə 94:**

﴿يَعْتَذِرُونَ إِلَيْكُمْ إِذَا رَجَعْتُمْ إِلَيْهِمْ قُل لاَّ تَعْتَذِرُواْ لَن نُّؤْمِنَ لَكُمْ قَدْ نَبَّأَنَا اللّهُ مِنْ
أَخْبَارِكُمْ وَسَيَرَى اللّهُ عَمَلَكُمْ وَرَسُولُهُ ثُمَّ تُرَدُّونَ إِلَى عَالِمِ الْغَيْبِ وَالشَّهَادَةِ فَيُنَبِّئُكُم
بِمَا كُنتُمْ تَعْمَلُونَ﴾

**“Cihaddan qayıtdığınız vaxt (Təbuk döyüşündə müxalif olan münafiqlər) sizdən üzr istəyirlər. De ki, üzr istəməyin, biz heç vaxt sizin sözlərinizə inanmarıq, Allah bizi sizin halınızdan agah etmişdir, Allah və Onun rəsulu sizin əməllərinizi bilirlər; sonra gizlini və aşkarı bilən Allahın yanına qaytarılarsınız və O sizi etdiklərinizdən xəbərdar edər.”**

### *Nöqtələr*

◘Münafiqlərdən təqribən 80 nəfəri Təbuk döyüşündə iştirak etmirdi. Peyğəmbər (s) və müsəlmanlar döyüşdən qayıtdıqdan sonra onlar müxtəlif bəhanələr gətirdilər. Ayə nazil oldu ki, onların dediklərinə inanmayın, onları Allahın öhdəsinə buraxın.”

## *Bildirişlər*

1. Müsəlmanlar o qədər qüdrətli olmalıdırlar ki, müxaliflər özlərini üzr istəməyə borclu bilsinlər.
2. Bəhanəçi münafiqlərlə kəskin rəftar edin.
3. Allah münafiqlər və xalqın əməlləri haqqında Öz peyğəmbərinə qeybi yolla xəbər verir.
4. Savaş başa çatdıqdan sonra bəhanələr başlanır.
5. Allah üçün qeyb də aşkar kimidir və hər şey Ona bəllidir.
6. Qiyaməti yada salmaq insanın kamilləşməsi üçün ən üstün amillərdəndir.
7. İnsan gördüyü bütün işlərin məs`uliyyətini daşıyır. Qiyamət müxaliflər üçün rüsvayçılıq günüdür.

**Ayə 95:**

﴿سَيَحْلِفُونَ بِاللّهِ لَكُمْ إِذَا انقَلَبْتُمْ إِلَيْهِمْ لِتُعْرِضُواْ عَنْهُمْ فَأَعْرِضُواْ عَنْهُمْ إِنَّهُمْ رِجْسٌ وَمَأْوَاهُمْ جَهَنَّمُ جَزَاء بِمَا كَانُواْ يَكْسِبُونَ﴾

**“Cihaddan münafiqlərin yanına qayıtdığınız vaxt Allaha and içərlər ki, onlara (günahlarına) göz yumasınız. Onlardan üz çevirin, uzaq olun. Onlar çirkindirlər və öz əlləri ilə qazandıqlarına görə yerləri cəhənnəm olacaq.”**

## *Nöqtələr*

◘Üz çevirmənin səbəbi ya böyüklükdür, ya da e`tinasızlıq. O ayədə hər iki mə`na nəzərdə tutulmuşdur. Münafiqlər onlara göz yumulmasını istədilər. Allah da qəzəblə uzaqlaşmaq göstərişi verdi.[1]

◘Həzrət Peyğəmbər (s) Təbuk döyüşündən qayıtdıqdan sonra xalqa göstəriş verdi ki, cəbhəyə getməmiş münafiqlərlə ünsiyyət saxlanılmasın.[2]

◘Ötən ayədə münafiqlərin üzr və bəhanələri qəbul olunmadı. Bu ayədə isə zillətə düşmüş münafiqlərin and içdiyi bildirilir.

## *Bildirişlər*

1. Hər anda inanmaq olmaz.
2. Münafiqlər müqəddəsliklərdən və Allahın adından sui-istifadə edirlər.
3. Müsəlmanlar təvəlla və təbərra əhli olmalı, konkret mövqe tutmalıdırlar.
4. Üzürsüz səbəbdən cihadı tərk edənlərlə rabitələri kəsib onlarla sərt rəftar edək və onlara meydan verməyək.
5. Azğın fərdlərdən və mühitdən uzaq dayanaq. Çünki nifaq ruhiyyəsi və digər eyblər ətrafdakılara da sirayət edir.
6. Nifaq batini çirkinlik, ruhi xəstəlikdir.
7. Cəhənnəm Allahın intiqamı yox, insanın öz əməllərinin nəticəsidir.

---

[1] “Təfsire-Kəbire-Fəxr Razi”.
[2] “Təfsire-Mərağİ”.

**Ayə 96:**

﴿يَحْلِفُونَ لَكُمْ لِتَرْضَوْاْ عَنْهُمْ فَإِن تَرْضَوْاْ عَنْهُمْ فَإِنَّ اللّهَ لاَ يَرْضَى عَنِ الْقَوْمِ الْفَاسِقِينَ﴾

**“Sizin üçün and içirlər ki, onlardan razı qalasınız. (Bilin ki, siz də) onlardan razı qalsanız, şübhəsiz, Allah azğın qövmdən razı qalmayacaq.”**

## *Nöqtələr*

◘Əgər ötən ayədə münafiqlər onlara göz yumulmasını istəyirdilərsə, bu ayədə qəlb razılığı sorağındadırlar.

◘Münafiqlər üçün müsəlmanların qəlb razılığı əhəmiyyətsiz bir şey idi. Onlar bu yolla, sadəcə öz ictimai nüfuzlarını qorumağa çalışırdılar.

◘Həzrət Peyğəmbər (s) buyurmuşdur: “Xalqı qəzəbləndirmək bahasına Allahın razılığını arayan şəxsdən Allah razı qalar və xalqı da ondan razı salar. Allahı qəzəbləndirmək bahasına xalqın razılığını qazanmaq istəyən kəsdən Allah narazı qalar və xalqın da qəlbini ondan narazı edər.”[1]

## *Bildirişlər*

1. Münafiqlər xalqın diqqətini cəlb etmək və öz mövqe`lərini qorumaq fikrindədirlər. Onları Allahın razılığı və tövbə maraqlandırmır.
2. Xalqın yox, Allahın razılığını düşünək. Xalqın razılığı bir o qədər də mühüm deyil. Ən mühümü Allahın bağışlaması və razılığıdır.
3. Allahın narazı qaldığı münafiqlərdən razı olanlar Allah yolundan uzaqlaşırlar.
4. Bə`zən mö`minlərin razılığı Allahın razılığından fərqlənir.
5. Azğın kəsdən heç vaxt razı qalmayın.

---

[1] “Təfsire-Nurus-səqəleyn”.

**Ayə 97:**

﴿الأَعْرَابُ أَشَدُّ كُفْرًا وَنِفَاقًا وَأَجْدَرُ أَلاَّ يَعْلَمُواْ حُدُودَ مَا أَنزَلَ اللّهُ عَلَى رَسُولِهِ وَاللّهُ عَلِيمٌ حَكِيمٌ﴾

**“Bədəvi ərəblər (peyğəmbər buyruqlarından xəbərsiz olduqları üçün) küfr və nifaqda daha tünd, Allahın Öz rəsuluna nazil etdiyinin hüdudlarını bilməməyə daha çox layiqdirlər. Allah biləndir və hikmət sahibidir.”**

## *Nöqtələr*

◘“Ə`rab” deyərkən bədəvi ərəblər nəzərdə tutulur. Bu sözün tək forması “ərəb” yox, “ə`rabi”-dir.

◘Ə`rabi olmaq odur ki, insan dini mədəniyyət və məktəb tə`lim-tərbiyəsindən uzaq olsun. Qur`anda “ərab” sözü on dəfə işlədilmişdir. Yalnız bir yerdə bu söz məzəmmətsiz zikr olunur.

◘Hədisdə deyilir: “Dinşünas olun. Çünki dərin dini düşüncəsi olmayan kəs ə`rabidir.” Digər bir hədisdə isə belə deyilir: “Bizim peyğəmbərimiz və yardımçılarımız ərəb, başqaları isə ə`rabidir.”[1]

◘Peyğəmbər dövrünün insanları iki zümrəyə ayrılırdı: şəhər əhli və bədəvilər. Ötən ayədə müsəlmanların Təbuk döyüşündəki qələbəsindən danışılırdı. Ola bilsin ki, bu ayədə bədəvi ərəblərin düşmən tə`siri altında fitnə qoparma imkanı nəzərə çatdırılır.

## *Bildirişlər*

1. Bədəvilik mədəniyyətdən və dini qaydalardan uzaqlığa səbəb olur.
2. İctimai mühit və insanın mədəniyyəti onun baxışına və mövqeyinə tə`sir göstərir.
3. Nadan və mədəniyyətdən uzaq insanlar bə`zən kafirlərin və münafiqlərin əlində alətə çevrilir, hətta onlardan da tünd olurlar.
4. Küfr və nifaqın dərəcələri var.
5. Küfr və nifaq amillərindən biri bixəbərlikdir.
6. Dini biliklər zəruridir və onlardan xəbərsizliyimiz ə`rabi olmağımızla nəticələnir.
7. İlahi hədələrdən xəbərsiz olan cahil şəhər əhli bədəvilərdən də pisdir.

**Ayə 98:**

[1] “Təfsire-Nurus-səqəleyn”.

﴿وَمِنَ الأَعْرَابِ مَن يَتَّخِذُ مَا يُنفِقُ مَغْرَمًا وَيَتَرَبَّصُ بِكُمُ الدَّوَائِرَ عَلَيْهِمْ دَآئِرَةُ السَّوْءِ وَاللّهُ سَمِيعٌ عَلِيمٌ﴾

**“Bədəvilərdən bə`ziləri infaq etdiyini zərər sayan kəslərdir və sizin üçün pis hadisələr intizarındadırlar. Onlara nəsib olsun pis hadisə! Allah eşidən və biləndir.”**

## *Nöqtələr*

◘“Ğəramət” sözündən olan “məğrəm” sözü muğayat olmaq mə`nasını bildirir. Bir-birinə bağlı borclu və tələbkar “ğərim” adlanır. Borcu qaytarmaq üçün insana yanaşan borcluya “məğrəm” deyilir.

◘“Dairə” sözünün cəm forması olan “dəvair” sözü insanı öz ağuşuna almış hadisələrə deyilir.

## *Bildirişlər*

1. Münafiq və ilahi hədlərdən xəbərsiz insan infaqı zərər sayır.
2. Münafiq həsədçildir və başqaları üçün yalnız pislik istəyir.
3. Başqalarına pislik istəyən özü pisliklə rastlaşar.
4. Allah insanın dediklərindən və xasiyyətlərindən agahdır.

**Ayə 99:**

﴿وَمِنَ الأَعْرَابِ مَن يُؤْمِنُ بِاللّهِ وَالْيَوْمِ الآخِرِ وَيَتَّخِذُ مَا يُنفِقُ قُرُبَاتٍ عِندَ اللّهِ وَصَلَوَاتِ الرَّسُولِ أَلا إِنَّهَا قُرْبَةٌ لَّهُمْ سَيُدْخِلُهُمُ اللّهُ فِي رَحْمَتِهِ إِنَّ اللّهَ غَفُورٌ رَّحِيمٌ﴾

**“Amma bədəvi ərəblərdən bə`ziləri Allaha və qiyamət gününə imanlı kəslərdir. Onlar infaq etdiklərini Allaha yaxınlıq və peyğəmbərin duası üçün vasitə bilirlər. Agah olun ki, həmin infaqlar onlar üçün yaxınlıq səbəbidir. Tezliklə Allah onları Öz rəhmətinə daxil edər. Həqiqətən, Allah bağışlayan və mehribandır.”**

## *Bildirişlər*

1. Bir dəstəni məzəmət edərkən onların arasındakı yaxşıları nəzərdən qaçırmayaq.
2. Bədəvilik və ictimai mühit təkamül imkanını insanın əlindən almır.
3. İman infaq və aramlığa zəmin yaradır.
4. Allaha yaxınlıq üçün maddi imkanlardan bəhrələnək.
5. Sırf əməl yox, xalis niyyət Allaha yaxınlıq səbəbidir. Həm mö`min infaq edir, həm də münafiq. Amma mö`minin infaqı mədh olunmuşdur.
6. Peyğəmbərin razılığını qazanmaq üçün iş görmək tövhid əqidəsinə zidd deyil.
7. İnfaq edən mö`min peyğəmbərin duasına nail olur.

8. Mö`min ilahi rəhmətə qərq olmuşdur. Münafiq isə acı hadisələrə qərq olmuş vəziyyətdədir.

9. Mədəni mühitdən uzaq olan bədəvi ərəblərin xalis niyyətlə etdikləri infaq daha çox dəyərləndirilir.

**Ayə 100:**

﴿وَالسَّابِقُونَ الأَوَّلُونَ مِنَ الْمُهَاجِرِينَ وَالأَنصَارِ وَالَّذِينَ اتَّبَعُوهُم بِإِحْسَانٍ رَّضِيَ اللّهُ عَنْهُمْ وَرَضُواْ عَنْهُ وَأَعَدَّ لَهُمْ جَنَّاتٍ تَجْرِي تَحْتَهَا الأَنْهَارُ خَالِدِينَ فِيهَا أَبَدًا ذَلِكَ الْفَوْزُ الْعَظِيمُ﴾

**"Mühacirlərdən, ənsardan və yaxşılıqda onlara itaət edənlərin öncüllərindən Allah razıdır. Onlar da Allahdan razıdırlar. Onlar üçün altından çaylar axan bağlar hazırlanmışdır və orada əbədidirlər. Budur böyük qurtuluş və feyz."**

## *Nöqtələr*

◘Bu ayədə ilkin İslam dövrü müsəlmanları üç dəstəyə bölünmüşdür: İslam və hicrətdə öncüllər; Peyğəmbərə (s) və mühacirlərə yardımda öncüllər; onların yolunu davam etdirən arxada gələnlər.

◘İmam Sadiq (ə) buyurmuşdur: "Allah öncə müsbət keçmişli mühacirləri, sonra ənsar və köməkçiləri, daha sonra onların ardıcıllarını yada salır. Beləcə, hər bir dəstənin məqamı öz yerində bəyan olunmuşdur."[1]

◘Müsəlmanların ümumi rə`yinə görə, İslamı qəbul etmiş ilk qadın həzrət Xədicə olmuşdur. Bütün şiə və bə`zi sünni mənbələrinin bildirdiyinə görə, İslamı qəbul etmiş ilk kişi Əli ibn Əbi-Talibdir (ə).[2] Həzrət Əlinin (ə) ilk iman gətirən kişi olduğunu hamı qəbul etsə də, bə`ziləri bildirirlər ki, on yaşlı növcavanın imanı ciddi deyil. Onların cavabında deməliyik ki, Həzrət İsa və həzrət Yəhya da uşaq vaxtı peyğəmbərliyə çatmışdı.

## *Bildirişlər*

1. Yaxşı işdə öncüllük dəyərdir. Hərəkatlarda öncüllərin mövqeyi hifz olunmalıdır.
2. Mühacirlərin və ənsarın bir qismi ilahi razılıq əldə edə bilmir.
3. Keçmişdəkilərin hər baxışına yox, kamilliklərinə itaət dəyərdir.

---

[1] "Təfsire-Nurus-səqəleyn"; "Kafi", c. 2, s. 41.

[2] "Əl-Ğədir", c. 3, s. 220-240; "İhqaqil-həqq", c. 3, s. 114-120.

4. Mö`min Allahın qəzavü-qədərindən razı olarsa, Allah da ondan razı olar.
5. Behişt iman, öncüllük, hicrət, yardım və ehsan sayəsində əldə olunur.

### Ayə 101:

﴾وَمِمَّنْ حَوْلَكُم مِّنَ الأَعْرَابِ مُنَافِقُونَ وَمِنْ أَهْلِ الْمَدِينَةِ مَرَدُواْ عَلَى النِّفَاقِ لاَ تَعْلَمُهُمْ نَحْنُ نَعْلَمُهُمْ سَنُعَذِّبُهُم مَّرَّتَيْنِ ثُمَّ يُرَدُّونَ إِلَى عَذَابٍ عَظِيمٍ﴿

**“Sizin bədəvi ardıcıllarınızdan bir qismi münafiqdir. Mədinə əhlinin də bir dəstəsi nifaqa üz tutmuşdur. Sən onları tanımırsan, onları Biz tanıyırıq. Tezliklə onlara iki əzab verəcəyik. Sonra ağır əzaba doğru qaytarılarlar.”**

## *Nöqtələr*

◘“Mərədu” dedikdə bir işin xasiyyət yaradanadək təkrarı nəzərdə tutulur.

◘Ayədə qeyd olunan iki əzabdan biri xalq arasında rüsvayçılıq, digəri çətin can verməkdir. Necə ki, “Ənfal” surəsinin 50-ci ayəsində buyurmuşdur: “Ölüm mələkləri onların üzlərinə və arxalarına sillə vurarlar.” İki əzab dedikdə ruhun və cismin əzabı nəzərdə tutula bilər.

## *Bildirişlər*

1. Yaxınlıqdakı münafiqləri nəzərdən qaçırmayaq.
2. Bədəvilərin küfr və nifaqı tünd də olsa, aşkardır. Şəhər əhlinin nifaqı isə pərdəlidir.
3. Nifaqın mərhələləri var. Nifaq bə`zən səthi, bə`zən köklü olur.
4. Peyğəmbər yalnız Allahın bəxşişi və tə`limi sayəsində qeybdən xəbər tutur.
5. Öz azğınlığı üzərində israr göstərən və bu azğınlığın xasiyyətə çevrildiyi kəslər daha ağır əzaba düçar olurlar.
6. Münafiq həm dünya, həm də axirətdə müşkül içindədir. Onun çətinlikləri bir o qədər də uzaqda deyil.

### Ayə 102:

﴾وَآخَرُونَ اعْتَرَفُواْ بِذُنُوبِهِمْ خَلَطُواْ عَمَلاً صَالِحًا وَآخَرَ سَيِّئًا عَسَى اللّهُ أَن يَتُوبَ عَلَيْهِمْ إِنَّ اللّهَ غَفُورٌ رَّحِيمٌ﴿

**“(Ərəblərdən) bir başqaları da var ki, öz günahlarını e`tiraf etmişlər. Onlar yaxşı işi pis işə qarışdırmışlar. Ümid var ki, Allah onların tövbəsini qəbul etsin (Öz lütfünü onlara qaytarsın). Həqiqətən, Allah bağışlayan və mehribandır.”**

## *Nöqtələr*

◘Peyğəmbərin (s) tərəfdarlarından bir neçəsi Təbuk döyüşündə iştirak etməkdən boyun qaçırdı. Onları buna sövq edən nifaq yox, dünyaya bağlılıq idi. Məzəmmət dolu ayələr nazil olduqdan sonra belələri peşman oldular və tövbə nişanəsi olaraq özlərini məscidin sütununa bağladılar. Nəhayət, Allah onların tövbəsini qəbul etdi və həzrət Peyğəmbər (s) onları sütunlardan açdı.

## *Bildirişlər*

1. Peyğəmbərin səhabələri arasında ədaləti gözləməyənlər də olub. Hətta bə`ziləri pis işlərə də yol verib.
2. İnsan özündə zəif nöqtələri görməli, nöqsanlarını nəzərdən qaçırmamalıdır.
3. Günahın e`tirafı, insanın özünü tənqid etməsi, eləcə də saleh işlər Allahın bağışlaması üçün zəmin yaradır.
4. Allah bağışlamaq və`d etsə də, insan qorxu və ümid içində olmalıdır.
5. Peşman olmuş xətakar ümidə ehtiyaclıdır. İslamın ağuşu ona açıqdır.

**Ayə 103:**

﴿خُذْ مِنْ أَمْوَالِهِمْ صَدَقَةً تُطَهِّرُهُمْ وَتُزَكِّيهِم بِهَا وَصَلِّ عَلَيْهِمْ إِنَّ صَلاَتَكَ سَكَنٌ لَّهُمْ
وَاللّهُ سَمِيعٌ عَلِيمٌ﴾

**“Mallarından sədəqə al ki, bu yolla onları paklayasan, inkişaf etdirəsən. Onlara salam göndər (dua et). Çünki sənin duan onların aramlığına səbəb olur. Allah eşidən və biləndir.”**

## *Nöqtələr*

◘Ayə hicrətin ikinci ili ramazan ayında, Mədinədə nazil olmuşdur. Peyğəmbər (s) buyurdu: “E`lan edin ki, Allah zəkatı da namaz kimi vacib etdi.” Bir ildən sonra yenə göstəriş verdi ki, müsəlmanlar zəkat ödəsinlər.

◘Peyğəmbər (s) zəkat verənlərə salam göndərdi. Allah isə qanına bələndiyi halda müqavimət göstərən mücahidlərə salam göndərir.[1]

## *Bildirişlər*

1. İslam hakiminin vəzifələrindən biri zəkat toplamaqdır.

---

[1] “Bəqərə”, 157.

2. İslam xüsusi mülkiyyəti qəbul edir.
3. Zəkat sizin sərmayənizin kiçik bir hissəsini təşkil edir. Onu həvəslə ödəyin.
4. Zəkat insanın iman iddiasının sübutudur.
5. Zəkat insanın ruhunu xəsislikdən, dünyapərəstlikdən təmizləyir.
6. Zəkat fərd və cəmiyyətdə əxlaqi keyfiyyətləri inkişaf etdirir.
7. Bir çox fəsadların səbəbi yoxsulluqdur. Məhrumların dolanışıq xərclərinin tə`mini cəmiyyəti bir sıra fəsadlardan xilas edir.
8. Həzrət Peyğəmbər (s) adi xalqa salam göndərirdi. Onun bu münasibəti xalqı yaxşılığa sövq edir, şəxsiyyətlərini formalaşdırırdı.
9. Zəkat ödəyənlə zəkat alanın rabitəsi məhəbbət və mə`nəviyyat üzərində qurulmalıdır.
10. Peyğəmbərin xalqa duası qəbuldur.
11. Deməyək ki, zəkat vermək vəzifədir, zəkat verənlərə təşəkkür edək.
12. Təşviq həmişə maddi olmur. Bə`zən mə`nəvi təşviq daha tə`sirli olur.
13. Təşviq işin ağırlığını yüngülləşdirir.
14. Göstərişlərin və vəzifələrin qaynağı ilahi elmdir.

**Ayə 104:**

﴿أَلَمْ يَعْلَمُواْ أَنَّ اللّهَ هُوَ يَقْبَلُ التَّوْبَةَ عَنْ عِبَادِهِ وَيَأْخُذُ الصَّدَقَاتِ وَأَنَّ اللّهَ هُوَ التَّوَّابُ الرَّحِيمُ﴾

**“Bilmədilərmi ki, yalnız Allah Öz bəndələrindən tövbəni qəbul edir, sədəqələri alır və Allah tövbələri qəbul edən və mehribandır.”**

## *Nöqtələr*

◘Təbuk döyüşündə iştirak etməmiş bir dəstə həzrət Peyğəmbərin (s) yanına gəlib tövbələrinin qəbul olunmasını istədilər. Ayədə buyurulur ki, tövbələri qəbul edən başqası yox, yalnız Allahdır. Peyğəmbərə və imama verilən sədəqə və zəkatların əsil ünvanı Odur.

◘Peyğəmbər (s) Allahın göstərişi altında zəkat aldığından, əslində bu zəkatı Allah alır. Necə ki, bey`ət ayəsində buyurulur: “Ey peyğəmbər, kim sənə bey`ət etdisə, elə bil, Allaha bey`ət etmişdir.”[1]

◘İmam Sadiq (ə) buyurmuşdur: “Sədəqə əvvəlcə Allaha çatır, sonra fəqirin əlinə yetişmiş olur.” Sonra həzrət həmin bu ayəni tilavət etmişdir.[2]

---

[1] “Fəth”, 10.
[2] “Təfsire-bürhan”.

◘İmam Sadiqdən (ə) soruşdular ki, zəkat peyğəmbərə məxsusdur, yoxsa ondan sonra da davam edir? Həzrət buyurdu: “Bəli, davamı var.”[1]

## *Bildirişlər*

1. Tövbəni nəinki keşişlər və kilsə, hətta Allahın peyğəmbəri də qəbul edə bilməz. Bu, yalnız Allaha məxsus məqamdır.
2. Zəkat ödənməsi gerçək tövbə şərtidir.
3. İnsanın daxilindəki inqilab onun maddi yardımlarından öndə gəlir.
4. Tövbə təkcə peşmançılıq deyil, peşmançılıqdan sonra islah və əməl də lazımdır.
5. Sədəqəni Allah qəbul etdiyindən onu həvəslə, ən yaxşı mallardan və ən üstün tərzdə verək.
6. Zəkat böyük müqəddəsliyə malik islami ödəncdir. Çünki onu alan Allah-təaladır.

**Ayə 105:**

﴿وَقُلِ اعْمَلُواْ فَسَيَرَى اللّهُ عَمَلَكُمْ وَرَسُولُهُ وَالْمُؤْمِنُونَ وَسَتُرَدُّونَ إِلَى عَالِمِ الْغَيْبِ
وَالشَّهَادَةِ فَيُنَبِّئُكُم بِمَا كُنتُمْ تَعْمَلُونَ﴾

**“De ki, əməl edin, tezliklə Allah, Onun rəsulu və mö`minlər sizin işinizi görərlər. Tezliklə qeyb və aşkarı bilənə doğru qaytarılarsınız. Sizi gördüyünüz işlərdən agah edəcək.”**

## *Nöqtələr*

◘Allahın, Peyğəmbərin (s) və mö`minlərin bizim əməllərimizdən xəbər tutacağını bildirən bu ayə əslində əməllərin övliyalara çatdırılması kimi şiə əqidəsini təsdiqləyir. Əməllər gündəlik, həftəlik və ya aylıq olaraq övliyalara çatdırılır. Əməllərimiz xeyir olduqda, övliyalar da bizə görə şadlanır. Əməllər pis olduqda, onlar qəmlənirlər. Belə bir həqiqətə iman təqva və həyaya müsbət tə`sir göstərir. İmam Sadiq (ə) buyurmuşdur: “Ey xalq! Öz günahlarınızla Allah rəsulunu narahat etməyin.”[2]

◘Rəvayətlərə əsasən bu ayədəki “mö`minlər” tə`biri mə`sum imamlara işarədir. Allah imamları bizim əməllərimizdən xəbərdar edir.[3]

## *Bildirişlər*

1. İnsan öz-özlüyündə azaddır.
2. Əməllərimizin Allahın hüzurunda baş verməsinə diqqət günaha mane olur.
3. Ətrafdan baxanlar çox olduqca xəcalət hissi də güclənir. Xüsusi ilə Allah, Peyğəmbər (s) və mö`minlərin nəzəri günaha mane olur.

---

[1] “Təfsire-Nurus-səqəleyn”.
[2] “Təfsire-kənzüd-dəqaiq”.
[3] “Təfsire-kənzüd-dəqaiq”.

4. Ölçü me`yarı əməldir. Düna həyatında övliyalara çatdırılan bizim əməllərimizdir. Qiyamətdə də sorğuya çəkilən əməldir.

5. Əməllərimizin mahiyyəti qiyamət günü aşkarlanacaq.

**Ayə 106:**

﴿وَآخَرُونَ مُرْجَوْنَ لِأَمْرِ اللّهِ إِمَّا يُعَذِّبُهُمْ وَإِمَّا يَتُوبُ عَلَيْهِمْ وَاللّهُ عَلِيمٌ حَكِيمٌ﴾

**“Digər bir qrup var ki, onların işi Allahın istəyindən asılıdır. Onlara ya əzab verər, ya da (tövbələrinə xatir) lütf edər. Allah biləndir və hikmət sahibidir.”**

## *Nöqtələr*

◘“İrca”, sözündən olan “murcəvnə” sözü “tə`xir” mə`nasını bildirir. Bu, ümid dolu bir tə`xirdir.

◘Bu üç ayədə Allah-təala üç dəstəni yada salır: Mədinədə olan, tanınmayan məxfi münafiqlər (ayə 101); Günahını e`tiraf etmiş və tövbəyə ümidli azğınlar (ayə 102); Günah üzərində dayanıb tövbə etməmiş azğınlar. (ayə 106)

◘Rəvayətlərə əsasən ayə həzrət Həmzə və ya Cə`fər Təyyarın qatillərini nəzərdə tutur. Onlar peşman olub İslamı qəbul etmişdilər. Amma hələ də qəlblərində iman kök atmamışdı. Ya da Təbuk döyüşündə olmamış və peşman olub dillə e`tiraf edənlər nəzərdə tutulur.

## *Bildirişlər*

1. Allah istədiyi vaxt günahkarları cəzalandırar və ya bağışlayar.
2. Xətaya yol verənlərin tərbiyəsində fərqli yanaşmalardan istifadə olunmalıdır. Bir qismini qorxu və ümid arasında qoymaq lazım gəlir.
3. Allahın qəhr-qəzəbi və ya lütfü Onun elm və hikmətinə əsaslanır. Bu işdə intiqam amili yoxdur.

**Ayə 107:**

﴿وَالَّذِينَ اتَّخَذُواْ مَسْجِدًا ضِرَارًا وَكُفْرًا وَتَفْرِيقًا بَيْنَ الْمُؤْمِنِينَ وَإِرْصَادًا لِّمَنْ حَارَبَ اللّهَ وَرَسُولَهُ مِن قَبْلُ وَلَيَحْلِفَنَّ إِنْ أَرَدْنَا إِلاَّ الْحُسْنَى وَاللّهُ يَشْهَدُ إِنَّهُمْ لَكَاذِبُونَ﴾

**“(Münafiqlərdən bir dəstəsi də) o kəslərdir ki, İslama zərbə vurmaq, küfrü yaymaq və mö`minlər arasında təfriqə salmaq, Allah və Onun rəsulunun qədim düşmənlərinə pusqu üçün məscid tikdilər. Daim and içirlər ki, məqsədləri yalnız xeyirdir. (Amma) Allah şahiddir ki, onlar yalançıdırlar.”**

## *Nöqtələr*

◘Ayədə “Zirar” məscidinin əhvalatına işarə olunur. Münafiqlər zəif və xəstə adamları, yağışlı günləri bəhanə edərək Qoba məscidi qarşısında başqa bir məscid tikdilər. Əslində bu məscid onlar üçün mərkəz idi. Təbuk döyüşünə yola

düşməmişdən öncə Peyğəmbərdən (s) istədilər ki, həmin yerdə namaz qılıb açılış aparsın. Peyğəmbər (s) Təbukdan qayıtdıqdan sonra ayə nazil oldu və münafiqlərin iç üzü açıldı. Peyğəmbər (s) göstəriş verdi ki, məscid oda çəkilsin, viran qoyulsun...[1]

Rəvayətlərə əsasən, "Zirar" məscidi Mədinədə Əbu-Amirin göstərişi ilə tikilmişdi. Hənzələnin (Qəsilül-Məlaikənin) atası olan bu şəxs məsihi abidlərindən idi. Bu şəxs Xəzrəc qəbiləsində nüfuz sahibi idi. Peyğəmbərin (s) hicrəti və İslamın nüfuzunun genişlənməsindən sonra Peyğəmbərlə (s) müxalifətə başladı. Əbu-Amir Ühüd döyüşündə öz münafiq rolu ilə seçilmişdi. Nəhayət, Məkkəyə qaçmış və oradan Ruma gedib Rum padşahından İslama qarşı kömək istəmişdi. Maraqlıdır ki, münafiqlərin başçılarından olan bu şəxsin oğlu Hənzələ İslam aşiqi olmuş və şəhadətə yetmişdir.[2]

◘Əbu-Amir həzrət Peyğəmbəri (s) Zirar məscidinə namaza də`vət etdiyi vaxt üç məsələ haqqında danışmışdı: cəmiyyət namazına eşq, zəiflərə eşq, rəhbər və onun namazına eşq. Amma bütün bu sözlər riyakarlıqdan başqa bir şey deyildi. Münafiqlər daim belə olmuşlar. Musaya qarşı Samiri fitnəsini törətdilər, peyğəmbər məscidi qarşısında əməvi məscidi tikdilər, həzrət Əlinin (ə) qarşısında Qur`anı nizəyə taxdılar. Samirinin buzovu yandırıldığı kimi, münafiqlərin də məscidi yandırıldı. Bu, tarixi bir dərs idi.

Yezidin imam Hüseynə (ə) qalib gəlməsi münasibəti ilə Kufə və Şamda məscid tikildi. İmamlar bu məscidləri "məl`unə" adlandırmışlar!

◘İslamda istənilən bir zərər qadağandır.[3] O cümlədən: cana vurulan zərərlər[4]; xalqa zərər[5]; həyat yoldaşına zərər[6]; övlada zərər[7]; vərəsəyə zərər[8]; zərərli tə`limlər[9]; müamilə zərərləri və borclar[10]; əqidə məktəbi və vəhdətə zərər.

## *Bildirişlər*

1. Düşmən məscid və məzhəbdən din əleyhinə istifadə edir. Şüarların və adların zahirinə aldanmayaq.
2. Fitnəkarlar hətta Peyğəmbərin (s) namazından öz mənafeləri üçün istifadə etmək istəyirlər.
3. Məscid tikmək yox, bu işdə xalis niyyət əsasdır.
4. İslamda istənilən növ zərər qadağandır. Zərər məqsədi ilə tikilən məscid də bu qəbildəndir.
5. Düşmənlərin əlində alətə çevrildikdə məscid öz müqəddəsliyini itirir.

---

[1] "Təfsire-Məcməül-bəyan"; "Təfsire-əl-minar"; "Təfsire-Nurus-səqəleyn".
[2] "Vəsail", c. 26, s. 14.
[3] "Vəsail", c. 26, s. 14.
[4] "Bəqərə", 185.
[5] "Maidə", 2.
[6] "Təlaq", 6.
[7] "Bəqərə", 233.
[8] "Nisa", 12.
[9] "Bəqərə", 102.
[10] "Bəqərə", 282.

6. Allah Öz peyğəmbərinin və dinin hamisidir. O, vəhy yolu ilə münafiqlərin fitnələrini ifşa edir.

7. Müsəlmanlar arasında təfriqə yaradan istənilən bir məscid Zirar məscididir.

8. Münafiqlər kafirlərə xidmət edirlər.

9. Xarici düşmənlərlə mübarizə zamanı daxili düşmənləri yaddan çıxarmayaq. Münafiqlər Təbuk döyüşündən öncə rəsmi şəkildə Peyğəmbərdən (s) istədilər ki, onların mərkəzində açılış etsin. Amma Peyğəmbər (s) Mədinədə həzrət Əlini (ə) öz yerində qoyub geri qayıtdıqdan sonra Zirar məscidini sökdü.

10. Müsəlmanların vəhdətini pozmaq küfrə bərabərdir.

11. Yalan and münafiqlərin üsuludur.

12. Düşmən tərəfin iddia və təbliğatına aldanmayaq.

13. Yalan kafir və münafiqlərin xislətidir.

**Ayə 108:**

﴿لاَ تَقُمْ فِيهِ أَبَدًا لَّمَسْجِدٌ أُسِّسَ عَلَى التَّقْوَى مِنْ أَوَّلِ يَوْمٍ أَحَقُّ أَن تَقُومَ فِيهِ فِيهِ رِجَالٌ يُحِبُّونَ أَن يَتَطَهَّرُواْ وَاللّهُ يُحِبُّ الْمُطَّهِّرِينَ﴾

**"Orada (Zirar məscidində) heç vaxt (namaza) durma. Həqiqətən, ilk gündən təqva üzərində bina olunmuş məscid namaz qılınması üçün daha layiqdir. (Çünki) o məsciddə paklanmaq istəyində olan kişilər var. Allah pakları sevir."**

## *Nöqtələr*

◘Öncədən təqva üzərində bina olunmuş məscid Qoba məscididir. Bu məscid Peyğəmbərin (s) Mədinəyə hicrəti zamanı tikilmişdir.[1]

◘Fəxr-Razi deyir: "Məscidin dəyərli olmasında təqva kökü əsasdırsa, insanın da iman və təqvada öncül olması daha dəyərlidir. İlk gündən iman gətirən həzrət Əli (ə) illər uzunu şirkdən sonra İslamı qəbul edənlərdən üstündür."[2]

## *Bildirişlər*

1. İslam quruluşuna müxalifətdə dayananların mərkəzinə çevrilmiş məsciddə namaza durmayın.

2. İbadət siyasətdən ayrı deyil. Batili hətta namazla gücləndirmək olmaz. (Küfr, nifaq və təfriqəni təsdiqləmək haramdır.)

3. Rəhbər başqaları üçün nümunədir. Peyğəmbər Zirar məscidinə daxil olmamalıdır ki, başqaları da daxil olmasın. Bu səbəbdən də ayədə Peyğəmbərə (s) xitab olunur.

---

[1] "Təfsire-Nurus-səqələyn".

[2] "Təfsire-Kəbire-Fəxr Razi".

4. Cəmiyyətin rəhbəri hamıdan qabaq mövqe tutmalıdır.

5. Xalqı fəsad mərkəzlərindən uzaq olmağa çağırırıqsa, onlar üçün sağlam, faydalı mərkəzlər yaratmalıyıq.

6. Hər bir şeyin dəyəri onun bünövrəsini qoyanın məqsəd və niyyətindən asılıdır.

7. Məscid cisim və ruhun paklanma zəminidir.

8. Salehlərlə yoldaşlıq dəyərdir.

9. Məkanların dəyəri oraya get-gəl edən fərdlərin dəyərindən asılıdır. Məscid günbəz və minarəsi ilə yox, pak namaz qılanları ilə seçilməlidir.

10. Namaz və məscid tə`lim-tərbiyə və paklıq vasitəsidir.

11. Kamillik və paklığa eşq özü bir kamaldır.

12. Paklar Allahın məhbubudurlar.

**Ayə 109:**

﴾أَفَمَنْ أَسَّسَ بُنْيَانَهُ عَلَى تَقْوَى مِنَ اللّهِ وَرِضْوَانٍ خَيْرٌ أَم مَّنْ أَسَّسَ بُنْيَانَهُ عَلَى شَفَا جُرُفٍ هَارٍ فَانْهَارَ بِهِ فِي نَارِ جَهَنَّمَ وَاللّهُ لاَ يَهْدِي الْقَوْمَ الظَّالِمِينَ﴿

**“Öz (işinin) bünövrəsini təqva və Allahın razılığı üzərində qərar verən kəs üstündür, yoxsa öz (işinin) bünövrəsini uçulası bir aşırımın ağzında qərar verən kəs? Elə bir yer ki, onu cəhənnəm oduna yuvarlandırar. Allah zalım qövmü hidayət etməz.”**

### *Nöqtələr*

◘Ötən ayədə Zirar məscidi ilə Qoba məscidi müqayisə olundu. Bu ayədə isə hər iki məscidin banilərindən danışılır.

◘“Şəfa” dedikdə bir şeyin ağzı, kənarı, “curuf” dedikdə çay və ya quyunun su ilə altı uçulmuş haşiyəsi nəzərdə tutulur. “Har” sözü isə süst mə`nasını bildirir.

### *Bildirişlər*

1. İşlərin dəyəri onların zahirində yox, niyyətlərdədir. Qoba məscidi Allahın razılığı məqsədi ilə tikilmişdisə, Zirar məscidinin tikilməsində məqsəd təfriqə yaratmaq idi.

2. Batilin bünövrəsi süstdür.

3. Bə`zən məscid baniləri özlərini cəhənnəmin dibinə yuvarladırlar.

4. Məzhəbə aid və xalqın inanc yeri olan mərkəzlərdən sui-istifadə zülmdür.

**Ayə 110:**

﴾لاَ يَزَالُ بُنْيَانُهُمُ الَّذِي بَنَوْاْ رِيبَةً فِي قُلُوبِهِمْ إِلاَّ أَن تَقَطَّعَ قُلُوبُهُمْ وَاللّهُ عَلِيمٌ حَكِيمٌ﴿

**“Münafiqlərin qoyduğu bünövrə onların qəlblərində daimi bir tərəddüd səbəbidir. (Onların xilas yolları yoxdur.) Yalnız qəlbləri (nifaqdan) ayrılsa (nicat taparlar). Allah biləndir və hikmət sahibidir.”**

## *Bildirişlər*

1. Münafiqlərin e`tiqadi bünövrələri süstdür.
2. Qəlbin və ruhun xəstəlikləri bə`zən möhkəm və dəyişməz şəkil alır.
3. Zahiri dil tövbəsi ilə qəlb və ruh xəstəliklərindən yaxa qurtarmaq olmaz.
4. Nifaq binası uçurulsa da, onun tə`sirləri qəlblərdə kök atıb qalır və münafiqin ölümünədək yaşayır.
5. Münafiqlərin təşkilat və mərkəzləri var.
6. Münafiqin rahatçılığı yoxdur.
7. Allah münafiqlərin Zirar məscidini tikməkdəki məqsədlərini bilir.

**Ayə 111:**

﴿إِنَّ اللّهَ اشْتَرَى مِنَ الْمُؤْمِنِينَ أَنفُسَهُمْ وَأَمْوَالَهُم بِأَنَّ لَهُمُ الجَنَّةَ يُقَاتِلُونَ فِي سَبِيلِ اللّهِ فَيَقْتُلُونَ وَيُقْتَلُونَ وَعْدًا عَلَيْهِ حَقًّا فِي التَّوْرَاةِ وَالإِنجِيلِ وَالْقُرْآنِ وَمَنْ أَوْفَى بِعَهْدِهِ مِنَ اللّهِ فَاسْتَبْشِرُواْ بِبَيْعِكُمُ الَّذِي بَايَعْتُم بِهِ وَذَلِكَ هُوَ الْفَوْزُ الْعَظِيمُ﴾

**“Həqiqətən, (Allah) mö`minlərin canlarını və mallarını behişt bahasına onlardan almışdır. Onlar Allah yolunda döyüşürlər ki, öldürsünlər və ya öldürülsünlər. Tövratda, İncildə və Qur`andakı haqq və`d Allahın öhdəsinədir. Əhdinə Allahdan da vəfalı olan kimdir?!” Bey`ət etməyinizə vasitə olan bu müamiləyə görə sizə müjdə olsun. Bu, həmin böyük qurtuluşdur.”**

## *Nöqtələr*

◘Dünya bir bazardır, insanlar isə tacir. İnsan satıcıdır, Allah isə alıcı. Satılan şey insanın mal və canıdır. Mal və canın dəyəri isə behiştdir. İnsan canını və malını Allaha satdıqda xeyir tapır, bir başqasına satdıqda zərərə düşür.

◘Allahla müamilənin bir neçə imtiyazı var: özümüz, gücümüz, olanlarımız Allahdandır və bütün bunları Ondan başqasına vermək yaxşı deyil; Allah aza da müştəridir; Allah-təala aldığı malın eybini örtür və insanı rüsvay etmir; Allah insanın malını və canını behişt bahasına alır. Başqa bir qiymətə müamilə etmək axmaqlıq və zərərdir.

◘İmam Sadiq (ə) buyurmuşdur: “Sizin dəyəriniz yalnız behiştdir. Özünüzü behiştdən ucuz satmayın.”[1]

## *Bildirişlər*

1. Allah kimi alıcı olan yerdə nə üçün başqasının sorağına gedək?
2. Allah münafiqin və kafirin yox, yalnız mö`minin müştərisidir.
3. Allah üçün canla cihad malla cihaddan öndə gəlir. (Var-dövlət hamıda olmasa da, can hamıda var.)

---

[1] “Təfsire-Məcməül-bəyan”.

4. Behişt cihad, qılınc, can və malın Allaha təqdimi sayəsində əldə olunur.

5. Cihadda məqsəd Allaha yaxınlıq olsa, öldürməyin və ya öldürülməyin fərqi olmaz.

6. Mö`min cihad səfərinə daim hazırdır.

7. Mö`minin savaşda məqsədi öncə batili aradan götürmək, sonra şəhadətə çatmaqdır.

8. Allahla müamilədə xeyir mütləqdir. Allahla müamilədə hər şey haqdır və insanın xeyrinədir. Başqaları isə bu işdə ya qeyri-ciddidir, qatqılıdır, ya həvəs, ya da rəqibi aşırmaq üçün addım atır.

9. Cihad, mücahidlər və şəhidlər təkcə İslamda dəyərə malik deyil. Tövrat və İncildə də eyni münasibət mövcuddur. Əgər bu gün həmin kitablarda qeyd olunan məsələ yoxdursa, bunun səbəbi həmin kitabların təhrif olunmasıdır.

10. Haqqımız olmasa da, Allah bizim üçün Öz öhdəsinə bə`zi haqlar götürmüşdür.

11. Müamilə zəruri bir əqddir və ona vəfa qılmaq vacibdir.

12. Allah-təala müamilədə mücahidləri Özünə tərəf seçmişdir

13. Ən böyük müjdə fənanın əbədiyyətə, dünyanın axirətə çevrilməsidir. Bundan savay nə varsa, zərərdir.

14. Cihaddan qaçan münafiqləri tənqid etməklə yanaşı, mücahid mö`minlərə təşəkkür etmək lazımdır.

15. Ən böyük qurtuluş Allahla müamilə sayəsində əldə olunur.

**Ayə 112:**

﴿التَّائِبُونَ الْعَابِدُونَ الْحَامِدُونَ السَّائِحُونَ الرَّاكِعُونَ السَّاجِدونَ الآمِرُونَ بِالْمَعْرُوفِ وَالنَّاهُونَ عَنِ الْمُنكَرِ وَالْحَافِظُونَ لِحُدُودِ اللّهِ وَبَشِّرِ الْمُؤْمِنِينَ﴾

**“(Mücahid mö`minlər) tövbə, ibadət, sitayiş, (haqq yolda) səyahət, rüku, səcdə, əmr be mə`ruf və nəhy əz münkər əhli, ilahi hədləri hifz edəndirlər. Belə mö`minlərə müjdə ver.”**

## *Nöqtələr*

◘Bu ayədə mücahid mö`minlərin 9 xüsusiyyəti bəyan olunmuşdur: günahlarından tövbə edirlər, ibadət yolunu tuturlar, dilləri həmd deyir, ayaqları hərəkətdədir, rüku edirlər, səcdə qılırlar, özlərini tərbiyələndirirlər, əmr be mə`ruf vasitəsi ilə cəmiyyəti islah edirlər, ilahi qanunlar çərçivəsindən çıxmırlar.

Tövbə ibadət yolunu açır, şükür edən dil hərəkətlə yanaşı rüku və səcdə üçün hazırlıq yaradır, əmr be mə`ruf və nəhy əz münkər cəmiyyətdə ilahi hüdudları hifz edir.

◘“Əttaibun” sözündən mə`lum olur ki, malını və canını Allaha təqdim edən mö`minlər daxili bir inqilabla, bəyənilməmiş işlərdən çəkinməklə bu müamilə meydanına daxil ola bilərlər. (Necə ki, Kərbəla macərasında Züheyr və Hürr kimi mənfi keçmişə malik şəxslər Allahla müamilə sayəsində canlarını təslim edib uğur qazandılar.)

◘Ubbad Bəsri Məkkə yolunda imam Səccadı (ə) görüb dedi: “Cihad və çətinliyi qoyub həcc və asanlığımı seçdin?”

Sonra Ubbad “innəllahəştəra...” ayəsini oxudu. Həzrət buyurdu: “Ayənin davamını oxu!” Ubbad “əttaibunə...” ayəsini oxudu. Həzrət buyurdu: “Əgər ardıcıllarımızda bu sifətlər olsaydı, qiyam qaldırmağımız vacib olardı. Bu halda cihad da həcdən üstün olardı.”[1]

◘Rəvayətlərdə bildirilir ki, “əssaihun” tə`biri oruc tutanlara işarədir.[2]

## *Bildirişlər*

1. Allahın öz əhdinə vəfa şərti mö`minlərin ilahi hədləri gözləməsidir.
2. Cəbhədə kiçik cihad üçün böyük cihad və özünütərbiyə lazımdır.
3. İslam hərtərəfli bir dindir. Göz yaşları qılınc, ibadət və səyahətlə müşayiət olunur.
4. Kamilliklərin insanda xasiyyətə çevrilməsi bir tələbdir.
5. İslam döyüşçülərinin ruhiyyəsi Allahın zikri və ibadətlə güclənir. Şərab, musiqi və bu kimi başqa işlər həmin ruhiyyəyə ziddir və düşmən cəbhəsinə aiddir.
6. İbadətlərin qəbulu üçün günahlardan tövbə etmək lazımdır.
7. Hərəkət, sə`y, hicrət, özünütərbiyə kamillik və Allaha yaxınlıq yolunda bir dəyərdir.
8. İslam döyüşçüsü namaz və ibadət əhli olmalıdır.
9. Kamillik yolunda öncə fərdin, sonra cəmiyyətin islahı gəlir.
10. Sərhədlərdə düşmənlə savaş daxili fəsadları nəzərimizdən qaçırmasın.
11. İlahi hədlərin hifzi üçün həm xarici düşmən, həm də daxili fəsadlarla mübarizə aparmaq lazımdır.
12. İctimai fəsadların qarşısının alınmasında döyüşçülər daha çox məs`uliyyət daşıyırlar.

### Ayə 113:

﴿مَا كَانَ لِلنَّبِيِّ وَالَّذِينَ آمَنُواْ أَن يَسْتَغْفِرُواْ لِلْمُشْرِكِينَ وَلَوْ كَانُواْ أُوْلِي قُرْبَى مِن بَعْدِ مَا تَبَيَّنَ لَهُمْ أَنَّهُمْ أَصْحَابُ الْجَحِيمِ﴾

**“Yaxşı deyil ki, peyğəmbər və ona iman gətirən kəslər müşriklərin cəhənnəm əhli olduğunu bildikdən sonra onların bağışlanmasını istəyələr– hətta qohumları da olsa!”**

---

[1] “Vəsail”, c. 15. s. 46.

[2] “Təfsire-Nurus-səqəleyn”.

## *Nöqtələr*

◘Bə`zi təfsirçilər əsassız rəvayətlərə istinad edərək bu ayənin Əbu-Talib haqqında olduğunu bildirmişlər. Halbuki Əbu-Talibin iman gətirməsi barədə xeyli dəlil və rəvayət var. Ayənin Əbu-Talib haqqında olmasını bildirən rəvayət Həzrət Əlinin (ə) düşməni Səid ibn Musəyyib tərəfindən nəql olunmuşdur. Həzrət Əlinin (ə) atası olması Əbu-Talibi qınaq hədəfinə çevirmişdir!

## *Bildirişlər*

1. Qanun qarşısında hamı, o cümlədən Peyğəmbər (s) və digər müsəlmanlar bərabərdirlər.
2. Şirk bağışlanmayan günahdır. Hətta Peyğəmbərin (s) də istiğfarı (bağışlatdırma istəyi) bu sahədə səmərəsizdir.
3. Əqidə bağlılığı hiss bağlılığından mühümdür. Qohumluq hissləri əqidə hisslərinə üstün gəlməməlidir.
4. Peyğəmbərlə qohumluq insanı cəhənnəmdən qorumur.

**Ayə 114:**

﴿وَمَا كَانَ اسْتِغْفَارُ إِبْرَاهِيمَ لِأَبِيهِ إِلاَّ عَن مَّوْعِدَةٍ وَعَدَهَا إِيَّاهُ فَلَمَّا تَبَيَّنَ لَهُ أَنَّهُ عَدُوٌّ لِلّهِ تَبَرَّأَ مِنْهُ إِنَّ إِبْرَاهِيمَ لأَوَّاهٌ حَلِيمٌ﴾

**“İbrahimin öz atasının bağışlanmasını istəməsi yalnız ona verilmiş və`də görə idi. Allaha düşmən olduğunk bildikdən sonra ondan üz döndərdi. Həqiqətən, İbrahim (Allah qorxusundan) nalə çəkən və həlim idi.”**

## *Nöqtələr*

◘Ötən ayədə bildirildi ki, Peyğəmbər və mö`minlər qohumları olsa belə, müşriklərə dua edə bilməzlər. Bu ayədə isə İbrahimin öz müşrik əmisinə etdiyi duanın sirri açıqlanır və bildirilir ki, ona istiğfar və`di verilmişdi.[1] Ayədə İbrahimin öz əmisinin doğru yola gələcəyinə ümidli olduğu qeyd edilir. Amma əmisi şirk halında öldükdən sonra İbrahim istiğfarı tərk etdi.

◘***Sual***: Nə üçün həzrət İbrahim əmisinin ölümündən sonra da ona dua edirdi?[2]

***Cavab***: Həqiqi ata “valid” adlanır. “Əb” dedikdə isə ata, müəllim, əmi, qaynata, baba da nəzərdə tutula bilər. İbrahim müşrik əmisinə yox, həqiqi atasına dua edirdi.

Qur`anın 11 ayəsində İbrahimin əmisi “əb” tə`biri ilə yad edilir ki, İbrahimin kimin himayəsində olması anlaşılsın. Amma İbrahim bu şəxsin tə`siri altına düşməmişdir.

İmam Sadiq (ə) buyurmuşdur: “İbrahim dua əhli və çox ağlayan olmuşdur.”[3]

---

[1] “Məryəm”, 47.
[2] “İbrahim”, 41.
[3] “Təfsire-Nurus-səqəleyn”.

## *Bildirişlər*

1. Allah övliyalarına bədgümanlığa səbəb olan hər şey aradan götürülməli və düzgün izah verilməlidir.

2. Kafirə münasibətdə də əhdə vəfa lazımdır.

3. Peyğəmbərlərin elmi məhduddur.

4. Kafirlərin tünd rəftarı qarşısında öz həlimliyimizdən əl çəkməyək. (İbrahimin əmisi onu daşqalaq etməklə hədələyirdi. İbrahim isə səbirli idi.[1]

5. Allaha xatir əmidən üz döndərmək İbrahimin Allaha eşqi və Onun qarşısında təvazö nişanəsidir.

**Ayə 115:**

﴿وَمَا كَانَ اللّهُ لِيُضِلَّ قَوْمًا بَعْدَ إِذْ هَدَاهُمْ حَتَّى يُبَيِّنَ لَهُم مَّا يَتَّقُونَ إِنَّ اللّهَ بِكُلِّ شَيْءٍ عَلِيمٌ﴾

**“Allah bir qövmü hidayət etdikdən sonra, çəkinməli olduqlarını bəyan etməmiş haqq yoldan çıxarmaz. Şübhəsiz, Allah hər şeyi biləndir.”**

## *Nöqtələr*

◘Ayə ya müsəlman olduqdan sonra vəzifələri ilə tanış olmamış dünyadan gedənlərin halını bəyan edir, ya da ötən ayəyə, xəbərdarlığa biganə qalan Allah düşmənləri ilə düşmənçiliyə çağırır. Ayə müşriklər üçün istiğfar qadağan olunmamış onların bağışlanmasını istəyənlərin nigarançılığını aradan qaldırma məqsədi də daşıya bilər.

◘İmam Riza (ə) buyurmuşdur: “Allah imama vacib etmişdir ki, öz ölümünü gözlədikdə növbəti mə`sum imamı xalqa tanıtdırsın.” Sonra imam həmin bu ayəni tilavət etmişdir.[2]

## *Bildirişlər*

1. İlahi hədlərə riayət etmədiyimiz halda azmaq təhlükəsi ilə üzləşə bilərik.

2. Allah Onun hidayətinə e`tinasızlığın cəzası olaraq azdırır. Allah göstərişləri ilə bilərəkdən müxaliflik insanı ilahi hidayətdən məhrum edir.

3. Allah haqqı aydınlaşdırmamış, höccəti tamamlamamış cəzalandırmır.

---

[1] “Məryəm”, 46.

[2] “Təfsire-Nurus-səqəleyn”.

4. İlahi hidayət kamildir. Xoşbəxtlik vasitələri göstərilməklə yanaşı təhlükə amilləri də açıqlanır. İmam Sadiq (ə) buyurmuşdur: “Allah Öz razılıq və qəzəb səbəblərini xalqa bildirir.”[1]

5. Allahın bütün qadağaları Onun elm və hikmətindən qaynaqlanır.

**Ayə 116:**

﴿إِنَّ اللّهَ لَهُ مُلْكُ السَّمَاوَاتِ وَالأَرْضِ يُحْيِي وَيُمِيتُ وَمَا لَكُم مِّن دُونِ اللّهِ مِن وَلِيٍّ وَلاَ نَصِيرٍ﴾

**“Həqiqətən, göylərin və yerin hakimiyyəti yalnız Allahındır. Dirildir, öldürür. Sizin Allahdan savay haminiz və yardımçınız yoxdur.”**

## *Bildirişlər*

1. Diriltmək və öldürmək, qəlblərin ölüm və həyatı (hidayət və zəlalət) Allahın əlindədir.

2. Müşrik qohumlarla rabitələri möhkəmləndirmək əvəzinə göylərin və yerin maliki Allahla yaxınlıq fikrində olun. Onların (qohumların) Allahla müqayisədə heç bir yardım qüdrəti yoxdur.

**Ayə 117:**

﴿لَقَد تَّابَ اللهُ عَلَى النَّبِيِّ وَالْمُهَاجِرِينَ وَالأَنصَارِ الَّذِينَ اتَّبَعُوهُ فِي سَاعَةِ الْعُسْرَةِ مِن بَعْدِ مَا كَادَ يَزِيغُ قُلُوبُ فَرِيقٍ مِّنْهُمْ ثُمَّ تَابَ عَلَيْهِمْ إِنَّهُ بِهِمْ رَؤُوفٌ رَّحِيمٌ﴾

**“Həqiqətən, Allah Peyğəmbərə, mühacirlərə və çətin anda ona itaət göstərən ənsara Öz lütfünü yağdırdı. Bundan öncə bə`zilərinin qəlbi çaşmaq üzrəydi. Sonra Allah onlara Öz lütfünü qaytardı. Həqiqətən, (Allah) onlara rə`fətli (mərhəmətli) və mehribandır.”**

## *Nöqtələr*

◘Təbuk döyüşünün bir sıra çətinlikləri vardı: yolun uzunluğu, havanın istiliyi, məhsul yığımı dövrü olması, düşmənin qüdrəti. Bə`ziləri münafiq olmasalar da, sərin evi, soyuq suyu, həyat yoldaşlarını bu səfərdən üstün tuturdular. Bu zümrədən olan Əbu-Xüzəymə məzəmmət edildikdən sonra özünü Peyğəmbər (s) və müsəlmanlara çatdırdı.

◘Təbuk döyüşündə münafiqlər üç dəstə idi: bə`ziləri rum qızlarının gözəlliyinə məftun olacaqlarını bəhanə gətirirdilər; bə`ziləri xalqı həvəsdən salırdılar; bə`ziləri havanın istiliyini səbəb göstərib icazə istəyirdilər.

Bununla belə bir çoxları həvəslə Peyğəmbərə (s) qoşulmaq istəyir, səfər üçün imkanları olmadığından qəmlənirdilər. Əbuzər Ğəffarinin geri qalıb, nəhayət özünü Peyğəmbərə (s) çatdırması bu qəbildən olan məsələdir.

---

[1] “Kafi”, c. 1, s. 163.

¤Təbuk döyüşündə iş o qədər çətinləşmişdi ki, bə`zən bir xurmadan bir neçə nəfər istifadə edirdi.[1]

¤Bu və bundan sonrakı ayədə tövbə məsələsindən danışıldığı üçün surə "Bəraət", "Tövbə" adlandırıla bilər.

### *Bildirişlər*

1. Allah təhlükəli səhnələrdə Peyğəmbərə (s) və döyüşçülərə Öz lütfünü nazil edir.
2. Bütün insanlar, hətta peyğəmbərlər də ilahi lütfə ehtiyaclıdırlar.
3. İlahi tövbə peyğəmbərə və mö`minlərə xüsusi lütf mə`nasındadır və bə`zən günahkarlara əfv formasında təzahür edir.
4. Çətin şəraitdə rəhbərə itaət gerçək iman nişanəsidir.
5. Həyat çətinlikləri bir anlıqdır və ötüb keçir.
6. İnsan üçün daim büdrəmə təhlükəsi var. Bu səbəbdən də Allaha üz tutmaq zəruridir.
7. Yeganə qurtuluş yolu Allahın lütfüdür.

**Ayə 118:**

﴿وَعَلَى الثَّلاَثَةِ الَّذِينَ خُلِّفُواْ حَتَّى إِذَا ضَاقَتْ عَلَيْهِمُ الأَرْضُ بِمَا رَحُبَتْ وَضَاقَتْ عَلَيْهِمْ أَنفُسُهُمْ وَظَنُّواْ أَن لاَّ مَلْجَأَ مِنَ اللّهِ إِلاَّ إِلَيْهِ ثُمَّ تَابَ عَلَيْهِمْ لِيَتُوبُواْ إِنَّ اللّهَ هُوَ التَّوَّابُ الرَّحِيمُ﴾

**"Geri qalmış üç nəfərə yer öz genişliyi ilə dar gəldiyi və özlərindən yorulub Allah qarşısında ondan savay heç bir sığınacaqları olmadığını anladıqları vaxt Allah Öz lütfünü şamil etdi ki, tövbəyə müvəffəq olsunlar. Həqiqətən, Allah tövbələri qəbul edən və mehribandır."**

---

[1] "Təfsire-Məcməül-bəyan".

## *Nöqtələr*

◘Təbukda iştirak etməmiş üç müsəlman (Kə`b ibn Malik, Mərarə ibn Rəbi, Hilal ibn Üməyyə peşman olub üzrxahlıq üçün Peyğəmbərin (s) yanına gəldilər. Amma həzrət onlarla danışmadı və göstəriş verdi ki, kimsə onlarla ünsiyyət saxlamasın, hətta qadınları da onlara yaxınlaşmasın. Bu üç nəfər Mədinə ətrafındakı dağlara üz tutub tövbə üçün ayrı-ayrılıqda göz yaşı axıtmağa başladılar.

50 gündən sonra Allah onların tövbəsini qəbul etdi.[1]

## *Bildirişlər*

1. Döyüşə və rəhbərliyin əmrlərinə e`tinasızlıq göstərənlər tənbeh olunmalı, bir müddət kənarda saxlanılmalıdırlar.
2. Küskünlük və e`tinasızlıq müxaliflərin və günahkarların tərbiyə üsullarından biridir.
3. Müxaliflərlə mənfi (üz çevirməklə) mübarizə cəmiyyəti onlar üçün keşikçisiz zindana döndərir.
4. Peyğəmbər ilahi rəhmət güzgüsü olsa da, bir tərbiyəçi kimi arxa çevirmək vasitəsindən də istifadə edir.
5. Vicdan əzabı mövcud əzablardan biridir.
6. Xalqdan ümidsizlik tövbə üçün zəmin yaradır, diqqəti Allaha yönəldir.
7. Tövbə tövfiqi də ilahi lütf sayəsində əldə olunur. Allah öncə Öz lütfünü nazil edir ki, insan peşman olub tövbə qılsın. İnsan tövbə edən kimi Allah yenidən onun tövbəsini qəbul edir.
8. Bir müddət mənfi (e`tinasızlıq göstərməklə) mübarizədən sonra günahkarın tərbiyəsi üçün münasib şərait yaranır. Yalnız bundan sonra biz onları mehribanlıqla qəbul edək.

### Ayə 119:

﴿يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ اتَّقُواْ اللّهَ وَكُونُواْ مَعَ الصَّادِقِينَ﴾

**“Ey iman gətirənlər! Allahdan çəkinin və sadiqlərlə olun!”**

## *Nöqtələr*

◘Şiə və sünni rəvayətlərinə əsasən, “sadiqin” dedikdə həzrət Məhəmməd (s) və onun ailəsi nəzərdə tutulmuşdur.

◘“Bəqərə” surəsinin 177-ci ayəsi iman, infaq, namaz, əhdə vəfa, çətinliklər qarşısında səbir əhlini sadiq sayır. “Hicr” surəsinin 15-ci və “Həşr” surəsinin 8-ci ayəsində əzab çəkmiş mühacirlər “sadiq” adlandırılmışdır.

---

[1] “Bihar”, c. 21. s. 237.

## *Bildirişlər*

1. Doğruçularla (sadiqlərlə) yaxınlıq və yoldaşlıq insanın tərbiyə amillərindən biridir və onu büdrəmədən çəkindirir.

2. İlahi rəhbərlərdən uzaq düşməyək.

3. İlahi rəhbərlər mə`sumdurlar. Əgər belə olmasaydı, Allah onlarla yaxınlıq göstərişi verməzdi. (Fəxr Razi deyir: "Mə`sum şəxs xüsusi bir fərd deyil. Ümmət icması xətadan mə`sumdur." Onun bu sözləri təəccüb doğurur. Məgər xətakar fərdlərin cəmiyyəti mə`sumdurmu?!)

4. Cəmiyyətin təkamülü iman, təqva və mə`sum rəhbərə itaət sayəsində baş tutur.

5. Hər bir dövrdə mə`sum olmalıdır ki, müsəlmanlar ona qoşulsunlar.

6. Sadiqlik elə yüksək dərəcədir ki, Allah mə`sumluq əvəzinə "sadiqlik" tə`birini işlətmişdir. İman və təqva mərhələsini adlayanlar bu adla mədh olunurlar.

**Ayə 120:**

﴿مَا كَانَ لِأَهْلِ الْمَدِينَةِ وَمَنْ حَوْلَهُم مِّنَ الأَعْرَابِ أَن يَتَخَلَّفُواْ عَن رَّسُولِ اللّهِ وَلاَ يَرْغَبُواْ بِأَنفُسِهِمْ عَن نَّفْسِهِ ذَلِكَ بِأَنَّهُمْ لاَ يُصِيبُهُمْ ظَمَأٌ وَلاَ نَصَبٌ وَلاَ مَخْمَصَةٌ فِي سَبِيلِ اللّهِ وَلاَ يَطَؤُونَ مَوْطِئًا يَغِيظُ الْكُفَّارَ وَلاَ يَنَالُونَ مِنْ عَدُوٍّ نَّيْلاً إِلاَّ كُتِبَ لَهُم بِهِ عَمَلٌ صَالِحٌ إِنَّ اللّهَ لاَ يُضِيعُ أَجْرَ الْمُحْسِنِينَ﴾

**"Mədinə əhlinin və ətrafdakı bədəvilərin Allah rəsulunun göstərişindən çıxmağa (cəbhəyə getməməyə), öz canlarını Peyğəmbərin canından üstün tutmağa haqqı yoxdur. Çünki Allah yolunda çəkdikləri hər bir susuzluq, əziyyət və aclığa, kafirləri qəzəbləndirəcək yerdə atdıqları hər addıma, düşməndən gördükləri hər bir pisliyə əvəz olaraq saleh əməl yazılmış olar. Şübhəsiz, Allah yaxşı əməl sahiblərinin mükafatını puça çıxarmaz."**

## *Nöqtələr*

◘Bu ayədən, döyüşdə istifadə üçün bə`zi üsullar mə`lum olur: Bütün çətinliklərin ilahi razılıqla nəticələnməsinə iman; komandanlığın hifzi; çətinliklərə müqavimət və dözüm; düşməni xar və əsəbi etmək.

## *Bildirişlər*

1. Rəhbərin daha elmli və imkanlı səhabələri və yaxınları daha çox məs`uliyyət daşıyırlar.

2. İslamın müdafiəsində şəhər və kəndin fərqi yoxdur.

3. Peyğəmbərə sorğu-sualsız itaət zəruridir. Kimsənin haqqı yoxdur ki, Allah rəsulunun hökumətinə qarşı çıxsın.

4. Risalət şənlərindən biri savaşda bütün hərbi qüvvələrə komandanlıqdır.

5. Peyğəmbərin canını qorumaq müsəlmanların canını qorumaqdan zəruridir. Müsəlmanlar səmavi rəhbərdən öncə ölümü qəbul etməlidirlər.

6. Müsəlmanlar əqidə yolunda bütün çətinliklərə və təzyiqlərə dözümlü olmalıdır.

7. İslam cəmiyyəti küfrə düşmən olmalıdır.

8. Müsəlmanların kafirləri qəzəbləndirən həmrəy hərəkətlərinin ilahi mükafatı var.

9. Təkcə müdafiə və döyüş yox, cəbhədəki bütün əziyyətlər Allah tərəfindən qeydə alınır və mükafatı var.

10. Cihad üçün müqəddimə və hazırlıq da saleh əməl və ibadətdir.

11. Həqiqi xeyirxah şəxs inqilabçıdır və cəbhə əhlidir. (Fədakarlıq yaxşı əməlin kamillik nişanəsidir.)

12. Yalnız əziyyətlərə dözmək sayəsində ilahi mükafata çatmaq olar. Əziyyətsiz xəzinə yoxdur.

13. İlahi razılıq və mükafata iman problemləri yüngülləşdirir.

**Ayə 121:**

﴿وَلاَ يُنفِقُونَ نَفَقَةً صَغِيرَةً وَلاَ كَبِيرَةً وَلاَ يَقْطَعُونَ وَادِيًا إِلاَّ كُتِبَ لَهُمْ لِيَجْزِيَهُمُ اللّهُ أَحْسَنَ مَا كَانُواْ يَعْمَلُونَ﴾

**“Allah onlara etdiklərindən üstün mükafat versin deyə, infaq etdikləri az və ya çox bir mal, adladıqları bir vadi qeyd olunmamış qalmaz.”**

## *Nöqtələr*

◘“Əhsənə ma kanu yə`məlun” dedikdə, ya ilahi mükafatın mücahidlərin əməllərindən üstün olacağı, ya da mal və canla cihadın ən üstün iş olduğu nəzərdə tutulur.

## *Bildirişlər*

1 . İstər az, istər çox infaqın ilahi mükafatı var.

2. Hansısa xeyir əməllərimizin mükafatsız qalacağından qorxmayaq, bütün əməllər qeyd olunur.

3. Cəbhəyə hərəkət ən üstün işlərdəndir.

4. Allahın mükafatı insanların bütün əməllərindən üstün və ucadır.

5. Saleh əməlin davamı mükafatı artırır.

6. İlahi sünnə budur ki, əqidə məktəbi mö`minlərin sə`yi ilə yüksəlsin. (Mö`minlərin sə`ylərinə ehtiyac olmasaydı, bu iki ayədə bir bu qədər təşviqə zərurət qalmazdı.)

**Ayə 122:**

﴿وَمَا كَانَ الْمُؤْمِنُونَ لِيَنفِرُواْ كَآفَّةً فَلَوْلاَ نَفَرَ مِن كُلِّ فِرْقَةٍ مِّنْهُمْ طَآئِفَةٌ لِّيَتَفَقَّهُواْ فِي الدِّينِ وَلِيُنذِرُواْ قَوْمَهُمْ إِذَا رَجَعُواْ إِلَيْهِمْ لَعَلَّهُمْ يَحْذَرُونَ﴾

**“Bütün mö`minlərin (cihada) yola düşməsi yaxşı deyil. Nə üçün onların hər bir qövmündən bir dəstəsi dində fəqih (alim) olmaq üçün köç etmir?! (ki,**

**fəqih olub) qövmlərinin yanına döndükləri vaxt onları qorxutsunlar. Ola bilsin ki, onlar (günahdan) həzər qılalar.”**

## *Nöqtələr*

◘Döyüşə qarşı çıxanları şiddətlə qınayan ayələr nazil olduqdan və Peyğəmbərin (s) sərt rəftarından sonra növbəti döyüşlərdə bütün müsəlmanlar ayağa qalxır və o həzrəti Mədinədə saxlayırdılar. Bu ayə onların cəbhəyə səfərinə nəzarət üçün idi.[1]

◘Bütün bədəvi müsəlmanlar dini tə`lim almaq üçün şəhərə gəlirdilər və bu köç həddi aşırdı. Ayə nazil oldu ki, onlardan bə`ziləri dinlə tanışlıq üçün şəhərə gəlsinlər. Sonra geri qayıdıb başqalarını öyrətsinlər.

◘“Din” dedikdə ilahi qanunlar, zahiri və batini göstərişlər məcmusu nəzərdə tutulur. Allah tərəfindən yeganə qəbul olunmuş din olan İslam[2] Allaha təslim olmaq mə`nasını daşıyır.

◘Dində “təfəqqöh” dedikdə dərin dini bilik üçün sə`y göstərmək nəzərdə tutulur. Belə bir sə`y ya dünya, məqam, əyləncə, dostlarla yarış üçündür, ya da Allah, behişt, ümmətin qurtuluşu üçün. Ayədə ikinci hal dəyərli sayılır. Belə bir cəhdin məqsədi xalqın qorxudulması və Allah yoluna də`vət olmalıdır.

◘Fiqh (dərin dini bilik) o qədər mühümdür ki, həzrət Peyğəmbər (s) Əlini (ə) Yəmənə göndərərkən ona xalqa fiqh öyrətməyi tapşırır. Və onun bu işi üçün dua edir.[3]

Həzrət Əli (ə) öz övladına fəqih olmağı tapşırır.[4] İmam Hüseyn (ə) aşura gecəsi Allaha belə həmd oxuyur: “Həmd olsun bizi dində fəqih qərar verən Allaha.” (Movsuətu kəlimatil-imam)

◘İmam Sadiqdən (ə) soruşdular: “İmamın başına bir hadisə gəldikdə xalqın vəzifəsi nədir?” İmam bu ayəni oxuyaraq bildirdi ki, hər şəhər və tayfadan imamı tanımaq üçün hərəkət edənlər olmalıdır.[5]

## *Bildirişlər*

1. Proqramlaşdırma və müdiriyyətdə məsələyə kompleks yanaşaq. Belə ki, bir nöqtəyə diqqət o biri nöqtənin nəzərdən qaçmasına səbəb olmasın.
2. Hicrət iman şərtidir. Ya dinin müdafiəsi, ya da dini tanımaq üçün hicrət edin.
3. Hər bir məntəqədən elmi mərkəzə hicrət edənlər olmalıdır ki, bütün nöqtələrdə kifayət qədər ruhani olsun.
4. Köç etməyən alim kamil fəqih deyil. İmam evdə oturan şəxsin fəqih olmasını şübhə altına almışdır.[6]
5. Din və dini tə`limlərdə fəqihlik “kifay” vacib”dir, yə`ni ehtiyac ödənənədək zəruridir. (Həm cihad, həm də ictihad (fiqhə dərindən yiyələnmək) “kifayi

---

[1] “Təfsire-Məcməül-bəyan”.
[2] “Ali-İmran”, 19.
[3] “Müstədrəkül-vəsail”, h.36369; “Bihar”, c. 66, s. 92.
[4] “Bihar”, c. 1, s. 216.
[5] “Təfsire-Nurus-Səqəleyn”.
[6] “Təfsire-kənzüd-dəqaiq”.

vacib"dir. Həzrət Əli (ə) buyurmuşdur: "Elə bir vəziyyət yaranarsa ki, hamı cəbhəyə getsin, cihad hamıya vacib olar."[1] Elə bir proqram cızılmalıdır ki, dini təhsil alanların nizamı pozulmasın.

6. Fiqhə yiyələnməkdə məqsəd xalqı oyatmaq, onları problemlərə münasibətdə biganəlikdən xilas etməkdir.

7. Döyüş zamanı da düşüncə, e`tiqad, əxlaqla bağlı məsələlərdə qəflətdə qalmaq olmaz. Cəhalət və qəflət kimi daxili düşməndən xəbərsiz qalmamalıyıq.

8. Fiqh təkcə dini hökmləri öyrənmək yox, bütün dini maarifi diqqətlə və dərindən araşdırmaqdır.

9. Dini biliklər dərin olmalıdır.

10. Dini təbliğat aparmaq üçün dərin biliyə malik olmaq zəruridir.

11. Fəqih islamşünasın dediklərinə e`timad göstərmək olar.

12. Dində fiqh o zaman dəyərlidir ki, fəqih öz dövrünü tanısın, düşmənin nüfuz yollarından agah olsun. O, yalnız bu halda xalqı oyada bilər.

13. Dini hövzə (mərkəz) tələbələri üçün iki hicrət zəruridir: Dini mərkəzlərə hicrət və mərkəzlərdən digər məntəqələrə hicrət. Zəruri biliklərə yiyələnmiş şəxsin hövzədə qalmasına icazə verilmir.

14. Təbliğat və mədəni fəaliyyət üçün yer seçimində insanın doğulduğu yer öndə gəlir.

15. Alimlər xalqla görüşə getməli, də`vət gözləməməlidirlər.

16. Təbliğdə məqsəd təqva yaradılması və məadın yada salınması olmalıdır.

17. Fəqihlər (din alimləri) hər adamdan itaət gözləməməlidirlər. Çünki bir dəstə insan heç vaxt din və Allah yolunu qəbul etmir.

**Ayə 123:**

﴿يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ قَاتِلُواْ الَّذِينَ يَلُونَكُم مِّنَ الْكُفَّارِ وَلِيَجِدُواْ فِيكُمْ غِلْظَةً وَاعْلَمُواْ
أَنَّ اللّهَ مَعَ الْمُتَّقِينَ﴾

**"Ey iman gətirənlər! Yaxınlığınızda olan kafirlərlə döyüşün. Onlar sizdə sərtlik və qətilik görməlidirlər. Bilin ki, Allah təqvalılarladır."**

## *Nöqtələr*

◘Yaxındakı düşmənlərlə döyüşün bə`zi məziyyətləri var: az xəzinə ilə keçinmək imkanı, düşmən haqqında daha ətraflı mə`lumat, cəbhə ehtiyaclarının və ümumi hazırlığın asan əldə olunması; döyüş məntəqəsinə sür`ətlə çatmaq imkanı; yaxındakı həm özü düşməndir, həm də uzaq düşmənin əli ola bilər.

◘"Ğilzə" dedikdə daşürəklilik və pis xasiyyət yox, sərtlik, möhkəmlik, qüdrət nəzərdə tutulur. Bu səbəbdən də İslam ordusunun qüdrətini göstərən manevrlər, paradlar, geyimlər, şüarlar bəyənilmişdir. Məkkənin fəthi zamanı həzrət Peyğəmbər (s) müsəlmanlara göstəriş verdi ki, Əbu-Süfyanın qarşısından nizamla ötüşüb öz qüdrətlərini göstərsinlər və bununla da müşriklərin ruhiyyəsini qırsınlar.

---

[1] "Bihar", c. 97, s. 48.

◘Bütün İslam tə`limlərində "yaxın imtiyazlıdır" prinsipi nəzərə alınmışdır. İnfaq və sədəqədə yetim və yoxsul qohumlar, zəkatda məhəllədəki ehtiyaclılar, döyüşdə ən yaxın düşmən, təbliğatda insanın ətrafındakılar, məsciddə məscidin qonşuları, süfrədə ən yaxında oturan, camaat namazında kamillik baxımından imama münasib olanlar önəmli sayılırlar.

◘Ayədə müdafiədən yox, azadlıq carçısı olan cihaddan danışılır. Bu səbəbdən də kafirlərin hücum şəraitindən yox, İslam mübarizlərinin sifətlərindən söhbət açılır.[1]

◘Həzrət Peyğəmbər (s) İslam ordusuna təkrar-təkrar belə tövsiyə edirdi: "Təqvalı olun, kafir qadınlarına zərər vurmayın, ağacları qırmayın." Həzrət (s) bir dəfə kafir qızını öldürülmüş görüb çox narahat oldu.[2]

## *Bildirişlər*

1. İman əməl və mübarizə ilə müşayiət olunmalıdır.

2.Yaxındakı düşmənlərin dəfi öndə gəlir. (İslamın döyüş strategiyasına görə, öncə yaxındakı düşmənlə mübarizə aparılmalıdır. İdeoloji mübarizədə də öncə mövcud şübhələrə cavab verilməlidir.)

3. Düşmənə münasibətdə sərtlik üçün hər cür tədarük görülməlidir. Döyüşçülərin şücaəti, silahların müasirliyi, mütərəqqi biliklər diqqət mərkəzində olmalıdır.

4. İslam ordusunun sərtliyi və heybəti olmalıdır.

5. Daxili şücaət zahiri sərtliklə müşayiət olunmalıdır.

6. Sərtliklə yanaşı təqva prinsipinə də riayət olunmalıdır.

7. Cihad ilahi təqva cilvələrindəndir.

8. Döyüşdə hisslər alovlandığından döyüşçülər təqva prinsipinə ciddi riayət etməlidirlər.

**Ayə 124:**

﴿وَإِذَا مَا أُنزِلَتْ سُورَةٌ فَمِنْهُم مَّن يَقُولُ أَيُّكُمْ زَادَتْهُ هَـذِهِ إِيمَانًا فَأَمَّا الَّذِينَ آمَنُواْ فَزَادَتْهُمْ إِيمَانًا وَهُمْ يَسْتَبْشِرُونَ﴾

**"Bir surə nazil olduqda münafiqlərdən bə`ziləri deyir: "Bu surə sizlərin hansı birinizin imanını artırdı?" Amma iman gətirənlərin imanı artar və onlar müjdə alarlar."**

## *Bildirişlər*

1. Qur`an nazil olan zaman istehza və mənfi münasibət nifaq nişanəsidir.

2. Münafiqlər öz sualları ilə mənfi ruhiyyələrini başqalarına sirayət etdirirlər.

3. Mö`minlər münafiqlərin sual və şübhələrini cavablandırmağa hazır olmalıdırlar.

---

[1] "Təfsire-Fi Zilalil Qur`an".

[2] "Təfsire-Fi Zülalul Qur`an".

4. İmanın mərtəbələri var. O artıb-azala bilər, necə ki, nifaq genişlənə bilir.
5. Qur`an mö`mini münafiqdən seçmək üçün yaxşı vasitədir.
6. Qur`an ayələrini eşidərkən ruhun şadlanması imanın təkamül nişanəsidir.
7. Qur`an iman əhlinə müjdə qaynağıdır.

**Ayə 125:**

﴿وَأَمَّا الَّذِينَ فِي قُلُوبِهِم مَّرَضٌ فَزَادَتْهُمْ رِجْسًا إِلَى رِجْسِهِمْ وَمَاتُواْ وَهُمْ كَافِرُونَ﴾

**“Amma (bu ayələr) qəlblərində xəstəlik olanların çirkinliyini artırar və küfr halında ölərlər.”**

## *Nöqtələr*

◘Əgər ölünün cəsədi bir gölməçəyə düşsə, yağış yağdıqca daha da üfunətlənər. Bu üfunəti artıran yağış yox, cəsəd özüdür. Qur`an ayələri nazil olduqca inadkar və təkəbbürlü insanın qəlb xəstəliyi daha da güclənər.

◘İmam Sadiq (ə) buyurmuşdur: “Çirkinlik üzərinə çirkinlik” dedikdə “şəkk üzərinə şəkk” nəzərdə tutulur.”[1]

## *Bildirişlər*

1. Ruhi xəstəliklər də bədən xəstəlikləri kimidir. Bu xəstəlik müalicə olunmazsa, güclənib insanı məhv edər.
2. Küfr, haqqı gizləmək, naşükürlük insan ruhunun və qəlbinin təhlükəli xəstəliyidir.
3. Münafiqin aqibəti pisdir.

**Ayə 126:**

﴿أَوَلاَ يَرَوْنَ أَنَّهُمْ يُفْتَنُونَ فِي كُلِّ عَامٍ مَّرَّةً أَوْ مَرَّتَيْنِ ثُمَّ لاَ يَتُوبُونَ وَلاَ هُمْ يَذَّكَّرُونَ﴾

**“Görmürlərmi ki, onlar hər ildə bir və ya iki dəfə sınağa çəkilirlər, amma nə tövbə edərlər, nə də öyüd götürərlər.”**

## *Bildirişlər*

1. Hər bir dövrdə hər bir kəsin sınağa çəkilməsi ilahi sünnələrdəndir.
2. Hadisələrin və ilahi sınaqların fəlsəfəsi tövbə və tənbehdir.
3. İlahi sınaqların tə`sirsizliyi insandakı nifaq və qəlb xəstəliyinin nişanəsidir. Bu xüsusiyyətlər məzəmmət olunmuşdur.
4. Daşqəlblilik və pis aqibət nifaq nəticəsidir.

---

[1] “Təfsire-Nurus-səqəleyn”.

### Ayə 127:

﴿وَإِذَا مَا أُنزِلَتْ سُورَةٌ نَّظَرَ بَعْضُهُمْ إِلَى بَعْضٍ هَلْ يَرَاكُم مِّنْ أَحَدٍ ثُمَّ انصَرَفُواْ صَرَفَ اللّهُ قُلُوبَهُم بِأَنَّهُمْ قَوْمٌ لاَّ يَفْقَهُون﴾

**“Əgər bir surə nazil olsa, onlardan (münafiqlərdən) bə`ziləri bə`zilərinə baxar, (soruşar:) sizi bir kəs görürmü? Sonra (Peyğəmbərin (s) hüzurundan yavaşca) xaric olarlar. Allah onların qəlblərini (haqdan) döndərmişdir. Çünki onlar anlamaz qövmdürlər.”**

## *Nöqtələr*

◘Münafiqlərə Qur`an ayələri heç bir tə`sir göstərmir. Necə ki, cərəyan yanmış elektrik lampasını işıqlandıra bilmir.

## *Bildirişlər*

1. Çirkin niyyətlərinin ifşa olunması münafiqləri ağrıdır, onlar gizli fəaliyyət göstərməyə çalışırlar.
2. İlahi ayələr münafiqlərdə ikrah doğurur.
3. Münafiqlər Qur`an məclislərindən qaçırlar. Qur`andan uzaqlıq nifaq və qəlbin xəstəliyi nişanəsidir.
4. İlahi qəhri doğuran insanın hidayət ruhiyyəsindən uzaqlığıdır.
5. Qur`andan uzaqlığın səbəbi düzgün düşüncədən məhrumluqdur.

### Ayə 128:

﴿لَقَدْ جَاءكُمْ رَسُولٌ مِّنْ أَنفُسِكُمْ عَزِيزٌ عَلَيْهِ مَا عَنِتُّمْ حَرِيصٌ عَلَيْكُم بِالْمُؤْمِنِينَ رَؤُوفٌ رَّحِيمٌ﴾

**“Həqiqətən, sizə özünüzdən olan bir peyğəmbər gəlmişdir. Sizi incidən şey ona ağırdır. O sizin hidayətiniz üçün can yandırır və mö`minlərə rə`fətli (mərhəmətli, şəfqətli), mehribandır.”**

## *Nöqtələr*

◘Allah-təala İslam Peyğəmbərindən (s) savay heç bir peyğəmbərə öz adlarından ikisini aid etməmişdir.

◘Səmavi rəhbərlərin ayədə bəyan olunan sifətlərinə diqqət, bu sifətlərin dünyəvi rəhbərlərin sifətləri ilə müqayisəsi Allahın bəşəriyyətə lütfünü, səmavi rəhbərlərə mütləq itaətin zəruriliyini təsdiqləyir.

## *Bildirişlər*

1. Allahın rəsulu xalq arasından çıxmışdır.
2. Peyğəmbər ümmətin dərdini çəkir.
3. İslam rəhbərləri çətinliklər zamanı xalqla həmdərd və yoldaş olmalıdırlar.
4. Allahın rəsulu xalqın hidayət və tərbiyəsinə çox harisdir.
5. Xeyirxahlıq, canıyananlıq, mehribanlıq, təmənnasızlıq və təvazö kəlamın tə`sir amillərindəndir.
6. İslam rəhbəri yalnız mö`minlərə qarşı rə`fətli (şəfqətli) və rəhimdir. O, düşmənlərlə sərt və tünddür.

**Ayə 129:**

﴿فَإِن تَوَلَّوْاْ فَقُلْ حَسْبِيَ اللّهُ لا إِلَهَ إِلاَّ هُوَ عَلَيْهِ تَوَكَّلْتُ وَهُوَ رَبُّ الْعَرْشِ الْعَظِيمِ﴾

**"Əgər (Allahın buyruqlarından) üz çevirsələr, de ki, Allah mənə yetər. Ondan savay heç bir mə`bud yoxdur, yalnız Ona təvəkkül etmişəm və O, böyük ərşin Rəbbidir."**

## *Nöqtələr*

◘Ötən ayədə Peyğəmbərin (s) canıyananlığından danışıldı. Bu ayədə isə buyurulur ki, Peyğəmbərin (s) sə`yləri xalqa möhtaclıq kimi başa düşülməməlidir. Bütün xalq ondan üz çevirsə də Allah onunladır. Necə ki, bəşəriyyətin günəşə üz və ya arxa çevirməsinin günəş üçün heç bir fərqi yoxdur.

◘İmam Sadiq (ə) buyurmuşdur: "Ərşil-əzim" dedikdə böyük mülk nəzərdə tutulmuşdur."[1]

◘Əzəmətli varlıq nizamını qoruyan və idarə edən Allah kiçik insanı da öz lütfü kölgəsində qoruya bilər.

◘İmam Hüseyn (ə) Ərəfə duasında Allah-təalaya xitabən ərz edir: "Sənin kimi bir Rəbbi olmayanın kimi var?! Sənin kimi bir Rəbbi olanın nəyi yoxdur?!"

## *Bildirişlər*

1. Xalqın dindən üz döndərməsi bizim iman və ruhiyyəmizə tə`sir göstərməməlidir.
2. Allahı olanın nəyi əskikdir?!
3. Allaha təvəkkül müşküllərin həlli rəmzidir.

---

[1] "Təfsire-Nurus-səqəleyn"; "Tövhide-Səduq", s. 321.

# “YUNUS” SURƏSİ

## (10-cu surə, 109 ayə)

### *“Yunus” surəsinin siması*

Qur`ani-kərimin Məkkədə be`sətin əvvəllərində nazil olmuş 10-cu surəsi “Yunus” adlandırılmışdır. Surə 109 ayədən ibarətdir, onun əsas mövzuları tövhid, Qur`anın haqq olması, vəhyi inkar edənlərə cavab, müşrikləri qorxutma, yaranış və yaradanın əzəməti, dünyanın müvəqqətiliyi və axirətə diqqət mövzularıdır.

Əvvəlki, “Tövbə” surəsi münafiqlər və onların cəzası haqqında danışırdı. Bu surədə isə müşriklərin rəftarı bəyan olunur.

**بِسْمِ اللهِ الرَّحْمَنِ الرَّحِيمِ**

**Ayə 1:**

**﴿الر تِلْكَ آيَاتُ الْكِتَابِ الْحَكِيمِ﴾**

**“Əlif, Lam, Ra. Budur möhkəm və hikmətli kitabın ayələri.”**

### *Nöqtələr*

◘Qur`anın altı surəsi ardıcıl şəkildə “Əlif, Lam, Ra” müqəttəə hərfləri ilə başlayır: “Yunus”, “Hud”, “Yusuf”, “Rə`d”, “İbrahim”, “Hicr”, “Rə`d” surəsi “Əlif, Lam, Mim, Ra” müqəttəə hərfləri ilə başlamışdır.

◘İmam Sadiq (ə) “Əlif, Lam, Ra” müqəttəə hərfləri haqqında buyurmuşdur: “Əlif” “Ənə”, “Lam” “Əllah”, “Ra”, “Rəuf” rəmzidir.”[1] Digər rəvayətlərdə bildirilir ki, bu hərflər Qur`anın mütəşabeh nöqtələrindəndir.[2]

### *Bildirişlər*

1. Qur`anın uca məqamı var. “Tilkə” uzağı bildirən işarə əvəzliyidir.

2. Qur`an “həkim” kitabdır. O həm “həkəm”–hakimdir, həm hikmətli mətləblərə malikdir, həm də sabit məzmunludur. (Tarix, zaman və düşmən Qur`ana zərbə vura bilmir.)

**Ayə 2:**

---

[1] “Təfsire-Nurus-səqələyn”.
[2] “Təfsire-Nurus-səqələyn”.

﴿أَكَانَ لِلنَّاسِ عَجَبًا أَنْ أَوْحَيْنَا إِلَى رَجُلٍ مِّنْهُمْ أَنْ أَنذِرِ النَّاسَ وَبَشِّرِ الَّذِينَ آمَنُواْ أَنَّ لَهُمْ قَدَمَ صِدْقٍ عِندَ رَبِّهِمْ قَالَ الْكَافِرُونَ إِنَّ هَـذَا لَسَاحِرٌ مُّبِينٌ﴾

**"Xalqı qorxut, mö`minlərə müjdə ver. "Rəblərinin yanında onlar üçün yaxşı yer var" deyə onların özündən olan bir kişiyə vəhy etməyimiz xalqa təəccüblümü gəlir? Kafirlər dedilər: Həqiqətən, bu kişi aşkar cadugərdir."**

## *Nöqtələr*

◘"Qədəmə sidqin" tə`birinin bir neçə mə`nası var:

1. Müsbət keçmiş; məsələn, mübarizədə və İslamda müsbət keçmişə malik olmaq;
2. Doğru və yaxşı məqam;
3. Həqiqi rəhbər və öncül; şiə və sünni rəvayətlərində bu tə`birin Peyğəmbər (s) və Əliyə (ə) aid olduğu bildirilir.[1]
4. Şəfaət; bə`zi rəvayətlərdə bu tə`bir şəfaət məqamı kimi təqdim olunur.[2]

◘Peyğəmbəri (s) rədd etmək üçün kafirlərin heç bir dəlili və məntiqi yoxdur. Onlar, sadəcə, bu işi mümkünsüz sayaraq itaətdən boyun qaçırırdılar. Onlar tövhid, nübuvvət, məad, imamət, kimi e`tiqadi əsasları da bu sayaq inkar edirdilər.[3]

## *Bildirişlər*

1. Adətən, küfrün kökü vəhydən kənarlaşma və ona təəccüb edilməsi olur.
2. Peyğəmbərlərin də`vətinin qaynağı ilahi vəhydir.
3. Fərdlərin mə`nəvi ləyaqəti zahirdə görünmür. Bir şəxsə Allahın xüsusi lütfü yetişdikdə onu qəbul edək.
4. Peyğəmbərlər nümunə olduqlarından xalqla və onların dərdləri ilə tanış olmalıdırlar.
5. Peyğəmbərlərin vəzifəsi müjdə vermək və qorxutmaqdır.
6. Anlamadığımız şeyi inkar etməyək. Çünki bu üsul kafirlərə məxsusdur.
7. İman gerçək addım və Allah yanında xüsusi məqam üçün zəmindir.

**Ayə 3:**

﴿إِنَّ رَبَّكُمُ اللّهُ الَّذِي خَلَقَ السَّمَاوَاتِ وَالأَرْضَ فِي سِتَّةِ أَيَّامٍ ثُمَّ اسْتَوَى عَلَى الْعَرْشِ يُدَبِّرُ الأَمْرَ مَا مِن شَفِيعٍ إِلاَّ مِن بَعْدِ إِذْنِهِ ذَلِكُمُ اللّهُ رَبُّكُمْ فَاعْبُدُوهُ أَفَلاَ تَذَكَّرُونَ﴾

---

[1] "Təfsire-Qurtubi"; "Təfsire-bürhan".
[2] "Təfsire-Nurus-səqəleyn".
[3] "Sad", 5; "Furqan", 41; "Yasin", 78; "Bəqərə", 247.

**“Həqiqətən, Rəbbiniz o Allahdır ki, göyləri və yeri altı gündə, dövrdə yaratdı, sonra ərşi hökmü altına aldı. Aləmin işini idarə edir və sahmana salır. Ondan izinsiz heç bir şəfaətçi yoxdur. O, sizin Rəbbiniz olan Allahdır. Ona pərəstiş edin. Öyüd götürmürsünüzmü?”**

## *Nöqtələr*

◘“Altı gün” dedikdə yaranışdakı altı dövr, mərhələ nəzərdə tutulur. Bu tə`bir altı günə bərabər müddətə də işarə oluna bilər.

◘“Ərş” tədbir mərkəzi, qüdrətə işarədir. Bir kəs “taxta çıxdı və ya taxdan düşdü” deyərkən həmin şəxsin qüdrətə çatması və ya kənarlaşdırılması nəzərdə tutulur. Allahın hakimiyyəti həm göylərin və yerin yaranışından əvvələ, həm də yaranışdan sonraya aiddir. Dünyadan sonra qiyamətdə də bütün varlıq Allahın hökmü altındadır.[1]

◘İmam Sadiq (ə) buyurmuşdur: “Ərş dördbucaqlıdır. Çünki İslamın əsasını təşkil edən kəlmələr də dörddür: “Sübhanallah”, Əlhəmdulillah”, “La ilahə illəllah”, “Əllahu əkbər.”[2]

## *Bildirişlər*

1. Aləmin yaranışı proqramla, vaxt ölçüsü ilə həyata keçmişdir. (Bütün varlıq aləminə proqram və idarəçilik hakim olduğu halda, hansı əsasla bu bağın çiçəyi olan insanı proqramsız saymaq olar?!)
2. Öncə Allahı tanımaq, sonra Ona sitayiş etmək lazımdır.
3. Varlıq aləmi qanunauyğun və məqsədlidir. İşin tədbiri üçün aqibət, hədəf, qanun şərtdir.
4. Yalnız əlində xilqət və tədbir olan varlığa ibadət edilməlidir.
5. Varlıq aləmi Allah tərəfindən yaradılmışdır və Onun əlindədir. Allah bu aləmi daimi bir hikmətlə idarə edir. Onun izni olmadan kimsə bu işə nüfuz edə bilməz. Bu həqiqətlərə diqqət bəndəlik və pərəstiş ruhunun yaranması üçün zəmindir.
6. İstənilən bir mövcud yalnız Allahın təsdiqi ilə vasitə ola bilər. Heç bir əsas olmadan bütləri şəfaətçi seçməyək.
7. İlahilik rübubiyyətdən ayrı deyil. Zalım hakimlər çalışırlar ki, Allahı yaradan kimi tanıtdırmaqla gözdən pərdə asıb idarəçiliyi öz öhdələrinə götürsünlər və dini siyasətdən ayırsınlar.
8. İnsan öz yaradanına inanır, sadəcə, bu barədə xatırladılmağa ehtiyaclıdır.

**Ayə 4:**

---

[1] “Hud”, 7; “Haqqə”, 17.
[2] “İləluş-şəraye`”, s. 398.

﴿إِلَيْهِ مَرْجِعُكُمْ جَمِيعًا وَعْدَ اللّهِ حَقًّا إِنَّهُ يَبْدَأُ الْخَلْقَ ثُمَّ يُعِيدُهُ لِيَجْزِيَ الَّذِينَ آمَنُواْ
وَعَمِلُواْ الصَّالِحَاتِ بِالْقِسْطِ وَالَّذِينَ كَفَرُواْ لَهُمْ شَرَابٌ مِّنْ حَمِيمٍ وَعَذَابٌ أَلِيمٌ بِمَا
كَانُواْ يَكْفُرُونَ﴾

**“Hamınızın qayıdışı Ona doğrudur. Bu, Allahın haqq olan və`didir. Odur yaranışa başlayan, sonra onu döndərən. Buna görə ki, iman gətirib saleh işlər görənləri ədalətlə mükafatlandırsın. Küfrə uğrayanlar üçün küfrlərinin cəzası olaraq yandırıcı mayedən içki və dərdli əzab olacaq.”**

## *Nöqtələr*

¤Bu ayə həm məad prinsipini, həm onun mümkünlüyünü, həm də bu həqiqətin mükafat və cəza kimi məqsədini bəyan edir.

¤Mümkündür ki, “bil qist” dedikdə, iman əhlinin malik olduğu ədalətə görə mükafatlandırılması nəzərdə tutulmuşdur.[1] (Əlbəttə ki, ilahi fəzl ilə ədalət arasında ziddiyyət yoxdur. Qur`anın başqa ayələrində də Allahın artıq mükafatlarına işarə olunmuşdur.[2]

## *Bildirişlər*

1. Qayıdışımız Allaha doğrudur. Onu-bunu razı salmaq fikrində olmayaq.
2. Bütün insanlar ölümdən sonra diriləcək.
3. Məad maddi, cismanidir.
4. Allahın yaranışdakı qüdrəti Onun qiyamətdəki qüdrətini təsdiqləyir.
5. Nəinki insan, hətta bütün varlıq aləmi növbəti dəfə yaradılar.
6. Bütün varlıq aləmi bəşər üçün yaradıldığı kimi axirətdə də bəşərin mükafatlandırılması üçün bu yaranış təkrarlanar.
7. Yaranış hələ də davam etməkdədir.
8. Məadın əsas məqsədi mö`minlərin mükafatlandırılmasıdır. Kafirlər isə ilahi ədalət səbəbindən cəzalandırılır.
9. İlahi mükafat ədalətə əsaslanır.
10. Yaxşı işlərin dəyəri onların xeyirli məqsəd daşımalarındadır.
11. Küfr üzərində israr əzab səbəbidir.

**Ayə 5:**

﴿هُوَ الَّذِي جَعَلَ الشَّمْسَ ضِيَاء وَالْقَمَرَ نُورًا وَقَدَّرَهُ مَنَازِلَ لِتَعْلَمُواْ عَدَدَ السِّنِينَ
وَالْحِسَابَ مَا خَلَقَ اللّهُ ذَلِكَ إِلاَّ بِالْحَقِّ يُفَصِّلُ الآيَاتِ لِقَوْمٍ يَعْلَمُونَ﴾

---

[1] “Təfsire-Məcməül-bəyan”; “Təfsire-Kəbire-Fəxr Razi”.
[2] “Yunus”, 26; “Fatir”, 30.

**“Günəşi parlaq, ayı işıqlı qərar verən Odur. Ay üçün mənzillər qərar verib ki, illərin sayını və hesabı biləsiniz. Allah bunları yalnız haqq əsasında yaratmışdır. Allah qövmə bilmələri üçün ayələri ətraflı bəyan edər.”**

## *Nöqtələr*

◘Qur`anda günəş haqqında “ziya”, ay haqqında “nur” tə`birləri işlədilmişdir. “Ziya” güclü, “nur” zəif işıqdır.

“Ziya” sözü “zəv” sözünün cəm forması kimi götrüldükdə çeşidli nurlara işarə oluna bilər.[1]

◘Ayələrin ətraflı bəyanı dedikdə, Allahın yaranışdakı qüdrəti və düşüncə əhli üçün xilqətin genişlənməsinin aydınlığı nəzərdə tutula bilər.[2]

◘Allah ilin hesablanması üçün səmada nişanələr qoyduğu kimi, xalqın hidayəti üçün yerdə peyğəmbərlər, tərbiyəçilər qərar vermişdir. Çünki bəşəriyyətin tərbiyəyə ehtiyacı, ilin hesabına olan ehtiyacdan daha mühümdür.[3]

## *Bildirişlər*

1. Bütün mövcudların həyatı işıq və istilikdən asılıdır. Allah bu ehtiyacları günəş və ay vasitəsi ilə tə`min edir.
2. Planetlərin hərəkətində və onlar üçün orbitlərin tə`yinində insanın ehtiyacları nəzərə alınmışdır.
3. Ayın hərəkətindəki nizam təbii, ümumi və həmişəlik bir təqvim tənzimləməyə imkan vermişdir. (Ayın forma dəyişiklikləri ilə günləri hesablamaq olur.)
4. Şər`i işlərdə hesab ölçüsü qəməri il və aydır.
5. Rəqəmlərin və statistikanın insan həyatında mühüm rolu var.
6. Yaranış əbəs deyil, haqqa əsaslanır.
7. Tə`lim-tərbiyə üsullarından biri (ümumi söhbət yox,) konkret məsələnin açıqlanmasıdır.
8. Yaranış sirlərini anlamaq üçün düşüncə və tə`limə ehtiyac var.

**Ayə 6:**

﴿إِنَّ فِي اخْتِلاَفِ اللَّيْلِ وَالنَّهَارِ وَمَا خَلَقَ اللّهُ فِي السَّمَاوَاتِ وَالأَرْضِ لآيَاتٍ لِّقَوْمٍ يَتَّقُونَ﴾

**“Həqiqətən, gecə və gündüzün get-gəlində, Allahın göylərdə və yerdə yaratdığında təqvalı qövm üçün (böyük) nişanələr var.”**

---

[1] “Təfsire-rahnoma”.
[2] “Təfsire-Əl-mizan”.
[3] “Təfsire-ruhul-məani”.

## *Nöqtələr*

◘İlahi nişanələr və ayələrin təfsiri ötən ayədə alimlər, bu ayədə isə təqva əhli üçün bəyan olundu. Nəticə bu oldu ki, həm bilən, həm də təqva yolunu tutanlar kama çatır. Təqvalı cahil və günahkar alim ilahi ayələrdən lazımınca bəhrələnmir.

◘"İxtilaf" dedikdə həm get-gəl, həm də fərq mə`naları anlaşılır.

◘Gecə və gündüz arasında müəyyən cəhətlərdən ixtilaf var: bir-birinə nisbətən yerdəyişmə[1]; gecənin aramlıq, gündüzün sə`y üçün olması[2]; müxtəlif fəsillərdə onların uzunluğunun artıb-azalması; müxtəlif məntəqələrdə onların uzunluğunun dəyişməsi.

◘***Sual***: Nə üçün bir qrup alim Allahı inkar edir?

***Cavab***: Həqiqətin əldə olunmasında təkcə elm bəs etmir. Baxışları hədəf sahibləri və həqiqət sorağında olanlar müəyyənləşdirməlidir.

## *Bildirişlər*

1. Bütün varlıq aləmi dəyişməkdədir.
2. Hadisələrə lazımınca diqqət göstərək.
3. Günah və bulaşıqlıq insanın bilik və araşdırmalarına mənfi tə`sir göstərir. (Təqva varlıq aləminin düzgün dərki üçün vasitədir.)

**Ayə 7:**

﴿إِنَّ الَّذِينَ لاَ يَرْجُونَ لِقَاءنَا وَرَضُواْ بِالْحَياةِ الدُّنْيَا وَاطْمَأَنُّواْ بِهَا وَالَّذِينَ هُمْ عَنْ آيَاتِنَا غَافِلُونَ﴾

**"Şübhəsiz, Bizimlə görüşə ümid bəsləməyən, (yalnız) dünya həyatından xoşhallanan, onunla aramlıq tapan, ona bağlanan, eləcə də, Bizim qüdrət nişanələrimizdən qəflətdə qalanlar..."**

[1] "İsra", 12.
[2] "Nəbə", 10.

**Ayə 8:**

﴿أُوْلَئِكَ مَأْوَاهُمُ النُّارُ بِمَا كَانُواْ يَكْسِبُونَ﴾

**“...Etdikləri əmələ görə onların yeri oddur.”**

## *Nöqtələr*

◘Həzrət Peyğəmbər (s) buyurmuşdur: “Kim Allahla görüşü sevərsə, Allah da onunla görüşü sevər.”[1]

“Kəhf” surəsinin son ayəsində oxuyuruq: “Qiyamət və Allahla görüşə inananlar saleh iş görməlidirlər.”

## *Bildirişlər*

1. İnsanın islahında ümid və qorxunun mühüm rolu var.
2. İnsan qiyamətdən xəbərsiz qaldığı qədər dünyagir olur. Qiyamətə inananlar dünyapərəst olmamalıdırlar.
3. Həqiqi arxayınlıq yalnız Allahın zikri ilə yaranır. Dünya qafillərə yalnız yalan aramlıq verə bilər.
4. Cəhənnəmə düşməyin bir sıra səbəbləri var: məad və axirət mükafatlarının inkarı; ötəri dünyadan razılıq; ilahi ayələrdən qəflət; bəyənilməmiş əməl.
5. Cəhənnəm insanın öz qazancıdır.

**Ayə 9:**

﴿إِنَّ الَّذِينَ آمَنُواْ وَعَمِلُواْ الصَّالِحَاتِ يَهْدِيهِمْ رَبُّهُمْ بِإِيمَانِهِمْ تَجْرِي مِن تَحْتِهِمُ الأَنْهَارُ فِي جَنَّاتِ النَّعِيمِ﴾

**“Şübhəsiz, iman gətirib saleh iş görənlərin Rəbbi onları imanlarına xatir hidayət edər. Onlar altından çaylar axan ne`mət dolu bağlarda sakin olarlar.”**

## *Nöqtələr*

◘Hədisdə deyilir: “Qiyamətdə qəbrindən qalxdığı vaxt insanın saleh əməlləri nurani surətdə mücəssəm olub onu behiştə yönəldər.”[2]

◘İlahi hidayət davamlı cərəyandır. Mö`minlərin hidayəti hər an artırılır. Onlar aşırımlardan qorunurlar, çıxılmaz vəziyyətdə üzlərinə qapı açılır.[3] Mö`minlər üçün yol işıqlandırılır.[4] İşlərindən düyün açılır.[5] Hər yerdə tə`min olunurlar.[1] Qiyamətdə isə behiştə yönəldilirlər.[2]

---

[1] “Təfsire-Fürqan”.
[2] “Təfsire-nümunə”.
[3] “Təlaq”, 2.
[4] “Ən`am” 122.
[5] “Muhəmməd”, 2.

“Yəhdihim” tə`birinin ünvanları müəyyənləşdirilmədiyindən bu tə`bir bütün cəhətləri əhatə edir.

## *Bildirişlər*

1. İman əməldən ayrı deyil.

2. Mö`min hidayət əldə etmişsə də, daim buna ehtiyaclıdır. Allahın rəsulu və mə`sum imamlar da daim “bizi doğru yola hidayət et” demişlər.

3. İlahi hidayət üçün özümüz zəmin yaratmalıyıq.

4. İman və əməl arasında iman mehvərdir.

5. Allah-təalanın mö`minləri hidayət etməsi mütləq və əhatəlidir.

6. Allahın rübubiyyəti Onun daim mö`minlərə əl tutmasına səbəb olur.

7. Behişt çayları nəinki ağacların, hətta behişt evlərinin də altından axır.

**Ayə 10:**

﴿دَعْوَاهُمْ فِيهَا سُبْحَانَكَ اللَّهُمَّ وَتَحِيَّتُهُمْ فِيهَا سَلاَمٌ وَآخِرُ دَعْوَاهُمْ أَنِ الْحَمْدُ لِلّهِ رَبِّ الْعَالَمِينَ﴾

**“Onların (mö`minlərin) behiştdəki duası “Subhanəkəllahummə”, salamlaşmaları “salam”, dualarının sonu “əlhəmdulillahi Rəbbil aləmin”dir.”**

## *Nöqtələr*

◘“Salam” behişt əhlinin sözüdür və bu söz orada bütün fəzanı doldurar: Allah tərəfindən salam[3]; mələklər tərəfindən salam[4]; behişt əhlinin bir-birinə salamı[5].

◘“Əlhəmdulillah” peyğəmbərlərin və övliyaların sözüdür. Həzrət Nuh zalım qövmünün əlindən xilas olduqdan sonra “əlhəmdulillah” dedi.[6] İbrahim də qoca yaşında Allahın ona əta etdiyi İsmail və İshaqa görə Allaha həmd oxudu.[7] “Əlhəmdulillah” mö`minlərin və behişt əhlinin sözüdür.[8]

◘Hədisdə deyilir: behişt əhli “sübhanəkəllahummə” deməklə xidmətçiləri səsləyirlər. Onlar da dərhal hazır olub behişt əhlinin istəklərini tə`min edirlər.[9]

Hədisdə deyilir: Əgər bir bəndə Allaha həmd oxumağa məşğul olub nəsə istəməyi yaddan çıxarsa, Allah ona istəyəcəklərindən də artığını əta edər.[10]

---

[1] “Təlaq”, 3.
[2] “Hədid”, 12.
[3] “Yasin”, 58.
[4] “Zumər”, 73.
[5] “Təfsire-Mərağİ”. “Vaqiə”, 26.
[6] “Mu`minun”, 28.
[7] “İbrahim”, 39.
[8] “Ə`raf”, 43.
[9] “Təfsire-Nurus-səqəleyn”.
[10] “Təfsire-ruhul-məani”.

## *Bildirişlər*

1. Allah təkcə dünyada xatırlanmır, axirət də ilahi zikr yeridir.

2. İnsan elə bir məqama çata bilər ki, onun dua və istəkləri də Allah tərəfindən əziz tutular. Belə bir münasibət də mö`mini kama çatdırar.

3. Mö`minlər ilahi sifət müqabilində deyərlər: "Sübhanəkə". Digər mö`minlərə isə "səlam" deyə müraciət olunar. İlahi ne`mətlərdən bəhrələnmə müqabilində "əlhəmdulillah" söyləyirlər.

4. Mö`min Allah aşiqidir. Behişt və onun ləzzətləri də ona öz məhbubunu unutdurmur. O nəyə baxırsa Allahın lütf və qüdrətini görür.

5. Mö`minlərin sözü "sübhanallah" ilə başlayıb, "əlhəmdulillah" ilə başa çatır.

**Ayə 11:**

﴿وَلَوْ يُعَجِّلُ اللّهُ لِلنَّاسِ الشَّرَّ اسْتِعْجَالَهُم بِالْخَيْرِ لَقُضِيَ إِلَيْهِمْ أَجَلُهُمْ فَنَذَرُ الَّذِينَ لاَ
يَرْجُونَ لِقَاءنَا فِي طُغْيَانِهِمْ يَعْمَهُونَ﴾

**"Əgər Allah xalqın xeyir istəyindəki tələskənlikləri kimi onlara bəla çatdırmaqda da tələssəydi, şübhəsiz, əcəlləri çatmış olardı. Beləcə, bizimlə görüşə ümidvar olmayanları öz başına buraxarıq ki, öz azğınlıqları içində avara qalsınlar."**

## *Nöqtələr*

◘Oxşar məfhumlarla "Kəfh" surəsinin 58-ci, "Fatir" surəsinin 45-ci ayələrində rastlaşırıq. Əgər Allah-təala insanları əməllərinə görə tez cəzalandırsa, hamı məhv olar. Bundan əlavə, vəzifənin əsas prinsipi olan ixtiyar, azadlıq aradan götürülər və itaət məcburi şəkil alar.

◘"İsti`caləhum bil-xəyr" dedikdə, Allahın xeyri sür`ətlə çatdırması və bəlanı tə`xirə salması nəzərdə tutula bilər.

## *Bildirişlər*

1. İnsan xaraktercə tələskəndir.[1]

2. Əgər Allah pis əməl sahiblərini dərhal cəzalandırsaydı, yer üzündə kimsə qalmazdı.

3. "İstidrac", yə`ni zalımların tədricən cəzalandırılması ilahi qanunlardandır.

4. Kafirlərin dərhal məhv edilməməsi onların haqq olmasını göstərmir.

5. Allahdan uzaqlaşıb, başı özünə qatılanların hansısa bir məqsədi yoxdur və onlar avaradırlar.

6. Qiyamət həqiqətinin inkarı və bu həqiqətə diqqətsizlik tüğyan və ilahi lütfdən məhrumluq səbəbidir.

**Ayə 12:**

﴿وَإِذَا مَسَّ الإِنسَانَ الضُّرُّ دَعَانَا لِجَنبِهِ أَوْ قَاعِدًا أَوْ قَآئِمًا فَلَمَّا كَشَفْنَا عَنْهُ ضُرَّهُ مَرَّ
كَأَن لَّمْ يَدْعُنَا إِلَى ضُرٍّ مَّسَّهُ كَذَلِكَ زُيِّنَ لِلْمُسْرِفِينَ مَا كَانُواْ يَعْمَلُونَ﴾

**"Böyrü üstdə yatdığı, oturduğu və ya durduğu halda insana bir zərər yetişdikdə Bizi çağırar. Amma elə ki, zərəri ondan uzaqlaşdırdıq, yolunu elə gedər ki, sanki heç vaxt düşdüyü çətinliyə görə Bizi çağırmamışdır. İsrafçılara öz əməlləri bu sayaq gözəl görünür."**

## *Nöqtələr*

◘Allah-təala insanın naşükürlüyündən dəfələrlə söz açmışdır. İnsan çətinliyə düşdüyü vaxt Allahı çağırır, müşkülü həll olduqdan sonra isə Onu yaddan çıxarır.

## *Bildirişlər*

1. İnsan ruhunun dərinliyində Allaha iman mayası vardır. Acı hadisələr Allah sorağında olan vicdan və fitrəti oyadır.

2. Mövsümi, arabir dua edənlər məzəmmət olunur və onların işi dəyərsizdir.

3. Bütün hallarda dua etmək olar: ayaq üstə, oturaq və ya uzanmış vəziyyətdə.

4. Səmimi dua çətinlikləri aradan qaldırır.

5. Rifah, firavanlıq qəflət zəminidir.

6. İnsan naşükürdür.

7. Maddi həyat Allahı unudanların nəzərində gözəl cilvələnir.

8. Allahın lütflərini yaddan çıxarmaq bir növ israfdır.

9. Rahatlıqda Allahı unudub çətinliyə düşdükdə dua edən kəs israfçıdır.

10. Rifah içində yaşayanlar özlərindən razıdırlar.

**Ayə 13:**

---

[1] "Ənbiya", 37.

﴿وَلَقَدْ أَهْلَكْنَا الْقُرُونَ مِن قَبْلِكُمْ لَمَّا ظَلَمُواْ وَجَاءتْهُمْ رُسُلُهُم بِالْبَيِّنَاتِ وَمَا كَانُواْ لِيُؤْمِنُواْ كَذَلِكَ نَجْزِي الْقَوْمَ الْمُجْرِمِينَ﴾

**"Həqiqətən, Biz sizdən əvvəlki ümmətləri zülmlərinə görə həlak etdik. (Çünki) peyğəmbərləri onlara mö`cüzə gətirdi, amma onlar inanmadılar. Biz bu sayaq günahkar qövmü cəzalandırırıq."**

## *Nöqtələr*

◘"Qərn" sözünün cəm forması olan "qurun" sözü eyni bir əsr və dövrdə yaşayan xalqa deyilir.

## *Bildirişlər*

1. Zülm-sitəm millətlərin süqutuna zəmin yaradır.
2. Yalnız höccət tamamlandıqdan, dəlillər başa çatdıqdan sonra ilahi cəza gəlir.
3. Yalnız iman və islahına ümid olmayan zalımlar həlak edilirlər.
4. İbrət götürülməsi üçün tarixlə yanaşı tarix fəlsəfəsi də bəyan olunmalıdır. Keçmiş qövmlərin həlak olması tarix, bu hadisənin zülm və günah kimi səbəbləri isə tarix fəlsəfəsidir.
5. İlahi sünnələr hamıya və hər dövrə aiddir.

**Ayə 14:**

﴿ثُمَّ جَعَلْنَاكُمْ خَلاَئِفَ فِي الأَرْضِ مِن بَعْدِهِم لِنَنظُرَ كَيْفَ تَعْمَلُونَ﴾

**"Onlardan sonra sizi yer üzündə canişin qərar verdik ki, necə əməl edəcəyinizi görək."**

## *Bildirişlər*

1. Hakimiyyət, imkan Allahın sınaq vasitələridir.
2. Vəzifə tapşıran müdir həm də buna nəzarət etməlidir.
3. Bütün əməllərimiz Allahın nəzarəti altındadır.
4. Allah üçün bütün qövmlər eynidir. İlahi sınaq qanunları hamıya tətbiq olunur.
5. Xalqın taleyi onların öz əməllərinin nəticəsidir.

**Ayə 15:**

﴿وَإِذَا تُتْلَى عَلَيْهِمْ آيَاتُنَا بَيِّنَاتٍ قَالَ الَّذِينَ لاَ يَرْجُونَ لِقَاءنَا ائْتِ بِقُرْآنٍ غَيْرِ هَـذَا أَوْ بَدِّلْهُ قُلْ مَا يَكُونُ لِي أَنْ أُبَدِّلَهُ مِن تِلْقَاء نَفْسِي إِنْ أَتَّبِعُ إِلاَّ مَا يُوحَى إِلَيَّ إِنِّي أَخَافُ إِنْ عَصَيْتُ رَبِّي عَذَابَ يَوْمٍ عَظِيمٍ﴾

**"Aşkar ayələrimiz onlara oxunduğu vaxt görüşümüzə ümid bəsləməyənlər deyər: "Ya başqa bir Qur`an gətir, ya da bu Qur`anı dəyiş." (Onlara) de ki, mən onu özbaşına dəyişə bilmərəm və yalnız vəhy olunana tabeyəm. Mən böyük günün əzabından qorxuram... Əgər Rəbbimə itaətsizlik göstərsəm!"**

## *Nöqtələr*

◘Bə`zi bütpərəstlər Qur`anın bütləri məzəmmət edən ayələrinin və ya bütün kitabın dəyişdirilməsini istəyirdilər. Səmavi tə`limləri öz nəfs istəklərinə münasib görməyənlər həmişə belə istəyə düşürlər.

## *Bildirişlər*

1. Allahı tanıma nişanələri xalqa bəyan olunmalıdır.
2. Heç kim, hətta peyğəmbər belə ilahi qanunu dəyişə bilməz.
3. Heç vaxt xalqın bəhanə və həvəslərinə təslim olmayaq. Əsas məsələ xalqın istəyi yox, Allahın buyruğudur.
4. Qur`anda heç bir bəşərin, hətta Peyğəmbərin (s) belə əli yoxdur.
5. Əqidə əsaslarını dəyişmək bahasına tərəfdarlar toplamağın dəyəri yoxdur.
6. Peyğəmbərlər mə`sumdurlar və yalnız vəhyə tabe olmuşlar.
7. Məadın xatırlanması təqva və günahdan paklıq səbəbidir. Necə ki, məaddan xəbərsizlik bəhanəçiliyə gətirib çıxarır.
8. Peyğəmbərlərin paklıq qaynağı məada iman və əminlikdir.

**Ayə 16:**

﴿قُل لَّوْ شَاء اللّهُ مَا تَلَوْتُهُ عَلَيْكُمْ وَلاَ أَدْرَاكُم بِهِ فَقَدْ لَبِثْتُ فِيكُمْ عُمُرًا مِّن قَبْلِهِ أَفَلاَ تَعْقِلُونَ﴾

**"De ki, əgər Allah istəsəydi, onu (Qur`anı) sizin üçün oxumaz, sizi ondan xəbərdar etməzdim. Mən Qur`andan öncə aranızda bir ömür yaşamışam. Yoxsa düşünmürsünüz?!"**

## *Nöqtələr*

◘Ayədə Qur`anın dəyişməsini istəyənlərə xitab olunur ki, Peyğəmbər (s) qırx il sizin aranızda yaşamışdır, Qur`an onun öz düşüncələri olsaydı, bundan da qabaq ondan bu sayaq sözlər eşidərdiniz.

## *Bildirişlər*

1. Peyğəmbər Allahın icazəsi olmadan heç bir iş görmür.

2. Qur`an bəşər düşüncəsinin məhsulu yox, ilahi bir mö`cüzədir.

3. Peyğəmbərin pak keçmişi və əmanətdarlığı onun haqlı olmasının nişanəsidir.

**Ayə 17:**

﴿فَمَنْ أَظْلَمُ مِمَّنِ افْتَرَى عَلَى اللّهِ كَذِبًا أَوْ كَذَّبَ بِآيَاتِهِ إِنَّهُ لاَ يُفْلِحُ الْمُجْرِمُونَ﴾

**“Allaha iftira yaxan və ya Onun ayələrini yalan sayandan da zalımı kimdir? Şübhəsiz, günahkarlar nicat tapmazlar.”**

## *Nöqtələr*

◘Ayədə Qur`anın dəyişilməsini istəyənlərə cavab davam etdirilir. Onların bu istəyi Allaha iftira kimi qəbul olunmuşdur. Oxşar məzmunlu başqa ayələr də var.[1]

## *Bildirişlər*

1. Ən böyük zülm ideoloji, e`tiqadi zülm və ayələrin təhrifidir.
2. Şəxsiyyət böyük olduqca ona qarşı iftira da təhlükəli olur.
3. Din uyduran insan kafirlə bir sırada dayanır.
4. Bid`ət (dində dəyişiklik) günahdır.
5. Əgər din təbliğatçısı öz düşüncəsini din kimi təqdim edərsə, “zalım”, “günahkar” adları ona uyğun gələr.

[1] “Ən`am” 93.

**Ayə 18:**

﴿وَيَعْبُدُونَ مِن دُونِ اللّهِ مَا لاَ يَضُرُّهُمْ وَلاَ يَنفَعُهُمْ وَيَقُولُونَ هَؤُلاء شُفَعَاؤُنَا عِندَ اللّهِ قُلْ أَتُنَبِّئُونَ اللّهَ بِمَا لاَ يَعْلَمُ فِي السَّمَاوَاتِ وَلاَ فِي الأَرْضِ سُبْحَانَهُ وَتَعَالَى عَمَّا يُشْرِكُونَ﴾

**"Onlar Allah əvəzində onlara heç bir zərəri və xeyri olmayan şeylərə pərəstiş edir və deyirlər: "Bu bütlər bizim Allah yanındakı şəfaətçilərimizdir." De ki, Allaha göylərdə və yerdə tanımadığı bir şeyimi xəbər verirsiniz? Allah Ona şərik qoşduqlarınızdan pak və ucadır."**

## *Nöqtələr*

◘Təfsire-Mərağidə bu ayəyə istinadən ilahi övliyalara təvəssül və qəbirlərin ziyarəti rədd edilmişdir. Həqiqətdə isə belə deyil. Əvvəlcə bu ayədə "pərəstiş, ibadət edirlər" tə`biri işlədilmişdir. Ziyarət və təvəssüldə isə kimsə Allahdan qeyrisinə pərəstiş etmir. İkincisi, biz Bərzəx həyatına inanırıq. Qur`an da şəhidləri diri sayır. Biz Allah yolunda şəhadətə çatmış övliyalardan dua istəyirik. Övliyaların və şəhidlərin daş və ağac bütlərlə bir tutulması insafsızlıqdır.

◘Bütlərə ya qorxudan, ya da qazanc ümidi ilə pərəstiş olunur. Halbuki bütlərdə nə zərər yetirmək, nə də fayda vermək qabiliyyəti var. Demək, bütpərəstlik üçün heç bir bəhanə yoxdur.

## *Bildirişlər*

1. Bütpərəstlər məntiqsizdirlər və bütpərəstlik məntiqsiz bir işdir.
2. Bütpərəstlər Allahı qəbul edir, amma bütləri vasitə saydıqlarından onlara pərəstiş edirdilər.

**Ayə 19:**

﴿وَمَا كَانَ النَّاسُ إِلاَّ أُمَّةً وَاحِدَةً فَاخْتَلَفُواْ وَلَوْلاَ كَلِمَةٌ سَبَقَتْ مِن رَّبِّكَ لَقُضِيَ بَيْنَهُمْ فِيمَا فِيهِ يَخْتَلِفُونَ﴾

**"(Başlanğıcda) insanlar vahid bir ümmət idilər. (Pak tövhid fitrətində idilər.) Sonra ixtilafa düçar oldular. (Bir qrup müvəhhid, digəri müşrik oldu.) Əgər Rəbbin tərfindən bir sünnə (imtahan üçün möhlət) müəyyənləşməsəydi, xalq arasında ixtilaf etdikləri şeyə görə mühakimə aparılardı. (Azğınların məhvi hökm olunardı.)"**

## *Nöqtələr*

◘Allah-təala Adəm və Həvvanı yerə endirdiyi vaxt buyurdu: “Yer üzü sizin və nəsliniz üçün bir müddət məskəndir.”[1] Deməк, ilk gündən müəyyənləşmişdi ki, insana yer üzündə bir müddət möhlət verilsin. Olsun ki, “kəlimətun səbəqət” dedikdə həmin müqəddərat, proqram nəzərdə tutulmuşdur.

## *Bildirişlər*

1. Bəşər ilkin yaranışda vahid ümmət, həmfikir və müvəhhid olmuşdur.
2. İctimai həyat elə başlanğıcdan mövcuddur.
3. Əqidə və əməldə ziddiyyət bəşər cəmiyyətinin zərurətlərindəndir.
4. Möhlət verilməsi ilahi rübubiyyət şə`nindəndir.
5. Seçim və əməl üçün fərdlərə möhlət verilməsi ilahi sünnədir.

**Ayə 20:**

﴿وَيَقُولُونَ لَوْلاَ أُنزِلَ عَلَيْهِ آيَةٌ مِّن رَّبِّهِ فَقُلْ إِنَّمَا الْغَيْبُ لِلّهِ فَانْتَظِرُواْ إِنِّي مَعَكُم مِّنَ الْمُنتَظِرِينَ﴾

**“Deyirlər ki, nə üçün ona Rəbbi tərəfindən bir ayə və mö`cüzə nazil olmur? De ki, qeyb Allaha məxsusdur. Belə isə, intizarda olun. Mən də sizinlə birlikdə intizardayam.”**

## *Bildirişlər*

1. Bəhanəçi insanlar Qur`anı və yüzlərlə ayəni görməməzliyə vurub başqa ayələr istəyirlər.
2. Mö`cüzə nə peyğəmbərin ixtiyarındadır, nə də xalqın istəyindən asılıdır. Mö`cüzə yalnız Allahın istəyi ilə baş tutur.
3. Möhlət verilməsi Allahın qanunudur.

**Ayə 21:**

﴿وَإِذَا أَذَقْنَا النَّاسَ رَحْمَةً مِّن بَعْدِ ضَرَّاء مَسَّتْهُمْ إِذَا لَهُم مَّكْرٌ فِي آيَاتِنَا قُلِ اللّهُ أَسْرَعُ مَكْرًا إِنَّ رُسُلَنَا يَكْتُبُونَ مَا تَمْكُرُونَ﴾

**“Xalqa yetişmiş əziyyətdən sonra onlara bir zəhmət və lütf daddırsa, (şükür əvəzinə) ayələrimizə qarşı hiylə qurarlar. De ki, Allahın tədbiri daha iti və nüfuzludur. Həqiqətən, onların məkr və hiylələrini mələklərimiz yazırlar.”**

---

[1] “Bəqərə”, 36.

## *Nöqtələr*

◘Ötən ayədə onların bəhanələrinə işarə olundu. Onlar deyirdilər ki, nə üçün bir ayə nazil olmur? Bu məqamda onların inadkarlığına işarə olunur. Onlar ayə nazil olduqdan sonra da şükür əvəzinə hiyləyə əl atırlar.

◘Məkkədə quraqlıq və qıtlıq oldu. Allah Öz rəsulunun bərəkətinə xatir yağış göndərdi. Müşriklərsə bu yağışın bütlərə xatir yağdığını iddia edirdilər. Ayə nazil oldu və bütpərəstlər rüsvay edildilər.[1]

◘Əksər təfsirlərdə bildirilir ki, düşmənlərin tədbir və hiylələrindən biri Peyğəmbərin (s) şəxsiyyətini alçaltmaq və ilahi ayələrə istehza etmək idi.

## *Bildirişlər*

1. İnsanın istifadə etdiyi ne`mətlər Allahın sonsuz mərhəmətinin kiçik bir hissəsidir.
2. İnsan ilahi ne`mətlərdən sui-istifadə edir, şükür əvəzinə hiyləyə əl atır.
3. Hiyləyə əl atan insan Allahın tədbiri ilə çətinliyə düşər.
4. Allahın cəzası insanın günahına münasib olur.
5. Mələklər insanların fikirlərini də qeydə alırlar.

**Ayə 22:**

﴿هُوَ الَّذِي يُسَيِّرُكُمْ فِي الْبَرِّ وَالْبَحْرِ حَتَّى إِذَا كُنتُمْ فِي الْفُلْكِ وَجَرَيْنَ بِهِم بِرِيحٍ طَيِّبَةٍ وَفَرِحُواْ بِهَا جَاءتْهَا رِيحٌ عَاصِفٌ وَجَاءهُمُ الْمَوْجُ مِن كُلِّ مَكَانٍ وَظَنُّواْ أَنَّهُمْ أُحِيطَ بِهِمْ دَعَوُاْ اللّهَ مُخْلِصِينَ لَهُ الدِّينَ لَئِنْ أَنجَيْتَنَا مِنْ هَذِهِ لَنَكُونَنِّ مِنَ الشَّاكِرِينَ﴾

**“Sizi quruda və dəryada gəzdirən Odur. Gəmidə olduğunuz, müvafiq bir küləyin gəmiləri hərəkətə gətirdiyi və (onda olanlar) bu vasitə ilə xoşhal olduğu vaxt qəfildən tufan qopanda, dalğalar hər tərəfdən sorağlarına gələndə bəla mühasirəsinə düşdüklərini güman edib Allahı xalis əqidə ilə çağırarlar (və deyərlər:) əgər bizi bu təhlükədən xilas etsən, şübhəsiz şükür edənlərdən olacağıq.”**

[1] “Təfsire-Safi”. “Təfsire-Fi Zilalil Qur`an”. “Təfsire-kəbire-Fəxr Razi”.

## *Nöqtələr*

◘Alusi və Məraği öz təfsirlərində qeyd edirlər ki, "təhlükə zamanı müşriklər Allahı çağırdıqları halda, şiələr öz imamlarını çağırırlar." Onlar unudurlar ki, Qur`ana əsasən diri olan şəhid, mə`sum imamlara təvəssül bütlərə təvəssüldən fərqlənir.

## *Bildirişlər*

1. Təbiətə hakim qanunlar Allahın məxluqudur və Onun hökmü altındadır.
2. İnsanın işləri Allaha da aid edilir. Çünki işi insan görsə də qüdrət Allahdandır.
3. İnsan nə qədər inkişaf etsə də təbiət hadisələrinin acılığından amanda deyil.
4. Rifah içində yaşayanlar güman etməsinlər ki, bu rifah əbədidir.
5. Təbiət hadisələri insanın qürur və təkəbbürünü aradan götürür, onu Allah qarşısında boyun əyməyə vadar edir.
6. Təhlükə zamanı insan fitrəti yeganə qurtuluş ünvanına tərəf üz tutur.
7. İman və ixlas yalnız təhlükə ilə bağlı müvəqqəti yox, daimi olmalıdır.
8. İnsan təhlükəyə düşdükdə söz verir, təhlükə ötüşdükdə isə qəflətə uğrayır.
9. Naşükürlük və ne`mətə qarşı şükür çətinlik və əzab zəminlərindəndir.

**Ayə 23:**

﴿فَلَمَّا أَنجَاهُمْ إِذَا هُمْ يَبْغُونَ فِي الأَرْضِ بِغَيْرِ الْحَقِّ يَا أَيُّهَا النَّاسُ إِنَّمَا بَغْيُكُمْ عَلَى
أَنفُسِكُم مَّتَاعَ الْحَيَاةِ الدُّنْيَا ثُمَّ إِلَينَا مَرْجِعُكُمْ فَنُنَبِّئُكُم بِمَا كُنتُمْ تَعْمَلُونَ﴾

**"Elə ki, Allah onlara nicat verdi, həmin vaxt yer üzündə nahaqdan azğınlıq edirlər. Ey xalq! Həqiqətən, sizin azğınlığınız yalnız öz zərərinizədir. Dünya həyatının ləzzətləri (bir neçə gündən çox deyil), sonra qayıdışınız Bizə doğrudur. Sizi əməllərinizdən agah edəcəyik."**

## *Nöqtələr*

◘“Bəğy” tələb mə`nasını bildirir. Zalım həmişə başqalarının fikrini qəsb etmək fikrində olduğundan ona “Bağı” deyilir.[1]

## *Bildirişlər*

1. İnsan vəfasız, əhdini pozan və naşükürdür. (Ötən ayədə bildirildiyi kimi, o nicat tapsa şükür edəcəyini və`d edir, amma nicat tapdıqdan sonra qəflətə uğrayır.)
2. Xalqa zülm insanın özünə zülmüdür. Çünki hamı bir-birindəndir.[2]
3. Zülm-sitəmin cəzası həm dünya, həm də axirətə aiddir.
4. Zalımlar yalnız bir neçə günlük dünyada ləzzət alırlar. Bu isə qiyamət cəzası ilə müqayisədə heçdir.
5. Zülmlərin kökü insanın dünyapərəstliyidir.
6. Qiyamətin xatırlanması insanı günahdan çəkindirən amillərdəndir.
7. Allah insanın bütün işlərindən agahdır. İnsan da qiyamət günü bütün əməllərindən xəbər tutacaq.

**Ayə 24:**

﴿إِنَّمَا مَثَلُ الْحَيَاةِ الدُّنْيَا كَمَاء أَنزَلْنَاهُ مِنَ السَّمَاء فَاخْتَلَطَ بِهِ نَبَاتُ الأَرْضِ مِمَّا يَأْكُلُ النَّاسُ وَالأَنْعَامُ حَتَّىَ إِذَا أَخَذَتِ الأَرْضُ زُخْرُفَهَا وَازَّيَّنَتْ وَظَنَّ أَهْلُهَا أَنَّهُمْ قَادِرُونَ عَلَيْهَآ أَتَاهَا أَمْرُنَا لَيْلاً أَوْ نَهَارًا فَجَعَلْنَاهَا حَصِيدًا كَأَن لَّمْ تَغْنَ بِالأَمْسِ كَذَلِكَ نُفَصِّلُ الآيَاتِ لِقَوْمٍ يَتَفَكَّرُونَ﴾

**“Həqiqətən, dünya həyatı səmadan endirdiyimiz suya bənzər. Yerin insanlar və dördayaqlılar yeyən otu onunla qarışdı. Nəhayət, yer zinətləndi və yer əhli belə güman etdi ki, bütün bu nəbatatdan istifadə etmək gücündədir. (Qəfildən) gecə və ya gündüz (viranlığa) əmr gəldi. Onu elə biçdik ki, sanki dünən heç bir ot olmamışdı. Biz Öz ayələrimizi düşünən qövm üçün bu sayaq açıqlayırıq.”**

## *Nöqtələr*

◘Ötən ayə dünya matahını puç saydı. Bu ayə isə gözəl bir oxşatma ilə onu təsvir edir.

◘Bə`zi rəvayətlərdə bu ayə həzrət Mehdinin (ə) zühur rəmzi sayılmışdır. Nə vaxt yer üzü zər-zibaya büründü, ilahi bir əmr və ideoloji bir inqilabla hər şey dəyişər.[3]

---

[1] “Təfsire-Əl-mizan”.
[2] “Ali-İmran”, 195.
[3] “Təfsire-Nurus-səqəleyn”.

## *Bildirişlər*

1. Ən yaxşı təbliğ və tə`lim üsullarından biri misaldır.
2. Ən üstün misal təbiətdən götürülmüş misaldır. Belə bir misal daim aktualdır.
3. Təbiətin maddi ünsürlərindən həm insan, həm də heyvan bəhrələnir. İnsan yalnız mə`nəvi dəyərlərə görə heyvandan üstündür.
4. Bitki örtüyünün insan və heyvanların ehtiyacına uyğun olması ilahi lütflərdəndir.
5. İman insanın zinətidir.[1] Bitki örtüyü isə yerin zinətidir.
6. Dünya insanı aldadaraq, onu xəyallar aləminə aparır.
7. Bitki örtüyünü cücərtmək Allahın əlində olduğu kimi, onu məhv etmək də Allahın əlindədir.
8. Dünya və onun cilvələri hadisələr keşməkeşindədir.
9. İnsanın dünya ömrü bitki aləminin ömrü kimi qısa və ötəridir.
10. Allahın şiddətli qəhr-qəzəbindən sonra heç bir əsər-əlamət qalmır.
11. Qur`an misalları insanı düşüncəyə vadar edir. Bu misallara əhəmiyyətsiz yanaşmayaq.
12. Dünyaya bağlılıq və onunla qürrələnmək dar düşüncə, ondan qürur duymamaq isə düşüncə nişanəsidir.

**Ayə 25:**

﴿وَاللّهُ يَدْعُو إِلَى دَارِ السَّلاَمِ وَيَهْدِي مَن يَشَاء إِلَى صِرَاطٍ مُّسْتَقِيمٍ﴾

**“Allah (xalqı) salamatçılıq və səadət mənzilinə çağırır və istədiyini doğru yola hidayət edir.”**

## *Nöqtələr*

◘“Behiştin adlarından biri “Darüs-səlamdır”. Çünki orada döyüş və mübahisə törədəcək kin-küdurət yoxdur.[2]

◘Salam Allahın adıdır. Darus-Səlam dedikdə isə ilahi rəhmət civarı və görüş salamı olan, eləcə də, Allahın salam verdiyi yer nəzərdə tutulur.[3]

◘Rəvayətlərdə Əmirəlmö`minin (ə) və mə`sum rəhbərlərin vilayəti doğru yolun ən üstün nümunəsi kimi təqdim olunur.

## *Bildirişlər*

1. İlahi də`vət Allahın Öz bəndələrinə xüsusi lütf nişanəsidir.

---

[1] “Hucurat”, 7.
[2] “Ə`raf”, 43.
[3] “Yasin”, 58.

2. Dünya salamatçılığı ötəri, axirət salamatçılığı isə əbədidir.

3. Sirate-mustəqim, yə`ni doğru yol aramlıq gətirir. Bu yol axirətdən əlavə dünya həyatında insan üçün darus-səlam yaradır.

4. Sağlam həyat və cəmiyyət Allahın istəyidir.

5. Allah həm də`vət edir, həm də yol göstərir.

6. İlahi də`vət hamı üçündür. Xüsusi hidayət isə yalnız Allahın istədiklərinə aiddir.

7. Doğru yolda hərəkət üçün ilahi tövfiq, yardım lazımdır.

**Ayə 26:**

﴿لِّلَّذِينَ أَحْسَنُواْ الْحُسْنَى وَزِيَادَةٌ وَلاَ يَرْهَقُ وُجُوهَهُمْ قَتَرٌ وَلاَ ذِلَّةٌ أُوْلَئِكَ أَصْحَابُ الْجَنَّةِ هُمْ فِيهَا خَالِدُونَ﴾

**“Yaxşılıq edənlər üçün daha yaxşı və daha artıq mükafat olacaq. Onların çöhrəsinə zillət və xarlıq tozu qonmayacaq. Onlar behişt əhlidirlər və həmişə oradadırlar.”**

## *Nöqtələr*

◘“Rəhəq” dedikdə məcburi şəkildə örtmək, “qətər” dedikdə toz, tüstü və kül nəzərdə tutulur.

◘Daha çox və ikiqat mükafatın verilməsi “ziyadə”, “ze`f”, “iz`af” tə`birləri ilə təkrar-təkrar bəyan olunmuşdur. Eləcə də, yaxşılıq edən on qat mükafat alır.[1] Allah tam mükafatdan əlavə, Öz fəzli ilə onlara əta edir.[2] Allah yolunda infaq müqabilində yeddi yüz qat artıq əvəz verilir.[3]

◘İmam Sadiq (ə) buyurmuşdur: “Bir damlası alovu söndürən göz yaşından savay hər şeyin ölçüsü var.” Sonra imam buyurmuşdur: “Allahın razılığı xatirinə göz yaşı axıdan kəs üzü qaralıq və xarlıq görməyəcək.”[4]

◘Bə`zi rəvayətlərdə bildirilir ki, “ziyadət” dedikdə dünya nəzərdə tutulmuşdur.[5] Sünnə əhlinin bir çox rəvayətlərinə əsasən, “ziyadət” Allahla görüşə işarədir.[6]

◘“Əhsənu” dedikdə düz əqidə, saleh əməl və yaxşı danışıq nəzərdə tutulur.

## *Bildirişlər*

1. İlahi lütfdən xeyir əməl sahibləri faydalanırlar.

2. Allah həm əməlin mükafatını verir, həm də təşviq edir.

3. Qiyamət günü ən üstün mükafat yaxşı əməl sahiblərinindir.

---

[1] “Ən`am” 160.
[2] “Nisa”, 173.
[3] “Bəqərə”, 261.
[4] “Təfsire-Nurus-səqəleyn”.
[5] “Təfsire-Nurus-səqəleyn”.
[6] “Təfsire-Dürrül-Mənsur”.

4. Allahdan qeyrisinə üz tutanların heç bir üzrü yoxdur. Çünki Allah həm də`vət edir, həm yol göstərir, həm də artıqlaması ilə əvəz verir.

5. Ötəri və fani dünyadakı ehsan və yaxşılıq əbədi behişt həyatına aparır.

**Ayə 27:**

﴿وَالَّذِينَ كَسَبُواْ السَّيِّئَاتِ جَزَاء سَيِّئَةٍ بِمِثْلِهَا وَتَرْهَقُهُمْ ذِلَّةٌ مَّا لَهُم مِّنَ اللّهِ مِنْ عَاصِمٍ كَأَنَّمَا أُغْشِيَتْ وُجُوهُهُمْ قِطَعًا مِّنَ اللَّيْلِ مُظْلِمًا أُوْلَئِكَ أَصْحَابُ النَّارِ هُمْ فِيهَا خَالِدُونَ﴾

**"Pislik ardınca gedənlər həmin pisliklər qədərində cəzalandırılarlar. Zillət və xarlıq qubarı onları bürüyər. Allahın qəhri səbəbindən sığınacaq verənləri olmaz. Onların çöhrələri sanki qaranlıq gecə parçaları ilə örtülmüşdür. Onlar cəhənnəm əhlidirlər və orada əbədidirlər."**

## *Nöqtələr*

◘İmam Baqir (ə) buyurmuşdur: "Bu ayə bid`ət, şübhə və şəhvət əhli haqqındadır."[1]

◘"Ləyli muzlim" dedikdə ay işığından əsər-əlamət olmayan gecə nəzərdə tutulur. Hər ayda bir gecə bu sayaq qaranlıq olur. Əksinə, "ləyli muqmir" dedikdə, ayın işıqlandırdığı gecə başa düşülür.

◘"Əbəsə" surəsinin 40-42, "Ali-İmran" surəsinin 106-cı ayələrinə əsasən üzlərin gecə tək qaralmasından danışılarkən kafirlər nəzərdə tutulmuşdur.

## *Bildirişlər*

1. İnsanlar öz iradələri ilə günah yolunu seçirlər.
2. Allah pis əməl sahibləri ilə ədalətli rəftar edir.
3. Dünya əməl, axirət əvəz məhəllidir.
4. İnsan tənbeh və cəzadan qabaq təşviq olunmalıdır.
5. Üzüqaralıq günahkar mö`minlərə yox, kafirlərə aiddir.
6. Cəza və tənbeh, eləcə də təhqir və üzüqaralıq qiyamətdə də var.
7. Qurtuluş və şəfaət yolu kafirlərin üzünə bağlıdır.

**Ayə 28:**

﴿وَيَوْمَ نَحْشُرُهُمْ جَمِيعًا ثُمَّ نَقُولُ لِلَّذِينَ أَشْرَكُواْ مَكَانَكُمْ أَنتُمْ وَشُرَكَآؤُكُمْ فَزَيَّلْنَا بَيْنَهُمْ وَقَالَ شُرَكَآؤُهُم مَّا كُنتُمْ إِيَّانَا تَعْبُدُونَ﴾

**"(Qiyamətdə) hamını bir yerə toplayacağımız gün müşriklərə deyərik: "Siz və Allaha şərik güman etdikləriniz öz yerinizdə qalın (ki, hesabınız**

[1] "Təfsire-Nurus-səqəleyn".

**aparılsın). Sonra aralarında ayrılıq salarıq və mə`budlar deyərlər ki, siz (əslində) bizə pərəstiş etmirdiniz (öz həvəslərinizin ardınca gedirdiniz).”**

## *Nöqtələr*

◘Ötən ayədə deyildi ki, günahkarlar və kafirlər üçün heç bir qurtuluş yolu yoxdur. Bu ayədə isə bildirilir ki, hətta onların xəyali vasitələri də şəfaət vermək əvəzinə, onlardan üz döndərərlər.

## *Bildirişlər*

1. Qiyamət və onun hadisələrini unutmayaq.
2. Qiyamətdə təkcə insanlar yox, hətta saxta mə`budlar da hazır olar.
3. Qiyamət ayrılıq günüdür. (Qiyamətdə sorğu üçün insanlar bir-birlərindən ayrı düşərlər.)
4. Kafirlərin öz xəyali şəfaətçiləri qiyamətdə onlardan üz döndərər.
5. Qiyamətdə bütlər dilə gəlib onlara ibadət edənləri inkar edər və ya xəbərsizliklərini bildirərlər.

**Ayə 29:**

﴿فَكَفَى بِاللَّهِ شَهِيدًا بَيْنَنَا وَبَيْنَكُمْ إِن كُنَّا عَنْ عِبَادَتِكُمْ لَغَافِلِينَ﴾

**“Sonra (mə`budlar müşriklərə deyərlər) bizimlə sizin aranızda Allah yetər. Həqiqətən, biz sizin pərəstişinizdən xəbərsiz idik.”**

## *Nöqtələr*

◘Ötən ayədə mə`budlar deyirdilər ki, siz bizə ibadət etmirdiniz. İndi isə bildirirlər ki, biz sizin ibadətinizdən xəbərsiz idik. Nəticə alınır ki, mə`budun xəbərsiz olduğu istənilən bir ibadət ibadət deyil.

◘Qur`anda mə`budların müşriklərə nifrət və onlardan üz döndərməsindən dəfələrlə söhbət açılmışdır.[1]

## *Bildirişlər*

1. Qiyamətdə bütlərə şüur və nitq verilər.

**Ayə 30:**

[1] “Furqan”,17; “Qəsəs”, 63.

﴿هُنَالِكَ تَبْلُو كُلُّ نَفْسٍ مَّا أَسْلَفَتْ وَرُدُّواْ إِلَى اللّهِ مَوْلاَهُمُ الْحَقِّ وَضَلَّ عَنْهُم مَّا كَانُواْ يَفْتَرُونَ﴾

**“Orada hər kəs öncədən göndərdiyinə (onun cəzasına) düçar olar və həqiqi hamisinə doğru qaytarılar. İftira və yalan olaraq Allah saydıqları şeylər onların gözləri qarşısındaca məhv olar.”**

## *Bildirişlər*

1. Dünyəvi sınaqların nəticəsi qiyamət günü əldə olunar.
2. Qiyamət hesabı hamı üçündür.
3. Varlığın qaynağı Odur və işin sonu Ona doğrudur.
4. Həqiqi mövla Allahdır və Ondan qeyriləri puçdur.
5. Qiyamətdə yalançı mə`budların görüntüləri məhv olacaq.

**Ayə 31:**

﴿قُلْ مَن يَرْزُقُكُم مِّنَ السَّمَاء وَالأَرْضِ أَمَّن يَمْلِكُ السَّمْعَ والأَبْصَارَ وَمَن يُخْرِجُ الْحَيَّ مِنَ الْمَيِّتِ وَيُخْرِجُ الْمَيَّتَ مِنَ الْحَيِّ وَمَن يُدَبِّرُ الأَمْرَ فَسَيَقُولُونَ اللّهُ فَقُلْ أَفَلاَ تَتَّقُونَ﴾

**“De ki, sizə göydən və yerdən ruzi verən kimdir? Qulaq və gözlərin sahibi kimdir? Kimdir dirini ölüdən, ölünü diridən çıxaran? Kimdir varlığın işini sahmana salan? (Cavab olaraq) deyəcəklər: “Allah.” De ki, məgər Allahdan qeyrisinə pərəstişin cəzasından qorxmursunuz?”**

## *Nöqtələr*

◘“Ölünü diridən, dirini ölüdən çıxarmaq” tə`biri insanın nütfədən, nütfənin insandan, cücənin yumurtadan, yumurtanın cücədən, otun toxumdan, toxumun otdan, saleh övladıngünahkar ata-anadan, günahkar övladın saleh valideyndən çıxması tə`birləri ilə oxşar formadadır.

◘Ayədə insan əzalarından yalnız göz və qulağın yada salınmasının səbəbi bu ola bilər ki, bədən üzvləri arasında ən çox istifadə olunan bu iki üzvdür.

## *Bildirişlər*

1. Sual üslubu və insanların düşüncə və fitrətə yönəldilməsi səmavi tə`limatçıların vəzifələrindəndir.
2. Allah insana ruzi verilməsindən danışarkən göy və yerin də adını çəkir.
3. Ruzi vermək, yaratmaq, idarə etmək Allahın daimi sünnələrindəndir.
4. Yaranış aləmi daim müdiriyyətə ehtiyaclıdır. Tədbirlərdəki vəhdət rübubiyyətin vəhdət nişanəsidir.
5. Ruzimiz, göz və qulağımız, həyat və ölümümüz Allahın əlindədir. Bu sahədə başqa bir güc və hakimiyyət yoxdur.

6. Ne`mətlər və ilahi qüdrət haqqında düşüncə allahşünaslığın ən şirin, ən duyumlu, ən ümumi, ən sadə və eşq yaradan yollarındandır.
7. Müşriklər də öz dövrlərində Allahı varlığın yaradıcısı kimi tanıyırmışlar.
8. Əqidə bəs etmir, əməl də lazımdır.
9. Mə`rifət və elm təqva üçün zəmin yaradır.

**Ayə 32:**

﴿فَذَلِكُمُ اللّهُ رَبُّكُمُ الْحَقُّ فَمَاذَا بَعْدَ الْحَقِّ إِلاَّ الضَّلاَلُ فَأَنَّى تُصْرَفُونَ﴾

**“Belə bir (qadir və vahid) Allah, həqiqətən, sizin Rəbbinizdir. Haqdan sonra azğınlıqdan başqa nə var? Bəs necə olur ki, (haqdan) qaytarılırsınız?!”**

## *Bildirişlər*

1. Hakim, ruzi verən, xəlq edən, idarə edən Allah olan yerdə digər bir yaradana macal yoxdur.
2. Allahdan qeyrisinin rübubiyyətinə e`tiqad puçdur, azğınlıqdır.
3. Haqla batil arasında üçüncü bir yol yoxdur. Haqq olmayan şey batildir. Bu məsələdə bitərəf yoxdur.
4. İnsan haqpərəst bir fitrətə malikdir. Şeytanlar, digər xülyalar və amillər onu azğınlığa çəkir.

**Ayə 33:**

﴿كَذَلِكَ حَقَّتْ كَلِمَتُ رَبِّكَ عَلَى الَّذِينَ فَسَقُواْ أَنَّهُمْ لاَ يُؤْمِنُونَ﴾

**“Beləcə, Rəbbinin hökmü və sözü itaətsizlik edənlər haqqında gerçəkləşdi. Onlar iman gətirməzlər.”**

## *Bildirişlər*

1. İnsan əyri yol seçməklə Allahın qəzəbini qətiləşdirir.
2. Azğınlıq və günah iman üçün maneə, küfr üçün zəmindir.

**Ayə 34:**

﴿قُلْ هَلْ مِن شُرَكَآئِكُم مَّن يَبْدَأُ الْخَلْقَ ثُمَّ يُعِيدُهُ قُلِ اللّهُ يَبْدَأُ الْخَلْقَ ثُمَّ يُعِيدُهُ فَأَنَّى تُؤْفَكُونَ﴾

**“De ki, Allaha şərik qərar verdiyiniz mə`budlardan yaranışı ərsəyə gətirib sonra geri qaytara bilən varmı? De ki, (yalnız) Allah yaranışa başlar, sonra onu qaytarar. Belə isə, nə üçün (haqdan) üz çevirirsiniz?!”**

## *Bildirişlər*

1. Allah-təala Öz Peyğəmbərinə (s) müşriklərlə mübahisə üsulunu öyrədir.

2. Allaha şərik qoşulanlar bəşər xülyasından başqa bir şey deyil.
3. Varlıq bir hadisədir.
4. Pərəstiş üçün iki me`yar var: İlkin yaratma qüdrəti və yenidən bərpa qüvvəsi.
5. Dünya fəna olduqdan sonra qiyamət qopar.
6. Varlıq aləmi ölümə, məhvə doğru hərəkətdədir. Bu hərəkətin sonu fənadır.
7. Məad və qiyamət də dünya kimi cismanidir.
8. Şərik qoşmağa meyl düşüncəsizlik nişanəsidir.

**Ayə 35:**

﴿قُلْ هَلْ مِن شُرَكَآئِكُم مَّن يَهْدِي إِلَى الْحَقِّ قُلِ اللّهُ يَهْدِي لِلْحَقِّ أَفَمَن يَهْدِي إِلَى الْحَقِّ أَحَقُّ أَن يُتَّبَعَ أَمَّن لاَّ يَهِدِّيَ إِلاَّ أَن يُهْدَى فَمَا لَكُمْ كَيْفَ تَحْكُمُونَ﴾

**“De ki, Allaha şərik qoşduğunuz mə`budlar arasında haqqa hidayət edəni varmı? De ki, (yalnız) Allah haqqa hidayət edir. İtaətə daha çox kim layiqdir: haqqa hidayət edən kəs, yoxsa başqası hidayət etmədikdə hidayət olmayan kəs? Sizə nə olub, necə hökm edirsiz?!”**

## *Nöqtələr*

◘Ötən ayədə ilkin yaranış, məad və varlığın yaranışına işarə olundu. Bu ayədə isə nübuvvət, peyğəmbərlik, imamət, hidayət haqqında danışıldı.

◘Hidayət (doğru yola yönəltmə) iki növdür: Doğru yolun göstərilməsi və məqsədə çatdırma. Birinci iş peyğəmbərlərə aiddir.[1] İkinci iş isə yalnız Allaha məxsusdur.[2]

◘“Yəhdi iləl həqq” və “yəhdi lil həqq” tə`birləri eyni mə`nadadır.[3]

◘Yetərli sayda şiə və sünni rəvayətlərinə əsasən İslam Peyğəmbəri (s) buyurmuşdur: “Daim haqq Əli (ə) ilədir, Əli (ə) də haqla.”[4]

## *Bildirişlər*

1. Haqqa çağırış və yönəltmə Allahlıq şə`nlərindəndir. (Pərəstiş ölçüsü mə`budun hidayət edə bilməsidir.)
2. Düzgün hidayət (yönəltmə) əhatəli elmə, nöqsansızlığa, qüdrətə, məhəbbət və məqsədə ehtiyaclıdır. Allahdan və Onun rəhbər kimi tə`yin etdiyi kəslərdən savay kimsə hadi, yə`ni doğru yol bələdçisi ola bilməz. Qüdrətsiz bütlər və zalım hakimlər hadi ola bilərmi?!
3. Yalnız doğru yola çağıran kəs itaətə layiqdir.
4. Nübuvvət, imamət və mə`sum rəhbərə itaət əqli prinsiplərdəndir.

**Ayə 36:**

---

[1] “Ənbiya”, 73.
[2] “Qəsəs”, 56.
[3] “Təfsire-Əl-mizan”.
[4] “İhqaqul-həqq”, c. 5, s. 28, 635.

﴿وَمَا يَتَّبِعُ أَكْثَرُهُمْ إِلاَّ ظَنًّا إِنَّ الظَّنَّ لاَ يُغْنِي مِنَ الْحَقِّ شَيْئًا إِنَّ اللّهَ عَلَيمٌ بِمَا يَفْعَلُونَ﴾

**“Onların çoxu yalnız (əsassız) gümana itaət edirlər. Şübhəsiz, güman heç vəchlə həqiqətə olan ehtiyacı ödəmir. Həqiqətən, Allah xalqın gördüyü işlərdən agahdır.”**

## *Nöqtələr*

◘Gerçək dəyər elmdədir. Güclü ehtimal və əminlik də həqiqətə əsaslandıqda dəyərli olur. Ayə və rəvayətlər əsasında fəqihin ilahi hökmləri müəyyənləşdirməsi də dəyərdir. Amma cahil ata-babalara təqlidçiliyə əsaslanan əqidə puçdur.

## *Bildirişlər*

1. Çoxluq haqlılıq deyil.
2. Peyğəmbərlərin müxalifləri məntiqsizdirlər.
3. Şirkin elmi kökü yoxdur.
4.Əqidə məsələsində gümana yox, elmə əsaslanmaq lazımdır.

**Ayə 37:**

﴿وَمَا كَانَ هَـذَا الْقُرْآنُ أَن يُفْتَرَى مِن دُونِ اللّهِ وَلَكِن تَصْدِيقَ الَّذِي بَيْنَ يَدَيْهِ وَتَفْصِيلَ الْكِتَابِ لاَ رَيْبَ فِيهِ مِن رَّبِّ الْعَالَمِينَ﴾

**"Belə deyil ki, bu Qur`an Allahdan qeyrisi tərəfindən və yalan olaraq düzəldilsin. O əvvəlki səmavi kitabların təsdiqi və izahıdır. Onun aləmlərin Rəbbi tərəfindən olmasında heç bir şəkk-şübhə yoxdur."**

## *Bildirişlər*

1. Qur`anın əhatəsi və mahiyyəti yol vermir ki, o, Allahdan qeyrisinə aid edilsin.
2. Səmavi kitablar bir-birlərini təsdiqləyir. Bu kitabların fərqi onların əhatə və mahiyyətindədir.
3. Qur`an təkamül və tərbiyə vasitəsidir.

**Ayə 38:**

﴿أَمْ يَقُولُونَ افْتَرَاهُ قُلْ فَأْتُواْ بِسُورَةٍ مِّثْلِهِ وَادْعُواْ مَنِ اسْتَطَعْتُم مِّن دُونِ اللّهِ إِن كُنتُمْ صَادِقِينَ﴾

**"Hətta "Qur`anı (özündən) toxumuşdur" deyirlər. De ki, əgər doğru deyirsinizsə, onun kimi bir surə gətirin və Allahdan qeyri bacardığınız kəsi köməyə çağırın."**

## *Nöqtələr*

◘Qur`anda cin və insanların ilahi kəlamının oxşarını gətirməkdə aciz olması dəfələrlə önə çəkilir və iddiası olanlar mübarizə meydanına çağrılır. "Hud" surəsinin 13-cü ayəsi də bu qəbildəndir. Digər bir tərəfdən, əsrlər boyu milyonlarca müxalif Qur`anın nüfuzunu zəiflətməyə çalışmışdır. Bu sayaq fəaliyyətlər hazırda da davam edir. Amma Qur`anın uyğun çağırışı hələ də cavabsız qalmışdır və qiyamətədək də cavabsız qalasıdır.

## *Qur`anın imtiyazları*

◘Söhbət Qur`anın mübarizəyə çağırışından getdiyi üçün bu əbədi mö`cüzənin bə`zi imtiyazlarını nəzərdən keçirək:

1. Uca bir maarifin qısa ifadələrlə bəyanı: məsələn, qadın və kişi haqqında buyurur: "Qadınlar sizin libasınızdır, siz isə qadınların libası."[1] Qeyri-ilahi güclərin puçluğu onların hörümçək yuvasına bənzədilməsi ilə çatdırılır.[2] Başqa

[1] "Bəqərə", 187ö
[2] "Ənkəbut", 41.

bir məqamda qeyri-ilahi qüvvələrin bir cücü yarada bilməməsi onların zəifliyi kimi təqdim olunur.[1]

2. Sözün şirinliyi və nüfuz: Qur`an 1000 dəfə oxunsa da köhnəlmir, hər oxunuşda yeni bir nöqtə üzə çıxır.

3. Qur`an kəlamlarının ahəng və musiqisi: Bu kəlmələrin xüsusi bir ahəngi var. Ərəb cümlələri və ya rəvayət arasında işlədilmiş Qur`an ayəsi dərhal tanınır.

4. Qur`anın əhatəliliyi: dəlildən məsələdək, dünyadan axirətədək bütün məsələlər, eləcə də ailə, hüquq, siyasi, hərbi, əxlaqi və tarixi mövzular onda öz əksini tapmışdır.

5. Gerçəklik: Qur`anın söhbətləri zənn-gümana əsaslanmır. Hətta ondakı əhvalatlar da sənədli və gerçəkdir.

6. Ümumilik: İstənilən səviyyədə, istənilən bir məkandan olan insan ondan bəhrələnir. Qur`an ixtisas kitabı formasında deyil.

7. Əbədilik: Bəşəriyyətin və elmlərin ömrü artdıqca Qur`andan daha çox sirr açılır.

8. Artan təkamül: Saysız-hesabsız müqavimətlərə baxmayaraq Qur`an ən böyük təkamül yolu keçmişdir.

9. Real mö`cüzə olması: Bu mö`cüzə hamının əlindədir.

10. Qur`an həm mö`cüzədir, həm də qanun kitabı.

11. O məktəb görməmiş, savaddan məhrum bir məntəqədən olan fərd tərəfindən çatdırılmışdır.

12. Ona heç nə artırılmamış, ondan heç nə əskildilməmişdir və o, təhrifdən qorunmuşdur.

## *Bildirişlər*

1. Qur`an öz e`cazının sübutu üçün ən sadə yolu göstərir və bu yol onun surələrinə oxşar surələrin deyilməsidir.

2. Nəinki Qur`an tam şəkildə, hətta onun bir surəsi də mö`cüzədir.

3. Qur`an bu mübarizədə qarşı tərəf üçün çətinlik yaratmır və onun oxşar bir surə gətirməsini kafi sayır.

4. Qur`anın mübarizəyə çağırışı hansısa zaman və məkana aid deyil. Qiyamətədək bütün yer üzündə bu çağırış öz gücündədir.

5. Bu mübarizə təkcə savadsız kütləyə aid deyil. Əgər dünya alimləri, hüquqşünasları, ədibləri arasında Qur`ana şəkk edən varsa, bu də`vəti qəbul edə bilər.

6. Bu mübarizə çağırışında xüsusi imkanlar və say nəzərdə tutulmamışdır.

7. Müxaliflər belə bir mübarizəyə hətta təhrik də olunur.

**Ayə 39:**

[1] "Həcc", 73.

﴿بَلْ كَذَّبُواْ بِمَا لَمْ يُحِيطُواْ بِعِلْمِهِ وَلَمَّا يَأْتِهِمْ تَأْوِيلُهُ كَذَلِكَ كَذَّبَ الَّذِينَ مِن قَبْلِهِمْ
فَانظُرْ كَيْفَ كَانَ عَاقِبَةُ الظَّالِمِينَ﴾

**"Həqiqət budur ki, bilmədikləri bir şeyi yalan saydılar. Halbuki onun sonu, mahiyyəti və batini hələ ki, onlara aydınlaşmamışdı. Onlardan qabaqkılar da bu sayaq təkzib etdilər. Bax gör, zalımların aqibəti necədir."**

## *Nöqtələr*

◘İmam Sadiq (ə) buyurmuşdur: "Qur`anın bu iki ayəsindən iki böyük dərs öyrənirik: Nə qədər ki, bilmirik, danışmayaq[1] və nə qədər ki, bilmirik, bir sözü rədd etməyək."[2]

◘Əbdül-Əzim Həsəni imam Cavaddan (ə) Həzrət Əlinin (ə) belə buyurduğunu nəql edir: "Allah-təala dediyim dörd nöqtəni ayədə nazil etmişdir:

1. İnsanın kimliyi onun dilinin altındadır. Ayə nazil oldu ki, danışıqlarından onları tanıyarsan.[3]
2. Hər kəs bir şeyi bilməsə, onunla düşmənçilik edir. Ayə nazil oldu ki, bilmədiklərini yalan saydılar.[4]
3. Hər kəsin dəyəri onun ləyaqəti və dəyərindən asılıdır. Ayə nazil oldu ki, Allah Talutu bacarıqlarına görə seçdi.[5]
4. Zalımı (qatili) öldürmək qətllərin çoxalmasının qarşısını alır. Ayə nazil oldu ki, qisas sizin üçün həyatdır.[6]

## *Bildirişlər*

1. Müxaliflər Qur`anı yetərincə öyrənmədən onu rədd etmişdilər.
2. Bir şeyi bilmədiyimizə görə rədd etməyək.
3. Ümumi və yığcam bilik tə`sirsizdir. Yalnız elmi əhatə sayəsində nuraniyyət əldə etmək olar.
4. Tarix boyu peyğəmbərlərlə müxalifliyin səbəbi cəhalət olmuşdur.
5. Din müxaliflərinin tarixi və taleyi ilə tanış olmaq lazımdır.

---

[1] "Ə`raf", 169.
[2] "Təfsire-Məcməül-bəyan",
[3] "Muhəmməd", 30.
[4] "Yunus", 39.
[5] "Bəqərə", 247.
[6] "Bəqərə", 179. "Kafi", c. 1. s. 166.

**Ayə 40:**

﴿وَمِنهُم مَّن يُؤْمِنُ بِهِ وَمِنْهُم مَّن لاَّ يُؤْمِنُ بِهِ وَرَبُّكَ أَعْلَمُ بِالْمُفْسِدِينَ﴾

**“Onlardan bə`ziləri Qur`ana iman gətirənlərdir, bə`ziləri isə iman gətirməyənlər. Sənin Rəbbin fəsad əhlini daha yaxşı tanıyır.”**

## *Bildirişlər*

1. İnsan məcbur yox, azaddır.
2. Rəhbər bütün xalqın onun ayinlərinə iman gətirməsini gözləməməlidir.
3. İmansızlıq və fəsad bir-biri üçün şərtdir. Həm günah imana mane olur, həm də imansızlıq fəsad törədir.
4. İnsan Pərvərdigarın nəzarəti altındadır.

**Ayə 41:**

﴿وَإِن كَذَّبُوكَ فَقُل لِّي عَمَلِي وَلَكُمْ عَمَلُكُمْ أَنتُمْ بَرِيئُونَ مِمَّا أَعْمَلُ وَأَنَاْ بَرِيءٌ مِّمَّا تَعْمَلُونَ﴾

**“Əgər səni təkzib etsələr, de ki, mənim əməlim mənim üçündür, sizin əməliniz sizin üçün. (Hər birimiz öz əməlimizin cəzasına çatacağıq.) Siz mənim əməllərimdən zara gəlmisiz, mən də sizin əməllərinizdən.”**

## *Bildirişlər*

1. Əqidəni məcburi qəbul etdirmək olmaz. Peyğəmbərlərin vəzifəsi məcburiyyət yox, doğru yola də`vət olmuşdur.
2. Rəbhər kimlərinsə təkzibinə hazır olmalıdır.
3. Təkzibçilər qarşısında özümüzü məğlub saymayaq. Çünki biz doğru yola də`vətimizin mükafatını alacağıq, müxaliflər isə öz inadkarlıqlarının cəzasına çatacaqlar. Bu qarşıdurmada qalib bizik.
4. İslam Peyğəmbəri (s) təkzibçilər qarşısında qəti mövqe tuturdu.
5. Hər bir şəxsin xeyiri və zərəri onun özünə aiddir.
6. İslam kafirlərlə saziş dini yox, dəlil və əxlaq dinidir. Qarşı tərəf həqiqəti qəbul etmədikdə, onların əqidəsindən uzaq olduğumuzu bildirək.
7. Başqalarının əməllərindən razılıq insanı həmin əməllərin mükafat və cəzasına şərik edir.

**Ayə 42:**

﴿وَمِنْهُم مَّن يَسْتَمِعُونَ إِلَيْكَ أَفَأَنتَ تُسْمِعُ الصُّمَّ وَلَوْ كَانُواْ لاَ يَعْقِلُونَ﴾

**“Onlardan bir dəstəsi (zahirdə) sənin sözlərini diqqətlə dinləyirlər. (Əslində isə sanki kardırlar və heç nə eşitmirlər.) Əgər düşüncə əhli deyildirlərsə, sən öz sözlərini karların qulağına çatdıra bilərsənmi?”**

## *Bildirişlər*

1. Bə`zən dinləyici xoşməramlı olmur. İnadkarlar bə`zən bəhanə əldə etmək üçün diqqətlə dinləyirlər.

2. Bə`zən insanın qəlb xəstəliyi o qədər şiddətli olur ki, Peyğəmbərin (s) də sözləri onlara şəfa vermir.

3. Xalqın hidayəti üçün onlarda qəbul hazırlığı olmalıdır. Yalnız aşkar dəlil və ləyaqətli rəhbər bəs etmir.

4. Eşitmək yox, eşidilənləri düşünüb qəbul etmək mühümdür. Məgər heyvan deyilən sözü eşidirmi?!

**Ayə 43:**

﴿وَمِنهُم مَّن يَنظُرُ إِلَيْكَ أَفَأَنتَ تَهْدِي الْعُمْيَ وَلَوْ كَانُواْ لاَ يُبْصِرُونَ﴾

**“Xalqdan bir dəstəsi də vardır ki, sənə baxırlar (amma sanki görmürlər). Əgər (qəlb gözü ilə) görmürlərsə, korları hidayət edə bilərsənmi?!”**

**Ayə 44:**

﴿إِنَّ اللّهَ لاَ يَظْلِمُ النَّاسَ شَيْئًا وَلَكِنَّ النَّاسَ أَنفُسَهُمْ يَظْلِمُونَ﴾

**“Şübhəsiz, Allah xalqa heç bir zülm etməz. Özünə zülm edən elə xalqın özüdür.”**

## *Nöqtələr*

◘Bir dəstə insan qiyamət səhnəsinə kor gətirilər. Bu korluq ilahi ayələrə münasibətdə korluğun nəticəsidir.[1]

◘İmam Hadi (ə) buyurmuşdur: “Hər kəs Allahın Öz bəndələrini günaha məcbur etdiyini və cəzalandırdığını düşünsə, Allaha qarşı zülmə yol vermişdir və bu ayəni təkzib edir.”[2]

---

[1] “Taha”, 124, 126.

[2] “Bihar”, c. 5, s. 71.

## *Bildirişlər*

1. Hər bir baxış bəsirətli olmur, hər tamaşaçı həqiqəti duymur.
2. Hətta peyğəmbərlər də qəlbi korlara tə`sir edə bilmirlər.
3. Baxmaqla haqqa çatmayanlar kor kimidirlər.
4. Allah xalqın hidayəti üçün üstün bir məktəb, kitab və rəhbər göndərmişdir. Qəbul etməyənlər özlərinə zülm edirlər.

**Ayə 45:**

﴿وَيَوْمَ يَحْشُرُهُمْ كَأَن لَّمْ يَلْبَثُواْ إِلاَّ سَاعَةً مِّنَ النَّهَارِ يَتَعَارَفُونَ بَيْنَهُمْ قَدْ خَسِرَ الَّذِينَ كَذَّبُواْ بِلِقَاء اللّهِ وَمَا كَانُواْ مُهْتَدِينَ﴾

**"Allah onları bir yerə toplayacağı gün elə görünər ki, (dünyada və ya Bərzəxdə) bir saatdan artıq qalmamışlar. Həmin gün bir-birlərini tanıyarlar. Şübhəsiz, Allahla görüşü təkzib edənlər ziyankar oldular və heç vaxt hidayət olmamışlar."**

## *Nöqtələr*

◘Qiyamət günü o qədər əzəmətlidir ki, ondan öncəki həyat olduqca qısa görünür. Bu həqiqət digər ayələrdə də bəyan olunmuşdur: "Sanki dünya və ya bərzəxdə bir gecədən artıq olmamışdılar."[1]; "Güman edərsiniz ki, qiyamətdən öncə qısa bir müddət olmusunuz."[2]; "On gündən artıq sakin olmadığınızı düşünərsiniz."[3]; Dünya və ya Bərzəxdə bir gün və ya yarısı qədər olduğunuzu düşünərsiniz."[4]; "Düşünərsiniz ki, bir saatdan artıq olmamısınız."[5]

◘Dünya həyatının qısa görünməsinin səbəbi ya onun ötəriliyi, ya fürsətlərdən istifadə edilməməsi, ya axirətlə müqayisə, ya da insanların Bərzəxdə yuxuda olmasıdır. Onlar oyandıqdan sonra qısa bir müddətin ötdüyünü zənn edirlər.

Hər halda, həm axirətə münasibətdə dünya malı cüz`idir, həm də zaman. İnsana elə gəlir ki, bir saatdan çox ötməmişdir.

## *Bildirişlər*

1. Dünya həyatı qiyamət günü ilə müqayisədə çox qısadır.

---

[1] "Naziat", 46.
[2] "İsra", 52.
[3] "Taha", 103.
[4] "Mu`minun", 112.
[5] "Rum", 54.

2. Qiyamətdə insanlar bir-birlərini tanıyarlar.

3. Gerçək ziyankar o kəslərdir ki, qiyaməti inkar etməklə, əbədi axirət ne`mətlərindən məhrum olurlar. Beləlari yalnız dünya ləzzətlərindən bəhrələndikləri halda, mö`minlər həm dünya ne`mətlərindən ləzzət alırlar, həm də axirət ne`mətlərindən.

**Ayə 46:**

﴿وَإِمَّا نُرِيَنَّكَ بَعْضَ الَّذِي نَعِدُهُمْ أَوْ نَتَوَفَّيَنَّكَ فَإِلَيْنَا مَرْجِعُهُمْ ثُمَّ اللّهُ شَهِيدٌ عَلَى مَا يَفْعَلُونَ﴾

**"(Ey peyğəmbər,) kafirlərə və`d etdiyimiz bə`zi qəhr və cəzanı ya sənə göstərərik, ya da səni dünyadan apararıq. (Səndən sonra cəzaya çatarlar.) Onların dönüşü Bizə doğrudur. Allah onların sonrakı işlərinə şahiddir."**

## *Nöqtələr*

◘Bə`zi kafirlər Bədr, Hüneyn, Əhzab döyüşlərində və Məkkənin fəthində cəzalandırıldılar. Həzrət Peyğəmbər (s) dünyasını dəyişəndən sonra da Allah istədiyini cəzalandırır.

◘Müşriklərin cəzalandırılmasının tə`xiri Peyğəmbərdə (s) nigarançılıq yaratmışdı, bundan əlavə, müşriklər "və`d olunmuş əzab haradadır?" deyə bəhanə gətirirdilər. (Bu barədə növbəti iki ayədə danışılacaq.)

Bu ayə Peyğəmbərə (s) və xalqa təsəlli üçün əzabın tə`xirə salınmasının səbəbini bəyan edir. Bildirilir ki, hamı Allaha doğru qayıdasıdır. Allah müşriklərin əməllərindən agahdır, belə isə gətirdikləri bəhanələr onları məmnun etməsin.

◘Həzrət Əli (ə) buyurmuşdur: "Gizlində də Allaha itaətsizlikdən çəkinin. Çünki şahid özü hakimdir."[1]

## *Bildirişlər*

1. İstər indi, istərsə də başqa vaxtlarda Allah kafirlərlə hesab çəkib onları cəzalandırır. İlahi cəzanın tə`xirə salınması müsəlmanları narahat etməməlidir.

2. Həzrət Peyğəmbərin (s) vəfatı Allahın kafirlər haqqındakı hökmünə tə`sir göstərmir.

3. Hamı Allaha doğru qayıdasıdır. Kimsə Allahın ədalət mühakiməsindən canını qurtara bilməz.

4. Allah əməllərimizə şahiddir.

**Ayə 47:**

﴿وَلِكُلِّ أُمَّةٍ رَّسُولٌ فَإِذَا جَاء رَسُولُهُمْ قُضِيَ بَيْنَهُم بِالْقِسْطِ وَهُمْ لاَ يُظْلَمُونَ﴾

---

[1] "Bihar", c. 73, s. 364.

**“Hər bir ümmət üçün bir peyğəmbər var. Əgər peyğəmbərləri gəlsə, onlar arasında ədalətlə mühakimə aparar və onlara zülmü rəva bilməz.”**

**Ayə 48:**

﴿وَيَقُولُونَ مَتَى هَذَا الْوَعْدُ إِن كُنتُمْ صَادِقِينَ﴾

**“Kafirlər (istehza ilə) deyirlər: “Əgər düz deyirsinizsə, bu (əzab) və`d nə vaxtdır?”**

## *Nöqtələr*

◘Kafirlər dəfələrlə Peyğəmbərdən (s) istehza ilə soruşardılar ki, Allahın qəzəbi nə vaxtdır?! Onların bu təhqiramiz sualı tə`sir altına saldıqları fərdlərə ruh verirdi. Əslində isə bir işin həyata keçməsi üçün onun vaxtının bilinməsi şərt deyil.

◘***Sual:*** Əgər hər bir qövm üçün rəsul varsa, nə üçün risalət silsiləsi kəsilmişdir?

***Cavab***: Rəsul dedikdə şəxsən peyğəmbər yox, peyğəmbərin gətirdikləri nəzərdə tutulur. Uyğun tə`bir belə anlaşılmamalıdır ki, hər məntəqənin öz peyğəmbəri var.

◘Peyğəmbərin xalq arasında olması və ədalətli mühakiməsi axirətə də aid ola bilər. Bu məsələyə “Zumər” surəsinin 69-cu ayəsində işarə olunmuşdur.

◘İmam Baqir (ə) buyurmuşdur: “İlahi peyğəmbərlər ədalət əsasında hökm edirlər.”[1]

## *Bildirişlər*

1. Heç bir ümmətin peyğəmbərsiz olmaması ilahi sünnə, qanunlardandır.
2. Din tarixi bəşər tarixi ilə yanaşıdır.[2]
3. Ötən ayədə haqqında danışılan ilahi qəhr-qəzəb dəlillər tamamlandıqdan, peyğəmbərlər gəldikdən sonra gerçəkləşir.
4. Cəmiyyətdə ədalətin bərpası peyğəmbərlərin be`səti sayəsində mümkün olur.
5. Qiyamətdə hər bir qövm öz peyğəmbəri ilə səhnəyə gəlir. Sonra onlar arasında ədalətlə mühakimə aparılır.[3]

**Ayə 49:**

﴿قُل لاَّ أَمْلِكُ لِنَفْسِي ضَرًّا وَلاَ نَفْعًا إِلاَّ مَا شَاء اللّهُ لِكُلِّ أُمَّةٍ أَجَلٌ إِذَا جَاء أَجَلُهُمْ فَلاَ يَسْتَأْخِرُونَ سَاعَةً وَلاَ يَسْتَقْدِمُونَ﴾

**“De ki, mən (hətta) özüm üçün Allahın istədiyindən savay bir zərər və xeyirə malik deyiləm. Hər bir ümmət üçün əcəl, son müəyyənləşmişdir. Əgər bu müddət yetişsə nə bir an tə`xirə salınar, nə də qabağa çəkilər.”**

---

1 “Təfsire-Safi”.
2 “Fatir”, 24.
3 “Zumər”, 69.

## *Nöqtələr*

◘Ötən ayədə hər bir ümmət üçün rəsul olduğu bildirildi. Bu ayədə isə hər bir ümmətin öz əcəli olduğu bəyan olunur. Belə çıxır ki, bir qövmün bədbəxtlik və ya xoşbəxtlik zamanının yetişməsi onların peyğəmbərə itaətindən asılıdır.

◘***Sual***: Əgər hər bir ümmətin öz əcəli varsa, bəs İslam ümmətinin sonu nə vaxtdır?

***Cavab***: Ümmət dedikdə din yox, dəstə və cəmiyyət nəzərdə tutulur. Bu məsələ xatəmiyyət, peyğəmbərliyin sona çatması məsələsi ilə zidd deyil və hər zamanda dinin dəyişilməsi üçün dəlil ola bilməz.

## *Bildirişlər*

1. Bir kimsənin, hətta Peyğəmbərin (s) müstəqil qüdrət və mülkiyyəti yoxdur.
2. Peyğəmbər və övliyaların qüdrəti ilahi qüdrət cilvəsidir. Təəssüf ki, təvəssül mövzusunu rədd edən Məraği öz təfsirində "illa maşaəllahu" cümləsini nəzərə almamışdır.
3. "Mən xeyir və ziyan sahibi deyiləm" tə`biri peyğəmbərin sədaqətini göstərir.
4. Kafirlər üçün cəza zamanının tə`yini Allahın əlindədir.
5. Cəmiyyətin də fərdlər kimi əcəli, xoşbəxtlik və ya bədbəxtliyi, inkişaf və ya tənəzzülü var.
6. Dünyəvi hakimiyyət və qüdrət əbədi deyil və məğrurluq yaratmamalıdır.
7. Ümmətlərə möhlət verilməsi ilahi sünnə, qanunlardandır.
8. Ümmətlərin müqəddəratı, ilahi sünnə əsasında tə`yin olunur. Bu müqəddərata görə tələsməyək, onun vaxtı qətidir.

**Ayə 50:**

﴿قُلْ أَرَأَيْتُمْ إِنْ أَتَاكُمْ عَذَابُهُ بَيَاتًا أَوْ نَهَارًا مَّاذَا يَسْتَعْجِلُ مِنْهُ الْمُجْرِمُونَ﴾

**"(De ki,) gecə ya gündüz Allahın əzabı sorağınıza gəlsə, (nə edəcəyinizi) düşünmüsünüzmü? Günahkarlar ondan tələsərək nə istəyirlər?"**

**Ayə 51:**

﴿أَثُمَّ إِذَا مَا وَقَعَ آمَنْتُم بِهِ آلآنَ وَقَدْ كُنتُم بِهِ تَسْتَعْجِلُونَ﴾

**"(Əzab) nazil olduqdan sonra Ona iman gətirərsiniz? İndicə? Halbuki əzabın tez gəlməsini daha çox istəyirdiniz."**

## *Nöqtələr*

◘Hədisdə bildirilir ki, ayədəki əzab nümunəsi axır zamanda qiblə əhlinə nəsib olacaq əzabdır.[1]

---

[1] "Təfsire-Nurus-səqəleyn".

## *Bildirişlər*

1. İlahi qəhr-qəzəb qəfildir. Onun gəlişində gecə-gündüz şərti yoxdur.
2. Düşüncəli insan əzab ehtimalı ilə tələsməməli, ehtiyatlı olmalıdır.
3. Günahkarları qəfil yaxalayan ilahi qəhr nazil olduqda qurtuluş yolu qalmır.
4. Təhlükə zamanı iman gətirməyin faydası yoxdur.
5. Müşriklər daim ilahi əzabın tezləşməsini istəyirdilər.

**Ayə 52:**

﴿ثُمَّ قِيلَ لِلَّذِينَ ظَلَمُواْ ذُوقُواْ عَذَابَ الْخُلْدِ هَلْ تُجْزَوْنَ إِلاَّ بِمَا كُنتُمْ تَكْسِبُونَ﴾

**“Sonra zalımlara deyilər: “Həmişəlik əzabı dadın!” Yoxsa əldə etdiklərinizdən başqa bir şeyə görəmi cəzalandırılırsınız?”**

## *Nöqtələr*

◘Ötən ayədə əzab dedikdə dünyadakı ilahi cəza nəzərdə tutulurdu. Bu ayədə isə qiyamət əzabından danışılır.

## *Bildirişlər*

1. Peyğəmbərlərin müxalifləri zalımdırlar.
2. Bir qrup günahkar üçün ilahi əzab əbədidir.
3. Axirət cəzası həm ruha, həm də cismə aiddir.
4. Cəzalar ilahi ədalət prinsipi əsasındadır.
5. İnsan yaxşı və ya pis yol seçimində məcbur yox, azaddır.

**Ayə 53:**

﴿وَيَسْتَنبِئُونَكَ أَحَقٌّ هُوَ قُلْ إِي وَرَبِّي إِنَّهُ لَحَقٌّ وَمَا أَنتُمْ بِمُعْجِزِينَ﴾

**“Səndən xəbər alırlar ki, (cəza və`di) haqdırmı? De ki, bəli, and olsun Rəbbimə, o qətidir və siz (Allahı) bu işdə aciz qoya bilməzsiniz.”**

## *Nöqtələr*

◘Bu ayə “Tur” surəsinin 8-ci ayəsinə oxşayır: “Şübhəsiz, ilahi əzab gerçəkləşəcək və onun qarşısını heç nə ala bilməyəcək.”

## *Bildirişlər*

1. İlahi və`dlər qətidir.
2. Rəhbər xalqın şəkk-şübhəsini aradan qaldırmalıdır.
3. Tərəddüdlər qarşısında qəti sözə ehtiyac var.

4. Xalqı tərəddüddən qurtarmaq üçün bə`zən anda ehtiyac olur.
5. Varlıq aləmində Allahın iradəsinə qarşı çıxan qüdrət yoxdur.

**Ayə 54:**

﴿وَلَوْ أَنَّ لِكُلِّ نَفْسٍ ظَلَمَتْ مَا فِي الأَرْضِ لاَفْتَدَتْ بِهِ وَأَسَرُّواْ النَّدَامَةَ لَمَّا رَأَوُاْ
الْعَذَابَ وَقُضِيَ بَيْنَهُم بِالْقِسْطِ وَهُمْ لاَ يُظْلَمُونَ﴾

**“Bütün yer üzündəkilər zülm etmiş kəsin olsaydı, şübhəsiz, (Allahın qəzəbindən qurtulmaq üçün) onların hamısını verərdi. Onlar əzabı gördükdə peşmanlıqlarını gizlədərlər (tə`nə edilməsinlər deyə). Onlarla ədalətli mühakimə aparılar və onlara zülm edilməz.”**

## *Nöqtələr*

◘Əzabdan qurtulmaq üçün fidyə verilməsi məsələsinə digər ayələrdə də toxunulmuşdur. Məsələn: “Yer üzündə olandan iki qat artıq versələr də Allahın əzabından qurtulmazlar.[1]; “Günahkar qurtulmaq üçün həmin gün övladlarını, zövcəsini, qardaşını, qohumlarını və yer üzündə olanları fidyə vermək istəyər. Amma qəbul olunmaz.”[2]

## *Bildirişlər*

1. Qiyamətdə günahkar üçün qurtuluş yoxdur. Bir kəs və ya bir mal digərinə fəda edilmir.
2. İnsanın özünü sevməsi onun ən güclü daxili meylidir. Buna görə də o öz qurtuluşu üçün bütün varlığı qurban verməyə hazırdır.
3. Günahkarlar tə`nəyə hədəf olmamaq üçün öz peşmançılıqlarını gizlədirlər.[3]
4. Qiyamətdə bə`ziləri öz peşmançılıqlarını “Ey kaş...” deməklə bildirirlər. Kimi bu peşmançılıqdan əlini dişləyir, kimi də susmaqla onu gizləyir.
5. Şirk başçıları qiyamətdə öz peşmançılıqlarını gizlədirlər ki, tabeçiliklərində olanların qarşısında xəcalət çəkməsinlər.[4]
6. İlahi ədalət mühakiməsində gücün, var-dövlətin heç bir səmərəsi yoxdur.

---

[1] “Rə`d”, 18; “Zumər”, 47.
[2] “Məaric”, 11, 15.
[3] “Təfsire-Safi”.
[4] “Təfsire-Məcməül-bəyan”,

7. Dünyada hakim səhv üzündən kiməsə zülm edə bilər. Qiyamətdə isə heç bir xəta yoxdur və kimsəyə zülm olunmaz.

8. Zalımla rəftarda belə zülmə yol verməyək.

**Ayə 55:**

﴿أَلا إِنَّ لِلّهِ مَا فِي السَّمَاوَاتِ وَالأَرْضِ أَلاَ إِنَّ وَعْدَ اللّهِ حَقٌّ وَلَكِنَّ أَكْثَرَهُمْ لاَ يَعْلَمُونَ﴾

**"Agah olun! Göylərdə və yerdə olan, şübhəsiz, Allahındır. Agah olun ki, Allahın və`di qəti və doğrudur. Amma onların çoxu bilmirlər."**

**Ayə 56:**

﴿هُوَ يُحْيِي وَيُمِيتُ وَإِلَيْهِ تُرْجَعُونَ﴾

**"Odur ki, dirildir, öldürür və Ona doğru qaytarılmış olarsınız."**

## *Bildirişlər*

1. Bilmək bəs deyil. Bilikləri və inamları xatırlamaq və onlara diqqət mühümdür.

2. Bütün varlıq aləminə Allah sahib olduğundan kafirlərin fidyə verib qurtulmaq üçün heç nəyləri yoxdur.

3. Allahın varlıq aləminə sahibliyi Onun Öz və`dlərini yerinə yetirməyə qadir olmasının nişanəsidir.

4. Varlığa sahib olan kəs həm dirildə, həm də öldürə bilər.

5. Həyat, ölüm və işin nəticəsi Allahın əlindədir və Ona doğru qayıdır.

**Ayə 57:**

﴿يَا أَيُّهَا النَّاسُ قَدْ جَاءتْكُم مَّوْعِظَةٌ مِّن رَّبِّكُمْ وَشِفَاء لِّمَا فِي الصُّدُورِ وَهُدًى وَرَحْمَةٌ لِّلْمُؤْمِنِينَ﴾

**"Ey xalq! Həqiqətən, Rəbbiniz tərəfindən sinələrinizdəki üçün şəfa qaynağı, mö`minlər üçün hidayət və rəhmət olan öyüd-nəsihət gəldi."**

## *Nöqtələr*

◘"Moizə" xəbərdarlıq və qorxutma vasitəsi ilə saflaşdırma mə`nasını bildirir.[1]

---

[1] "Mufrədate-Rağib".

◘“Şifaun lima fis-sudur” tə`birində moizə vasitəsi ilə qəlbin ruhi bəlalardan paklanması nəzərdə tutulur. Ruhi xəstəliklər bədən xəstəliklərindən daha ağırdır. Qur`an ruhi xəstəliklərə şəfa vermək qüdrətindədir.

◘Həzrət Peyğəmbər (s) buyurmuşdur: “Dəhşətli fitnələrin hücumu zamanı Qur`ana sığının. O həm moizə, həm şəfa, həm nur, həm də rəhmətdir.[1]

◘İmam Sadiq (ə) buyurmuşdur: “Qur`an bütün ruhi xəstəliklərin və şübhələrin şəfasıdır.”[2]

◘Ayədə tərbiyə və təkamülün dörd mərhələsinə işarə olunmuşdur: Zahiri işlərə münasibətdə moizə mərhələsi; ruhun çirkinliklərdən paklanma mərhələsi; məqsədə doğru istiqamətlənmə mərhələsi; ilahi rəhmətin əldə olunma mərhələsi.

## *Bildirişlər*

1. Moizə, şəfa, hidayət və rəhmətlə bağlı kitabın nazil olması ilahi rübubiyyət şə`nindəndir.
2. Qur`an hər bir dərdin şəfasıdır. Dərdlərimizə şərq və qərb məktəblərində yox, Qur`an məktəblərində şəfa axtarmalıyıq.
3. Qur`an bütün xalq üçün moizədir. Amma yalnız haqqı qəbul edənlər hidayət və rəhmətə nail olurlar.

**Ayə 58:**

﴿قُلْ بِفَضْلِ اللّهِ وَبِرَحْمَتِهِ فَبِذَلِكَ فَلْيَفْرَحُواْ هُوَ خَيْرٌ مِّمَّا يَجْمَعُونَ﴾

**“De ki, (mö`minlər) yalnız Allahın fəzl və rəhmətinə şad olsunlar. (Var-dövlət və məqam onları sevindirməsin.) O, (fəzl və rəhmət) topladıqları hər şeydən üstündür.”**

## *Nöqtələr*

◘Ötən ayədə qeyd olunduğu kimi, Qur`anın şəfa, moizə və rəhmət olmasını nəzərə alaraq bu ayədən belə bir nəticə çıxarmaq olur ki, fəzl və rəhmət dedikdə Qur`ana bağlılıq nəzərdə tutulur. Həzrət Əli (ə) buyurmuşdur: “Qiyamət günü nida olunar ki, Qur`an əkinində məşğul olanlardan savay hər bir əkinçi bəlaya giriftar olar...[3] “Həzrət Peyğəmbər (s) buyurmuşdur: “Allahdan İslam və Qur`an düşüncəsi ne`mətini aldığı halda özünü bədbəxt sayan kəs həqiqətən bədbəxtdir. Qiyamət gününədək bədbəxtlik möhürü onun alnındadır.” Sonra həzrət bu ayəni tilavət etmişdir.[4] Digər bir rəvayətlərdə buyurulur: “Həyatınızın xoşbəxt, ölümünüzün şəhid ölümü olması üçün Qur`anın sorağına gedin və Qiyamət gününün həsrətindən qurtulun. Çünki Qur`an Rəhman Allahın kəlamı, şeytanın şərindən aman, əməl mizanının üstünlük və ağırlığıdır.”[5]

---

[1] “Bihar”, c. 92, s. 17.
[2] “Təfsire-Nurus-səqəleyn”.
[3] “Nəhcül-bəlağə”, x. 17.
[4] “Təfsire-Nurus-səqəleyn”.
[5] “Bihar”, c. 89, s. 19.

◘Rəvayətlərdə “fəzl və rəhmət” tə`biri “nübuvvət və imamət” kimi təfsir olunmuşdur.[1] Necə ki, ilahi ne`mətlərlə fəzl və rəhmət Allahın xüsusi ne`mətləri mə`nasında açıqlanır.[2]

◘Həzrət Peyğəmbər (s) buyurmuşdur: “İman əhli bilsin ki, din ne`məti kafirlərin bütün var-dövlətlərindən üstündür və bu ne`məti əldə edənlər şadlanmalıdırlar.”[3]

## *Bildirişlər*

1. Şəfa, moizə, hidayət və rəhmət olan Qur`an kimi qanunla fəxr edək. O bütün bəşəri qanunlardan üstündür.
2. Var-dövlət və məqama görə yox, vilayət ne`mətinə görə şadlanaq.
3. Ne`mətləri Allahın fəzli bilək. Belə olsa şadlığımız ilahi rəng alar və təkəbbürə səbəb olmaz.[4]
4. Yalnız Qur`an ne`məti sevinc doğurmalıdır.
5. Maddi ne`mətlər bə`zən fitnə-fəsada səbəb olur və bu ne`mətlər ötəridir. Mə`nəvi ne`mətlər isə davamlıdır və təkamül səbəbidir.
6. Mə`nəvi ne`mətlər bütün maddi ne`mətlərdən üstündür. (Qur`andan bəhrələnmiş insanı öz yoxsulluğu və başqalarının var-dövləti kədərləndirməməlidir.)

**Ayə 59:**

﴿قُلْ أَرَأَيْتُم مَّا أَنزَلَ اللّهُ لَكُم مِّن رِّزْقٍ فَجَعَلْتُم مِّنْهُ حَرَامًا وَحَلاَلاً قُلْ آللّهُ أَذِنَ لَكُمْ أَمْ عَلَى اللّهِ تَفْتَرُونَ﴾

**“De ki, gördünüzmü, Allah sizin üçün nə ruzi nazil etdisə, (özbaşına) bə`zisini haram, bə`zisini halal etdiniz? De ki, Allah sizə icazə vermişdi, yoxsa iftira qoşursunuz?”**

## *Nöqtələr*

◘Müşriklərin əsassız qadağalarının nümunələri “Maidə” surəsinin 103-cü ayəsində bəyan olunmuşdur: onlar əkinlərindən bütlər və bütkədələr üçün pay qərar verib, bunu özlərinə haram edirdilər. Ya da heyvanların qarnında olanları kişilərə halal, qadınlara haram bilirdilər.” “Ən`am” surəsinin 139-cu ayəsində isə belə buyurulur: “Amma Qur`an bütün bunları Allaha qarşı iftira sayır.

## *Bildirişlər*

1. Qidalara münasibətdə əsas və ümumi qanun onların halal olmasıdır. Yə`ni bir şeyin haramlığı vəhy yolu ilə sübuta yetməmişsə, halaldır.

---

[1] “Təfsire-Nurus-səqəleyn”.
[2] “Təfsire-Əl-mizan”.
[3] “Təfsire-Safi”.
[4] “Təfsire-Kəbire-Fəxr Razi”.

2. Ruzi Allah tərəfindən nazil olur.

3. Dini hökmlərdən, şəriətdən qabağa keçmək, Allahın haram buyurduğunu halal, halal buyurduğunu haram saymaq olmaz.

4. Şəriət və qanunçuluq Allaha məxsusdur.

5. Şər`i hakimiyyət həvalə olunmuş, "təşrii vilayətə" malik olan kəslər Allahın izni ilə nələrisə halal, nələrisə haram edə bilərlər.

6. Dinə uyuşmayan, bid`ətli qanun hazırlayıb onu Allaha aid etmək günahdır.

7. Qur`an Allah tərəfindən icazə verilməmiş və vəhy kökü olmayan yanlış adət və ən`ənələri məhkum edir.

**Ayə 60:**

﴿وَمَا ظَنُّ الَّذِينَ يَفْتَرُونَ عَلَى اللّهِ الْكَذِبَ يَوْمَ الْقِيَامَةِ إِنَّ اللّهَ لَذُو فَضْلٍ عَلَى النَّاسِ وَلَكِنَّ أَكْثَرَهُمْ لاَ يَشْكُرُونَ﴾

**"Allaha iftira yaxanlar qiyamət gününü (onun cəzalarını) necə zənn edirlər? Həqiqətən, Allah xalqa bəxşiş və ehsan sahibidir. Amma onların çoxu şükür etmir."**

## *Nöqtələr*

◘İslam Peyğəmbəri (s) var-dövləti, imkanı olduğu halda səliqə-səhmansız yaşayan bir kişini məzəmmət edib buyurdu: "Allahın ne`mətlərini nümayiş etdir. Allah bəndəsinə verdiyi ne`mətin əsərlərinin ən gözəl şəkildə görünməsini sevir."[1]

## *Bildirişlər*

1. Allaha iftira yaxmağın cəzası var. Allahın dünya həyatında bizə verdiyi möhlət qürur doğurmasın, Qiyamət mühakiməsini yaddan çıxarmayaq.

2. Allahın halal ne`mətlərinin qadağan olunması dünyəvi məhrumiyyət və qiyamət peşmançılığı ilə nəticələnir.

3. İlahi ne`mətlərdən istifadədə nə ifrata, nə də təfritə yol var. Nə maddiyyata əsir olmaq, nə də halal ne`mətlərdən üz döndərmək yaxşı sayılır.

4. Ne`mətlər bizim istəyimiz yox, Allahın fəzlidir. Belə isə, şükür edək.

5. Allahın halal ne`mətlərini haram etmək bir növ naşükürlükdür.

---

[1] "Təfsire-Məraği".

**Ayə 61:**

﴿وَمَا تَكُونُ فِي شَأْنٍ وَمَا تَتْلُو مِنْهُ مِن قُرْآنٍ وَلاَ تَعْمَلُونَ مِنْ عَمَلٍ إِلاَّ كُنَّا عَلَيْكُمْ شُهُودًا إِذْ تُفِيضُونَ فِيهِ وَمَا يَعْزُبُ عَن رَّبِّكَ مِن مِّثْقَالِ ذَرَّةٍ فِي الأَرْضِ وَلاَ فِي السَّمَاء وَلاَ أَصْغَرَ مِن ذَلِكَ وَلا أَكْبَرَ إِلاَّ فِي كِتَابٍ مُّبِينٍ﴾

**“Nə halda olsan, Qur`andan nə qədər oxusan, nə iş görsən ona başlayan kimi Biz sizə şahidik və nə yer üzündə, nə də səmada zərrə ağırlığında bir şey Rəbbinə gizli deyil. Ondan kiçiyi, ondan böyüyü nə varsa aşkar kitabda qeyd olunmuşdur.”**

## *Nöqtələr*

◘“Kitabun mubin” dedikdə ya lövhi-məhfuz (müqəddəratın qeyd olunduğu lövhə), ya da Allahın bütün varlıq aləmini əhatə edən elmi nəzərdə tutulur. Bu elmə həm insanların əməlləri, həm də yerdə və göydə olan kiçikli-böyüklü mövcudlar daxildir.

◘İmam Sadiq (ə) buyurmuşdur: “Həzrət Peyğəmbər (s) bu ayəni oxuduqda şiddətlə ağlayardı.”[1]

## *Bildirişlər*

1. Peyğəmbər (s) nümunə olduğundan onun bütün işləri mühümdür.
2. Allahın rəsulu da nəzarət altındadır.
3. Qur`an tilavətində diqqətli olmaq lazımdır ki, səhvə yol verilməsin. Bütün işlərimiz şahidlərin nəzarəti altındadır.
4. Allah bəşəriyyətin həm düşüncəsinə, həm danışığına, həm də əməlinə şahiddir.
5. Qur`an tilavəti risalət məqamı və insanların bütün əməlləri ilə bir sırada dayanır. Ayədə bildirilir ki, Allah həm peyğəmbərlərin işinə, həm xalqın əməllərinə, həm də Qur`an tilavətinə şahiddir. Bu bəyanat Qur`an tilavətinin əhəmiyyətini göstərir.
6. Cahan Allahın hüzurundadır, Allah bütün əməllərimizə şahiddir. Bizə möhlət verilməsinin səbəbi Allahın nədənsə xəbərsiz olması deyil.
7. Əməllərimizə həm Allah, həm də mələklər şahiddir.
8. Allahın hüzuruna diqqət insanda həya hissi yaradır.
9. Allah yaxından və uzaqdan, kiçikdən və böyükdən, zahirdən və batindən eyni cür xəbərdardır.

---

[1] “Təfsire-Məcməül-bəyan”.

**Ayə 62:**

﴿أَلا إِنَّ أَوْلِيَاء اللّهِ لاَ خَوْفٌ عَلَيْهِمْ وَلاَ هُمْ يَحْزَنُونَ﴾

**“Agah olun ki, şübhəsiz, Allahın övliyaları üçün nə bir qorxu var, nə də qəmgin olarlar.”**

**Ayə 63:**

﴿الَّذِينَ آمَنُواْ وَكَانُواْ يَتَّقُونَ﴾

**“İman gətirənlər və təqva yolunu tutanlar (üçün qorxu yoxdur)”**

## *Nöqtələr*

◘Bu ayələr övliyaların xüsusiyyətlərini sadalayır. Onların şüarı Allah qorxusudur.[1] Bu qorxunun nəticəsi təqvadır. Təqvanın səmərəsi isə hesab qorxusundan qurtuluşdur.[2]

Övliyaların uyğun qorxudan uzaqlığı həm dünya, həm də axirətə aiddir.

◘Həzrət Peyğəmbər (s) buyurmuşdur: “Allah övliyalarının sükutu zikr, baxışı ibrət, sözü hikmət, cəmiyyətdəki hərəkəti bərəkət qaynağıdır.”[3]

◘Həzrət Əli (ə) buyurmuşdur: “Allah Öz vəlisini xalq arasında gizləmişdir, belə isə heç vaxt bir müsəlmanı təhqir etməyin, o, Allahın övliyalarından ola bilər.”[4]

## *Bildirişlər*

1. Kim Allahın vəlisidirsə (“vəliyy”-hami), Allah da onun vəlisidir.[5]
2. Qəlbində Allah qorxusu olan üçün başqa qorxu yoxdur.
3. Allah övliyalarının işıqlı, qorxusuz və kədərsiz gələcəkləri var.
4. İman və təqva Allah övliyalarının köklü xüsusiyyətidir.
5. Daimi iman və təqva həm nigarançılığı aradan qaldırır, həm də insanı Allahın övliyası qərar verir.

---

[1] “İnsan”, 10.
[2] “Ənbiya”, 103.
[3] “Təfsire-Safi”.
[4] “Təfsire-Nurus-səqəleyn”.
[5] “Bəqərə”, 257; “Ali-İmran”, 68; “Casiyə”, 19.

**Ayə 64:**

﴿لَهُمُ الْبُشْرَى فِي الْحَياةِ الدُّنْيَا وَفِي الآخِرَةِ لاَ تَبْدِيلَ لِكَلِمَاتِ اللّهِ ذَلِكَ هُوَ الْفَوْزُ الْعَظِيمُ﴾

**“Onlar (Allahın övliyaları) üçün dünya və axirət həyatında müjdə var. Allahın sözləri (və`dləri) dəyişməzdir. O, həmin böyük qurtuluşdur.”**

## *Nöqtələr*

◘İman və təqva əhlinə dünya həyatında sadiq yuxular, ilahi ilhamlar, qəlb aramlığı, fitnələrin puça çıxması, duaların qəbulu, ölüm zamanı mə`sumlarla görüş vasitəsi ilə müjdə verilir. Axirətdə isə bu müjdə ilahi ne`mətlərdir.

Həzrət Peyğəmbər (s) bu ayə ilə bağlı buyurmuşdur: “Dünyəvi müjdə xoş yuxular, axirət müjdəsi ölüm zamanı verilən müjdədir. İnsana müjdə verilir ki, sən və səni qəbrə aparanlar bağışlanar.[1] “Bir rəvayətdə İmam Baqir (ə) Əbu-Həmzə Somaliyə buyurur: “Ölüm zamanı həzrət Məhəmməd (s) və Əli (ə) mö`min şəxsin yanında hazır olub buyurarlar: “Bizə tərəf gəl, gələcəyin keçmişindən yaxşıdır, sənin ruhun Allahın ruhuna qovuşasıdır.”[2]

◘Qur`an ayələrinə əsasən, Allahın övliyaları bu dünyada da Allahın müjdələrindən faydalanırlar. Onlardan bə`zilərini nəzərdən keçirək: aramlıq[3]; təvəkkül[4]; qeybi yardım[5]; daimi qaliblik[6]; bəsirət və nur[7]; çıxılmaz vəziyyətin olmaması[8]; işlərin əbəs sayılmaması[9]; məzəmmətlərdən qorxmamaq[10]; xalqdan qorxmamaq[11]; zalım hakimdən qorxmamaq[12]; heyrətə düçar olmamaq[13]; sevimlilik[14]; fani işlərin ilahi rənglə əbədiləşdirilməsi.[15]

## *Bildirişlər*

1. Yalnız Allah övliyalarının həm dünyası, həm də axirəti var.
2. Allahın və`dləri qəti və dəyişməzdir.
3. Böyük qurtuluş yalnız daimi iman və təqvaya malik olanlar üçündür.

---

[1] “Təfsire-Nurus-səqəleyn”.
[2] “Təfsire-Nurus-səqəleyn”.
[3] “Rə`d”, 28.
[4] “Ali-İmran”, 122.
[5] “Əhzab”, 9.
[6] “Tövbə”, 52.
[7] “Ənfal”, 29.
[8] “Təlaq”, 2.
[9] “Zilzal”, 7.
[10] “Maidə”, 54.
[11] “Ali-İmran”, 173.
[12] “Taha”, 72.
[13] “Yunus”, 9.
[14] “Məryəm”, 96.
[15] “Bəqərə”, 138.

**Ayə 65:**

﴿وَلاَ يَحْزُنكَ قَوْلُهُمْ إِنَّ الْعِزَّةَ لِلّهِ جَمِيعًا هُوَ السَّمِيعُ الْعَلِيمُ﴾

**"Müxaliflərin dedikləri səni qəmləndirməsin. Çünki izzət bütünlüklə Allahındır. O, eşidən və biləndir."**

## *Nöqtələr*

◘Kafirlər Peyğəmbəri (s) şair, kahin, sehrbaz, divanə adlandırırdılar. Bundan əlavə bə`zən deyirdilər: "Onun bizdən üstünlüyü yoxdur. O da bizim kimidir.[1] Bə`zən də onun dediyi sözlərin başqaları tərəfindən təlqin olunduğunu bildirirdilər.[2] Bə`zən də deyirdilər ki, biz də istəsək Qur`an kimi kitab gətirərik.[3] Bə`zən Peyğəmbərin (s) sözləri keçmişlərin dastanı sayılırdı.[4] Peyğəmbərin (s) ardıcılları haqqında deyirdilər: "Onlar əskik adamlardır."[5] Amma Allah bütün bu təhqirlərə baxmayaraq Peyğəmbəri (s) və mö`minləri izzətə çatdırmışdır.

◘"İzzət" dedikdə tə`sirə düşməmək başa düşülür. Həm Allah, həm Peyğəmbər (s), həm mö`minlər, həm də əqidə məktəbi belədir.[6]

## *Bildirişlər*

1. Düşmən təbliğatının məqsədi dinin və İslam ümmətinin təhqiridir. Amma Allah-təala həzrət Peyğəmbərə təsəlli vermişdir və kafirləri istəklərinə çatdırmaz.
2. Kafirlərin zəhərli təbliğatı mö`minə tə`sir etməməli, onun ruhiyyəsini zəiflətməməlidir.
3. Allah Öz övliyalarına arxa durur, əqidə məktəbi və peyğəmbərlərin qələbəsini tə`min edir.[7]
4. İzzət, şərəf Allahın əlindədir və onun-bunun sözü ilə kimsə alçalmır.

**Ayə 66:**

﴿أَلا إِنَّ لِلّهِ مَن فِي السَّمَاوَات وَمَن فِي الأَرْضِ وَمَا يَتَّبِعُ الَّذِينَ يَدْعُونَ مِن دُونِ اللّهِ شُرَكَاء إِن يَتَّبِعُونَ إِلاَّ الظَّنَّ وَإِنْ هُمْ إِلاَّ يَخْرُصُونَ﴾

**"Agah olun! Həqiqətən, göylərdə və yerdə olan hər kəs Allahındır. Allahın əvəzinə qoşduqları şərikləri çağıranlar (onlara da) itaət etmirlər. Onlar öz**

---

[1] "İbrahim", 10.
[2] "Furqan", 4.
[3] "Ənfal", 31.
[4] "Nəhl", 24.
[5] "Hud", 27.
[6] "Munafiqun", 8. "Fussilət", 41.
[7] "Mücadilə", 21.

**gümanlarından başqa bir şeyə itaət etmirlər. Onlar yalnız yalan danışanlardır.”**

## *Nöqtələr*

¤“Çağırırlar...” cümləsi sual, “itaət etmirlər” cümləsi cavab ola bilər. Yə`ni uydurduqları şəriklərin ardınca gedənlər nəyə itaət edirlər? Onlar öz gümanlarından başqa bir şeyə itaət etmirlər. Cümlədən belə də anlaşıla bilər ki, hətta Allaha şərik qoşulanlar da Onun mülkündədir.

## *Bildirişlər*

1. Allahın mütləq malikiyyəti tövhid və kamil izzət dəlilidir.
2. Hər şey Allahın mülküdür. Necə ola bilər ki, mülk malikə şərik olsun?!
3. Səmalarda ağlı olan varlıqlar var.
4. Müşriklərin məntiqi, elmi əsasları yoxdur.
5. Müşriklər qoşduqları şəriklərə yox, öz xülyalarına itaət edirlər. Çünki Allahın şəriki yoxdur. Deməklə, onlar yalan deyirlər.

**Ayə 67:**

﴿هُوَ الَّذِي جَعَلَ لَكُمُ اللَّيْلَ لِتَسْكُنُواْ فِيهِ وَالنَّهَارَ مُبْصِرًا إِنَّ فِي ذَلِكَ لآيَاتٍ لِّقَوْمٍ يَسْمَعُونَ﴾

**“Rahatlıq tapmağınız üçün sizin üçün gecəni müəyyənləşdirən Odur. O, gündüzü işıqlı etdi. Şübhəsiz, bunda eşidən qövm üçün nişanələr var.”**

## *Nöqtələr*

¤Ötən ayədə Allahın malikiyyətinə, bu ayədə isə Onun varlıq aləmindəki hikmətli tədbirinə işarə olunmuşdur.

¤Qur`anda ruhi aramlıq tilavət, gecəni oyaq qalmaq, təsbih, qunut, səcdə ünvanlarında bəyan olunmuşdur.[1]

Fiziki aramlıq isə yuxu və istirahət vasitəsi ilə olur.[2]

## *Bildirişlər*

1. Gecə və gündüz tədbirlə, insanın bəhrələnmə məqsədi ilə, hikmətlə proqramlaşdırılmışdır.
2. Gecə istər ruhi, istər fiziki aramlıq üçündür.

**Ayə 68:**

---

[1] “Ali-İmran”, 113; “İsra”, 79; “Taha”, 130; “Zumər”, 9; “Muzzəmmil”, 2.
[2] “Rum”, 23.

﴿قَالُواْ اتَّخَذَ اللّهُ وَلَدًا سُبْحَانَهُ هُوَ الْغَنِيُّ لَهُ مَا فِي السَّمَاوَات وَمَا فِي الأَرْضِ إِنْ عِندَكُم مِّن سُلْطَانٍ بِهَـذَا أَتقُولُونَ عَلَى اللّهِ مَا لاَ تَعْلَمُونَ﴾

**“(Müşriklər) dedilər: “Allah övlad götürmüşdür.” O, pakdır, ehtiyacsızdır. Göylərdə və yerdə olan Onundur. Bu sözə sizin heç bir dəliliniz yoxdur. Bilmədiyiniz şeyi Allahamı aid edirsiniz?”**

### *Nöqtələr*

◘“İttəxəzəllahu vələdən” cümləsi “bir kəsi övladlığa götürdü” mə`nasını bildirir. Bu mə`na anadan olmaq, övladı olma mə`nalarından fərqlidir. Müşriklər mələkləri Allahın qızları hesab edirdilər. Yəhudilər Üzeyiri, məsihilər İsanı Allaha oğul sayırdılar.

◘Qur`anda bildirilir ki, vəzir Əziz öz zövcəsi Züleyxaya dedi: “Yusifi övladlığa götürək.”[1] Fir`onun arvadı Asiya ona dedi: “Musanı övladlığa götürək.”[2]

### *Bildirişlər*

1. Allahın övlad götürməsinə heç bir səbəb yoxdur. O nə tənhalıqdan qorxur, nə varisə ehtiyaclıdır, nə köməkçiyə ehtiyac duyur, nə də nəsil davamı üçün övlada möhtacdır.
2. Dini əqidələr dəlilə əsaslanmalıdır.
3. Elmi əsası olmayan, dəlilsiz sözün dəyəri yoxdur.

### Ayə 69:

﴿قُلْ إِنَّ الَّذِينَ يَفْتَرُونَ عَلَى اللّهِ الْكَذِبَ لاَ يُفْلِحُونَ﴾

**“De ki, həqiqətən, Allaha iftira yaxanlar nicat tapmır.”**

### Ayə 70:

﴿مَتَاعٌ فِي الدُّنْيَا ثُمَّ إِلَيْنَا مَرْجِعُهُمْ ثُمَّ نُذِيقُهُمُ الْعَذَابَ الشَّدِيدَ بِمَا كَانُواْ يَكْفُرُونَ﴾

**“Onların dünyada bəhrələri azdır. Sonra Bizə doğru qayıdarlar. Həmin vaxt küfrlərinin cəzası olaraq onlara ağır əzabı daddırarıq.”**

---

[1] “Yusuf”, 21.
[2] “Qəsəs”, 8.

## *Nöqtələr*

◘“Mətaun”, “mut`ə” dedikdə qısa bir müddət bəhrələnmə nəzərdə tutulur. İnsan dünya ne`mətlərindən qısa bir müddət bəhrələndiyi üçün Qur`an dünya işlərinə münasibətdə “mətaun” sözünü işlətmişdir.

◘***Sual***: Əgər iftira yaxanlar nicat tapmırsa, nə üçün maddi dünyada rifah içində yaşayırlar?

***Cavab***: Bu rifah və firavanlıq müvəqqətidir. Onların əsil cəzaları Allaha doğru qayıtdıqları vaxt, axirət həyatındadır.

## *Bildirişlər*

1. Şəfaət ümidi ilə insanı Allahın oğlu sayanlar məqsədlərinə çatmırlar.
2. Yalançı nicat tapmır.
3. Əgər müvəqqəti ləzzətin ardınca daimi əzab gəlirsə, bu ləzzət heç nəyə dəyməz.
4. Dünya ləzzətləri ötəridir.
5. Məadın xatırlanması insanı çaşqınlıq və günahdan uzaqlaşdıran amillərdəndir.
6. Müxtəlif bid`ətlər, təhriflər, rə`y əsasında təfsirlər, Allaha övlad aid edilməsi ilə Allaha iftira yaxmaq küfrdür.

**Ayə 71:**

﴿وَاتْلُ عَلَيْهِمْ نَبَأَ نُوحٍ إِذْ قَالَ لِقَوْمِهِ يَا قَوْمِ إِن كَانَ كَبُرَ عَلَيْكُم مَّقَامِي وَتَذْكِيرِي بِآيَاتِ اللّهِ فَعَلَى اللّهِ تَوَكَّلْتُ فَأَجْمِعُواْ أَمْرَكُمْ وَشُرَكَاءكُمْ ثُمَّ لاَ يَكُنْ أَمْرُكُمْ عَلَيْكُمْ غُمَّةً ثُمَّ اقْضُواْ إِلَيَّ وَلاَ تُنظِرُونِ﴾

**“Onlara Nuhun əhvalatını oxu. O öz qövmünə dedi: “Ey mənim qövmüm! Əgər mənim qalmağım, (aranızdakı mövqeyim), Allahın ayələrini xatırlatmağım sizə ağır və dözülməz gəlirsə, (bilin ki,) mən yalnız Allaha təvəkkül etmişəm. Siz və şərikləriniz fikrinizi cəmləyin ki, işinizdən sizə qaranlıq qalmasın. Sonra mənim haqqımda qərar çıxarın və mənə möhlət verməyin.”**

## *Nöqtələr*

◘Ayədə həzrət Nuhun ilahi yardımlar sayəsində yenilməzliyindən, onun düşmən qurğularından qorxmamasından danışılır.

◘Nəql edirlər ki, İmam Hüseyn (ə) Kərbəlada aşura günortasından öncə Kufə qoşununa bu ayəni oxumuşdur.[1]

---

[1] “Məvsuəti-kəlimatil-imam.”

## *Bildirişlər*

1. Xalqı keçmişin mühüm xəbərləri, tarix və onun fəlsəfəsi ilə tanış etmək ilahi rəhbərlərin vəzifəsidir.

2. Peyğəmbərlər xalq içindən çıxmışdılar və xalq arasında idilər. Onlar son anadək öz müxalifləri ilə mərhəmətli davranırdılar.

3. Qəlb hazırlığı olmadıqda hətta peyğəmbərlərin də xəbərdarlığı ağır gəlir.

4. Məqsədə iman peyğəmbərlərin ən böyük müqavimət və mübarizə vasitəsidir.

5. Peyğəmbərlər öz müxaliflərini mübarizəyə çağırırdılar.

6. Peyğəmbərlər Allaha təvəkkül etməklə, müxalif qüdrətləri puç bilməklə onları alçaldır və möminlərə şücaət verirdilər. Məkkədə azlıqda olan müsəlmanların bu ayələri tilavət etmələri onların böyük ruhundan və kamil şücaətindən danışır.

7. Düzgün qiymətləndirmə, qüvvələrin səfərbərliyə alınması və qəti qərar mübarizə üsullarındandır.

8. Peyğəmbərlər şəhadətdən qorxmurdular.

**Ayə 72:**

﴿فَإِن تَوَلَّيْتُمْ فَمَا سَأَلْتُكُم مِّنْ أَجْرٍ إِنْ أَجْرِيَ إِلاَّ عَلَى اللّهِ وَأُمِرْتُ أَنْ أَكُونَ مِنَ الْمُسْلِمِينَ﴾

**“Əgər (Allahın də`vətinə) arxa çevirsəniz, (bilin ki,) mən sizdən muzd istəməmişəm. Mənim mükafatımı yalnız Allah verər və mən Onun əmrinə təslim olmaq əmri almışam.”**

## *Nöqtələr*

◘İnsanda nigaranlıq yaradan ya can, ya da mal qorxusudur. Ötən ayədə peyğəmbərlərin öz canlarına görə qorxmaması, bu ayədə isə onların xalqdan umacaqsız olmaları bildirilir.

## *Bildirişlər*

1. Peyğəmbərin də`vətinin xalq tərəfindən qəbul olunub-olunmamasının ona heç bir maddi tə`siri yoxdur.

2. Müvəffəq və tə`sirli təbliğatçı o kəsdir ki, xalqın malında gözü olmasın və bunu xalqa e`lan etsin.

3. Peyğəmbərlər xalqdan heç bir əvəz istəməmiş, onlardan mal, xidmət umacağında olmamışlar.

4. Əgər bütün xalq dindən üz çevirsə, bunun ilahi rəhbərə heç bir tə`siri yoxdur. İlahi rəhbər Allahın dininə təslimdir.

5. Axirət mükafatına inanan kəs dünyəvi mükafat istəyini qəlbindən rahatca çıxarır.

6. Bütün peyğəmbərlərə haqq qarşısında təslim olunmaq əmr edilmişdir.

7. Xalqın Allaha təslim olmasını istəyən kəs öncə özü təslim olmalıdır.

8. Bu gün xalqı üz çevirmiş görsən də, Allahın Ona təslim olmuş bəndələri çoxdur, belə isə sən onlara qoşul.

**Ayə 73:**

﴿فَكَذَّبُوهُ فَنَجَّيْنَاهُ وَمَن مَّعَهُ فِي الْفُلْكِ وَجَعَلْنَاهُمْ خَلاَئِفَ وَأَغْرَقْنَا الَّذِينَ كَذَّبُواْ بِآيَاتِنَا فَانظُرْ كَيْفَ كَانَ عَاقِبَةُ الْمُنذَرِينَ﴾

**“Onu (Nuhu) təkzib etdilər. Həmin vaxt Biz ona və onunla birlikdə gəmidə olanlara nicat verdik, onları yer üzündə canişin qərar verdik. Ayələrimizi təkzib edənlərin hamısını qərq etdik. Bax gör, xəbərdarlıq edilənlərin sonu necə oldu?”**

## *Nöqtələr*

◘Nuhun 80 yoldaşı vardı. Kafirlər isə çox idi. Amma Allahın yardımları ilə kafirlər məhv oldu, mö`minlər yer üzünə varis qaldılar.[1]

◘Bu ayədə mö`minlərin xoş aqibətinə və ilahi də`vətə müxalif olanların məhvinə işarə olunmuşdur.

## *Bildirişlər*

1.Təkcə iman bəs etmir. Nicat tapmaq üçün ilahi rəhbərlərlə həmrənglik və yoldaşlıq lazımdır.

2. İman və sabitqədəmliyin nəticəsi qurtuluş və hakimiyyətdir.

3. Qələbə sonda iman əhlinə məxsusdur, küfr və şirk əhli rüsvay olasıdır.

4. Asilərə öncə möhlət verib sonra onları cəzalandırmaq ilahi sünnə, qanunlardandır.

5. Küfrdən bərk-bərk yapışmağın və doğru yoldan çıxmağın nəticəsi fəlakətdir.

6. Öncə xəbərdarlıq, sonra cəza.

7. Yalnız haqq tərəfdarlarına təsəlli verən və azğınları qorxudan tarix faydalı və tərbiyəvidir.

8. Hərəkətləri düzgün istiqamətləndirmək üçün tarixdən, ümmətlərin inkişaf və tənəzzül amillərindən xəbər tutmaq zəruridir.

**Ayə 74:**

﴿ثُمَّ بَعَثْنَا مِن بَعْدِهِ رُسُلاً إِلَى قَوْمِهِمْ فَجَآؤُوهُم بِالْبَيِّنَاتِ فَمَا كَانُواْ لِيُؤْمِنُواْ بِمَا كَذَّبُواْ بِهِ مِن قَبْلُ كَذَلِكَ نَطْبَعُ عَلَى قُلوبِ الْمُعْتَدِينَ﴾

**“Həmin vaxt Nuhun ardınca onun qövmünə peyğəmbərlər göndərdik. Onlar xalqa aşkar mö`cüzə və dəlillər gətirdilər. Amma xalq öncə təkzib etdiyinə iman gətirmək fikrində deyildi. Biz həddi aşanların qəlblərinə bu sayaq möhür vururuq.”**

---

[1] “Təfsire-Məcməül-bəyan”.

## *Bildirişlər*

1. Ardıcıl peyğəmbər göndərmək ilahi sünnələrdəndir. (Allah həzrət Nuhla həzrət Musa arasındakı dövrdə başqa peyğəmbərlər göndərdi.)
2. Bütün peyğəmbərlərin mö`cüzəsi olmuşdur.
3. Bütün peyğəmbərlərin müxalifləri vardır.
4. İnsan azaddır. O, mö`cüzələrə və Allahın qəzəbinə şahid olduqdan sonra da itaətsizlik göstərir.
5. Təkəbbür və zülm qəlblərin möhürlənməsi üçün zəmindir.
6. Mö`cüzə gördüyü halda iman gətirməyənlər həddi aşanlardır.

**Ayə 75:**

﴿ثُمَّ بَعَثْنَا مِن بَعْدِهِم مُّوسَى وَهَارُونَ إِلَى فِرْعَوْنَ وَمَلَئِهِ بِآيَاتِنَا فَاسْتَكْبَرُواْ وَكَانُواْ قَوْمًا مُّجْرِمِينَ﴾

**“Sonra onların ardınca Musa və Harunu Öz mö`cüzələrimizlə Fir`on və onun qövmünün başçılarına doğru göndərdik. Amma onlar günahkar qövm olduqlarından təkəbbür göstərdilər. (Peyğəmbərlərin də`vətini qəbul etmədilər.)”**

## *Nöqtələr*

◘“Məl`ə” dedikdə Fir`onun yaxınları sayılan saray adamları nəzərdə tutulur. Fir`on cəmiyyəti iki zümrəyə ayırmışdı: Saraydakı qiptilər və məhrum sibtilər. Bu zümrədən biri dəbdəbəli saray həyatı keçirir, digəri qul həyatı yaşayırdı.[1]

◘Allahlıq iddiası etməsi, günahsız körpələri qətlə yetirməsi, qızları kəniz saxlaması Fir`onun böyük günahlarından idi.[2]

## *Bildirişlər*

1. Zalım qüvvələrlə mübarizə peyğəmbərlərin ilkin vəzifəsidir. Çünki fəsadın səbəbi ilə mübarizə fəsadla mübarizədən mühümdür.
2. İctimai əlaqələr qohumluq, tayfa yaxınlığı prinsipləri üzərində qurulduqda həmin cəmiyyətə peyğəmbərlər göndərilirdi. Təşkilat və nizam olan yerdə isə fəsadın kökü ilə mübarizə aparılırdı.
3. Bütlər və zalım qüvvələrə güc verən onların ətrafıdır. Beləlləri daxilən puçdurlar.
4. Peyğəmbərlərin mö`cüzəsi olmuşdur.
5. Fir`onlar və bütlər daim peyğəmbərlərin yolunu kəsmişlər.
6. Günaha vərdiş verənlər peyğəmbər yolunu asanlıqla qəbul etmirlər.

**Ayə 76:**

---

[1] “Qəsəs”, 4.
[2] “Naziat”, 24; “Ə`raf”, 124.

﴿فَلَمَّا جَاءهُمُ الْحَقُّ مِنْ عِندِنَا قَالُواْ إِنَّ هَـذَا لَسِحْرٌ مُّبِينٌ﴾

**”Bizim tərəfimizdən haqq onlara gəldikdə, dedilər: “Şübhəsiz, bu, aşkar bir cadudur.”**

## *Bildirişlər*

1. Xalq həqiqət sorağında deyil. Haqpərəstlər xalqın sorağına getməlidirlər.

2. Allahın zatı, peyğəmbərlər, ilahi qanunlar, mö`cüzələr, bir sözlə, Allaha aid olan hər bir şey haqdır.

3. Peyğəmbərlərin Allahla birbaşa rabitələri var. Mö`cüzələr və din proqramları ondan qaynaqlanır.

4. Təbliğatçı və rəhbər bilməlidir ki, cəmiyyətin bir zümrəsi onların proqramlarına müxalif olacaq.

5. Peyğəmbərə atılan ən kəskin, ən sadə və ən yayılmış böhtan cadugərlikdir.

6. Böhtan insandakı azğınlıq ruhiyyəsindən qaynaqlanır.

7. Müxaliflər böyük israrla fəaliyyət göstərirlər.

**Ayə 77:**

﴿قَالَ مُوسَى أَتقُولُونَ لِلْحَقِّ لَمَّا جَاءكُمْ أَسِحْرٌ هَـذَا وَلاَ يُفْلِحُ السَّاحِرُونَ﴾

**“Musa (onlara) dedi: “Haqq sizin sorağınıza gəldiyi vaxt (onu cadu sayıb) deyirsiniz: “Bu sehrdir?” Halbuki cadugərlər heç vaxt nicat tapmır.”**

## *Nöqtələr*

◘Adətən, qeyri-sağlam fərdlər cadugərlik edir və bu məqsədlə ad-san, var-dövlət qazanmaq istəyirlər. Düşmənlər peyğəmbərləri xalqın gözündən salmaq məqsədi ilə onlara belə bir böhtan atırdılar.

Qeyd etməliyik ki, cadugərlik fiqhdə haram sayılmışdır. İmam Xomeyni sehr-cadunu, onun tə`limini, qazancını haram bildirmiş, həmçinin olmayan şeyin həqiqət kimi göstərilməsinə, fokusa icazə verməmişdir.[1]

## *Bildirişlər*

1. Musa öz qələbəsi və böhtançıların məğlubiyyəti haqqında öncədən xəbər verirdi.

2. Düşmənlər həqiqəti sehr, peyğəmbərləri də sehrbaz kimi tanıtdırırdılar.

3. Sehr göstərənlər xalqı aldatdıqları üçün və icazə verilməmiş vasitələrdən istifadə etdiklərinə görə nicat tapmazlar.

**Ayə 78:**

---

[1] “Təhrirul-vəsilə”, c. 1, s. 498.

﴿قَالُواْ أَجِئْتَنَا لِتَلْفِتَنَا عَمَّا وَجَدْنَا عَلَيْهِ آبَاءنَا وَتَكُونَ لَكُمَا الْكِبْرِيَاء فِي الأَرْضِ وَمَا نَحْنُ لَكُمَا بِمُؤْمِنِينَ﴾

**“Dedilər: “(Ey Musa,) yer üzündə böyüklük və hökumət sizin ikinizin olsun deyə bizi atalarımızın yolundan döndərmək üçünmü gəlmisən? Biz siz iki nəfərə iman gətirən deyilik.”**

## *Nöqtələr*

◘Ata-babalara və valideynlərə hörmət onların yanlış addımlarını təkrarlamaq kimi başa düşülməməlidir. Keçmiş mədəniyyətlər araşdırılmalı və yalnız dəlillər əsasında qəbul olunmalıdır.

## *Bildirişlər*

1. Mədəni inqilablar və düşüncə dəyişiklikləri cəmiyyətdə daim əks-əmələ səbəb olmuşdur.
2. Ata-babaların getdiyi yol növbəti nəsillərə tə`sir göstərir.
3. Fir`onçu hökumətlərin əsasını xalqın ata-babalarının xurafi əqidələri təşkil edir.
4. Bə`zən ata-babalara, onların miraslarına hörmət peyğəmbərlərə qarşı müqavimət vasitəsi olur.
5. Ata-babalara əsassız təqlid batildir.
6. Mədəni irsin qorunması adı altında yanlış iş görməyə icazə verilmir.
7. Zalım hakimlər özləri rəyasətpərəst olduqlarından peyğəmbərlərin də islahatçılığını rəyasətpərəstlik kimi qələmə verirlər.
8. Din təbliğatçıları zalımların böhtanlarını eşitməyə hazırlaşsınlar.

**Ayə 79:**

﴿وَقَالَ فِرْعَوْنُ ائْتُونِي بِكُلِّ سَاحِرٍ عَلِيمٍ﴾

**“Fir`on dedi: “Bütün bilikli cadugərləri mənim yanıma gətirin.”**

**Ayə 80:**

﴿فَلَمَّا جَاء السَّحَرَةُ قَالَ لَهُم مُّوسَى أَلْقُواْ مَا أَنتُم مُّلْقُونَ﴾

**“Cadugərlər (mübarizə meydanına) gəldiyi vaxt Musa dedi: “(Öz cadu vasitələrinizdən) atacağınızı atın.”**

## *Nöqtələr*

◘Fir`on mahir cadugərlərin köməyi ilə Musanın ilahi hərəkatını dayandırmaq istəyirdi.

◘Cadugərlər kəndir və ağac kimi vasitələri xüsusi maddələrə batırmaqla onları günəş qarşısında hərəkətə gətirirdilər.

## *Bildirişlər*

1. Zalım hakimlər müxtəlif fitnə və təbliğatlarla peyğəmbərlərin hərəkətinə mane olmaq istəyirlər.

2. Zalım hakimlər bütün güclərini öz müxaliflərinin məhvi üçün istifadə edirlər.

3. Zalım hakimlər bə`zən alim və mütəxəssisləri satın alıb öz məqsədləri yolunda onlardan faydalanırlar.

4. Mübarizəyə çağırış peyğəmbərlərin xüsusiyyətlərindəndir.

5. Peyğəmbərlər öz hədəflərinə və ilahi yardımlara əmin olduqlarından qətiyyətlə danışırlar.

**Ayə 81:**

﴿فَلَمَّا أَلْقَواْ قَالَ مُوسَى مَا جِئْتُم بِهِ السِّحْرُ إِنَّ اللّهَ سَيُبْطِلُهُ إِنَّ اللّهَ لاَ يُصْلِحُ عَمَلَ الْمُفْسِدِينَ﴾

**“Elə ki, (sehrbazlar öz sehr vasitələrini ortaya) atdılar, Musa dedi: “Sizin gətirdikləriniz cadudur, Allah tezliklə onu batil edəcək. Çünki Allah fəsad əhlinin işini düzəltməz.”**

## *Bildirişlər*

1. Batil meydan sulasa da sonda məhv olub gedər.

2. Allah-təala fəsad əhlinin yox, mö`minlərin işini yoluna qoyar.[1]

3. Sehrbaz fəsad əhli, sehr isə fəsaddır. Deməmk onlarla mübarizə aparmaq lazımdır.

**Ayə 82:**

﴿وَيُحِقُّ اللّهُ الْحَقَّ بِكَلِمَاتِهِ وَلَوْ كَرِهَ الْمُجْرِمُونَ﴾

**“Günahkarlara xoş gəlməsə də, Allah haqqı Öz kəlmələri, qüdrəti və sünnələri ilə bərqərar edər.”**

## *Nöqtələr*

◘Qur`an dilində Allahın iradəsinin gerçəkləşməsinə səbəb olan hər şey, o cümlədən qanunlar və sünnələr “kəlimə” adlandırılmışdır.

## *Bildirişlər*

1. Həqiqəti gerçəkləşdirib qalib etmək Allahın və`də və sünnələrindəndir.

2. Haqqın gerçəkləşməsi üçün vasitəyə ehtiyac var.

3. Zalım təkəbbürlülərin haqqı boğmaq istəyi əbəsdir.

---

[1] “Muhəmməd”, 2.

**Ayə 83:**

﴿فَمَا آمَنَ لِمُوسَى إِلاَّ ذُرِّيَّةٌ مِّن قَوْمِهِ عَلَى خَوْفٍ مِّن فِرْعَوْنَ وَمَلَئِهِمْ أَن يَفْتِنَهُمْ وَإِنَّ فِرْعَوْنَ لَعَالٍ فِي الأَرْضِ وَإِنَّهُ لَمِنَ الْمُسْرِفِينَ﴾

**“(Başlanğıcda) Musa qövmünün övladları kiçik bir qrup istisna olmaqla ona iman gətirmədilər. O da elə bir halda idi ki, onlar Fir`on və onun əyanlarından, onların işgəncə verməsindən qorxurdular. Çünki Fir`on həmin yerdə üstün idi və həddi aşmışdı.”**

## *Nöqtələr*

◘“Amənə bihi” “iman”, “amənа ləhu” “təslim” mə`nasını bildirir.

## *Bildirişlər*

1. İman təslimçilik və itaətlə müşayiət olunmalıdır.
2. Gənclərdə düşüncə intibahı və haqqa meyl üçün zəmin daha güclüdür. Çünki onların qəlbi pakdır və dünyaya bir o qədər də bağlı deyillər.
3. Xalqın doğru yola də`vətində çətinlik çəkən və fərdlərin iman gətirməməsinə şahid olan təkcə İslam Peyğəmbəri (s) deyil.
4. Bə`zən yaşlılar xətaya yol verir, gənclər isə haqqa üz tuturlar.
5. Mö`min gənclər Fir`ondan əlavə, öz qövmlərinin mühafizəkar və qorxaq ə`yanlarından da çəkinirdilər.
6. Fir`on hakimiyyəti insanların qəlb imanına mane ola bilməz.
7. Möhkəm imanı pis mühit, əxlaqsız quruluş, qeyri-sağlam təbliğat süstləşdirə bilmir.
8. Sıxma-boğma fir`onçu hakimiyyətin xüsusiyyətidir.
9. Fir`onçu nizam işgəncəyə önəm verir.
10. Fəsadın kökü insandakı üstünlük tələbidir.
11. İsrafçı quruluş fir`onçudur.

**Ayə 84:**

﴿وَقَالَ مُوسَى يَا قَوْمِ إِن كُنتُمْ آمَنتُم بِاللّهِ فَعَلَيْهِ تَوَكَّلُواْ إِن كُنتُم مُّسْلِمِينَ﴾

**“Musa dedi: “Ey mənim qövmüm! Əgər Allaha iman gətirib Ona təslim olmusunuzsa, yalnız Ona təvəkkül edin.”**

## *Bildirişlər*

1. Rəhbər ümmətə ruh verməlidir.
2. İman təvəkküldən ayrı deyil.
3. Allahın razılığı qarşısında təslimçilik imandan üstündür. (“İman” dedikdə Allaha iman, “təslim” dedikdə Musaya itaət nəzərdə tutula bilər.)
4. Problemləri Allaha təvəkkül və təslimçiliklə adlamaq lazımdır.

**Ayə 85:**

﴿فَقَالُواْ عَلَى اللّهِ تَوَكَّلْنَا رَبَّنَا لاَ تَجْعَلْنَا فِتْنَةً لِّلْقَوْمِ الظَّالِمِينَ﴾

**"Onlar dedilər: "Yalnız Allaha təvəkkül etmişik. Pərvərdigara, bizi çətinliklərə, zalımların sınağına düçar etmə."**

**Ayə 86:**

﴿وَنَجِّنَا بِرَحْمَتِكَ مِنَ الْقَوْمِ الْكَافِرِينَ﴾

**"Öz rəhmətinlə bizi kafir qövmün şərindən xilas et."**

## *Nöqtələr*

◘"Zalimin" dedikdə Bəni-İsrailin başçıları nəzərdə tutula bilər. Onlar öz mənfəətləri və rifahları xatirinə Fir`ona itaət edirdilər. "Kafirin" dedikdə isə Fir`on tərəfdarları nəzərdə tutula bilər. Deməк, mö`minlərin istəyi daxili və xarici müxaliflərin şərindən amanda qalmaqdır.

◘Allaha təvəkkül edən kəsi Allah həm cevir, həm də tə`min edir.[1]

## *Bildirişlər*

1. Öncə təvəkkül, sonra dua.
2. İman, təvəkkül və dua vasitəsi ilə zalımların şərindən qurtulaq.
3. Fir`onçular həm israfçı, həm zalım, həm də kafirdirlər. İsraf zülmə, zülm isə küfrə zəmin yaradır.
4. Öncə əqidə məktəbinin hifzi, sonra şəxsi salamatçılıq üçün dua etməliyik. Çünki zülmkar qalib gəldikdə zülm və küfr hakim olur, mö`minlər alçaldılırlar.

**Ayə 87:**

﴿وَأَوْحَيْنَا إِلَى مُوسَى وَأَخِيهِ أَن تَبَوَّءَا لِقَوْمِكُمَا بِمِصْرَ بُيُوتًا وَاجْعَلُواْ بُيُوتَكُمْ قِبْلَةً وَأَقِيمُواْ الصَّلاَةَ وَبَشِّرِ الْمُؤْمِنِينَ﴾

**"Musa və onun qardaşına vəhy etdik ki, Misirdə öz qövmləri üçün evlər hazırlasınlar. Evlərinizi qarşı-qarşıya (ya üzü qibləyə) tikin. Namazı bərpa edin, mö`minlərə müjdə verin."**

## *Nöqtələr*

◘"Qiblətən" dedikdə həm "qarşı-qarşıya", həm də "Kə`bəyə doğru" mə`naları başa düşülür. Ayədə belə bir mə`na nəzərdə tutula bilər ki, nə qədər ki, Fir`on qüdrət sahibidir və sizi məhv etmək istəyir, öz ibadətlərinizi evlərinizdə yerinə yetirin. Be`sətin ilk üç ilində İslam peyğəmbəri də belə etmişdi.

◘Sıxıntıya düşmüş mö`minlərə ən böyük müjdə onların dualarının qəbul olması və Fir`onun zülmlərindən qurtulmalarıdır.

---

[1] "Ali-İmran", 159; "Təlaq", 3.

### *Bildirişlər*

1. Peyğəmbərlərin bütün proqramları, o cümlədən məskunlaşmaları vəhyə əsaslanır.
2. Məskən ilahi ne`mətlərdən biridir.
3. Dini rəhbərlər xalqın maddi vəziyyətinə qarşı da diqqətli olmalıdırlar.
4. Mö`minlərin yaşayış məskənləri kafirlərin yaşayış məskənlərindən kənarda olmalıdır. Bu uzaqlıq mö`minlərə izzət, qüdrət, istiqlal verir.
5. Şəhərsalma tarixi həzrət Musaya gedib çıxır.
6. İslamda me`marlıq və şəhərsalma əqidə prinsiplərinə uyğun olmalıdır. Bu işdə qiblə məsələsi unudulmamalıdır.
7. Elə bir ev tikək ki, onda dini mərasimlər keçirmək və namaz qılmaq mümkün olsun.
8. Mö`minlərin evi namaz evi olmalıdır.
9. Qarşı-qarşıya tikilmiş evlər mərkəzləşmə, mühafizə, nəzarət və qarşılıqlı ünsiyyət üçün daha münasibdir.
10. Biganələrə imkan verməyək ki, yaşadığımız məhəllə və cəmiyyətdə fəsad törədələr.
11. Peyğəmbərlərin proqramlarında namaz öndə gəlir.

**Ayə 88:**

﴿وَقَالَ مُوسَى رَبَّنَا إِنَّكَ آتَيْتَ فِرْعَوْنَ وَمَلأَهُ زِينَةً وَأَمْوَالاً فِي الْحَيَاةِ الدُّنْيَا رَبَّنَا لِيُضِلُّواْ عَن سَبِيلِكَ رَبَّنَا اطْمِسْ عَلَى أَمْوَالِهِمْ وَاشْدُدْ عَلَى قُلُوبِهِمْ فَلاَ يُؤْمِنُواْ حَتَّى يَرَوُاْ الْعَذَابَ الأَلِيمَ﴾

**“Musa dedi: “Pərvərdigara! Sən Fir`on və onun qövmünün başçılarına dünya həyatında zinət və çoxlu var-dövlət vermisən. Pərvərdigara, (nəticədə bu vasitələrlə xalqı) Sənin yolundan azdırdılar. Pərvərdigara! Onların var-dövlətini məhv et, qəlblərini bərkit. Çünki onlar ağrılı əzabı görməyincə iman gətirməyəcəklər.”**

### *Nöqtələr*

◘Neft kəmərlərinin bağlanması, ticarət və hərbi əlaqələrin kəsilməsi, düşmənin təchizat anbarlarının oda çəkilməsi “onların var-dövlətini məhv et” tə`birinin ünvanlarındandır.

### *Bildirişlər*

1. ”Rəbbəna” müraciətinin duada mühüm rolu var.
2. Bütün olanlarımız Allahdandır.
3. Hər hansı bir insanın var-dövlətli olması onun Allah yanında əziz olması nişanəsi deyil.
4. Küfr insanın dünya ləzzətlərindən kam almasına mane olmur.
5. Zalım təkəbbürlülərin maddi rifahı yalnız bir neçə günlük dünyaya aiddir.

6. Peyğəmbərlərin nifrini şəxsi münasibətlərdən yox, vəhydən qaynaqlanır. Bu sayaq nifrində məqsəd məktəb və ümməti qorumaqdır.
7. Var-dövlət qeyri-saleh insanları doğru yoldan azdırır, yoxsulluq isə küfrə zəmin yaradır.
8. Dualarımızda düşməni lə`nətləməyi yaddan çıxarmayaq.
9. Dəlil və mö`cüzə səmərə vermədikdə, növbə nifrinə çatır.
10. Qəlbidaşlar ilahi qəzəbi görməsələr haqqa iman gətirməzlər.

**Ayə 89:**

﴿قَالَ قَدْ أُجِيبَت دَّعْوَتُكُمَا فَاسْتَقِيمَا وَلاَ تَتَّبِعَآنِّ سَبِيلَ الَّذِينَ لاَ يَعْلَمُونَ﴾

**“(Allah-təala) buyurdu: “Siz iki nəfərin duası qəbul oldu. Möhkəm dayanın və nadanların yolu ilə getməyin.”**

## *Nöqtələr*

◘Ötən ayədə Musanın nifrinindən, bu ayədə Musa və Harunun dualarının qəbul olmasından danışıldı. Rəvayətlərdə qeyd olunur ki, Musa dua edir, Harun “amin” deyirdi. “Rəbbəna” sözü deyilənləri təsdiqləyir.”[1]
◘İmam Sadiq (ə) buyurmuşdur: “Musanın nifrinindən qırx il sonra Fir`on qərq oldu.[2]

## *Bildirişlər*

1. Peyğəmbərlərin duası qəbuldur.
2. Musanın duasının qəbul olması göstərir ki, onun fir`onçuların məhvi ilə bağlı istəyi düz istək imiş.
3. Hətta dua qəbul olduqdan sonra səbir və mətanət lazımdır.
4. İlahi rəhbərlər cahil düşüncələrə qarşı qətiyyətlə yanaşmalıdırlar. Çünki süstlük cəhalət nişanəsidir.
5. Elm əhlinə itaət caizdir.

**Ayə 90:**

﴿وَجَاوَزْنَا بِبَنِي إِسْرَائِيلَ الْبَحْرَ فَأَتْبَعَهُمْ فِرْعَوْنُ وَجُنُودُهُ بَغْيًا وَعَدْوًا حَتَّى إِذَا أَدْرَكَهُ الْغَرَقُ قَالَ آمَنتُ أَنَّهُ لا إِلِهَ إِلاَّ الَّذِي آمَنَتْ بِهِ بَنُو إِسْرَائِيلَ وَأَنَاْ مِنَ الْمُسْلِمِينَ﴾

**“Biz Bəni-İsraili dəryadan keçirdik. Bir halda ki, Fir`on və əsgərləri zülm-sitəmlə onları təqib edirdilər. Burulğan Fir`onu bürüdüyü vaxt o dedi: “İman gətirdim ki, Bəni-İsrailin iman gətirdiyindən savay mə`bud yoxdur və mən təslim olanlardanam.”**

---

[1] “Təfsire-Nurus-səqəleyn”.
[2] “Təfsire-Nurus-səqəleyn”.

## *Nöqtələr*

◘"Bəhr" dedikdə ayədə Nil çayı nəzərdə tutulmuşdur. Bu çaydan keçmək Allahın əmri idi. Musaya göstəriş verildi ki, əsasını Nil çayına toxundursun. Əsa Nilə toxunduqdan sonra su yarıldı və suyun dibi göründü. Musa və yoldaşları bu yolla ötüb keçdilər.

◘Ölüm məqamı tövbə etmək və iman gətirmək faydasızdır. Qur`ani-kərimdə oxuyuruq: "Ölüm astanasında tövbə edib peşman olan günahkarın tövbəsi qəbul deyil."[1]

## *Bildirişlər*

1. Zalım qüvvələrlə mübarizədə Allaha təvəkkül etsək, O bizi tənha buraxmaz.
2. Varlıq aləmində bütün dəyişikliklər Allahın iradəsi ilə baş verir.
3. Peyğəmbərlərin duası nəhayətdə qəbuldur.
4. Musanı aradan götürmək istəyən Fir`on özü məhv oldu.[2]

*Aləmlərin Rəbbi çatan tonqalı*

*Hər kim üfürərsə yanar saqqalı.*

5. İlahi əzab nazil olan məqamda iman gətirmək faydasızdır.
6. Təkəbbürlü zalımlar bir gün aciz və möhtac qalacaqlar.
7. Fir`on kimi təkəbbürlülər yalnız ölüm zamanı təslim olur. Amma bunun nə faydası?!
8. Acı hadisələr insanın gözündən qəflət pərdəsini qaldırır.
9. Qeyri-ilahi qüdrətlər hörümçək torundan başqa bir şey deyil. Onlar bir gün təslim olar.

**Ayə 91:**

﴿آلآنَ وَقَدْ عَصَيْتَ قَبْلُ وَكُنتَ مِنَ الْمُفْسِدِينَ﴾

**"İndimi?! (Ölüm zamanımı tövbə edirsən?) Bir halda ki, əvvəllər itaətsizlik edirdin və həddi aşırdın."**

**Ayə 92:**

﴿فَالْيَوْمَ نُنَجِّيكَ بِبَدَنِكَ لِتَكُونَ لِمَنْ خَلْفَكَ آيَةً وَإِنَّ كَثِيرًا مِّنَ النَّاسِ عَنْ آيَاتِنَا لَغَافِلُونَ﴾

**"Bu gün sənin cəsədini (dəryada məhv olmaqdan) xilas edirik ki, gələcəkdəkilər üçün ibrət olsun. Şübhəsiz, xalqın çoxu Bizim nişanələrimizdən xəbərsizdir."**

---

[1] "Nisa", 18.

[2] "İsra", 102.

## *Nöqtələr*

◘“Təfsire-Safi”də imam Rizanın (ə) belə buyurduğu nəql olunmuşdur: “Fir`on təpədən dırnağadək zireh və silah idi. Qaydaya görə o, suya düşdükdən sonra suyun dibinə getməli idi. Amma dalğalar o ağır bədəni sahilə atdı. Bu bir mö`cüzədir.”

## *Bildirişlər*

1. Ölüm anı tövbə faydasızdır. Fürsət varkən tövbə qılaq.
2. Qur`an gələcəkdən və qeybdən xəbər verir. (Onlarca əsrdən sonra Fir`onun mumyalanmış bədəni Qahirə muzeyində saxlanılır.)
3. Zalım hakimlərin məhvindən ibrət götürmək lazımdır.
4. İlahi qüdrət və yardım nişanələrinin qorunması üçün çalışmaq lazımdır.
5. Xalqın çoxu keçmişdən ibrət götürmür.

**Ayə 93:**

﴿وَلَقَدْ بَوَّأْنَا بَنِي إِسْرَائِيلَ مُبَوَّأَ صِدْقٍ وَرَزَقْنَاهُم مِّنَ الطَّيِّبَاتِ فَمَا اخْتَلَفُواْ حَتَّى جَاءهُمُ الْعِلْمُ إِنَّ رَبَّكَ يَقْضِي بَيْنَهُمْ يَوْمَ الْقِيَامَةِ فِيمَا كَانُواْ فِيهِ يَخْتَلِفُونَ﴾

**“Həqiqətən, İsrail övladlarını düz və ürəyəyatan bir yerdə (Şam və Beytül-Müqəddəs) yerləşdirdik və onlara pak ruzilər verdik (və onlar sonra din işlərində ixtilafa düşdülər). Bu isə yalnız (Tövratda gələnlərdən) onlara elm hasil olandan sonra baş verdi. Şübhəsiz, sənin Rəbbin qiyamət günü onların arasında ixtilaf etdikləri şey barədə hökm edəcəkdir.”**

## *Nöqtələr*

◘“Sidq” sözü Qur`an dilində bə`zən müəyyən sözlərin ardınca gəlib yaxşılıq mə`nasını bildirir.[1] Yə`ni həqiqətə münasiblik hər şey üçün dəyərdir. Ola bilsin ki, ayədə, yaxşı suyu, havası, ne`mətləri olan bir yer, yə`ni Şam və Fələstin nəzərdə tutulmuşdur. “Sidq məkan” dedikdə, həqiqətən yaxşı olan bir yer nəzərdə tutulur. Bəni-İsrailin məskunlaşdığı yer həm bütün yaşayış şəraitinə malik, həm də çox məhsuldar idi.

## *Bildirişlər*

1. Münasib məskən ilahi ne`mətlərdən biridir və ilahi dinlərdə təqdir olunmuşdur.
2. Peyğəmbərlərin hərəkatında mə`nəvi məsələlərlə yanaşı xalqın maddi ehtiyacları da diqqət mərkəzində olmuşdur.
3. Adətən inqilablardan sonra iqtisadi tarazlıq pozulur, ölkədə bahalıq və qıtlıq yaranır. Amma Allah Fir`on rejimini məhv etməklə Bəni-İsraili sıxıntılardan xilas etdi.

---

[1] “Yunus”, 2; “İsra”, 80; “Məryəm”, 50; “Əhqaf”, 16; “Qəmər”, 55.

4. Təfriqə bütün ilahi ne`mətləri puça çıxardır.
5. İxtilafların kökü bə`zən maddi çətinliklər yox, sadəcə nəfs istəkləri olur.
6. Təkcə elm vasitəsi ilə xilas olmaq mümkünsüzdür.
7. Qur`an bilərəkdən yaradılan ixtilafları ciddi tənqid edir.

**Ayə 94:**

﴿فَإِن كُنتَ فِي شَكٍّ مِّمَّا أَنزَلْنَا إِلَيْكَ فَاسْأَلِ الَّذِينَ يَقْرَؤُونَ الْكِتَابَ مِن قَبْلِكَ لَقَدْ جَاءكَ الْحَقُّ مِن رَّبِّكَ فَلاَ تَكُونَنَّ مِنَ الْمُمْتَرِينَ﴾

**"Əgər sənə nazil etdiyimizə şəkkin varsa, səndən öncəki səmavi kitabları oxuyanlardan soruş. Şübhəsiz, Rəbbin tərəfindən haqq sənə gəlmişdir, şəkk edənlərdən olma."**

## *Nöqtələr*

◘Rəvayətlərdən birində İmam Hadinin (ə) belə buyurduğu nəql edilir: "Cahil insanlar soruşurdular ki, nə üçün peyğəmbər olaraq mələk nazil olmayıb? Allah bu ayəni nazil etməklə, bütün peyğəmbərlərin adi xalq kimi yaşamasını nəzərə çatdırmaqla onların cavabını verdi."[1]

◘***Sual***: Səmavi kitablar təhrif edilmişdirsə, nə üçün kitab əhlinin alimləri bu ayədə hakim götürülür?

***Cavab***: Öncəki səmavi kitabların bir hissəsi təhrif olunsa da, kitab əhli alimləri arasında istinad ediləsi şəxslər tapılır.[2]

◘***Sual***: Qur`anda buyurulur ki, ey peyğəmbər, Qur`anın haqq olmasına şəkkin varsa, kitab əhlindən soruş. Axı Peyğəmbər (s) heç vaxt şəkk etməmişdir və ağıl onun vəhyə şəkk etməsini qəbul etmir?

***Cavab***: 1. Ayədəki "in", yə`ni "əgər" hissəsi fərz nişanəsidir. Məsələn, "Məryəm" surəsinin 91-ci ayəsində "əgər Allahın övladı olsaydı" tə`biri işlədilmişdir. Bir sözlə, bu sayaq tə`birlərdə qəti bəyan yoxdur.

2. Hazırkı surənin 104-cü ayəsində Peyğəmbərin (s) dilindən xalqa belə xitab olunur: "Əgər mənim dinimə şəkk edirsinizsə." Deməki, Həzrət şəkk etməmişdir. Əgər şəkk etsəydi, xalqa bu sayaq müraciət etməzdi. Bundan əlavə, "Bəqərə" surəsinin 285-ci ayəsində buyurulur ki, Peyğəmbər (s) ona vəhy edilənə iman gətirmişdi.

3. Bə`zən Qur`an başqalarını nəzərdə tutub Peyğəmbərə (s) müraciət edir. Məsələn "İsra" surəsinin 23-cü ayəsində buyurulur: "Əgər ata-ana sənin yanında qoca yaşa çatsalar..." Halbuki həzrət Məhəmməd (s) dünyaya gəlməmiş onun atası, uşaq yaşında ikən anası dünyadan getmişdi. Ayə nazil olan vaxt Peyğəmbərin (s) ata-anası yox idi. Ayədə bir növ "qızım sənə deyirəm, gəlinim sən eşit" prinsipi əsas götürülmüşdür. Tərbiyəvi məsələlərin bəyanında da bə`zən başqalarına işarə ilə böyüklərə xitab olunur.

[1] "Təfsire-Nurus-səqələyn".
[2] "Təfsire-Kəbire-Fəxr Razi".

4. Bə`zən ayələrdə müsəlmanlara ünvanlanmış söz Peyğəmbərə (s) müraciətlə bəyan olunur. Məsələn, Peyğəmbər (s) heç vaxt qadına talaq vermədiyi halda ona talaq barədə müraciət olunur.[1]

5. “Əgər şəkkin varsa” tə`birini Peyğəmbərin (s) şəkk etməsinə dəlil saysaq, digər ayələri də eyni şəkildə qəbul etməliyik. Bu isə mümkünsüzdür!

6. Kitab əhlinin bə`zi sualları olsa da onlar soruşmaqdan çəkinirdilər. Allah bu bəyanı ilə onların müraciətinə yol açdı.

7. Məqsəd mübahisə aparılan tərəflərlə dəlil-höccət gətirilməsi də ola bilər. Məsələn, həzrət İbrahim ulduzpərəstlərə dedi: “Bu, (ulduz) mənim Rəbbimdir.”[2]

8. Həzrət Peyğəmbər (s) bu ayəni eşitdiyi vaxt buyurdu: “Mən şəkk etmirəm.” İmam Sadiq (ə) da öz növbəsində buyurmuşdur: “Vallah, peyğəmbərin şəkki yox idi.”[3]

## *Bildirişlər*

1. Əqidə məsələlərində şəkki aradan qaldırmaq zəruridir.
2. Şəkk etdiyiniz vaxt alimlərə müraciət edin. (Demək, alimin sözü höccətdir.)
3. Səmavi kitablar bir-birlərini təsdiqləyir.
4. Kitab əhlinin bir qismi haqqı deyir.
5. Rəhbər qətiyyətli olmalı və tərəddüdə yol verməməlidir.
6. Fəzl odur ki, düşmənlər də ona şəhadət versin. Düşmənlərin də e`tiraf etdiyi həqiqətə şübhə edirsinizmi?!

**Ayə 95:**

﴿وَلاَ تَكُونَنَّ مِنَ الَّذِينَ كَذَّبُواْ بِآيَاتِ اللّهِ فَتَكُونَ مِنَ الْخَاسِرِينَ﴾

**“Heç vaxt ilahi ayələri təkzib edənlərdən olma. O halda ziyankarlardan olacaqsan.”**

## *Nöqtələr*

◘Ötən ayədə Qur`ana şəkk, bu ayədə isə ayələrin təkzibi qadağan olundu. Çox olsun ki, şəkk aradan qalxmasa təkziblə nəticələnər.

◘Ötən ayədə şəklə bağlı bəyan olunan bütün təhlillər və cavablar bu ayədə də nəzərdən keçirilir. Çünki təkzib şəkdən də pisdir. Bir çox ayə və hədislər Peyğəmbərin (s) uyğun həqiqətlərə yəqinliyindən danışır. Demək, ayələr Peyğəmbərə (s) yox, xalqa ünvanlanmışdır. Bir şəxsin inamından ətrafdakılar güc alırsa, necə ola bilər ki, həmin şəxs özü şəkk və ya təkzibə düçar olsun?!

◘Peyğəmbərin (s) mə`sum olmasına baxmayaraq, dəfələrlə Qur`anda ona xitabən xəbərdarlıq olunur. Bu yolla xalq qəflətdən oyadılır, onların diqqəti öz əməllərinin hesabına yönəldilir.[4]

---

[1] “Təlaq”, 1.
[2] “Ən`am” 76-78.
[3] “Təfsire-Safi”.
[4] “Ən`am” 14; “Qəsəs”, 86-87.

### *Bildirişlər*

1. Allah-təala Öz peyğəmbərinə də xəbərdarlıq edir.
2. İman və ilahi rəhbərlik sərmayəsinin əldən verilməsi ciddi ziyandır.

**Ayə 96:**

﴿إِنَّ الَّذِينَ حَقَّتْ عَلَيْهِمْ كَلِمَتُ رَبِّكَ لاَ يُؤْمِنُونَ﴾

**"Həqiqətən, haqqında Rəbbinin göstərişi gerçəkləşən kəslər iman gətirməzlər."**

**Ayə 97:**

﴿وَلَوْ جَاءتْهُمْ كُلُّ آيَةٍ حَتَّى يَرَوُاْ الْعَذَابَ الأَلِيمَ﴾

**"Onlar üçün hər növ mö`cüzə gəlsə də, Allahın ağrılı əzabını görməyincə (iman gətirməzlər.)"**

### *Nöqtələr*

◘97-98-ci ayələrə əsasən, "kəlimətu Rəbbikə" dedikdə ilahi qəhr-qəzəb başa düşülür.

### *Bildirişlər*

1. İlahi qəhr-qəzəb kafirlərin haqqıdır.[1]
2. Təkzib və ardıcıl inadkarlığa görə kafirlərin imandan məhrum edilməsi Allahın rübubiyyət tələbi və ilahi sünnədir.
3. Bütün xalqın iman gətirməsi intizarında olmayaq.
4. Günahkarlar Allahın əzabını gördükləri vaxt dəhşətə gəlib iman gətirərlər. Amma bunun nə faydası var?!

**Ayə 98:**

[1] "Yasin", 7.

﴿فَلَوْلاَ كَانَتْ قَرْيَةٌ آمَنَتْ فَنَفَعَهَا إِيمَانُهَا إِلاَّ قَوْمَ يُونُسَ لَمَّآ آمَنُواْ كَشَفْنَا عَنْهُمْ عَذَابَ الخِزْيِ فِي الْحَيَاةَ الدُّنْيَا وَمَتَّعْنَاهُمْ إِلَى حِينٍ﴾

**"Nə üçün heç bir şəhər əhli (vaxtında) iman gətirmir ki, (imanı ona) fayda versin?! Yalnız Yunusun qövmü istisnadır. (Son fürsətdə iman gətirdikləri vaxt) biz zəliledici əzabı dünya həyatında onlardan uzaqlaşdırdıq və Bir müddət onlara bəhrə verdik."**

## *Nöqtələr*

◘Bu surədə həzrət Nuh və Musanın tarixi ətraflı şəkildə, Yunus qövmünün tövbəsi isə qismən bəyan olunsa da, surə "Yunus" adlandırılmışdır. Bunun səbəbi Yunus qövmünün son fürsətdə tövbə etməsi və bu tövbənin Allah tərəfindən qəbul edilməsinin əhəmiyyəti ola bilər.

◘İmam Sadiq (ə) buyurmuşdur: "Həzrət Yunus otuz yaşından altmış üç yaşınadək təbliğ etdi. Bu müddət ərzində ona yalnız iki nəfər iman gətirdi. Həzrət Yunus xalqa nifrin etdi və onlardan uzaqlaşdı. Ona iman gətirən iki nəfərdən biri müdrik adam idi. O, peyğəmbərin xalqı tərk etdiyini görüb uca səslə fəryad çəkdi. Bu fəryad qarşıdakı təhlükədən danışırdı. Xalq peşman olub həmin mö`minin bələdçiliyi ilə şəhərdən çıxdı. Övladlarından ayrılmış bu insanlar Allah dərgahına üz tutub tövbə etdilər. Həzrət Yunus geri döndükdə həmin qövmü həlak olmamış gördü. Sonradan bunun səbəbi peyğəmbərə aydınlaşdırıldı.[1]

## *Bildirişlər*

1. İnsan uçurum kənarında da özünü qoruya bilər.
2. Vaxtında qılınan tövbə ilahi əzabı aradan qaldırır. (Keçmiş qövmlər arasından yalnız həzrət Yunusun qövmü vaxtında tövbə qılıb, iman gətirmişdir.)
3. Xalqın taleyi onun öz əlindədir.
4. Dünya xoşbəxtliyinin dünya rəmzi də imandır.
5. Dua və yalvarış həm bəlanı aradan qaldırır, həm də ləzzət verir.

**Ayə 99:**

[1] "Təfsire-Məcməül-bəyan"; "Təfsire-Safi".

﴿وَلَوْ شَاء رَبُّكَ لآمَنَ مَن فِي الأَرْضِ كُلُّهُمْ جَمِيعًا أَفَأَنتَ تُكْرِهُ النَّاسَ حَتَّى يَكُونُواْ مُؤْمِنِينَ﴾

**“Əgər Rəbbin istəsəydi, yer üzünün bütün əhli (məcburi şəkildə) birdəfəyə iman gətirərdi. (Amma qanun budur ki, azad şəkildə iman gətirilsin.) Sən xalqı iman gətirməyə məcburmu edirsən?!”**

## *Nöqtələr*

◘Allah-təala həm qüdrət, həm də hikmət sahibidir: O elə bir məqamda qüdrətindən istifadə edir ki, bu rəftar hikmətə zidd olmasın. İlahi hikmətə əsasən xalq azad olmalı, məcburi surətdə iman gətirməməlidir. Müşriklər isə deyirdilər: “Allah istəsəydi biz müşrik olmazdıq. Deməк, bizim şirkimiz Allahın istəyidir...”[1] Bu ayə müşriklərin uyğun iradına cavab ola bilər. Əgər Allah məcburi iş görürsə, nə üçün imana yox, şirkə məcbur etməlidir?!

## *Bildirişlər*

1. İman məcburiyyət yox, seçim əsasında əldə olunmalıdır.
2. Peyğəmbər öz canıyananlığı səbəbindən xalqın iman gətirməsini israr edirdi.

**Ayə 100:**

﴿وَمَا كَانَ لِنَفْسٍ أَن تُؤْمِنَ إِلاَّ بِإِذْنِ اللّهِ وَيَجْعَلُ الرِّجْسَ عَلَى الَّذِينَ لاَ يَعْقِلُونَ﴾

**“Halbuki, Allahın izn və iradəsi olmadan kimsə iman gətirə bilməz və Allah çirkinliyi (küfrü) düşünməyən kəslər üçün qərar verər.”**

## *Bildirişlər*

1. Ötən ayəyə əsasən, xalq iman gətirməyə məcbur edilmir, həm də Allahın hidayət və tövfiqi olmadan kimsə imana müvəffəq olmur.[2]
2. Küfr çirkinlikdir.
3. Yalnız düşüncə əhli ilahi lütf və iman tövfiqinə nail ola bilir. İxtiyari olaraq düşünməyən kəs Allahın qəzəbinə gəlir.
4. Sağlam əql iman üçün zəmindir. İmansızlıq düşüncəsizlik nişanəsidir.

**Ayə 101:**

﴿قُلِ انظُرُواْ مَاذَا فِي السَّمَاوَاتِ وَالأَرْضِ وَمَا تُغْنِي الآيَاتُ وَالنُّذُرُ عَن قَوْمٍ لاَّ يُؤْمِنُونَ﴾

---

[1] “Ən`am” 148.
[2] “Bihar”, c. 4, s. 197.

**“De ki, göylərdə və yerdə nə olduğuna (ibrət gözü ilə) baxın. Amma iman gətirməyənlər üçün nişanə və xəbərdarlıqların faydası yoxdur.”**

## *Nöqtələr*

◘Ötən ayədə düşüncəsizlik küfr dəlili sayıldı. Bu ayədə isə təfəkkür və düşüncə iman yolu kimi tanıtdırılır.

◘“Nuzur” ya “nəzir” sözünün oxşarıdır (peyğəmbər mə`nasında), ya da “inzar” sözünün cəm formasıdır (xəbərdarlıqlar mə`nasında).

## *Bildirişlər*

1. Yaranışın mütaliəsi və bu mövzuda düşüncə Allahı tanımağın ən sadə və ümumi yoludur.
2. İnsanın qərar çıxarmasında onun iradəsindən qaynaqlanan baxış səmərəlidir. Bir şeyə sadəcə baxmaq faydasızdır.
3. İlahi ayələr və xəbərdarlıqlar yalnız inadkar olmayan pak insanlara tə`sir edir.
4. İnsan əqidə məktəbi seçimində azaddır. Əgər insan azad olmasaydı, peyğəmbərlərə və səmavi kitablara qarşı çıxmazdı.

**Ayə 102:**

﴿فَهَلْ يَنتَظِرُونَ إِلاَّ مِثْلَ أَيَّامِ الَّذِينَ خَلَوْاْ مِن قَبْلِهِمْ قُلْ فَانتَظِرُواْ إِنِّي مَعَكُم مِّنَ الْمُنتَظِرِينَ﴾

**“(İlahi ayələrə və peyğəmbərlərə qarşı çıxanlar) keçmişdəkilərin (zillət dolu) ruzgarından başqa bir ruzgar intizarındamıdırlar? De ki, intizarda olun, mən də sizinlə (birlikdə) intizardayam. (Keçmişdəkilərin düçar olduğu bəlaya siz də düçar olarsınız.)”**

## *Bildirişlər*

1. İlahi sünnə və qanunlar bütün xalq üçün eynidir.
2. Keçmişdəkilərin tarixi gələcəkdəkilər üçün ibrətdir.
3. Allahın verdiyi möhlət bizi qürrələndirməsin.
4. Dinsizliyin sonu fəlakətdir.
5. Xalqın inadkarlığı bə`zən peyğəmbərləri də mə`yus etmişdir. Onlar bə`zən öz ümidsizliklərini e`lan etmişlər.

**Ayə 103:**

﴿ثُمَّ نُنَجِّي رُسُلَنَا وَالَّذِينَ آمَنُواْ كَذَلِكَ حَقًّا عَلَيْنَا نُنجِ الْمُؤْمِنِينَ﴾

**“(Bəla və cəza nazil olarkən) peyğəmbərlərə və mö`minlərə nicat veririk. Mö`minləri bu sayaq azad etmək onların haqqıdır.”**

## *Nöqtələr*

▫***Sual***: Təcrübədə müşahidə etmişik ki, bə`zən yaxşı da pisin oduna yanır. "Ənfal" surəsinin 25-ci ayəsində buyurulur ki, təkcə zalımları yox, hətta mö`minləri də bürüyəcək fitnədən qorxun. Bəs necə olur ki, bu ayədə mö`minlərin nicat tapacağı bildirilir?

***Cavab***: İman əhli kafirlər və günahkarlar arasında sakit dayanarsa, Allahın qəzəbi onlara da yetişər. Amma öz ilahi vəzifəsinə, yə`ni nəhy ən münkərə (pisliyin qadağasına) əməl edənlər bəla zamanı nicat tapırlar.

## *Bildirişlər*

1. Allah peyğəmbərləri və mö`minləri Öz qəzəbinə düçar etmir.
2. İlahi sünnələrdən və mö`minlərin haqlarından biri əzab zamanı onların himayə olunmasıdır.
3. Qurtuluş və`di ilahi hərəkatların ən möhkəm dayağıdır.
4. Gələcək mö`minlərindir.

**Ayə 104:**

﴿قُلْ يَا أَيُّهَا النَّاسُ إِن كُنتُمْ فِي شَكٍّ مِّن دِينِي فَلاَ أَعْبُدُ الَّذِينَ تَعْبُدُونَ مِن دُونِ اللّهِ وَلَكِنْ أَعْبُدُ اللّهَ الَّذِي يَتَوَفَّاكُمْ وَأُمِرْتُ أَنْ أَكُونَ مِنَ الْمُؤْمِنِينَ﴾

**"De ki, ey xalq, əgər mənim dinimə şübhəniz varsa (bilin ki), sizin Allah yerinə pərəstiş etdiklərinizə pərəstiş etmirəm. Elə bir Allaha pərəstiş edirəm ki, sizin canınızı alır. Mənə mö`minlərdən olmaq əmr olunub."**

## *Bildirişlər*

1. Başqalarının şəkki bizi şəkkə salmasın. Qətiyyət rəhbərlik şərtidir.
2. Kafirlərlə hər növ saziş, yaxınlıq qadağandır. Küfr cəbhəsi bizdən ümidini üzməlidir.
3. Düşmənin hətta İslam başçılarında da tamahı var. Deməli, öz əyilməzliyimizi qətiyyətlə e`lan etməliyik.
4. Pərəstişə yalnız ölüm və həyat əlində olan kəs layiqdir.
5. Şübhəsiz ki, həm ölüm, həm də həyat Allahın əlindədir. Amma bu ayə yalnız ölüm haqqında danışır. Çünki ölüm ən üstün xəbərdarlıq vasitəsidir.
6. Müşriklər öz mə`budlarını ağıllı sayırdılar.

**Ayə 105:**

﴿وَأَنْ أَقِمْ وَجْهَكَ لِلدِّينِ حَنِيفًا وَلاَ تَكُونَنَّ مِنَ الْمُشْرِكِينَ﴾

**"(Mənə əmr olunub ki,) hər növ şirkdən pak ayinə üz tut və heç vaxt müşriklərdən olma."**

**Ayə 106:**

﴿وَلاَ تَدْعُ مِن دُونِ اللّهِ مَا لاَ يَنفَعُكَ وَلاَ يَضُرُّكَ فَإِن فَعَلْتَ فَإِنَّكَ إِذًا مِّنَ الظَّالِمِينَ﴾

**“Allahdan başqasını–sənə heç bir faydası və zərəri olmayan şeyi –çağırma. Əgər belə etsən, həqiqətən zalımlardan olacaqsan.”**

## *Nöqtələr*

◘”Hənif” doğru-düzgün mə`nasını bildirir. Bu doğruluqda sağa-sola heç bir büdrəmə yoxdur.

## *Bildirişlər*

1. Dindarlıq qətiyyət, sə`y və eşq istəyir.
2. İslam dini əyintisiz ayindir.
3. Həqiqi müsəlman İslamı qəbul etdikdən sonra heç bir şirkə uğramır və zalım hakimlərə meyl etmir.
4. Ağıllı insanlar ya faydalanmaq, ya da zərərdən qaçmaq üçün çalışır. Bütlər isə nə fayda verə bilir, nə də zərəri dəf edir. Deməк, şirk bir növ axmaqlıqdır.
5. Şirk zülm, müşrik isə zalımdır.

**Ayə 107:**

﴿وَإِن يَمْسَسْكَ اللّهُ بِضُرٍّ فَلاَ كَاشِفَ لَهُ إِلاَّ هُوَ وَإِن يُرِدْكَ بِخَيْرٍ فَلاَ رَآدَّ لِفَضْلِهِ يُصَيبُ بِهِ مَن يَشَاء مِنْ عِبَادِهِ وَهُوَ الْغَفُورُ الرَّحِيمُ﴾

**“Əgər Allah (sınaq və ya başqa bir məqsədlə istəsə ki,) sənə bir ziyan yetirə, Onun özündən savay bir kimsə (həmin ziyanın) qarşısını almaq gücündə deyil. Əgər sənə bir xeyir istəsə, kimsə Onun fəzlinə mane olmayacaq. Bəndələrindən istədiyinə xeyir yetirər. O, çox bağışlayan və mehribandır.”**

## *Nöqtələr*

◘Zərərin aradan götürülməsi ilə bağlı işlənmiş “Ondan savay” tə`biri xeyirin qarşısının alınması ilə bağlı işlədilməmişdir. Məl`um olur ki, Allah insana yetirdiyi fəzlin yox, yalnız zərərin qarşısını alır. (Əlbəttə ki, əgər əməllərimiz bu təqdiri dəyişməsə.[1]) Bəli, ne`mət insanın əməllərindən asılı olaraq dəyişə bilər.[2]

## *Bildirişlər*

1. Xeyir və şər yalnız Allahın əlindədir.
2. Hər acılığı şər saymaq olmaz. Bə`zən acı bir hadisə fitrətin oyanması üçün faydalı olur.

---

[1] “Təfsire-ruhul-məani”.
[2] “Rə`d”, 11.

3. Allahın məqsədi xeyir yetirməkdir. Buna görə də yalnız xeyirlə bağlı istək sözü işlədilmişdir.[1]

4. İnsana rəva görülən xeyir və yaxşılıqlar onun haqqı yox, Allah-təalanın mərhəmətidir.

5. Allahın istəyi hikmətə əsaslanır. Allahın təqdiri Onun hikməti ilə müşayiət olunur.

**Ayə 108:**

﴿قُلْ يَا أَيُّهَا النَّاسُ قَدْ جَاءكُمُ الْحَقُّ مِن رَّبِّكُمْ فَمَنِ اهْتَدَى فَإِنَّمَا يَهْتَدِي لِنَفْسِهِ وَمَن ضَلَّ فَإِنَّمَا يَضِلُّ عَلَيْهَا وَمَا أَنَاْ عَلَيْكُم بِوَكِيلٍ﴾

**“De ki, ey xalq, indi Rəbbiniz tərəfindən haqq sizin sorağınıza gəlmişdir. Hidayət olan, şübhəsiz, öz xeyrinə hidayət olur. Kim azırsa, yalnız öz zərərinə azır. Mən sizə vəkil deyiləm (ki, sizi zorla doğru yola çəkəm).”**

## *Bildirişlər*

1. Allah tərəfindən nazil olan hər bir şey (Qur`an və peyğəmbərlərin tə`limi) haqdır və onlar Allahın rübubiyyət şə`nindəndir.

2. Peyğəmbərlərin be`sətinin, səmavi kitabların göndərilməsinin məqsədi bəşəriyyətin tərbiyələndirilməsidir.

3. Allah-təala höccəti tamamlamış, yetərli dəlillər gətirmişdir. Bizim haqqı qəbul etməmək üçün üzrümüz yoxdur.

4. Allah bizim hidayətimizə ehtiyac duymur. Tutduğumuz yolun xeyir və zərəri yalnız özümüzə aiddir.

5. İnsan ixtiyar sahibidir və hər bir insanın taleyi öz əlindədir. Hətta peyğəmbərlərə də ixtiyar verilməyib ki, xalqı məcbur etsinlər.

6. Peyğəmbərlərin vəzifəsi məcburiyyət yox, də`vət və təbliğdir.

**Ayə 109:**

﴿وَاتَّبِعْ مَا يُوحَى إِلَيْكَ وَاصْبِرْ حَتَّىَ يَحْكُمَ اللّهُ وَهُوَ خَيْرُ الْحَاكِمِينَ﴾

**“Sənə vəhy olunana itaət et və Allahın mühakiməsinədək möhkəm dayan. O, ən üstün hakimdir.”**

## *Bildirişlər*

1. Xalqın iman gətirib-gətirməməsindən asılı olmayaraq ilahi göstərişlərdən boyun qaçırmayaq.

2. Peyğəmbərlər vəhy göstərişinə təslimdirlər.

---

[1] “Təfsire-ruhul-məani”.

3. Vəhy tədricən nazil olmuşdur.
4. Vəhyə itaət üçün səbrə ehtiyac var.
5. Rəhbər səbirli olmalıdır.
6. Elm əməlin, sabitqədəmlik qələbənin şərtidir.
7. Gələcəyə görə narahat olmayaq. Allah ən üstün hakimdir.

# “HUD” SURƏSİ

# (11-ci surə, 122 ayə)

**On bir, on ikinci cüzlər**

## *“Hud” surəsinin siması*

Bu surə peyğəmbərin Məkkə həyatının son illərində nazil olmuşdur. Həmin illərdə həzrət Əbu-Talib və həzrət Xədicə vəfat etdiyindən müsəlmanlar çox çətin vəziyyətdə yaşayırdılar.

Həzrət Peyğəmbər (s) buyurmuşdur: “Hud” surəsi məni qocaltdı.”[1] Çünki bu surədə möhkəm dayanmaq əmri gəlmişdi: “Sənə əmr edildiyi kimi möhkəm dayan və səbir et. Sənin yoldaşların da möhkəm dayanmalıdır.”[2] Amma ətrafındakıların səbirsizliyi həzrət Peyğəmbərə (s) əziyyət verirdi.

123 ayədən ibarət olan bu surədə peyğəmbərlərin tarixindən, xüsusi ilə həzrət Nuhun həyatından və bir sıra e`tiqadi məsələlərdən danışılır. Peyğəmbərlərin tarixindən mə`lum olur ki, onların hərəkatı ötəri bir hadisə yox, davamlı bir cərəyan olmuşdur. Peyğəmbərlərin və onların qövmlərinin tarixinin mütaliəsi yüksəliş və süqutun səbəblərini açıqlayır. Aydın olur ki, din cəmiyyətdən ayrı deyil və cəmiyyətin taleyi onun dinindən asılıdır.

Bu surədə həzrət Nuhun adı beş dəfə xatırlanır. Qur`anın qalan hissəsində də uyğun ad həmin qədər zikr olunmuşdur.

بِسْمِ اللهِ الرَّحْمنِ الرَّحِيم

**Ayə 1:**

﴿الَر كِتَابٌ أُحْكِمَتْ آيَاتُهُ ثُمَّ فُصِّلَتْ مِن لَّدُنْ حَكِيمٍ خَبِيرٍ﴾

**“Əlif, Lam, Ra, (Qur`an) ayələri möhkəmlənmiş, agah, hikmət sahibi olan tərəfindən şərh edilmiş bir kitabdır.”**

**Ayə 2:**

﴿أَلاَّ تَعْبُدُواْ إِلاَّ اللّهَ إِنَّنِي لَكُم مِّنْهُ نَذِيرٌ وَبَشِيرٌ﴾

**“Bir Allahdan qeyrisinə pərəstiş etməyin. Həqiqətən, mən Onun tərəfindən sizə xəbərdarlıq edən və müjdə verənəm.”**

---

[1] “Təfsire-nümunə”; “Bihar”, c. 92, s. 198.

[2] “Hud”, 112.

## *Nöqtələr*

◘Qur`an dili ixtiyarımızda olan əlifba həriflərindən təşkil olunmuşdur. Allah həmin sadə hərflərdən elə bir kitab toplamışdır ki, kimsə onun oxşarını ərsəyə gətirə bilməz. İnsan torpaqdan kərpic və təndir düzəltdiyi halda, Allah-təala həmin torpaqdan minlərlə çeşiddə bitki, çiçək, meyvə, heyvan və insan xəlq etmişdir. Bəli, Allahın qüdrətini yaranış nizamında gördüyümüz kimi, ilahi kitabda da müşahidə edə bilərik.

◘Qur`an möhkəm və müfəssəl bir kitabdır. Onda heç bir nöqsan yoxdur. O həm fəsahətli, həm də bəlağətlidir. Onun məfhumları müxtəlif fəsillərdə və surələrdə ayrı-ayrılıqda ardıcıl şəkildə bəyan olunmuşdur.

◘Qur`anın bir ruhu var və bu ruh tövhid ruhudur. Qur`anda gətirilən bütün əhvalatlar, moizələr, hökmlər və ayələr həmin tövhid ruhunu açıqlayır.

◘Qur`an dəyişməz və təhrifsiz bir kitabdır. Ona münasibətdə şəkk-şübhəyə yer yoxdur. Qur`anın bəyanatları hansısa ehtimala yox, dəlillərə əsaslanır.

## *Bildirişlər*

1. Qur`an yetərincə mühüm kitabdır.
2. Qur`anın kəlmələri və məfhumları onun əzəmətini göstərir.
3. Qur`anın bünövrəsi möhkəmdir və heç bir şey bu bünövrəni lərzəyə gətirə bilməz. Bəşər elmi inkişaf etdikcə Qur`andan daha çox sirlər kəşf edilir.
4. Qanun və kitab həm mökəm, həm də aydın olmalıdır. (Qeyri-ilahi qanunlar isə ya davamsızdır, ya qaranlıqdır, ya da hikmət və agahlıqdan məhrumdur.)
5. Qur`an həm dəlillərlə möhkəmlənmişdir, həm də dünya və axirət həyatının bütün yönümlərini əhatə edir.
6. Qur`an Peyğəmbərin (s) qəlbinə bütöv şəkildə nazil olmuş, 23 il müddətində açıqlanmışdır.
7. Allah-təala hikmət sahibi olduğundan Onun kitabı da möhkəmdir. Allah "Xəbir", yə`ni agah olduğundan, Onun kitabında bütün ehtiyaclara cavab verilmişdir.
8. Təkallahlığa və tövhidə də`vət bütün peyğəmbərlərin şüarıdır.
9. Səmavi kitabların nazil olmasında məqsəd tövhidin bərpası və cəmiyyətin şirkdən paklanmasıdır.
10. Tövhidə də`vət, xəbərdarlıq və müjdə Allahın möhkəm kəlamının nümunəsidir.
11. Peyğəmbər Allah tərəfindən xalqın səadəti üçün gəlmişdir.
12. Peyğəmbərin təbliğ üslubu xəbərdarlıq və müjdədir.

**Ayə 3:**

﴿وَأَنِ اسْتَغْفِرُواْ رَبَّكُمْ ثُمَّ تُوبُواْ إِلَيْهِ يُمَتِّعْكُم مَّتَاعًا حَسَنًا إِلَى أَجَلٍ مُّسَمًّى وَيُؤْتِ كُلَّ ذِي فَضْلٍ فَضْلَهُ وَإِن تَوَلَّوْاْ فَإِنِّي أَخَافُ عَلَيْكُمْ عَذَابَ يَوْمٍ كَبِيرٍ﴾

**“Rəbbinizdən bağışlanma diləyin və Ona doğru qayıdın ki, sizi müəyyən bir müddət xeyir bəhrəyə çatdırsın, fəzilətinə görə artırsın. Əgər üz döndərsəniz, şübhəsiz mən böyük günün sizə əzabından qorxuram.”**

## *Nöqtələr*

◘Ötən ayədə tövhid haqqında danışıldı. Bu ayədə isə Allaha doğru qayıdış və tövhid yolunu tutmaq mövzuları bəyan olundu.

◘“Mətaən həsənən”, yə`ni ruhi aramlıqla müşayiət olunan xoş bir həyat deməkdir. Halbuki başqaları maddi baxımdan rifah içində yaşasalar da, Allah zikrindən uzaq düşdükləri üçün acı bir ömür sürürlər.

## *Bildirişlər*

1. Peyğəmbərlərin vəzifələrindən biri azğınların tərbiyəsidir.
2. İnsan nə qədər ki, günah yükünü yerə qoymayıb, haqqa doğru pərvaz edə bilməz.
3. Günahdan uzaqlaşmaq kafi deyil, Allaha doğru hərəkət də lazımdır.
4. Tövbə vacibdir.
5. Günaha görə tövbə qılmaq Allahın maddi ne`mətlərinin nazil olmasına səbəb olur.
6. Kafirlərin və günahkarların ixtiyarında olan imkan fitnə-fəsad yolunda sərf olunduğundan bərəkətsiz sayılır.
7. İslam dini gözəl yaşayışa diqqətlidir.
8. İman və tövbə insanın həyatının ölüm gününədək sığortalayır.
9. Tövbə həm keyfiyyət, həm də kəmiyyətcə üstün bəhrələnmə rəmzidir.
10. Tövbə qəfil ölümlərin qarşısını alır.
11. Ölüm vaxtı insana məchuldur.
12. Qiyamətdə insanların dərəcələri fərqlidir. Dünyada daha çox fəzilət əldə edən şəxs axirətdə daha çox lütfə çatır.
13. Peyğəmbərlər xalqa can yandırmışlar.
14. Tövbəni tərk etmək böyük (kəbirə) günahdır.

**Ayə 4:**

﴿إِلَى اللّهِ مَرْجِعُكُمْ وَهُوَ عَلَى كُلِّ شَيْءٍ قَدِيرٌ﴾

**“Sizin qayıdışınız Allaha doğrudur və O, hər şeyə qadirdir.”**

**Ayə 5:**

﴿أَلا إِنَّهُمْ يَثْنُونَ صُدُورَهُمْ لِيَسْتَخْفُواْ مِنْهُ أَلا حِينَ يَسْتَغْشُونَ ثِيَابَهُمْ يَعْلَمُ مَا يُسِرُّونَ
وَمَا يُعْلِنُونَ إِنَّهُ عَلِيمٌ بِذَاتِ الصُّدُورِ﴾

**“Bilin ki, müxaliflər özlərini peyğəmbərdən gizləmək üçün baş və sinələrini bir-birinə yaxınlaşdırır, libaslarını başlarına çəkirlər. Allah onların bütün gizli və aşkar işlərini bilir. Həqiqətən, O, sinələrin dərinliyində olan sirlərdən agahdır.”**

## *Nöqtələr*

¤“Yəsnunə” dedikdə iki şeyi yaxınlaşdırmaq mə`nası anlaşılır. Qəlbdə kin saxlamaq da bu sözlə ifadə olunur. Beləcə, “yəsnunə sudurəhum” dedikdə, ya kafirlərin məxfi danışıq üçün bir-birinə yaxınlaşması, ya da qəlblərində peyğəmbərlərə kin saxlamaları başa düşülür.

¤“Nuh” surəsinin 7-ci ayəsində oxuyuruq: “Kafirlər barmaqlarını qulaqlarına tutur, libaslarını başlarına çəkirlər ki, peyğəmbərlərin nidasını eşitməsinlər.”

### Məadı inkar edənlərin əsasən iki iradı var:

a) Hansı qüdrət ölüləri dirildə bilər? (Dördüncü ayə bu suala cavab verir: “Allah hər bir işə qadirdir.”)

b) Səpələnmiş zərrələr bir yerə necə toplana bilər? (Bu sualı 5-ci ayə cavablandırır: “Həqiqətən, O, sinələrin dərinliyindəki sirlərdən agahdır.”)

## *Bildirişlər*

1. Qayıdışımız yalnız Allaha doğrudur.
2. Ötən ayələrdə tövhid və nübuvvət mövzuları, bu ayədə isə məad mövzusu bəyan olunur.
3. Tutaq ki, öz pis məqsədlərinizi peyğəmbərdən gizlədiniz. Axı Allah sinələrdəki sirlərdən agahdır!

## ON İKİNCİ CÜZ

**Ayə 6:**

﴿وَمَا مِن دَآبَّةٍ فِي الأَرْضِ إِلاَّ عَلَى اللّهِ رِزْقُهَا وَيَعْلَمُ مُسْتَقَرَّهَا وَمُسْتَوْدَعَهَا كُلٌّ فِي كِتَابٍ مُّبِينٍ﴾

**“Yer üzündə elə bir canlı yoxdur ki, Allah onun ruzisini verməsin. O, daimi və müvəqqəti yerləri bilir. Hər biri aşkar kitabda qeydə alınmışdır.”**

### *Nöqtələr*

◘”Dəbib” sözündən olan “dabbət” sözü aram yolu getmək, kiçik addımlar atmaq mə`nasını bildirir. Bu söz bütün canlılara aid edilir.

◘“Rizq” dedikdə ardıcıl bəxşiş nəzərdə tutulur. Bu bəxşiş həm maddi, həm də mə`nəvi ola bilər. Bu məsələ duada da öz yerini tapmışdır.[1] Allahın verdiyi ruzi hər bir cəhətdən mövcudlara münasibdir. Məsələn, ana bətnindəki uşağın qidası onun ehtiyacına uyğun olaraq dəyişir. Körpə anadan olduqdan sonra həmin qida süd şəklinə düşür. Təbii ki, insanlar bətndəki körpəni qidalandıra bilməzdilər. Körpə özü də özünü tə`min etməkdə acizdir.[2]

◘“Mustəqərr” sabit yer mə`nasını bildirir. “Mustəvdəə” dedikdə əmanət qoyub götürmək başa düşülür. Bu söz müvəqqəti yer mə`nasını bildirir.

◘Həzrət Əli (ə) oğlu imam Həsənə (ə) vəsiyyətində belə buyurur: “Ruzi iki növdür: bir növünü çalışmaqla əldə edirsən, digər növü isə özü sənin sorağına gəlir.”[3] Günəş işığı, yağış, hava, hafizə və iste`dad insanın sorağına gələn ne`mətlərdəndir.

Ayə belə anlaşılmamalıdır ki, insan bir bucaqda oturub səmadan ruzi gözləməlidir. Məqsəd budur ki, insan çalışıb ruzi əldə etdikdə, onu Allah tərəfindən bilməlidir. Bu səbəbdən də bütün din öncüllərimiz sə`y göstərmişlər.

◘Bütün mövcudlara ruzi çatdırmağın şərti onların yerindən və ehtiyaclarından xəbərdarlıqdır. Olduqca dəqiq bir sistem əsasında bütün varlıq aləminin son ehtiyaclarından xəbər tutmaq olar. Ruzi yetirən varlıq insanların, heyvanların sayını, onların fərdi xüsusiyyətlərini və ən çeşidli ehtiyaclarını bilməlidir.

◘Əgər bütün biliklər Qur`anda toplanmışsa, demək kitabdan xəbərdar olan kəs hər şeyi bilir. “Rə`d” surəsinin son ayəsində oxuyuruq: “Kafirlərə de ki, mənim şahidim Allahdır və kitab elmini bilən kəs.” Şiə və sünni rəvayətlərində nəql olunur ki, kitab elmini bilən kəs dedikdə, Həzrət Əli (ə) nəzərdə tutulmuşdur.

◘Allahın iki sünnəsi, qanunu var: bu qanunlardan biri ruzi yetirmək, digəri işlərin vasitələrlə gerçəkləşdirilməsidir. Deməк, ruziyə çatmağın insanın sə`yi ilə heç bir ziddiyyəti yoxdur.

---

[1] “Bihar”, c. 95, s. 258.
[2] “Ənkəbut”, 60.
[3] “Bihar”, c. 5, s. 147.

## *Bildirişlər*

1. Diri varlığın qidalanma haqqı var. Allah canlı varlıqları qidalandırmağı Özü üçün zəruri etmişdir.

2. Bizim ruzimiz Allahın əlindədir, başqalarının qarşısında boyun əyməyək.

3. Ruziyə görə nə hərislik göstərək, nə də qorxaq.

4. Allah həm ruzi mənbələri vermiş, həm də onun əldə olunması üçün ağıl və vasitə əta etmişdir.

5. İstər səfərdə, istərsə də vətəndə, harada olsaq, Allahın nəzəri altındayıq.

6. Bu dünyanın bütün mə`lumatları dəqiq şəkildə qeydə alınır.

**Ayə 7:**

﴿وَهُوَ الَّذِي خَلَق السَّمَاوَاتِ وَالأَرْضَ فِي سِتَّةِ أَيَّامٍ وَكَانَ عَرْشُهُ عَلَى الْمَاء لِيَبْلُوَكُمْ أَيُّكُمْ أَحْسَنُ عَمَلاً وَلَئِن قُلْتَ إِنَّكُم مَّبْعُوثُونَ مِن بَعْدِ الْمَوْتِ لَيَقُولَنَّ الَّذِينَ كَفَرُواْ إِنْ هَذَا إِلاَّ سِحْرٌ مُّبِينٌ﴾

**“O, göyləri və yeri altı gündə xəlq edən kəsdir. Onun ərşi (hökuməti) su üzərində qərar tutmuşdur ki, hansınızın xeyir əməl sahibi olduğunu müəyyənləşdirmək üçün sınağa çəksin. Əgər desən ki, siz öləndən sonra diriləcəksiniz, şübhəsiz, kafirlər deyəcəklər ki, bu aşkar sehrdən başqa bir şey deyil.”**

## *Nöqtələr*

◘Ayədə “altı gün” deyərkən altı mərhələ, dövr nəzərdə tutulmuşdur. Çünki yaranışın əvvəlində gecə-gündüzü müəyyənləşdirəcək günəş yox idi.

◘“Ərş” dedikdə çardaq və üstü örtlü bir yer, həmçinin padşahların hündür taxtı nəzərdə tutulur. Bə`zən bu söz hansısa qüdrətə işarə olur. Məsələn, deyirlər ki, filankəs taxta oturdu, yə`ni qüdrətə çatdı.

◘***Sual***: Ayədə bildirilir ki, yaranışın məqsədi insanın sınağa çəkilməsidir. Başqa ayələrdə isə fərqli məqsədlər bəyan olunmuşdur. Burada ziddiyyət yoxdurmu?

***Cavab***: Məqsədlər ardıcıl mərhələli şəkilə malik olur. Məsələn, şum əkin üçündür, əkin buğda üçündür, buğda çörək üçündür, çörək isə insan üçün. Qur`anda da məqsədlər bu sayaq mərhələli bəyan olunmuşdur:

a) Yaranış sınaq üçündür.

b) Sınaq yaxşını pisdən seçmək üçündür.[1]

v) Yaxşını pisdən ayırmaq mükafat və cəza üçündür.[2]

q) Mükafat və cəza və`d olunmuş əməl üçündür.[3]

---

[1] “Ənfal”, 37.

[2] “Casiyə”, 22.

[3] “Ənbiya”, 104.

◘Həzrət Əli (ə) buyurmuşdur: “İlahi sınaq bilgi qazanmaq üçün deyil. Allah hər şeydən agahdır. Sınağın məqsədi insanın reaksiyasıdır. İnsan yaxşı əməlinə görə mükafat, pis əməlinə görə cəza alır.[1]

◘Rəvayətlərdə ağıl və təqvaya əsaslanan əməl xeyir, gözəl əməl sayılmışdır.[2] İmam Sadiq (ə) buyurmuşdur: “Əməlin gözəlliyi onun çoxluğunda yox, elm, ixlas və təqva ilə müşayiət olunmasındadır.”[3]

## *Bildirişlər*

1.Cahan insan üçün yaradılmışdır.

2. Allah bütün varlıq aləmini bir anda yarada bilsə də, ilahi hikmət səbəbindən tədrici yaranışa üstünlük vermişdir.

3. Göylərin və yerin maddi qaynağı su və maye olmuşdur.

4. Su göylərdən və yerlərdən öncə var idi.

5. Bütün mövcudların yaranmasında məqsəd insanın mə`nəvi və azad inkişafı olmuşdur.

6. Əməlin kəmiyyəti yox, keyfiyyəti mühümdür.

7. Göylər və yer ləzzət və qəflət üçün yox, yaxşı iş üçün xəlq olunmuşdur.

8. Məadı inkar edənlərin heç bir dəlili yoxdur, onlar yalnız böhtan atırlar.

**Ayə 8:**

﴿وَلَئِنْ أَخَّرْنَا عَنْهُمُ الْعَذَابَ إِلَى أُمَّةٍ مَّعْدُودَةٍ لَّيَقُولُنَّ مَا يَحْبِسُهُ أَلاَ يَوْمَ يَأْتِيهِمْ لَيْسَ مَصْرُوفًا عَنْهُمْ وَحَاقَ بِهِم مَّا كَانُواْ بِهِ يَسْتَهْزِؤُونَ﴾

**“Əgər əzabı məhdud bir müddət onların üzərindən götürsək, (məsxərə ilə) deyərlər: “Bizə əzabın qarşısını hansı əməl aldı?“ Bilin ki, qəhr və əzabımız onların sorağına gələn gün geri götürülməz. Məsxərə etdikləri şey onları yaxalayar.”**

## *Nöqtələr*

◘“Ümmət” dedikdə, müştərək hədəfə malik dəstə və ya zaman nəzərdə tutula bilər. Məhdud bir müddət dedikdə, müəyyən və məhdud zaman nəzərdə tutulur. Bu təbirlə “Yusuf” surəsinin 45-ci ayəsində də rastlaşırıq: “Məhbus azad olub bir müddət sonra Yusifi yada saldı.”

◘Bə`zi rəvayətlərə əsasən “məhdud müddət” tə`biri həzrət Mehdinin (ə) qiyam dövrünə işarə ola bilər. Yə`ni Allah-təala həmin vaxtadak ümmət üzərindən əzabı götürmüşdür.[4]

---

[1] “Nəhcül-bəlağə”, x. 144.
[2] “Təfsire-Məcməül-bəyan”; “Bihar”, c. 74, s. 93.
[3] “Təfsire-Kənzud-dəqaiq”.
[4] “Təfsire-kənzul-dəqaiq”.

◘İlahi əzabın tə`xirə düşməsində faydalar var. Belə bir tə`xir günahkara tövbə fürsəti verir, günahkar valideynlərdən mö`min övladlar doğulur. Bundan əlavə saleh fərdlərin varlığı və onların duaları ilahi əzabın tə`xirə düşməsinə səbəb olur.

### *Bildirişlər*

1. Allah Öz işləri üçün vaxt müəyyənləşdirmişdir.
2. Allahın qəhr-qəzəbi tə`xirə düşə bilər.
3. Əzabın tə`xirə salınması Allahın lütf nişanələrindəndir. Bunu Allahın zəifliyi kimi qəbul edib məsxərəyə qoyanlar yanılırlar.
4. Məsxərə edənlər Allahın qəzəbindən qurtulmazlar.
5. Allahın verdiyi möhlət bizi qürrələndirməsin. İlahi əzab tə`xirə düşsə də, ləğv olunmaz.
6. Dini inancların məsxərəyə qoyulması kafirlərin xasiyyətidir.

**Ayə 9:**

﴿وَلَئِنْ أَذَقْنَا الإِنْسَانَ مِنَّا رَحْمَةً ثُمَّ نَزَعْنَاهَا مِنْهُ إِنَّهُ لَيَئُوسٌ كَفُورٌ﴾

**“Əgər insana Öz tərəfimizdən bir ne`mət daddırsaq, sonra onu geri alsaq, şübhəsiz, o, ümidsiz və naşükür olacaq.”**

### *Nöqtələr*

◘Ne`mətin verilməsi məhəbbət, geri alınması qəzəb kimi başa düşülməməlidir. Bütün bunlar sadəcə ilahi sınaq ola bilər.

◘İnsan ilahi hikmət və məsləhətdən xəbərsiz olduğundan, tələsik mühakimə yürüdən və mə`yus olub küfrə uğrayandır.

### *Bildirişlər*

1. İnsan ne`mətlərdən yalnız dadmaq həddində faydalana bilir.
2. İlahi ne`mətlər bizim haqqımız yox, Allahın fəzl və rəhmətidir.
3. İnsanın bəhrələnməsi uzun çəkdikdə qürrələnməməlidir.
4. Həm vermək, həm də geri almaq Allahın əlindədir.
5. İnsanı rəhmətdən məhrum etmək Allaha ağır gəlir.
6. İnsanın tutumu azdır. O, ne`mətləri əldən verdikdə mə`yus olur.
7. Dünya şirinlikləri Allaha olan imanımıza tə`sir etməməlidir.
8. İlahi rəhmətdən ümidsizlik küfr və naşükürlüyün müqəddiməsidir.[1]

**Ayə 10:**

﴿وَلَئِنْ أَذَقْنَاهُ نَعْمَاء بَعْدَ ضَرَّاء مَسَّتْهُ لَيَقُولَنَّ ذَهَبَ السَّيِّئَاتُ عَنِّي إِنَّهُ لَفَرِحٌ فَخُورٌ﴾

**“İnsana çətinlik və möhnətdən sonra bir ne`mət daddırsaq, (qürrələnib) deyər: “Həqiqətən, çətinliklər məndən kənarlaşdı. Şübhəsiz, o, sevinib öyünəndir.”**

---

[1] “Yusuf”, 87.

## *Nöqtələr*

◘Dövran həmişə bir cür olmur. Rəvayətlərə əsasən zəmanənin iki üzü var: bə`zən səninlədir, bə`zən sənə qarşı. Sənin xeyrinə olduqda qürrələnmə, zərərinə olduqda səbir et. Çünki hər iki halda ilahi sınaqdasan.”[1]

◘Çətinlik və müşküllərdən sonra insana çatan ne`mətlər onu lovğalığa yox, şükrə sövq etməlidir.

◘İki şey şadlığı təhlükəli edir: yanlış təhlil və başqalarının təhqiri.

## *Bildirişlər*

1. İnsan tutumsuzdur. Azca ne`mət əldə edən kimi qürrələnir.
2. Qur`anın xüsusi bir vəzni və ahəngi var.
3. Çətinliklər və şadlıqlar ötəridir.
4. İnsan düşünsə ki, bir daha çətinliklə üzləşməyəcək, səhv edir.
5. Elə düşünməyək ki, ne`mət əldə etməyimiz Allahın məhəbbətini göstərir. Deməyək ki, bir daha çətinliyə düşməyəcəyik.
6. Yanlış təhlil və baxış yanlış rəftara aparır. Özündə pislik görməyən insan qürrələnir.
7. Bə`zi insanların şəxsiyyəti kövrəkdir və xarici hadisələrlə müəyyənləşir. Əslində isə daxili kamillik dəyərdir.

**Ayə 11:**

﴿إِلاَّ الَّذِينَ صَبَرُواْ وَعَمِلُواْ الصَّالِحَاتِ أُوْلَئِكَ لَهُم مَّغْفِرَةٌ وَأَجْرٌ كَبِيرٌ﴾

**“Yalnız səbir və saleh əməl sahibləri istisnadır (məhrumluqdan mə`yus olmur, ne`mət əldə edəndə qürrələnmirlər). Onlar üçün bağışlanma və böyük mükafat olacaq.”**

## *Nöqtələr*

◘Qur`anın saleh əməllə bağlı bütün söhbətləri imanla şərtlənir. Bu ayədə də səbir əhlinin həqiqi mö`minlərdən olduğu bildirilir. Tutumsuz müsahibləri nəzərə alaraq mö`minlər əvəzində səbirlər tə`biri işlədilmişdir.

◘Səbir təkcə acı hadisələrə yox, rifah və şadlıq dönəminə də aiddir. Rifah içində yaşayan insan səbir etməsə, həddini aşar. Necə ki, Bəni-İsrail Fir`onun əlindən qurtulduqdan sonra tüğyan etdi.[2] Onlar Allahı yaddan çıxarıb buzovpərəstlik ardınca getdilər, Harunun də`vətlərinə onu hədələməklə cavab verdilər.[3]

---

[1] “Bihar”, c. 73, s. 81.
[2] “Maidə”, 20.
[3] “Ə`raf”, 150.

## *Bildirişlər*

1. Acı hadisələr və şirin dönəmlər zamanı səbir etmək saleh əməlin ən üstün nümunələrindəndir.
2. Mö`min nə mə`yus olur, nə də küfr edir. O, şükür edən və səbirlidir.
3. Saleh əməl səbri möhkəmləndirir.
4. Səbir və dözüm günahların bağışlanma vasitəsidir.
5. Qarşıda bizi nə gözlədiyini bilsək, səbir etmək şirin olar.
6. Təhlükənin dəf olunması bağışlanmaya çatmaqdan mühümdür.

**Ayə 12:**

﴿فَلَعَلَّكَ تَارِكٌ بَعْضَ مَا يُوحَى إِلَيْكَ وَضَآئِقٌ بِهِ صَدْرُكَ أَن يَقُولُواْ لَوْلاَ أُنزِلَ عَلَيْهِ كَنزٌ أَوْ جَاء مَعَهُ مَلَكٌ إِنَّمَا أَنتَ نَذِيرٌ وَاللّهُ عَلَى كُلِّ شَيْءٍ وَكِيلٌ﴾

**“Bəlkə də sənə vəhy olanın bə`zisini (xalqın qəbul etməməsi səbəbindən) tərk edəsən və “nə üçün ona bir xəzinə nazil olmadı və ya onunla bir mələk gəlmədi” dedikləri üçün ürəyin sıxıla. Sən yalnız xəbərdarlıq edənsən və Allah hər şeyə vəkildir.”**

## *Nöqtələr*

◘Bə`zən kafirlər Peyğəmbərdən (s) tələb edirdilər ki, Məkkə dağlarını mö`cüzə ilə qızıla çevirsin. Ya da onun təsdiqi üçün mələk gəlməsini istəyirdilər. Bə`ziləri də qəlblərindəki kin-küdurət səbəbindən Həzrət Əli (ə) ilə bağlı Peyğəmbər (s) buyruqlarını qəbul etmək istəmirdilər. Bu səbəbdən də Peyğəmbərin (s) qəlbi sıxılırdı. Beləcə, ilahi göstərişlərin bəyanı tə`xirə salınırdı. Amma bu tə`xir Peyğəmbərin (s) paklığına zidd deyildi. Bə`zən ilahi göstəriş ilahi məsləhətə xatir dərhal bəyan olunmaya bilər. Amma bu ayə vasitəsi ilə bütün mülahizələr kənara qoyuldu və ayə qətiyyətlə e`lan olundu.

◘Ola bilsin ki, vəhyin bəyan olunmasının tərki yalnız hidayətinə ümid bəslənilməyən inadkar fərdlərə aid idi. Amma Allah-təala göstəriş verdi ki, onlar iman gətirməsələr də, Peyğəmbər (s) öz vəzifəsini tərk etməsin.

Ayə başqa cür də mə`nalandırıla bilər: kafirlər o qədər biganə idilər ki, sanki onlara vəhy oxunmamışdı. Beləcə, Peyğəmbərin (s) qəlbini sıxan bə`zi ayələrin bəyanının tərki fikri ola bilər.

## *Bildirişlər*

1. Təbliğatçı Allah kəlamının bəyanında qətiyyətli olmalıdır. Xalqın bəhanələri heç bir vəchlə nəzərə alına bilməz.
2. Də`vət zamanı “sən beləsən” əvəzinə “məbada belə olasan” tə`birini işlədək.
3. Kafirlər fiziki əziyyətlərdən əlavə, müxtəlif bəhanələri ilə Peyğəmbəri (s) sıxıntıda saxlayırdılar.
4. Xalqın ağlı onun gözündədir. Onlar risaləti yalnız var-dövlətlə birlikdə qəbul edirlər.

5. Biz nəticəyə yox, vəzifəmizi yerinə yetirməyə zaminik. Sən vəzifənə əməl et, qalan işləri Allahın öhdəsinə burax.

6. Təbliğatçının vəzifəsi məcburiyyət yox, xəbərdarlıqdır.

7. Mö`cüzələrin gerçəkləşməsi xalqın istəyi, Allahın işidir.

**Ayə 13:**

﴿أَمْ يَقُولُونَ افْتَرَاهُ قُلْ فَأْتُواْ بِعَشْرِ سُوَرٍ مِّثْلِهِ مُفْتَرَيَاتٍ وَادْعُواْ مَنِ اسْتَطَعْتُم مِّن دُونِ اللّهِ إِن كُنتُمْ صَادِقِينَ﴾

**“Ya da deyirlər: “O, Qur`anı özündən düzəltmişdir.” De ki, əgər doğru deyirsinizsə, siz də özünüzdən on surə düzəldib gətirin. (Bu işdən ötrü) hər kəs Allahdan qeyri istədiyini (köməyə) çağırsın.”**

## *Nöqtələr*

◘Qur`an təkcə fəsahət və bəlağət baxımından mö`cüzə deyil, onun maarifi, moizələri, dəlilləri, qeybi xəbərləri və qanunları da mö`cüzədir. Çünki Qur`an təkcə Qur`anın fəsahət və bəlağətini anlayan ərəbləri yox, bütün xalqları də`vət edir. Digər bir ayədə buyurulur: “Əgər bütün ins və cin bir yerə toplanarsa, Qur`anın mislini gətirə bilməz.”[1]

◘Qur`anın e`cazkar cəhətləri çoxdur: onun qiraətindəki şirinlik; iyirmi üç il ərzində nazil olmasına baxmayaraq məzmun həmahəngliyi; həmin dövrədək mə`lum olmayan elmlərin bəyanı; sonralar baş verəcək hadisələrin öncədən xəbər verilməsi; nişanəsi qalmamış qədim qövmlərin tarixi xəbərləri, insanın fərdi və ictimai həyatını əhatə edən ümumi və kamil qanunların bəyanı; təhrifdən uzaqlıq; daimi aktuallıq.

◘Bütün bu yüngülləşdirmə və təhriklərə baxmayaraq bəşər yenə acizdir. Qur`an bir yerdə “bütün Qur`anın oxşarını gətirin”[2]. Başqa bir yerdə ”Qur`anın on surəsinin oxşarını gətirin”, üçüncü bir yerdə “Qur`anın bir surəsinin oxşarını gətirin,”[3] deyə müxalifləri mübarizəyə çağırır. Qur`an öz mübarizə çağırışında qarşı tərəf üçün çətinlik yaratmamaqla yanaşı həm də təhrik edir. Bir yerdə “əgər cin və ins əl-ələ versələr də belə, bacarmazlar”, digər bir yerdə “yer üzünün bütün beyinlərini də`vət edin” deyə qarşı tərəf mübarizəyə təşviq olunur. Tarix də sübuta yetirmişdir ki, İslama qarşı müharibələr alovlandırmış düşmənlər Qur`anın bir surəsinə oxşar surə gətirə bilməmişlər. Məgər bu mö`cüzə deyil?!

## *Bildirişlər*

1. Kafirlər öz iddialarına dəlil göstərmək əvəzinə, Peyğəmbərə (s) böhtan atırdılar ki, Qur`an Allah kəlamı yox, Peyğəmbərin (s) öz sözləridir.

2. Qur`an tarixin əbədi mö`cüzəsidir.

---

[1] “İsra”, 88.
[2] “İsra”, 88.
[3] “Bəqərə”, 23.

### Ayə 14:

﴿فَإِن لَّمْ يَسْتَجِيبُواْ لَكُمْ فَاعْلَمُواْ أَنَّمَا أُنزِلِ بِعِلْمِ اللّهِ وَأَن لاَّ إِلَهَ إِلاَّ هُوَ فَهَلْ أَنتُم مُّسْلِمُونَ﴾

**“Əgər sizə (kömək istəyinizə) cavab verə bilməsələr, bilin ki, nazil olan şey Allahın elminə əsaslanır və Ondan başqa mə`bud yoxdur. (Bu halda) təslim olursunuzmu?!”**

## *Nöqtələr*

◘Kafirlər Peyğəmbərə (s) böhtan atırdılar ki, o, Qur`anı başqa birindən öyrənib.[1] Qur`an onlara cavab verir ki, bu kitabın qaynağı başqalarının dediyi yox, ilahi elmdir. Bə`zən də deyirdilər ki, Qur`an onun öz sözləridir, amma başqaları ona kömək etmişlər.[2] Bu ayə bütün böhtanlara cavab verir.

## *Bildirişlər*

1. Qur`anın qaynağı Allahın sonsuz elmidir.
2. Qur`an bəşərə məxsus ehtimal, fərziyyə, xəyal və düşüncə deyil. Bu kitab Allahın elminə əsaslanır.
3. Qur`an ilahi elmə əsaslandığından zaman, məkan, irq və nəsil kimi məhdudiyyətləri tanımır.
4. Qur`anın sirləri Allahın sonsuz elmi kimi tükənməzdir.
5. Düşmənlərin küfr və tərəddüdü sizi Allahın birliyi və Qur`an ilə bağlı şübhəyə salmasın.

### Ayə 15:

﴿مَن كَانَ يُرِيدُ الْحَيَاةَ الدُّنْيَا وَزِينَتَهَا نُوَفِّ إِلَيْهِمْ أَعْمَالَهُمْ فِيهَا وَهُمْ فِيهَا لاَ يُبْخَسُونَ﴾

**“Dünya və ondakı gözəllikləri istəyənlərə əməllərinin əvəzini həmin bu dünyada tam verərik. Onda heç bir əskiklik olmayacaq.”**

## *Nöqtələr*

◘***Sual***: Bu ayədə buyurulur ki, dünyapərəstlərə əməllərinin əvəzi elə bu dünyada tam şəkildə verilər. Başqa bir ayədə isə hər kəsə Allahın istəyi həddində əta olunacağı bildirilir.[3] Bu iki ayə bir-birinə zidd deyilmi?

---

[1] “Furqan”, 5.
[2] “Furqan”, 4.
[3] “İsra”, 18.

***Cavab***: Bu ayədə buyurulur ki, işlərinin nəticəsini verərik. O biri ayədə isə işdən yox, arzudan danışılır. Allah-təala buyurur ki, bə`ziləri öz arzularının bir hissəsinə çatar.

◘Məada inanmayan və Allahın razılığı üçün iş görməyənlərin Allahdan heç bir alacağı yoxdur. Onlar elə bu dünyada ad-san qazanmaqla öz xidmətlərinin və ixtiralarının əvəzini alırlar. Axirət mükafatını yalnız axirətə inananlar gözləyə bilər. Nə Allahı, nə də axirət dünyasını qəbul etməyənin hansı tələbi ola bilər?!

◘Axirət əvəzinə dünya, əbədilik əvəzinə fanilik, sonsuzluq əvəzinə məhdudiyyət ardınca gedənlərin əməllərinin nəticəsi fani dünyada məhdudlaşacaq.

## *Bildirişlər*

1. Əməlin özü yox, onun məqsədi mühümdür.
2. İnsan azaddır və istədiyi yolu seçə bilər.
3. Allah ədalətlidir. Hətta Onun razılığını gözləməyənlərin dünya mükafatını əskiltmir.
4. Dünyapərəstlik haqqın qəbul olunmamasının dəlilidir.

**Ayə 16:**

﴿أُوْلَئِكَ الَّذِينَ لَيْسَ لَهُمْ فِي الآخِرَةِ إِلاَّ النَّارُ وَحَبِطَ مَا صَنَعُواْ فِيهَا وَبَاطِلٌ مَّا كَانُواْ يَعْمَلُونَ﴾

**“Onlar qiyamətdə oddan savay bir şeyi olmayanlardır. Dünyada hazırladıqları şeylər havaya sovruldu. Gördükləri əməllər batil və səmərəsiz olacaq.”**

## *Nöqtələr*

◘Vəzifəsi ibadət olan və bu işi Allaha yaxınlıq məqsədi ilə yerinə yetirməli olan insan uyğun məqsədi gizləmədikdə gördüyü işlər batildir. Allaha yaxınlıq qəsdi olmadan və dünya üçün görülən işlərin isə nəticəsi yalnız dünyaya aiddir və bu əməl qiyamətdə puça çıxar.

◘Peyğəmbərin (s) ətrafındakılardan biri bir qadına nəzər salıb ona əl uzatdı. Getdiyi yolda uçulan divar onun üz-gözünü yaraladı. Həzrət Peyğəmbər (s) bu əhvalatı eşidib buyurdu: “Allah səni dünyada cəzalandırdı ki, axirətdə əziyyət

çəkməyəsən. Bə`zi fərdlərin isə əməllərinin mükafatı bu dünyada verilir ki, axirətdə bir tələbləri olmasın.”[1]

◘Həzrət Əli (ə) bu ayəni tilavət edərkən buyurmuşdur: “Bir qığılcımı yerə düşdükdə bütün cücərtiləri yaxıb-yandıran oda necə səbir edim?!”[2]

## *Bildirişlər*

1. Axirətdə dünyapərəstlərin əli boşdur.
2. Dünya üçün, riyakarlıqla görülən işlər axirətdə puça çıxır.

**Ayə 17:**

﴿أَفَمَن كَانَ عَلَى بَيِّنَةٍ مِّن رَّبِّهِ وَيَتْلُوهُ شَاهِدٌ مِّنْهُ وَمِن قَبْلِهِ كِتَابُ مُوسَى إِمَامًا وَرَحْمَةً أُوْلَئِكَ يُؤْمِنُونَ بِهِ وَمَن يَكْفُرْ بِهِ مِنَ الأَحْزَابِ فَالنَّارُ مَوْعِدُهُ فَلاَ تَكُ فِي مِرْيَةٍ مِّنْهُ إِنَّهُ الْحَقُّ مِن رَّبِّكَ وَلَكِنَّ أَكْثَرَ النَّاسِ لاَ يُؤْمِنُونَ﴾

**“Rəbbi tərəfindən aşkar dəlili olan, ardınca Ondan (Allahdan) bir şahid gələn, bundan öncə Musanın kitabı rəhbər və rəhmət olmuş (həmin kitabda gəlişi müjdə verilmiş kimsə başqaları kimi ola bilərmi?”) Onlar (haqpərəstlər) ona iman gətirər. Onu inkar edən dəstədən olan kəsin yeri oddur. Ondan sonra tərəddüddə olma. Şübhəsiz, o (vəhy), xalqın əksəri iman gətirməsə də, Rəbbin tərəfindən gəlmiş bir haqdır.”**

## *Nöqtələr*

◘Əksər şiə mənbələrinin bildirdiyinə əsasən, “şahid” tə`biri Əli ibn Əbi-Talibə (ə) işarədir.[3] Bu həqiqəti Həzrət Əli (ə) də öz xütbəsində təsdiqləmişdir.

◘Bu ayəyə əsasən, Peyğəmbərin (s) şahidi onun özündəndir. Şiə və sünni rəvayətlərinə əsasən, Peyğəmbər (s) buyurmuşdur: “Mən Əlidənəm, Əli də məndən.”[4]

◘“Rə`d” surəsinin son ayəsində bildirilir ki, Peyğəmbər (s) kafirlərin müəyyən iradlarının cavabında buyurdu: “Mənimlə sizin aranızda şahidlik üçün Allah və kitab elmi olan kəs bəs edər.” Şiə və sünni rəvayətlərinə əsasən, həzrət öz buyruğunda Əli ibn Əbi-Talibi (ə) nəzərdə tutmuşdur. Əli (ə) ilə bağlı bə`zi yerdə “şəhid”, bə`zi yerdə “şahid” kəlmələri işlədilmişdir.

## *Bildirişlər*

1. Öz təbliğatınızda qarşı tərəfin sağlam vicdanını məntiqi suallarla mühakiməyə çağırın.
2. Qur`an Allahın xalqa höccəti, dəlilidir.

---

[1] “Təfsire-Məcməül-bəyan”.
[2] “Bihar”, c. 40, s. 346.
[3] “Təfsire-Nurus-səqəleyn”. “Kafi”, c. 1, s. 190.
[4] “Səhihe-Buxari”, “Kitabe-sülh”, “Müsnəde-Əhməd Hənbəl”, c. 5, s. 356.

3. Peyğəmbərin həyatı dövründə ona ardıcıl olan kəs peyğəmbərdən sonra da onun canişinidir.

4. Haqpərəst və fədakar ardıcılların varlığı peyğəmbərləri tanıma yollarından biridir.

5. Allah xalq üçün höccəti, zəruri dəlilləri tamamlamışdır. Həm Qur`an özü mö`cüzədir, həm də onun Əli ibn Əbi-Talib (ə) kimi şahidi var. Bu həqiqət həm də Tövrat tərəfindən müjdə verilmişdir.

6. Səmavi kitablar bir-birlərini təsdiqləyir.

7. Təbliğdə qarşı tərəfi tanımaq mühümdür. Hicazda yəhudilər məsihilərdən çox idi. İncildə də müjdələr verilməsinə baxmayaraq, Qur`an yəhudilərə müraciət edir.

8. Səmavi kitablar və ilahi qanunlar xalq üçün hidayət yolu və rəhmət vasitəsidir.

9. Xalq səmavi kitabı özünə rəhbər götürməlidir.

10. İmamət və rəhmət yanaşı olmalıdır.

11. Ölçü və mehvər firqə yox, həqiqətdir. Firqə, irq, məntəqə fərqlərinə yox, haqqa əsaslanq.

12. Hansı tayfadan və firqədən olmasına baxmayaraq bütün insanlar Qur`ana üz tutmalıdırlar. Əks təqdirdə, bəşəriyyəti Allahın qəhri gözləyir.

13. Bə`zilərinin küfrü mö`minləri süstləşdirməsin.

14. Çoxluq haqlılıq nişanəsi deyil.

**Ayə 18:**

﴿وَمَنْ أَظْلَمُ مِمَّنِ افْتَرَى عَلَى اللّهِ كَذِبًا أُوْلَئِكَ يُعْرَضُونَ عَلَى رَبِّهِمْ وَيَقُولُ الأَشْهَادُ
هَؤُلاء الَّذِينَ كَذَبُواْ عَلَى رَبِّهِمْ أَلاَ لَعْنَةُ اللّهِ عَلَى الظَّالِمِينَ﴾

**“Allaha iftira yaxandan da zalım kimdir? Onlar (qiyamətdə) Rəblərinə tapşırılarlar. Şahidlər deyəcəklər: “Bunlar Rəblərinə iftira yaxan kəslərdir.” Bilin ki, zalımlar Allahın lə`nətinə gələrlər.”**

## *Nöqtələr*

◘Qiyamət mühakiməsinin bir çox şahidi var: bütün əməllərimizə şahid olan Allah[1]; həzrət Peyğəmbər (s)[2]; mə`sum imamlar[3]; mələklər[4]; yer[5]; vicdan[6]; bədən üzvləri[7]; zaman imam Zeynəlabidin (ə) “Səhifeyi-Səccadiyyə kitabının” altıncı duasında qiyamətdə zamanın şahid olacağını qeyd edir.); əməl[8].

---

[1] “Hud”, 17.
[2] “Nisa”, 41.
[3] “Bəqərə”, 143.
[4] “Qaf”, 21.
[5] “Zilzal”, 4.
[6] “İsra”, 14.
[7] “Nur”, 24.
[8] “Kəhf”, 48.

◘***Sual***: Qur`an bir çox günahlarla bağlı cəm formada “əzləm” sözünü işlətmişdir. Məgər zülmlərin ən böyüyü bir zülm deyilmi?

***Cavab***: Bu tə`bir on beş məqamda işlədilsə də, bütün hallarda şirk, iftira, haqqın gizlədilməsi kimi düşüncə azğınlıqlarından söhbət gedir. Beləcə ən böyük zülm düşüncə, mədəniyyət və e`tiqadla bağlı zülmdür.

◘Qur`an bu və bundan əlavə bir neçə ayədə iftiraçı insanların simasından və taleyindən danışaraq buyurur: iftiraçılar insanların ən zalımıdırlar, ilahi lütflərdən məhrumdurlar, qiyamətə imanları yoxdur, həqiqəti təhrif edirlər, Allah yolunu bağlayırlar, qiyamətdə yardımçıları yoxdur, əzabları neçə qat artıqdır, ömürləri puça getmişdir, sə`yləri əbəsdir, varlıqlarını uduzmuşlar.

## *Bildirişlər*

1. Ən böyük zülm Allaha iftira yaxılmasıdır. Dini yazarlar və natiqlər öz fəaliyyətlərində ehtiyatlı olsunlar.
2. Zülmün böyüklüyü onun ünvanından asılıdır.
3. Qiyamətdə pərdələr götürülər və heç bir iş gizli qalmaz.
4. Qiyamətdə çoxları şəhadət verər. Əməllərimizə qarşı diqqətli olaq.

**Ayə 19:**

﴿الَّذِينَ يَصُدُّونَ عَن سَبِيلِ اللّهِ وَيَبْغُونَهَا عِوَجًا وَهُم بِالآخِرَةِ هُمْ كَافِرُونَ﴾

**“Allah yolundan (xalqı) uzaqlaşdıranlar və onu əyməyə çalışanlar özləri axirətə kafir olanlardır.”**

## *Nöqtələr*

◘Düşmənlər Allah yolunda müxtəlif üsullarla maneçilik törədirlər. O cümlədən: bid`ət (dində dəyişiklik), böhtan, şəxsi rə`y əsasında təfsir, uydurma hədislər, şəkk-şübhə yaratmaq, məscidlərin tənəzzülü, Peyğəmbər (s) əhli-beytini bir kənara qoymaq, yaxşı işlərə qadağa, bəhanəçilik, qeyri-sağlam əyləncələr, fərdi məsələlərin qabardılması, şəxsiyyətlər quralamaq, pis işlərə rəvac vermək, mö`minlərin təhqiri, halal şeylərin haram edilməsi, yersiz təşviq, yersiz təbliğat, zalım hakimlərin əzəmətli göstərilməsi və ...

◘Allah övliyalarının, Peyğəmbər (s) əhli-beytinin, mə`sum və adil rəhbərlərin qapısının bağlanması Allah yolunun bağlanmasının bariz nümunələrindəndir.

## *Bildirişlər*

1. Allah yolunu bağlamaq və ya onu əyri göstərmək zülmdür.
2. Düşmən ilkin mərhələdə yolu bağlayır. Əgər bunu bacarmadısa, onu dəyişir.
3. Dini maarifin təhrifi və onun pis göstərilməsi Allah yolunun bağlanması nümunələrindəndir.
4. Allahın dinində heç bir nöqsan və əyrilik yoxdur. Əyintini yaradan müxaliflər özləridir.
5. Axirətə imansızlıq hər növ zülmün müqəddiməsidir.

**Ayə 20:**

﴿أُولَئِكَ لَمْ يَكُونُواْ مُعْجِزِينَ فِي الأَرْضِ وَمَا كَانَ لَهُم مِّن دُونِ اللّهِ مِنْ أَوْلِيَاء يُضَاعَفُ لَهُمُ الْعَذَابُ مَا كَانُواْ يَسْتَطِيعُونَ السَّمْعَ وَمَا كَانُواْ يُبْصِرُونَ﴾

**"Onlar yer üzündə aciz qoya bilməzlər (özləri üçün müəyyənləşdirdikləri bədbəxtliyi aradan qaldırıb qaça bilməzlər). Onların Allah qarşısında heç bir yardımçısı yoxdur. Onlar üçün Allahın əzabı ikiqatdır. (Çünki həm özləri azmış, həm də başqalarını azdırmışlar.) Onların (inadkarlıq səbəbindən) eşitmək gücləri yoxdur və haqqı) görmürlər."**

## *Nöqtələr*

◘***Sual:*** İkiqat əzab verilməsi Allahın ədalətinə sığırmı?

***Cavab***: Başqalarını da yoldan azdıran kəs təbii olaraq onların yükünü çiyninə götürməlidir. Alimlər başqalarına nümunə olduğundan, onların günahı adi fərdlərin günahından bir neçə qat ağırdır. Bütün bunlar ədalətdən kənar deyildir.

## *Bildirişlər*

1.Zülmkarlar Allahın qəhr-qəzəb və qüdrəti əhatəsindədirlər. Onlar sonda öz əməllərinin cəzasını alarlar.

2. İftira əhli elə düşünməsin ki, zalım hakimlərin himayəsi ilə əzabdan qurtula biləcəklər.

3. Başqalarını doğru yoldan çəkindirən azğın rəhbərlər onların da günahlarını öz çiyinlərinə alasıdırlar.

4. Küfr, inadkarlıq, təəssüb azğınların gözünü və qulağını elə bağlamışdır ki, haqqı nə görür, nə də eşidirlər.

**Ayə 21:**

﴿أُوْلَئِكَ الَّذِينَ خَسِرُواْ أَنفُسَهُمْ وَضَلَّ عَنْهُم مَّا كَانُواْ يَفْتَرُونَ﴾

**"Onlar özlərini əldən verənlər və yalandan quraladıqlarına əli çatmayanlardırlar."**

**Ayə 22:**

﴿لاَ جَرَمَ أَنَّهُمْ فِي الآخِرَةِ هُمُ الأَخْسَرُونَ﴾

**"Onlar, şübhəsiz, qiyamətdə fərdlərin ən ziyankarıdırlar."**

## *Nöqtələr*

◘İslamda dünya bazara, xalq tacirə oxşadılır. İnsanın canı, var-dövləti, əməli bu bazarın malıdır. Bu malların alıcısı Allah, şeytan, nəfs istəkləri və başqaları ola bilər. Kimi onu ucuz, kimi də baha qiymətə alır. Qur`anda fayda "əcr", "savab", "zef`", "əz`af" sözləri, zərər isə "xusr", "xusranun mubin", "əxsərin" sözləri ilə bəyan olunur.

Bilməli olduğumuz ən mühüm şey odur ki, istənilən bir zərər-ziyanı aradan qaldırmaq olar. Yalnız ötüb keçmiş ömrü geri qaytarmaq mümkünsüzdür.

◘Bə`zən insanın var-dövləti, məskəni, bə`zən isə özü puça çıxır. Ən böyük zərər insanın öz insanlığını əldən verməsidir.

## *Bildirişlər*

1. Batil və nahaq sözlər zahiri cilvəyə malik olsalar da, tamamilə puç olub gedəsidirlər.
2. Ən böyük zərər var-dövlətin yox, ömrün hədərə getməsidir.
3. Dünya zərərlərini aradan qaldırmaq olur. Qiyamətdəki zərərlər üçün isə heç bir çarə yoxdur.

**Ayə 23:**

﴿إِنَّ الَّذِينَ آمَنُواْ وَعَمِلُواْ الصَّالِحَاتِ وَأَخْبَتُواْ إِلَى رَبِّهِمْ أُوْلَئِكَ أَصْحَابُ الجَنَّةِ هُمْ فِيهَا خَالِدُونَ﴾

**“Həqiqətən, iman gətirib saleh işlər görənlər, Rəbləri qarşısında təvazökar olanlar behişt əhlidirlər. Onlar orada həmişəlik olaraq qalacaqlar.”**

## *Nöqtələr*

◘“Xəbt” sözündən olan “əxbətu” sözü həm təslimçilik, həm təvazö, həm də arxayınlıq mə`nasını bildirir.

◘Xəbərdarlıq və hədə ilə yanaşı təşviqə də yer verilir. Ötən ayələrdə iftira əhlinin taleyi, bu ayədə isə haqq əhlinin siması bəyan olunur.

## *Bildirişlər*

1. İman və saleh əməlimizə görə qürrələnməyək. Bəndəliyin şərti mütləq təslimçilikdir.
2. İnsanın qəlb halının onun alacağı mükafata tə`siri var.

**Ayə 24:**

﴿مَثَلُ الْفَرِيقَيْنِ كَالأَعْمَى وَالأَصَمِّ وَالْبَصِيرِ وَالسَّمِيعِ هَلْ يَسْتَوِيَانِ مَثَلاً أَفَلاَ تَذَكَّرُونَ﴾

**“İki dəstə (kafirlər və mö`minlər) eynən “kor, kar” və “görən və eşidən” kimidir. Bu iki dəstənin məsəli eyni olarmı? Bəs nə üçün öyüd götürmürsünüz?”**

## *Nöqtələr*

◘Bədəndə göz və qulaq olduğu kimi, qəlb və ruhda da göz və qulaq var. Kor və karlar dünyada olanları dərk edə bilmədiyi kimi, inadkar insanlar da ilahi maarifi dərk etmirlər.

## *Bildirişlər*

1. Yalnız maddi varlıqları görüb mə`nəvi dəyərlərdən xəbərsiz qalan insan kordur.

2. Öz təbliğimizdə məntiqi suallarla fərdlərin vicdanını mühakiməyə çağıraq.

**Ayə 25:**

﴿وَلَقَدْ أَرْسَلْنَا نُوحًا إِلَى قَوْمِهِ إِنِّي لَكُمْ نَذِيرٌ مُّبِينٌ﴾

**“Həqiqətən, Biz Nuhu öz qövmünə doğru göndərdik. (O, xalqa dedi:) “Mən sizə aşkar xəbərdarlıq edənəm.”**

**Ayə 26:**

﴿أَن لاَّ تَعْبُدُواْ إِلاَّ اللّهَ إِنِّيَ أَخَافُ عَلَيْكُمْ عَذَابَ يَوْمٍ أَلِيمٍ﴾

**“(Mənim də`vətim budur ki,) Allahdan qeyrisinə pərəstiş etməyin. Həqiqətən, mən ağrılı günün sizə əzabından qorxuram.”**

## *Nöqtələr*

◘Həzrət Nuh ilk “ülul-əzm”, yə`ni böyük peyğəmbərdir. O, şirk və bütpərəstliyə qarşı qiyam qaldırdı. Kafirlər qərq olduqdan sonra qalan bəşər nəsli həzrət Nuhdandır. Bu səbəbdən də Nuhu ikinci Adəm və ya ikinci ata adlandırırlar. Həzrət Nuh bütün peyğəmbərlərdən çox yaşadığı üçün ona “şeyxül-ənbiya” adı verilmişdir.

◘Ola bilsin ki, həzrət Nuh elə bu dünyada qövmünün ilahi qəzəbə gələcəyindən qorxurdu. Bu həqiqət növbəti ayələrdə təsdiqlənir.

## *Bildirişlər*

1. Peyğəmbərlər ilk növbədə öz qövmlərinə təbliğ edirlər.
2. Peyğəmbərlərin xəbərdarlığı xalqın xeyrinədir.
3. Qafil insanın hər şeydən öncə xəbərdarlığa ehtiyacı var.
4. Göstəriş və təbliğ aydın və dəqiq olmalıdır.
5. Peyğəmbərlər həm xəbərdarlıq edir, həm də xalqa xeyirli yolu göstərirlər.
6. Peyğəmbərlərin məqsəd və vəzifələri tövhid məsələsinin bəyanıdır.
7. Şirkin tarixi həzrət Nuhun zamanına gedib çıxır.
8. Bütün insanlarda pərəstiş və ibadət cövhəri var. Peyğəmbərlər isə sadəcə bu yolu müəyyənləşdirir.
9. Peyğəmbərlər xalqın xeyirxahıdırlar və ona can yandırırlar.
10. Təbliğatçı və tərbiyəçinin vəzifəsi qarşı tərəfi şirkin pis aqibətindən xəbərdar etməkdir.

**Ayə 27:**

﴿فَقَالَ الْمَلأُ الَّذِينَ كَفَرُواْ مِن قِوْمِهِ مَا نَرَاكَ إِلاَّ بَشَرًا مِّثْلَنَا وَمَا نَرَاكَ اتَّبَعَكَ إِلاَّ الَّذِينَ هُمْ أَرَاذِلُنَا بَادِيَ الرَّأْيِ وَمَا نَرَى لَكُمْ عَلَيْنَا مِن فَضْلٍ بَلْ نَظُنُّكُمْ كَاذِبِينَ﴾

**“Onun qövmünün kafir başçıları dedilər: “Biz səni yalnız özümüz kimi bir insan bilirik. Sadəlövh səfillərdən başqa kimsənin sənə itaət etdiyini görmürük. Sizdə özümüzlə müqayisədə heç bir üstünlük görmür, sizi yalançı sayırıq.”**

## *Nöqtələr*

◘Haqqın müxalifləri bə`zən ilahi rəhbərləri kiçildərək deyirdilər: “Siz də bizim kimi insansınız və bizdən üstünlüyünüz yoxdur.” Bə`zən də peyğəmbərlərin ardıcıllarını kiçik sayıb bildirirdilər: “Onlar əlsiz-ayaqsız, şəxsiyyətsiz kəslərdir.” Bə`zən də peyğəmbərlərin əqidə məktəbini kiçik göstərərək deyirdilər: “Sizin sözünüz yalan, iftira, sehr və ya keçmişdəkilərin əfsanəsidir. Danışdıqlarınız adi sözdür, biz də istəsək, belə sözlər deyərik.”

## *Bildirişlər*

1. Ə`yan-əşraflar, adətən, peyğəmbər müxaliflərinin ön cərgəsində dayanmışlar.
2. Xalq kütlələri, xüsusi ilə məhrumlar arasındakı bərabərlik təkəbbürlü qüvvələri qorxudur.
3. Dünyaya dərin bağlılığı olmayanlar daha tez iman gətirirlər.
4. Dünyapərəstlərin nəzərində həqiqət yox, var-dövlət dəyərlidir.
5. Peyğəmbərlərin müxaliflərinin heç bir dəlili yoxdur. Onlar zənn-güman əsasında danışırlar.
6. Kafirlərin ağlı onların gözündədir. Bu ayədə “görmürlər” sözü üç dəfə işlədilmişdir.

**Ayə 28:**

﴿قَالَ يَا قَوْمِ أَرَأَيْتُمْ إِن كُنتُ عَلَى بَيِّنَةٍ مِّن رَّبِّيَ وَآتَانِي رَحْمَةً مِّنْ عِندِهِ فَعُمِّيَتْ عَلَيْكُمْ أَنُلْزِمُكُمُوهَا وَأَنتُمْ لَهَا كَارِهُونَ﴾

**“(Nuh öz qövmünə) dedi: “Rəbbim tərəfindən aşkar dəlillə gəldiyimi və Özündən mənə rəhmət (peyğəmbərlik xüsusiyyəti) verdiyini görsəniz və bu sizə məxfi qalmasa (yenə də boyun qaçıracaqsınız?) Sizi ikrah bəslədiyiniz bir şeyin qəbulluğuna vadarmı edək?!”**

## *Nöqtələr*

◘Bu ayə müxaliflərin ötən ayədə bəyan olunmuş iki iradına cavab verir:

a) Kafirlər deyirdilər ki, sən bizim kimi bir insansan. Ayə cavab verir ki, mən zahirdə sizin kimi olsam da, mənə Allahın xüsusi rəhməti lütf olunub və vəhy gəlib.

b) Müxaliflər deyirdilər ki, sənin ardıcılların sadəlövh və darbaxışlı adamlardır. Ayə cavab verir ki, onlar zahirən zəif görünsələr də, dəlilsiz yox, sübutlar əsasında iman gətirmişlər.

◘Peyğəmbərlər müxaliflər qarşısında qəlbigenişlik göstərir, onların böhtanlarına məntiq və dəlil əsasında cavab verirlər.

## *Bildirişlər*

1. Peyğəmbərlər xalqın içərisindən çıxmış, daim xalqla olmuş və xalqla mehriban davranmışlar.
2. Təbliğdə mərhəmət hisslərindən istifadə edək.
3. Peyğəmbərlər daim dəlil-sübut əsasında də`vət etmişlər.
4. Nübuvvət məqamı ilahi bir rəhmətdir.
5. Peyğəmbərlər bütün kamilliklərini Allah tərəfindən bilirlər.
6. Dəlil, mə`nəviyyat və nübuvvət məsələlərini dərk etməyən kəs kordur.
7. İnsan din və məzhəb seçimində azaddır.
8. İnsanda haqqın qəbulu üçün zəmin olmasa, o, vəhy nurundan faydalana bilməz.

**Ayə 29:**

﴿وَيَا قَوْمِ لا أَسْأَلُكُمْ عَلَيْهِ مَالاً إِنْ أَجْرِيَ إِلاَّ عَلَى اللّهِ وَمَآ أَنَاْ بِطَارِدِ الَّذِينَ آمَنُواْ إِنَّهُم مُّلاَقُو رَبِّهِمْ وَلَكِنِّي أَرَاكُمْ قَوْمًا تَجْهَلُونَ﴾

**“(Nuh sözünə davam edib dedi:) “Ey mənim qövmüm! Sizdən də`vətim müqabilində əvəz istəmirəm. Mənim mükafatım yalnız Allaha aiddir. Mən iman gətirən kəsləri (sizin yersiz istəklərinizə görə) rədd etmərəm. Onlar öz Rəbbləri ilə görüşəcəklər. Amma mən sizi cahil bir qövm görürəm.”**

## *Bildirişlər*

1. Peyğəmbərlərin təmənnasızlığı onların haqlı olmalarının nişanələrindəndir.
2. Xalqdan təmənnasızlıq və dövlətlilərə e`tinasızlıq təbliğçinin müvəffəqiyyət rəmzidir. Əlbəttə ki, təbliğatçıların Allah yanında böyük mükafatları var.
3. Əgər peyğəmbərlərin dünyəvi məqsədləri olsaydı, onlar fəqirlərə yox, varlılara üz tutardılar.
4. Ə`yan-əşraf, varlılar və`d edirdilər ki, fəqirlər uzaqlaşdırılsa, onlar iman gətirərlər. Amma peyğəmbərlər müxaliflərin bu istəklərini qətiyyətlə rədd edirdilər.
5. Təbliğatda qazanc məqsədi olmayan insan üçün yoxsulla varlı arasında fərq yoxdur.
6. Təkəbbürlü başçıların istəklərinə əhəmiyyət verməyək.
7. Kafirlər mö`minləri əskik sayırdılar. Amma Peyğəmbər (s) onlara buyururdu: “Mən onları sizə dəyişmərəm.”
8. Haqq hökumət varlıların diqqətini cəlb etmək üçün məhrumları əldən buraxmamalıdır.
9. Allah yanında hörməti olanlar rədd edilməməlidirlər.

10. Qiyamətin yada salınması dünyəvi mövqeyə düzgün yön verir.
11. Fəqirliyinə görə mö`minləri təhqir etmək düşüncəsizlik nişanəsidir.
12. Qur`an mö`minləri əskik sayanları cahil və nadan kimi tanıtdırır.
13. Ariflərin dərəcələrindən biri ilahi fəzada görüş və hüzurdur. Varlılar belə bir məqamdan xəbərsizdirlər.

**Ayə 30:**

﴿وَيَا قَوْمِ مَن يَنصُرُنِي مِنَ اللّهِ إِن طَرَدتُّهُمْ أَفَلاَ تَذَكَّرُونَ﴾

**“(Nuh mö`minlərin rədd edilməsi istəyinə belə cavab verdi:) “Ey xalq! Əgər mən onları qovsam, Allah qarşısında mənə kim yardım edəcək? Nə üçün düşünmürsünüz?”**

## *Bildirişlər*

1. İmanlı insanların rədd edilməsi və təhqiri ilahi qəhr-qəzəblə nəticələnər.
2. Allahın qəhr-qəzəbinə kimsə mane ola bilməz.
3. Mö`minlər rədd edilsə, ilahi dinə kim yardım göstərəcək?
4. Xalqın razılığını Allahın qəzəbi hesabına əldə etməyək.
5. Peyğəmbərlər öz ictimai və şəxsi mövqelərini möhkəmlətmək üçün yox, ilahi bir vəzifə olaraq xalqa xidmət edirdilər.
6. Öz təbliğimizdə xalqın vicdanına sual ünvanlamaqla onları mühakiməyə çağıraq.
7. İlahi qəhr-qəzəb yetişdikdə mövcudların zəifliyini hamı e`tiraf edir. Amma bə`zən bu həqiqət yaddan çıxır.

**Ayə 31:**

﴿وَلاَ أَقُولُ لَكُمْ عِندِي خَزَآئِنُ اللّهِ وَلاَ أَعْلَمُ الْغَيْبَ وَلاَ أَقُولُ إِنِّي مَلَكٌ وَلاَ أَقُولُ لِلَّذِينَ تَزْدَرِي أَعْيُنُكُمْ لَن يُؤْتِيَهُمُ اللّهُ خَيْرًا اللّهُ أَعْلَمُ بِمَا فِي أَنفُسِهِمْ إِنِّي إِذًا لَّمِنَ الظَّالِمِينَ﴾

**“(Nuh dedi:) “Mən sizə demirəm ki, ilahi xəzinələr məndədir və qeybi bilirəm. Demirəm ki, mən mələyəm, demirəm ki, sizin gözünüzdə xar olanlara Allah heç bir xeyir verməyəcək. Allah onların qəlbində olandan daha çox agahdır. (Bundan artıq bir şey desəm) şübhəsiz, zalımlardan olacağam.”**

## *Nöqtələr*

◘Qeyb elmi mütləq şəkildə, hər şeyə münasibətdə, istənilən bir şəraitdə Allaha məxsusdur.[1] Amma bə`zən Allahın izn və iradəsi ilə Onun övliyaları üçün qeyb aləminə baca açılır.[1] Beləcə, ilahi peyğəmbərlər qeyb elmindən bəhrələnmişlər.[2]

---

[1] “Ən`am” 59.

◘Təkcə qeyb elmi yox, qeyri-adi işlərin icra qüdrəti də Allaha məxsusdur. Amma Allah istədiyi kəsə istədiyi qədər bu qüdrətdən əta edər. Ölüm və həyat Allahın əlindədir.

Həzrət İsa da Allahın izni ilə ölüləri dirildirdi.[3] Canları Allah alsa da, onun izni ilə mələklər də insanların canını alır.[4] Xəlq etmək yalnız Allaha məxsus sifət olsa da, bə`zən Onun izni ilə həzrət İsa da xəlq etmişdir.[5]

## *Bildirişlər*

1. Peyğəmbərdə boş iddia olmur. Onların işi də`vət, məqsədləri doğru yoldur. Əlbəttə ki, bu işlər də Allaha bəndəlik çərçivəsində görülür.
2. Qeyb elmi və varlıq xəzinələrinə sahiblik peyğəmbərlik şərti deyil.
3. Peyğəmbərlərin məqsədi maddi xəzinələrin bölüşdürülməsi yox, mə`nəvi çağırışdır.
4. Əlimizə çatan hər bir ne`mətin qaynağı və xəzinəsi var.
5. Allah övliyalarına münasibətdə həddi aşmayaq.
6. Nuh qövmünün ə`yan-əşrafı zahiri görürdü.
7. Başqalarına münasibətdə mühakimə apararkən onların zahirini əsas götürməyək.
8. Allahın lütfünü müəyyənləşdirən bizim zənn-gümanımız deyil.
9. Allah üçün lütf ölçüsü insanların batini və mə`nəvi ləyaqətidir.
10. Məhrumları yoxsulluğuna görə ləyaqətsiz saymaq zülmdür.
11. Puç iddialar, yalan adlardan sui-istifadə zülmdür.

**Ayə 32:**

﴿قَالُواْ يَا نُوحُ قَدْ جَادَلْتَنَا فَأَكْثَرْتَ جِدَالَنَا فَأْتِنَا بِمَا تَعِدُنَا إِن كُنتَ مِنَ الصَّادِقِينَ﴾

**“(Müxaliflər) dedilər: “Ey Nuh, sən həqiqətən bizimlə çox höcətləşdin. (Artıq yetər.) Əgər doğru deyirsənsə, bizə və`d etdiyini qarşımıza çıxar.”**

## *Nöqtələr*

◘Mübahisə haqqa əsaslandıqda dəyərlidir.[6] Batilə əsaslanan mübahisə dəyərlərə ziddir.[7]

## *Bildirişlər*

1. Peyğəmbərlər öz də`vətlərində möhkəm və ardıcıldırlar.
2. Düşmən haqqın məntiqini höccət adlandırır.
3. Allahın verdiyi möhləti haqlı olmağımızın nişanəsi saymayaq.

---

[1] “Hud”, 49.
[2] “Cin”, 26.
[3] “Nəcm”, 44; “Ali-İmran”, 49.
[4] “Zumər”, 42; “Səcdə”, 11.
[5] “Rə`d”, 16; “Maidə”, 110.
[6] “Nəhl”, 126.
[7] “Mö`min”, 5 .

4. İnsan hətta əzabın nazil olmasına tələsir.

5. Kafirlər əzaba hazırlıqlarını bildirdikdən sonra həzrət Nuh onları lə`nətlədi.

6. Kafirlər məntiqə əsaslanmadıqlarından və məntiqi sözləri qəbul etmədiklərindən müzakirələri saxlamaq istəyirlər.

7. Nuh kafirlərə ardıcıl şəkildə əzab və`d edirdi.

8. Kafirlər ya peyğəmbərlərin sədaqətinə şəkk edir, ya da onların dediklərini şübhə altına alırdılar.

**Ayə 33:**

﴿قَالَ إِنَّمَا يَأْتِيكُم بِهِ اللّهُ إِن شَاء وَمَا أَنتُم بِمُعْجِزِينَ﴾

**“(Nuh dedi:) “Həqiqətən, əgər Allah istəsə, (onu, və`d etdiyini) başınıza gətirəcək. Sizdə onun qarşısını alacaq qüdrət olmayacaq.”**

**Ayə 34:**

﴿وَلاَ يَنفَعُكُمْ نُصْحِي إِنْ أَرَدتُّ أَنْ أَنصَحَ لَكُمْ إِن كَانَ اللّهُ يُرِيدُ أَن يُغْوِيَكُمْ هُوَ رَبُّكُمْ وَإِلَيْهِ تُرْجَعُونَ﴾

**“Əgər Allah sizi azdırmaq istəsə, sizə xeyir vermək istəsəm də nəsihətlərimin faydası olmayacaq. O, sizin Rəbbinizdir və Ona doğru qayıdacaqsınız.”**

## *Nöqtələr*

◘“Nush” dedikdə islah məqsədi ilə, eyni zamanda ixlasla deyilmiş söz başa düşülür. “Ğəyy” isə puç e`tiqaddan doğan cəhalət mə`nasını bildirir. “İzlal” və “iğva” sözləri arasında fərq budur ki, birinci məqsədi tanısa da yolu itirmişdir, ikinci həm məqsəddən, həm də yoldan xəbərsizdir.

◘“İzlal” və “iğva” inadkarlıq səbəbindən nazil olan cəzadır. Əslində isə Allah kimsəni öncədən azdırmır.[1]

## *Bildirişlər*

1. Peyğəmbərə təbliğ əmr olunub. Azğınları cəzalandırmaq isə Allahın əlindədir.

2. Allah heç bir işi görməyə məcbur deyildir.

3. Kafirlər nə əzabın qarşısını ala bilər, nə də özlərini xilas edə bilərlər.

4. Peyğəmbərlər xalqa can yandırırlar.

5. Allahın iradəsi bütün iradələrə qalibdir. (Hətta peyğəmbərin nəsihətlərinin tə`siri də Onun istəyi ilə gerçəkləşir.)

6. İnadkarlıq zirvə həddinə çatdıqda belə, peyğəmbər təbliğ etməyə borcludur.

7. Tə`sir ehtimalı olmadıqda “əmr be mə`ruf” və “nəhy əz münkər” (yaxşılığa əmr və pisliyə qadağa) vacib olmur.

8. Xalqın hidayəti və ya azğınlığı Allahın iradəsindən xaric deyil.

---

[1] “Bəqərə”, 26.

9. İnadkarlıqdan və əzab istəyindən sonra azğınların büdrədilməsi ilahi rübubiyyət zirvəsidir.
10. Peyğəmbər nəsihətlərinin qəbul olunmaması Allahın qəzəbindən doğan xüsusiyyətdir.
11. Dünyada cəzalandırılmasaq da, Qiyamətdə bizimlə hesab çəkiləsidir.
12. Allaha doğru qayıdış məcburidir.

**Ayə 35:**

﴿أَمْ يَقُولُونَ افْتَرَاهُ قُلْ إِنِ افْتَرَيْتُهُ فَعَلَيَّ إِجْرَامِي وَأَنَاْ بَرِيءٌ مِّمَّا تُجْرِمُونَ﴾

**“(Müşriklər) deyirlər ki, onun (Nuh və ya Məhəmmədin (s)) dedikləri Allaha iftiradır. De ki, mən Allaha iftira yaxmışamsa, cəzasını özüm çəkəcəyəm. Mən sizin günahlarınızdan zara gəlmişəm.”**

## *Nöqtələr*

¤“İcram” və “curm” lüğətdə kal meyvələrin dərilməsi mə`nasını bildirir. Başqa hallarda bəyənilməmiş, xilaf işlər mə`nası bu sözlərlə ifadə olunur.

## *Bildirişlər*

1. Allah-təala peyğəmbərə müşriklərlə sorğu-sual, rəftar qaydalarını öyrədir.
2. Öz sözlərini Allaha aid etmək günahdır.
3. Hər kəs öz əməlinin məs`uliyyətini daşıyır.
4. Şirkdən üz döndərmək zəruridir.
5. Şirk günahdır.

**Ayə 36:**

﴿وَأُوحِيَ إِلَى نُوحٍ أَنَّهُ لَن يُؤْمِنَ مِن قَوْمِكَ إِلاَّ مَن قَدْ آمَنَ فَلاَ تَبْتَئِسْ بِمَا كَانُواْ يَفْعَلُونَ﴾

**“(Bizim tərəfimizdən) Nuha vəhy olundu ki, (bu vaxtadək) iman gətirənlərdən savay sənin qövmündən (digərləri) heç vaxt iman gətirməzlər. Onların gördüyü işlərə görə qəmgin olma.”**

## *Nöqtələr*

◘Bu ayədən mə`lum olur ki, həzrət Nuh öz qövmünü Allahın xəbərdarlığı əsasında lə`nətləmişdir. Həzrət Nuh öz qövmü haqqında dedi: "Pərvərdigara! Yer üzündə bir nəfər də olsun kafir saxlama."[1]

## *Bildirişlər*

1. İnsan bə`zən süquta elə uğrayır ki, onun qurtuluşuna heç bir ümid qalmır.
2. Allah-təala gələcəyin xəbərlərini peyğəmbərlərə çatdırır.
3. Dini rəhbərlər və təbliğatçılar bütün xalqdan müsbət cavab gözləməməlidirlər.
4. Peyğəmbərlər xalqa canıyanan olsalar da, inadkar fərdlər üçün təəssüf etmək olmaz.
5. Təbliğ doğru yola gələcəyinə ümid olan fərdlərə ünvanlanmalıdır.

**Ayə 37:**

﴿وَاصْنَعِ الْفُلْكَ بِأَعْيُنِنَا وَوَحْيِنَا وَلاَ تُخَاطِبْنِي فِي الَّذِينَ ظَلَمُواْ إِنَّهُم مُّغْرَقُونَ﴾

**"(İndi) Bizim nəzərimiz altında, Bizim göstərişimizə və ilhamımıza əsasən gəmi düzəlt. Zülm edənlər haqqında bizimlə danışma. Onlar qərq olasıdırlar."**

## *Bildirişlər*

1. Allah-təala Öz iradəsini təbii yolla gerçəkləşdirir. Daim qeybi işlər intizarında olmamalıyıq.
2. Allahın övliyaları üçün işləmək ar deyil.
3. Xalqın qurtuluşu üçün nəsihət bəs etmir. Qurtuluş vasitələri hazırlamaq zəruridir.
4. Gəmiqayırmanın yetərincə uzun tarixi var.
5. Allahın hüzuruna diqqət insanın qəlbini isidir, onu çətinliklər qarşısında dözümlü edir.
6. Kəşf və ixtiralar ilahi ilhamdır.
7. Peyğəmbərlərin şəfaəti zalımlar üçün səmərəsizdir.
8. Peyğəmbərlərə qarşı inadkarlıq zülmdür.
9. Peyğəmbərlərin dua və şəfaəti ilahi müqəddərata tə`sir göstərmir.
10. Sitəmkarlar üçün dünyəvi əzaba düçar olma təhlükəsi var.
11. Allah-təala əzab zamanı həqiqətən pak olan insanlara nicat verir.

**Ayə 38:**

---

[1] "Nuh", 27.

﴿وَيَصْنَعُ الْفُلْكَ وَكُلَّمَا مَرَّ عَلَيْهِ مَلأٌ مِّن قَوْمِهِ سَخِرُواْ مِنْهُ قَالَ إِن تَسْخَرُواْ مِنَّا فَإِنَّا نَسْخَرُ مِنكُمْ كَمَا تَسْخَرُونَ﴾

**“Nuh (Allahın əmri ilə) gəmi düzəltməyə başladı. Qövmünün böyükləri hər dəfə onun yanından ötərkən onu məsxərəyə qoyurdular. O dedi: “Əgər siz bizi məsxərəyə qoyursunuzsa, biz, şübhəsiz, həmin cür sizi məsxərəyə qoyacağıq.”**

## *Nöqtələr*

◘Düşmənlərin məsxərəsi bizi süstləşdirməsin. Peyğəmbərlər də məsxərəyə qoyulmuşdur. Həzrət Nuh gəmi düzəltdiyi vaxt bir şəxs dedi: “Peyğəmbərlikdən bir şey çıxmadı, dülgərliyə əl atdı.” Bir başqası dedi: “Quru yerdə gəmi düzəldirsən, dənizi haradan gətirəcəksən?” İmam Sadiq (ə) buyurmuşdur: “Nuh öz gəmisini 80 ilə düzəltdi.[1] Gəmi Kufə məscidinin yerində düzəldildi.[2] Onun uzunluğu 400, eni 40 metrə çatırdı.[3]

## *Bildirişlər*

1. Peyğəmbərlər Allahın əmrinə təslimdirlər.
2. Nuh gəmini camaatın yolu kənarında düzəldirdi.
3. Kafirlər, adətən, cəmiyyət içində, həm də özlərini güclü hiss etdikdə məsxərəyə qoyurlar.
4. Düşmənin təbliğatı hərtərəfli, həmişəlik və əhatəlidir.
5. Bir işin hikmətindən xəbərimiz yoxdursa, o işi məsxərəyə qoymayaq.
6. Məntiq və dəlildən məhrum olan düşmən məsxərə və istehzaya əl atır.
7. Xalqın atmacaları və təzyiqlərindən süstləşib, gələcək nəsillər üçün hazırlıq görməyi yaddan çıxarmayaq.
8. Nuhun ardıcılları ona gəmi düzəltməkdə kömək edirdilər.
9. Düşmənlər Nuha üz tutsa da, əslində Nuhun dinini məsxərəyə qoyurdular.
10. İstehza çirkin işdir. Amma məsxərə edənə cəza olaraq istehza etmək eynən ədalətdir.[4]
11. Düşmənin istehzaları bizi çaşdırmasın. Bu istehzalara cavab vermək lazımdır.

**Ayə 39:**

﴿فَسَوْفَ تَعْلَمُونَ مَن يَأْتِيهِ عَذَابٌ يُخْزِيهِ وَيَحِلُّ عَلَيْهِ عَذَابٌ مُّقِيمٌ﴾

**“Tezliklə biləcəksiniz ki, zəliledici əzab kimin sorağına gələcək və əbədi əzab kimi yaxalayacaq.”**

---

[1] “Təfsire-bürhan”.
[2] “Təfsire-Nurus-səqəleyn”.
[3] “Təfsire-Nurus-səqəleyn”.
[4] “Şura”, 40.

## *Nöqtələr*

◘"Əl-mizan" təfsirində bildirilir ki, "əzabun yuxzih" dedikdə dünya əzabı, "əzabun muqim" dedikdə isə Qiyamət əzabı nəzərdə tutulur.

## *Bildirişlər*

1. Kafirləri qorxutmaq və hədələməklə onları istehzanın şirinliyindən məhrum edək.
2. Kafirlərin qiyamət əzabını yada salıb Allah yolunda məsxərəyə qoyulmağımıza dözək.
3. Məsxərə edən kafirlər üçün axirət əzabı davamlıdır.

**Ayə 40:**

﴿حَتَّى إِذَا جَاء أَمْرُنَا وَفَارَ التَّنُّورُ قُلْنَا احْمِلْ فِيهَا مِن كُلٍّ زَوْجَيْنِ اثْنَيْنِ وَأَهْلَكَ إِلاَّ
مَن سَبَقَ عَلَيْهِ الْقَوْلُ وَمَنْ آمَنَ وَمَا آمَنَ مَعَهُ إِلاَّ قَلِيلٌ﴾

**"Qəhr-qəzəbiniz gəlincə, təndir qaynayınca (onların küfr və istehzası davam etdi). Biz (Nuha) dedik ki, hər zövcdən bir cütünü və (əzab) və`d olunmuşlar istisna olmaqla öz ailəni, iman gətirən kəsləri (gəmiyə) mindir. Kiçik bir dəstədən savay onunla birlikdə iman gətirən olmamışdır."**

## *Nöqtələr*

◘"Tənnur" dedikdə bizim dilimizdəki təndir mə`nası başa düşülür. Təndirin qaynaması tə`biri iki cür anlaşıla bilər: ilahi qəhr-qəzəb o qədər şiddətlənmişdir ki, hətta təndirdən, alovun içindən su qaynayıb çıxır; təndirdən suyun qaynaması ilahi əzabın başlamasına işarə ola bilər.[1]

◘Bə`zi rəvayətlərə əsasən, həzrət Nuh gəmiyə heyvanlarla yanaşı müxtəlif ağaclar da götürmüşdü.[2] Belə anlaşılır ki, cütlük (erkək-dişilik) təkcə heyvanlara aid deyil. "Hər zövcdən bir cüt" tə`biri bütün mövcudlara aid ola bilər.

Rəvayətlərdə belə bir açıqlama verilir ki, "hər zövcdən bir cüt" dedikdə hər növdən bir cüt əhliləşmiş, bir cüt vəhşi zövcün gəmiyə mindirilməsi nəzərdə tutulur.[3]

◘"Ruhul-Məani" təfsirində bildirilir ki, həzrət Nuhun dörd oğlu vardı: Tufanda həlak olmuş Kən`an, ərəb atası Sam, Sudan atası Ham, türk atası Yafis. Rəvayətlərdə bildirilir ki, Nuhun özü ilə gəmiyə götürdüyü mö`min bir qızı vardı.[4]

◘Hədisdə bildirilir ki, Allah-təala Nuh qövmünə əzab nazil etmək istədikdə 40 il müddətinə onların qadınlarını sonsuz saxladı.[5]

---

[1] "Təfsire-Nurus-səqəleyn".
[2] "Təfsire-ruhul-məani".
[3] "Təfsire-Nurus-səqəleyn".
[4] "Təfsire-Nurus-səqəleyn".
[5] "Bihar", c. 11, s. 312.

## *Bildirişlər*

1. Kafirlər ilahi qəzəbə düçar olanadək məsxərə etdilər.

2. Həzrət Nuhun əhvalatı böyük əhəmiyyətə malikdir.

3. Suyun istənilən şəkildə qaynaması Allahın əmrinə tabedir.

4. Yaranışın da, məhvin də səbəbi Allahdandır. O, od dolu təndirdən su qaynadır, atəşi İbrahimə gülüstan edir, həyat qaynağı olan su bir nəslin məhvinə səbəb olur.

5. Heyvan və canlı varlıqların nəsli qorunmalıdır.

6. Əqidə bağlılıqları ailə bağlılıqlarından üstündür. Nuhun zövcəsi və oğlu gəmiyə götürülmədi.

7. Haqq tərəfdarları tarix boyu az olmuşdur.

Rəvayətlərdə ayədəki "az" sözünün Nuha iman gətirmiş 80 nəfərə işarə olduğu bildirilir.[1]

**Ayə 41:**

﴿وَقَالَ ارْكَبُواْ فِيهَا بِسْمِ اللّهِ مَجْرَاهَا وَمُرْسَاهَا إِنَّ رَبِّي لَغَفُورٌ رَّحِيمٌ﴾

**"(Nuh gəmidəkilərə) dedi: "Hərəkəti və dayanması Allahın adı ilə olana minin. Həqiqətən, mənim Rəbbim bağışlayan və mehribandır.""**

## *Nöqtələr*

◘Peyğəmbərin böyük səhabəsi Əbuzər Kə`bə halqasından tutduğu halda uca səslə dedi: "Ey Xalq! Öz qulaqlarımla eşitmişəm ki, Peyğəmbər (s) buyurdu: "Mənim əhli-beytim Nuhun gəmisi kimidir. Hər kəs ona süvar olsa, nicat tapdı, hər kəs ondan uzaq düşsə, həlak oldu." Bu hədis ilkin İslam dövrünün tanınmış şəxsiyyətləri Əbu-Səid Xidri, İbn-Abbas, Əbdüllah ibn Zübeyr, Ənəs ibn Malik tərəfindən də nəql olunmuşdur. Uyğun hədislə məşhur sünni mənbələrində də rastlaşmaq olar.[2]

◘Bu mütəvatir (yetərli, ardıcıl) hədisi digər bir mütəvatir hədislə yan-yana qoyaq. Həzrət Peyğəmbər (s) buyurmuşdur: "Müsəlmanlar 73 firqəyə bölünər. Bu firqələrdən yalnız biri nicat tapar." Aydındır ki, Peyğəmbər (s) nicat tapmış firqənin öz əhli-beyti olduğunu nəzərdə tutur.

Rəvayətlərdə bildirilir ki, gəmi Rəcəb ayının əvvəlində və Kufə məscidindən hərəkətə başladı.[3]

## *Bildirişlər*

1. Bütün işlərə Allahın adı ilə başlamaq təvəkkül rəmzi və işə ilahi rəng verməkdir.

---

[1] "Təfsire-Nurus-səqələyn".

[2] Təbəri "Mö`cəme-Kəbir", Hakim Nişapuri, "Mustədrək", "Təfsire-ibn Kəsir", Süyuti, "Üyunul-əxbar", Təbəri, "Zəxairul-Uqba", Xətib Bağdadi, "Tarixe-Bağdad", və s.

[3] "Təfsire-Nurus-səqələyn". "Kafi", c. 3, s. 492.

2. İstər işə başlayanda, istər işi başa çatdıranda Allahdan yardım diləmək lazımdır.

3. Gəmi, sadəcə bir vasitədir. İnsan bütün işlər Onun iradəsindən asılı olan Allahı unutmamalıdır.

4. Nuhun ətrafındakılar həmin dövrdə yer üzünün yeganə mö`minləri olsalar da, eybsiz və günahsız deyildilər. Allah onları bağışladı.

5. Nuhun ardıcıllarının tufandan qurtulması Allahın rübubiyyət, bağışlama və rəhmət cilvələrindəndir.

**Ayə 42:**

﴿وَهِيَ تَجْرِي بِهِمْ فِي مَوْجٍ كَالْجِبَالِ وَنَادَى نُوحٌ ابْنَهُ وَكَانَ فِي مَعْزِلٍ يَا بُنَيَّ ارْكَب مَّعَنَا وَلاَ تَكُن مَّعَ الْكَافِرِينَ﴾

**"Gəmi onları dağ kimi dalğalar arasından irəli aparırdı. Həmin vaxt (Nuh bir guşədə dayanmış) oğlunu səslədi: "Ey oğlum! (İman gətir və) bizimlə süvar ol, kafirlərlə qalma."**

## *Nöqtələr*

◘Belə görünür ki, həzrət Nuh öz oğlu ilə gəminin hərəkətindən öncə danışmışdır. Çünki gəmi hərəkətə başladıqdan sonra dağ kimi dalğalar arasında gəmiyə süvar olmaq mümkünsüz idi.[1]

◘***Sual***: Nə üçün Nuh yalnız oğlunu gəmiyə də`vət etdi?

***Cavab***: Əvvəla, insanın övlada münasibətdə vəzifəsi daha ağırdır. İkincisi, övladı kənara çəkildiyindən Nuh onun peşman olduğunu güman etdi. Nuhun bu müraciəti, yə`ni oğlunu qurtuluşa çağırması ətrafdakılara əzabın ciddiliyi ilə bağlı işarə ola bilər.

◘"Nurus-səqəleyn" təfsirindəki rəvayətə əsasən, Nuhun oğlu onun doğma oğlu olmamışdır.

◘Həzrət Nuh gəmiyə qalxdığı gün oruc tutmuş və ətrafındakılara da belə bir göstərişi vermişdi: "Oruc tutmaq təhlükədən qurtuluş rəmzidir."[2]

◘Dağ tək yüksək dalğaları ötüb keçməsi Nuhun gəmisinin əzəmətindən və peyğəmbərin hünərindən danışır.

## *Bildirişlər*

1. Gəmiyə süvar olanları da təlatümlü bir yol gözləyirdi. Gəmiyə minmək və gəminin Nuh kimi şəxs tərəfindən idarə olunması ilə iş bitmirdi.

2. Son anadək kafir olsalar belə ətrafdakıların qurtuluşu haqqında düşünək.

3. Bir guşəyə çəkilib dünyadan küsmək qurtuluş deyil.

4. Valideyn öz övladının taleyi üçün məs`uliyyət daşıyır.

5. Kafirlərlə yaxınlıq hətta peyğəmbər övladını belə dindən uzaq salır.

---

[1] "Təfsire-ruhul-məani".

[2] "Təfsire-Məcməül-bəyan".

*Nuh oğlu pislərə qoşulduğu an*
*Peyğəmbər yolunu itirdi tamam.*

6. Təkcə kafir olmaq yox, kafirlərlə birlikdə olmaq da təhlükəlidir.

7. Ailənin sağlam olması bəs etmir. Küfrə uğramış çirkin mühit bir çox azğınlıqlar törədir.

**Ayə 43:**

**﴿قَالَ سَآوِي إِلَى جَبَلٍ يَعْصِمُنِي مِنَ الْمَاء قَالَ لاَ عَاصِمَ الْيَوْمَ مِنْ أَمْرِ اللّهِ إِلاَّ مَن رَّحِمَ وَحَالَ بَيْنَهُمَا الْمَوْجُ فَكَانَ مِنَ الْمُغْرَقِينَ﴾**

**"(Nuhun oğlu) dedi: "Tezliklə bir dağa sığınaram ki, məni sudan qorusun." (Nuh) dedi: "Rəhm olunmuşlardan başqaları üçün Allahın qəhri qarşısında heç bir hifz edən (sığınacaq) yoxdur." (Elə bu vaxt) bir dalğa bu iki nəfər arasına ayrılıq saldı və o, (Nuhun oğlu) qərq oldu."**

## *Nöqtələr*

◘İmam Sadiq (ə) buyurmuşdur: "Həzrət Nuhun əhvalatında Kəbə evindən savay bütün yer üzünü su basdı."[1]

## *Bildirişlər*

1.Təhlükə zamanı müvəhhid şəxs Allaha, müşrik isə dağa sığınır. Şərq-qərbə, var-dövlətə, vəzifə və məqama sığınmaq şirkdir.

2. Allahın qəzəbi nazil olduqda möhkəm dağlar belə narın suyun qarşısında dayanıb kimsəni xilas edə bilmir.

3. Bütün canlı aləm üçün həyat qaynağı olan su Allahın əmri ilə fəlakət və əzaba dönür.

4. Təbiət hadisələri təsadüfi deyil. Bu hadisələr Allahın hikmət dolu fərmanı əsasında gerçəkləşir.

5. Allahın qəhr-qəzəbindən yalnız Onun Özünə sığınmaq olar.

6. Kafirlərə qoşulmaq qərq olmaqla nəticələnir.

7. Ailə və qohumluq əlaqələri ilahi cəzanın qarşısını ala bilmir. Peyğəmbər oğlu atasının gözü qarşısında qərq olduqda, ata bu ilahi əmrə təslim olmalıdır.

8. Bəli, Allah rəhimlidir. Amma O həm də hikmət sahibidir. O bə`zən Öz rəhməti ilə ana vücudunda körpə üçün süd qərar verir, bə`zən Öz hikməti ilə atanın gözü qarşısındaca övladın həyatına son qoyur.

**Ayə 44:**

**﴿وَقِيلَ يَا أَرْضُ ابْلَعِي مَاءكِ وَيَا سَمَاء أَقْلِعِي وَغِيضَ الْمَاء وَقُضِيَ الأَمْرُ وَاسْتَوَتْ عَلَى الْجُودِيِّ وَقِيلَ بُعْداً لِّلْقَوْمِ الظَّالِمِينَ﴾**

---

[1] "Təfsire-Nurus-səqəleyn".

**“(Su hər yeri bürüdükdən sonra) deyildi: “Ey torpaq! Suyunu ud. Ey asiman! (Yağış yağdırmaqdan) dayan.” (Beləcə) su çəkildi, iş başa çatdı və (gəmi) “Cudiyə” (dağa) yan aldı (oturdu.) Deyildi ki, zalım qövm rədd olsun!”**

## *Nöqtələr*

◘Bu ayə Qur`anın Peyğəmbər (s) dövründən bu günədək natiq və ədibləri heyrətə gətirmiş ən səlis və bəlağətli ayələrindəndir. Qur`anla mübarizə fikrinə düşüb onun kimi bir kitab yazmaq istəyənlərin bir çoxu bu ayələrə çatdıqda fikirlərindən daşınmışlar.

◘“Bələə” dedikdə udmaq, “əqlii” dedikdə geri çəkilmək, “ğiz” dedikdə cəzb olmaq və suyun azalması başa düşülür.

◘“Cudi” dedikdə ya mütləq bir dağ, ya da bu adı daşıyan hansısa bir dağ nəzərdə tutulur. Bu dağın harada yerləşməsi barədə müxtəlif fərziyyələr var. Tədqiqatçıların bu dağla bağlı ehtimal etdiyi məntəqələri nəzərdən keçirək: İraqın Mosul məntəqəsi, Şam ətrafı, Mosulla Əlcəzairin arası, Ərəbistan, Türkiyədə Ağrı dağı silsiləsi.

◘Rəvayətlərdə bildirilir ki, Nuhun gəmisi altı ay suda qaldı. Məkkə və Hicaz məntəqələrindən ötüb nəhayət Allahın əmri ilə çəkilib getdi. (“Təhzibul-əhkamdakı” bir hədisə əsasən, su bu günkü Kufə məscidinin yerində soruldu.) İmam Sadiq (ə) buyurmuşdur: “Nuhun gəmisi novruz günü dağa oturdu.”[1]

## *Bildirişlər*

1. Göyün və yerin şüuru var. Allah onlara xitab edir, onlar da itaət göstərirlər. Göy və yer Allaha ikrah yox, rəğbətlə itaət göstərirlər.[2]

2. Zalım həlak olduqdan sonra da lə`nətlənməlidir.

**Ayə 45:**

﴿وَنَادَى نُوحٌ رَّبَّهُ فَقَالَ رَبِّ إِنَّ ابْنُنِي مِنْ أَهْلِي وَإِنَّ وَعْدَكَ الْحَقُّ وَأَنتَ أَحْكَمُ الْحَاكِمِينَ﴾

**“Sonra Nuh öz Rəbbini çağırıb dedi: “Pərvərdigara! Həqiqətən, oğlum mənim ailəmdəndir və əlbəttə ki, Sənin (ailəmi xilas etməklə bağlı) və`din haqdır. Sən hakimlərin üstünüsən.”**

## *Nöqtələr*

◘Allah-təala Nuhun ailəsinə qurtuluş və`d etmişdi.[3] Nuh güman edirdi ki, yalnız onun zövcəsi məhvə məhkumdur. Bu səbəbdən də öz oğlunu gəmiyə də`vət etməsi və Allahdan oğlu üçün qurtuluş diləməsi təbii idi.

---

[1] “Bihar”, c. 11, s. 342.
[2] “Fussilət”, 11.
[3] 40-cı ayəyə əsasən.

◘Nuh öz oğlunun kafir olacağını bilsəydi, onun üçün dua etməzdi. Çünki o həddi aşmış zövcəsi üçün də dua etməmişdi. Ola bilməzdi ki, yer üzünün kafirlərinə nifrin edən Nuh kafir oğlu üçün qurtuluş diləyə![1]

## *Bildirişlər*

1. Allaha üz tutub Ona dua edərkən ədəbli olmaq lazımdır. Həzrət Nuh "və`d etdiyin halda nə üçün oğluma nicat vermirsən" deyə e`tiraz etmədi. Nuh Allahı ən üstün hakim saydığını qeyd etməklə kifayətləndi.

2. Əgər ilahi yardım olmasa, Allahın övliyaları da səhvə yol verə bilər. Adəmin yaranış əhvalatında hətta mələklər də onu tanıya bilmədi. Onlar Adəmin yaranışını fəsad törədib qan tökən bir varlığın yaranışı kimi zənn etdilər. Allahın yetərli cavabı onları razı saldı.

**Ayə 46:**

﴿قَالَ يَا نُوحُ إِنَّهُ لَيْسَ مِنْ أَهْلِكَ إِنَّهُ عَمَلٌ غَيْرُ صَالِحٍ فَلاَ تَسْأَلْنِ مَا لَيْسَ لَكَ بِهِ عِلْمٌ إِنِّي أَعِظُكَ أَن تَكُونَ مِنَ الْجَاهِلِينَ﴾

**"(Allah cavab olaraq) buyurdu: "Ey Nuh! O sənin ailəndən deyil. O, qeyri-saleh əməl sahibidir. Bilmədiyin şeyi məndən istəmə. Həqiqətən, Mən sənə moizə edirəm ki, cahillərdən olmayasan."**

## *Nöqtələr*

◘Peyğəmbər haqqında işlədilmiş "fəla təs`əlni" (Məndən istəmə) tə`biri gerçək bir istəyə işarə deyil. Çünki həzrət Nuh növbəti ayədə bilmədiyi şeyi istəməkdən Allaha pənah aparır. Nuh elə düşünürdü ki, oğlu haqq əhlidir. Allah isə Nuhun övladı haqqında həqiqəti bildirir.

◘Peyğəmbər (s) və mə`sum imamlardan nəql olunmuş bir çox rəvayətlərdə "ləysə minna", yə`ni "bizdən deyildir" tə`biri qeyd olunur. Bu tə`birin bə`zi nümunələrini nəzərdən keçirək: Həzrət Peyğəmbər (s) buyurmuşdur: "Hər kəs bir müsəlmana xəyanət etsə, bizdən deyil." Digər bir rəvayətdə həzrət (s) buyurur: "Xalq bir şəxsə ondan qorxduğu üçün hörmət göstərərsə, o şəxs məndən deyil." Başqa bir hədisdə oxuyuruq: "Hər kəs sübh vaxtı müsəlmanlara xidmət fikrində olmasa, müsəlman deyil."

◘***Sual***: "Təhrim" surəsinin 10-cu ayəsində Nuh və Lutun zövcələri haqqında "onlar xəyanət etdilər" deyə buyurulur. Burada isə belə bəyan edilir: "Ey Nuh! Övladın sənin əhlindən deyil." Bu o deməк deyilmi ki, Nuhun övladı zinadan yaranmışdır?

***Cavab***: Əvvəla, Nuhun zövcəsinin ona xəyanəti peyğəmbərin sirlərinin kafirlərə açılmasından ibarət idi. İkincisi, ayədə Nuhun oğlunun nöqsanı onun qeyri-saleh olması bildirilir.

---

[1] "Nuh", 26.

## *Bildirişlər*

1.Əqidə bağlılığı ailə və qohumluq bağlılıqlarından üstündür. (Başqa diyardan olan Səlman, Peyğəmbərin (s) əhli-beyti sayıldığı halda, Peyğəmbərin (s) əmisi Əbu-Ləhəb lə`nətlənir.) (Nuhun nifrini ilə qərq olanlar başqa bir səbəbdən yox, imansızlıqlarına görə cəzalandılar)

2. Bə`zən insan xeyir və şərə elə qatılır ki, sanki həmin əməlin bir parçası olur.

3. Peyğəmbərlərin də Allah moizəsinə ehtiyacları var. (Allah Öz peyğəmbərlərini həssas məqamlarda oyadır və hifz edir.)

4. Cahil işlərdən çəkinmək lazımdır. (Allahdan hikmətsiz bir şey istəmək cahillikdir.)

**Ayə 47:**

﴿قَالَ رَبِّ إِنِّي أَعُوذُ بِكَ أَنْ أَسْأَلَكَ مَا لَيْسَ لِي بِهِ عِلْمٌ وَإِلاَّ تَغْفِرْ لِي وَتَرْحَمْنِي أَكُن مِّنَ الْخَاسِرِينَ﴾

**“(Nuh) Dedi: “Pərvərdigara! Bilmədiyim şeyi istəməkdən Sənə pənah aparıram. Əgər (bu istəyi) mənə bağışlamasan və rəhm etməsən, ziyankarlardan olacağam.”**

## *Bildirişlər*

1. Peyğəmbərlər Allaha dərhal təslim olur.

2. Dualarımızda “Rəbb” çağırışını yaddan çıxarmayaq.

3. Allaha pənah aparmaq çətinliklər zamanı insan üçün ən üstün sığortalanmadır.

4. Allahın moizələri qarşısında ədəbli və təvazökar olaq.

5. Bir şeyin yaxşı-pisliyini bilmədikdə Allahdan onu istəməyək.

6. Yersiz sual və sözə görə tövbəyə ehtiyac var. (Əgər peyğəmbərlər yersiz istəyə görə Allaha pənah aparırsa, daim Allahdan yersiz şeylər istəyən bizlər nə etməliyik?)

7. Öncə bağışlanmaq, sonra rəhmət əldə etmək!

8. Əsl zərər bağışlanmamaqdır.

9. İnsanlar, hətta peyğəmbərlər Allahın lütfü olmadan məqsədə çata bilməzlər. Allahın mərhəmətindən məhrum olan kəs ziyankardır.

**Ayə 48:**

﴿قِيلَ يَا نُوحُ اهْبِطْ بِسَلاَمٍ مِّنَّا وَبَرَكَاتٍ عَلَيْكَ وَعَلَى أُمَمٍ مِّمَّن مَّعَكَ وَأُمَمٌ سَنُمَتِّعُهُمْ ثُمَّ يَمَسُّهُم مِّنَّا عَذَابٌ أَلِيمٌ﴾

**“Nuha xitab olundu: “(İndi) sənə və səninlə olan bütün ümmətlərə tərəfimizdən salamatlıq və bərəkətlə aşağı en. Tezliklə ümmətləri**

**ne`mətlərdən bəhrələndirəcəyik. (Amma) sonra (küfr və günaha) görə tərəfimizdən onlara dərdli əzab çatacaq.”**

## *Nöqtələr*

◘“Hubut”, yə`ni “en” göstərişi həm həzrət Adəmə, həm də həzrət Nuha ünvanlanmışdır. Bunun ardınca xalq mö`min və kafir olmaqla iki dəstəyə bölünür.

◘Nuhla olan ümmətlər dedikdə, ya onun sonralar qəbilələr təşkil edən hər bir yoldaşı, ya da bir qəbilədən olan və gəmiyə minən mö`minlər başa düşülür. “Umənun” dedikdə, həzrət Nuhun özü ilə götürdüyü heyvanlar nəzərdə tutula bilər. Çünki Qur`anda canlılar “umənun əmsaləkum” adlandırılmışdır.[1] Yə`ni heyvanlar da insanlar kimi bir ümmətdir.

## *Bildirişlər*

1.Əzəmətli seldən sonra yer üzündə həyat iki təhlükə ilə üzləşdi: Bunlardan biri “səlam” sözü ilə torpağın aradan qaldırılan çirkabı, digəri bərəkət və`di ilə bərpa edilən bitkilərin məhvi idi.

2. Əgər Allah bə`zən moizə və xəbərdarlıq edirsə, hətta atanın gözü qarşısında övladı batırırsa, bə`zən də Öz salam və bərəkətini nazil edir.

3. Salamatlıq və bərəkət mö`minin əldə etdiyi ilahi ne`mətlərdəndir. Kafir isə yalnız dünya matahı əldə edir. Deməк hər matah ne`mət və bərəkət deyil. Ne`mət odur ki, sonu xeyirlə başa çatsın.

4. Allah kafirlərə dünya malını əsirgəmir.

5. Öncə ne`mət və möhlət vermək, sonra mükafatlandırmaq və ya cəzalandırmaq ilahi sünnə, qanundur.

6. Həm mehr, həm də qəhr Allahdandır.

7. Allah gəmiyə süvar olmuş mö`minlərdən kafir ümmətlərin yaranacağını Nuha xəbər verdi.

**Ayə 49:**

﴿تِلْكَ مِنْ أَنبَاءِ الْغَيْبِ نُوحِيهَا إِلَيْكَ مَا كُنتَ تَعْلَمُهَا أَنتَ وَلاَ قَوْمُكَ مِن قَبْلِ هَذَا فَاصْبِرْ إِنَّ الْعَاقِبَةَ لِلْمُتَّقِينَ﴾

**“(Ey peyğəmbər,) bunlar sənə vəhy etdiyimiz qeybi xəbərlərdəndir. Bundan öncə nə sən, nə də sənin qövmünün bundan xəbəri vardı. Səbir et ki, həqiqətən, aqibət, (qələbə) müttəqilər üçündür.”**

---

[1] “Ən`am” 38.

## *Nöqtələr*

## *Qur`anda Nuhun siması;*[1]

◘Həzrət Nuhun adı Qur`anda qırx dəfə yad olunsa da onun anadan olduğu yer, peşəsi, vəfatı və dəfn yeri haqqında mə`lumat verilmir. Çünki bəşəriyyət üçün Nuhun həyat tarixçəsi yox, rəftarları ibrətdir.

◘Həzrət Nuhun əhvalatı Qur`anın altı surəsində zikr olunmuşdur: "Ə`raf", "Hud", "Mu`minun", "Şuəra", "Qəmər", "Nuh". Bu əhvalat, "Hud" surəsində daha ətraflı bəyan olunmuşdur.

◘Nuh ilk ülul-əzm peyğəmbərdir. Onun ümumbəşəri risaləti, kitabı və şəriəti vardı.

Həzrət Adəmdən sonra bu ülul-əzm peyğəmbərin bes`əti şirk, bütpərəstlik və zülmün genişlənmə dövrünə təsadüf edir. Nuhun proqramını tövhid, namaz, əmr be mə`ruf və nəhy əz münkər, ədalət və sədaqət mövzuları təşkil edirdi.

◘Həzrət Nuhun risalət müddəti doqquz yüz əlli il olmuşdur. Sonra Allah ona də`vətinin qəbul olunmayacağını bildirdikdə, Nuh mə`yus oldu və nifrin etdi. Nəticədə Nuhun zövcəsi və övladı kafirlərlə birlikdə qərq oldu.

◘Həzrət Nuh bəşərin ikinci atası, Adəm, və İdris peyğəmbərdən savay bütün peyğəmbərlərin atası seçildi.[2] Allah ona salam göndərdi.[3]

◘Həzrət Nuhun əhvalatı azca fərqlə Tövratda nəql olunmuşdur. Kəldanilərin, hindilərin, çinlilərin, yunanların, farsların kitabları zalım və günahkar xalqın Allahın qəzəbinə gəlməsini Nuhun tufanının səbəbi kimi göstərir. Zərdüştilərin müqəddəs kitabı Avestada bütün insanları qərq edəcək tufandan danışılır. Cəmşidə vəhy olunur ki, hündür bir divar ucalt, saleh kişiləri və qadınları, eləcə də hər heyvandan bir cütünü orada yerləşdir.

◘Həzrət Nuhun risaləti ümumbəşəri idi. Nifrini ilə bütün kafirlərin qərq olması onun peyğəmbərlik əhatəsini sübut edir. Əgər həzrət Nuh bir məntəqəyə peyğəmbər göndərilsəydi, gəmiyə hər heyvandan bir cüt götürməyə ehtiyac qalmazdı. Şübhəsiz, ki, bu iş yer üzündə heyvan nəslinin qorunması üçün idi. (Əl-minar" təfsirində iddia olunur ki, həzrət Nuh bir məntəqəyə peyğəmbər göndərilmişdir. Amma "əl-mizan" təfsiri bu iddianı qətiyyətlə rədd edir.)

◘Həzrət Nuhun əhvalatı min illik bir tarixdir. Bu tarixdə yer üzünü əhatə edən sel, bir nəslin məhvi və yeni bir cəmiyyətin bünövrəsinin qoyulması, haqqın batilə qələbəsi, peyğəmbər nifrinin qəbulu, əqidəyə görə ata ilə oğul arasında rabitənin kəsilməsi, varlıq aləminin Allah göstərişinə təslim olması, heyvan nəslinin qorunması, gəmiqayırma mövzuları özünə yer almışdır.

◘Bu əhvalat göstərir ki, insan peyğəmbər moizələrinin tə`sir etmədiyi bir səviyyəyə alçala bilər. Bu sayaq alçalmış insan peyğəmbər ardıcıllarını əskik sayıb, Allahın qəzəbindən dağa sığınmaq fikrinə düşür!

---

[1] "Təfsire-Əl-mizan".
[2] "Ali-İmran", 33.
[3] "Saffat", 79.

## *Bildirişlər*

1. Qur`an bəşər tarixi ilə tanış olmaq üçün ən üstün mənbədir.
2. Tarixin bir çox səhnələri bəşər üçün qaranlıqdır. Bunlardan biri də həzrət Nuhun tarixidir.
3. İslam Peyğəmbəri (s) və xalqın həzrət Nuhun tarixi ilə tanış olmaq üçün vəhydən başqa yolu yox idi.
4. Ən dəqiq və ən faydalı mə`lumatı vəhy yolu ilə əldə etmək olar. Çünki vəhy heç bir kənar tə`sirin dəyişmədiyi sonsuz elm çeşməsidir.
5. Peyğəmbərlər yalnız Allahın istədiyi həddə qeyb elmindən xəbərdardırlar.
6. Ötən peyğəmbərlərin tarixi və taleyi növbəti rəhbərlər üçün böyük təsəllidir.
7. Həm səbir zəruridir,həm də təqva. Səbir və təqva qələbə şərtidir.
8. Nəhayətdə haqq qalibdir, batil məğlub!

**Ayə 50:**

﴿وَإِلَى عَادٍ أَخَاهُمْ هُودًا قَالَ يَا قَوْمِ اعْبُدُواْ اللّهَ مَا لَكُم مِّنْ إِلَهٍ غَيْرُهُ إِنْ أَنتُمْ إِلاَّ مُفْتَرُونَ﴾

**“Ad qövmünə doğru qardaşları Hud (göndərildi, o, xalqa) dedi: “Ey mənim qövmüm! Allaha pərəstiş edin, sizin üçün Ondan savay heç bir mə`bud yoxdur. (Siz bütlərə pərəstiş etməkdə yanılırsınız.) Siz yalnız iftira və böhtan əhlisiniz.”**

## *Nöqtələr*

◘Həzrət Nuhun ardınca həzrət Hud məb`us oldu. Bu peyğəmbərin əhvalatı “Ə`raf”, surəsinin 65-72-ci ayələrində bəyan olunmuşdur. Mə`lum olur ki, həzrət Hud Ad qəbiləsindən olmuşdur. Çünki o ayədə “Ad qardaşı” kimi təqdim olunur.

◘Nuhun vəfat vaxtı çatdıqda ətrafındakılara buyurdu: “Məndən sonra qeyb dövrü olacaq. Həmin vaxt zalım hakimlər ortaya çıxar və Allah mənim nəslimdən olan Hud adlı canişinlə sizə qurtuluş nəsib edər.”[1]

◘Bütlərin şəfaətçi kimi tanınması həm Allaha iftiradır, həm də bütlərə böhtandır. Bütlər heç bir xeyir və zərər yetirmək gücündə deyil.

## *Bildirişlər*

1. Həzrət Hudun peyğəmbərliyi Ad qövmünə aid idi.
2. Qardaşyana fəzada təbliğ tə`sirlidir.

3 Peyğəmbərlər yalançı və ya sehrbaz yox, ümmətlər üçün qardaşdırlar.

4. Tövhidə də`vət peyğəmbərlərin ilkin vəzifəsidir.
5. Əməli tövhid e`tiqadi tövhidə əsaslanır.
6. Allaha şərik qoşmaq xülya və böhtandan başqa bir şey deyil.

---

[1] “Təfsire-Nurus-səqəleyn”. “İkmalud-din”, c. 1, s. 135.

**Ayə 51:**

﴿يَا قَوْمِ لا أَسْأَلُكُمْ عَلَيْهِ أَجْرًا إِنْ أَجْرِيَ إِلاَّ عَلَى الَّذِي فَطَرَنِي أَفَلاَ تَعْقِلُونَ﴾

**“(Hud dedi) Ey mənim qövmüm! Mən öz risalətim müqabilində sizdən əvəz istəmirəm. Mənim mükafatım yalnız məni yaradanın öhdəsinədir. Yoxsa düşünmürsünüz?!”**

## *Nöqtələr*

◘Peyğəmbərlərin əvəz istəməməsi və təmənnasızlığı Qur`anda dəfələrlə bəyan olunmuşdur. Mə`lum olur ki, xalqın haqqa üz tutmasında ən böyük maneələrdən biri maddiyyatdır.

## *Bildirişlər*

1. Peyğəmbərlərin maddi məqsədləri yox idi. Onların hədəfi Allahın razılığını qazanmaq olmuşdur. (Peyğəmbərlərin əcrini Allah Özü verir.)
2. Təbliğdə müvəffəqiyyətin əsas şərtlərindən biri ixlas, səmimilikdir.
3. Allahın xaliqliyinə diqqət ixlas üçün zəmindir.
4. Düşüncə bizi peyğəmbərlərə itaətə, vəhyə tabeçiliyə çağırır. (Ağıl vəhyə zidd deyil, əksinə vəhyin qəbulu üçün zəmin yaradır.)
5. Dünya və onun mənafeləri fikrində olmayan kəsin özünü bir bu qədər zəhmətə salmasına nə dəlil var?!

**Ayə 52:**

﴿وَيَا قَوْمِ اسْتَغْفِرُواْ رَبَّكُمْ ثُمَّ تُوبُواْ إِلَيْهِ يُرْسِلِ السَّمَاء عَلَيْكُم مِّدْرَارًا وَيَزِدْكُمْ قُوَّةً إِلَى قُوَّتِكُمْ وَلاَ تَتَوَلَّوْاْ مُجْرِمِينَ﴾

**“(Hud sözünə davam etdi:) “Ey mənim qövmüm! Rəbbinizdən bağışlanma diləyin, sonra Ona doğru qayıdın. Tövbə qılın ki, O sizin üçün səmadan aramsız yağış göndərsin, gücünüzə güc artırsın. Günaha görə (haqq yoldan) üz döndərməyin.”**

## *Bildirişlər*

1. İstiğfar və günahlardan tövbə vacibdir.
2. Günahlara görə bağışlanma diləmək və tövbə qılmaq Allaha doğru qayıdış üçün müqəddimədir.
3. Bir insanın istiğfar və tövbəsi cəmiyyətin taleyini dəyişmir. Allahın yardımının nazil olması üçün bütün cəmiyyət dəyişməlidir.
4. Əməllərin və əqidələrin təbiət hadisələrinə tə`siri var. (Ad qövmü şirk və günahına xatir qıtlıq və quraqlığa düçar olmuşdu.)

5. Təbii amillər diqqətimizi Allahın iradəsindən yayındırmasın.

6. İslam quruluşu və hökuməti iqtisadi tərəqqi istəyirsə, cəmiyyətin mə`nəviyyatı üzərində işləməlidir.

7. Tövbə və Allaha doğru qayıdışın dünyada mükafatı var-dövlət və qüdrətdir.

8. Elə güman etməyin ki, Allaha iman gətirən insan dünya malından uzaq düşür. (Əgər iman gətirsək, nəinki bizdən maddi bir şey tələb olunmaz, hətta var-dövlətimiz artırılar.

9. Allah dərgahına üz tutub boyun əymək və tövbə qılmaqla nəinki əskilmirik, hətta güclü, böyük və əziz oluruq.

10. Ad qövmü qüvvətli bir qövm idi.

11. Əgər fiziki gücə iman gücü əlavə olunarsa, insanın qüdrəti kamilləşər.

12. Sağlam, güclü, varlı cəmiyyət ərsəyə gətirmək səmavi dinlərin məqsədlərindəndir.

13. İqtisadi qüdrət digər qüdrətlər üçün zəmindir.

14. Təbliğdə təşviq üsulundan da yararlanmaq lazımdır. (Məqsədə çatmaq yolunda maddi nəticələri bəyan etmək olar.)

15. Peyğəmbər yolundan üz döndərib, bu yola e`tinasızlıq göstərmək günahdır.

**Ayə 53:**

﴿قَالُواْ يَا هُودُ مَا جِئْتَنَا بِبَيِّنَةٍ وَمَا نَحْنُ بِتَارِكِي آلِهَتِنَا عَن قَوْلِكَ وَمَا نَحْنُ لَكَ بِمُؤْمِنِينَ﴾

**“(Müşriklər) dedilər: “Ey Hud! Sən bizim üçün aşkar dəlil gətirməmisən və biz sənin sözlərinə xatir öz tanrılarımızdan əl çəkmərik. Biz sənə iman gətirənlərdən deyilik.”**

## *Bildirişlər*

1.Əlində heç bir dəlil olmadığı halda daşa və ağaca ibadət edənlər bir belə mö`cüzə və dəlil sahibi olan peyğəmbərə şübhə edirmi?!

2. Kafirlərin son sözü bu idi ki, biz sənin sözlərinə xatir bütlərimizdən əl çəkmərik. Ayədən aydın görünür ki, müxaliflər heç bir dəlil tələb etmirdilər.

3. Peyğəmbərlər öz də`vətlərinin ilkin mərhələsində müşriklərin ciddi müqaviməti ilə rastlaşırdılar, amma heç vaxt təbliğdən əl çəkmirdilər.

**Ayə 54:**

﴿إِن نَّقُولُ إِلاَّ اعْتَرَاكَ بَعْضُ آلِهَتِنَا بِسُوَءٍ قَالَ إِنِّي أُشْهِدُ اللّهِ وَاشْهَدُواْ أَنِّي بَرِيءٌ مِّمَّا تُشْرِكُونَ﴾

**“(Bizim sözümüz yoxdur,) təkcə bunu deyirik ki, tanrılarımızdan bə`ziləri sənə ziyan vurmuşlar. Onları qəzəbləndirdiyin üçün ağlını əlindən almışlar.) Hud dedi: “Həqiqətən, mən Allahı şahid tuturam və siz də şahid olun ki, mən sizin (Allaha) şərik qoşduqlarınızdan uzağam.”**

**Ayə 55:**

﴿مِن دُونِهِ فَكِيدُونِي جَمِيعًا ثُمَّ لاَ تُنظِرُونِ﴾

**“Ondan (Allahdan) başqa hər şeydən (uzağam)! Hamınız mənə qarşı qurğu qurun və mənə möhlət verməyin. (Mə`lum olsun ki, siz və sizin bütləriniz heç nə bacarmırsınız.)”**

## *Nöqtələr*

◘“İ`tira” dedikdə e`tiraz və hədəfə çatma mə`naları başa düşülür.

◘Həzrət Hud bütpərəstlərin tutduqları yolun puç olduğunu sübut etmək üçün onları mübarizəyə çağırdı. Nuh da belə etmişdi. O, xalqa dedi: “Siz istədiyiniz işi görün. Amma bilin ki, mənə bir zərər toxundura bilməyəcəksiniz.”[1] İslam Peyğəmbərinin (s) də bu sayaq çağırışları var.[2]

## *Bildirişlər*

1. Ad qövmü inanırdı ki, hər bir büt dünyanın müəyyən işlərini idarə edir.
2. Xurafata qarşı çıxmış peyğəmbərlərin, islahatçıların dəli adlandırılması təzə iş deyil.
3. Şirk və müşriklərdən üz döndərib onlara arxa çevirmək ilahi peyğəmbərlərin qaydası olmuşdur.
4. Xurafata qarşı qətiyyətlə mübarizə aparılmalıdır.
5. Hudun mübarizəyə çağırışı onun haqq olmasının dəlilidir.
6. Peyğəmbərlər heç bir qüvvədən çəkinmirlər.
7. Bütlərin heç bir qüdrəti yoxdur.

**Ayə 56:**

---

[1] “Yunus”, 71.
[2] “Ə`raf”, 195.

﴿إِنِّي تَوَكَّلْتُ عَلَى اللّهِ رَبِّي وَرَبِّكُم مَّا مِن دَآبَّةٍ إِلاَّ هُوَ آخِذٌ بِنَاصِيَتِهَا إِنَّ رَبِّي عَلَى صِرَاطٍ مُّسْتَقِيمٍ﴾

**"Həqiqətən, mən mənim və sizin Rəbbiniz olan Allaha təvəkkül etmişəm. Onun cilovlamadığı heç bir canlı yoxdur. Həqiqətən, mənim Rəbbim doğru yol üstədir."**

## *Bildirişlər*

1. Allahın əhatəli rübubiyyətinə diqqət təvəkkül üçün zəmindir.
2. Təvəkkül şücaət zəminidir. (Allaha təvəkkül etməklə dünyanın qabağında dayanmaq olar)
3. Allahın istəyi olmadan kimsə bir başqasına zərər yetirə bilməz.
4. Allah həm hər şeyə hakimdir, həm də ədalətlidir.
5. Qüdrətdən əlavə ədaləti də olan varlığa təvəkkül edək.
6. Kafirlərin inadkarlığı qarşısında Allahın qəhr-qəzəb və ədalətindən danışaq.

**Ayə 57:**

﴿فَإِن تَوَلَّوْاْ فَقَدْ أَبْلَغْتُكُم مَّا أُرْسِلْتُ بِهِ إِلَيْكُمْ وَيَسْتَخْلِفُ رَبِّي قَوْمًا غَيْرَكُمْ وَلاَ تَضُرُّونَهُ شَيْئًا إِنَّ رَبِّي عَلَىَ كُلِّ شَيْءٍ حَفِيظٌ﴾

**"Əgər siz (də`vətimdən) üz döndərsəniz, (bilin ki,) həqiqətən, mən nəyə görə göndərilmişəmsə, onu sizə çatdırmışam və Rəbbim başqa bir dəstəni sizə canişin edəcək. Siz Ona heç bir zərər toxundurmazsınız. Həqiqətən, Rəbbim hər şeyə nəzarətçidir."**

## *Bildirişlər*

1. Peyğəmbər xalqı də`vət edib Allahın əmrini çatdırdıqdan sonra yetərli dəlillər gətirib höccəti tamamlayır.
2. Təbliğatçının vəzifəsi xalqı məcbur etmək yox, dini maarifi çatdırmaqdır.
3. Din təbliğatçısı və ümmətin rəhbəri xalqın biganəliyini öz məğlubiyyəti kimi qəbul etməməlidir.
4. Xalqın razılıq və ya e`tirazı təsadüfi deyil. Uyğun münasibətlər Allahın hakim buyurduğu qanunlardan qaynaqlanır. (Şirk, günah, peyğəmbərə qarşı müxalifət cəmiyyətin tənəzzül amillərindəndir.)
5. Bizim küfrümüz, itaətsizliyimiz, ölümümüz Allaha heç bir zərər vurmur.
6. Allah hər şeyi və hər kəsi qoruyur. Bizim küfr və hiyləmiz Allaha heç bir zərər vura bilməz.

**Ayə 58:**

﴿وَلَمَّا جَاء أَمْرُنَا نَجَّيْنَا هُودًا وَالَّذِينَ آمَنُواْ مَعَهُ بِرَحْمَةٍ مِّنَّا وَنَجَّيْنَاهُم مِّنْ عَذَابٍ غَلِيظٍ﴾

**“(Qəhr-qəzəb) əmrimiz gələn zaman Hud və onunla iman gətirənlərə Öz rəhmətimizlə nicat verdik və onları şiddətli əzabdan qurtardıq.”**

## *Bildirişlər*

1. Əzab da, qurtuluş da Allahın iradəsinə tabedir.
2. Peyğəmbərlər və onların ardıcılları ilahi qəzəbdən amandadırlar.
3. Peyğəmbərlərə təkcə inanmaq yetərsizdir. Onlarla birlikdə olub, himayə göstərməkdə zəruridir.
4. Allahın mərhəmət qaynağı Onun Özüdür. Onun qəhr-qəzəbi isə bizim əməllərimizdən qaynaqlanır.
5. Qurtuluş sözünün təkrarı dünya və axirətdə ilahi qəzəbdən xilas rəmzi ola bilər.
6. Küləklər də Allahın əmrinə tabedir.[1]

### Ayə 59:

﴿وَتِلْكَ عَادٌ جَحَدُواْ بِآيَاتِ رَبِّهِمْ وَعَصَوْاْ رُسُلَهُ وَاتَّبَعُواْ أَمْرَ كُلِّ جَبَّارٍ عَنِيدٍ﴾

**“Ad qövmü Rəbbinin ayələrini inkar etdi, Onun peyğəmbərlərinə itaətsizlik göstərdi, hər bir inadkar sitəmkarın göstərişinə tabe oldu.”**

## *Bildirişlər*

1. Nə üçün keçmişdəkilərin tarixindən ibrət götürmürsünüz?
2. Bir peyğəmbəri inkar etmək bütün peyğəmbərləri inkar etməyə bərabərdir.
3. Cəmiyyəti bir sıra təhlükələr hədələyir: ilahi ayələrin inkarı; peyğəmbər və haqq rəhbərə itaətsizlik; zalım hakimlərə itaət.
4. Mə`sum peyğəmbərlərə tabe olmayanlar inadkar sitəmkarlara itaət edəsidir.
5. Zalım hakimlərin məcburiyyəti xalqı əsarətə almaq üçündür.

### Ayə 60:

﴿وَأُتْبِعُواْ فِي هَذِهِ الدُّنْيَا لَعْنَةً وَيَوْمَ الْقِيَامَةِ أَلا إِنَّ عَادًا كَفَرُواْ رَبَّهُمْ أَلاَ بُعْدًا لِّعَادٍ قَوْمِ هُودٍ﴾

**“Bu dünyada və Qiyamət günündə lə`nət onların sorağındadır. Bilin ki, Ad qövmü öz Rəbbini inkar etdi. Agah olun ki, Ada, Hud qövmünə lə`nət olsun.”**

---

[1] “Fussilət”, 15.

## *Nöqtələr*

◘Bu surənin 50-60-cı ayələri Ad qövmünə aiddir. Bu qövm ərəb əsillidir və ərəb yarımadasında sakin olmuşlar. Hazırkı Tövratda onların adı çəkilir. “Qəmər”, “Haqqə”, “Ə`raf”, “Səcdə”, “Şuəra” surələrində Ad qövmü rəşadətli, ucaboylu, abad və inkişaf etmiş şəhərlərə malik xalq kimi tanıtdırılır. E`tiqad baxımından bu qövm bütpərəst olmuş, zalım hakimlərə itaət etmişdir. Həzrət Hud onları allahpərəstlik və tövhidə də`vət etdi. Amma onlar peyğəmbərin də`vətini qəbul etməyib Allahın qəhr-qəzəbinə uğradılar və iti və yandırıcı külək vasitəsi ilə məhv olub getdilər.

Ad qövmü iki qrupdan ibarət olmuşdur: birinci Ad və ikinci Ad. İkinci Ad qövmü həzrət İsa Məsihdən yeddi yüz il öncə Hicazdakı Əhqaf məntəqəsində, ya da Yəməndə məskunlaşmışdı.[1]

## *Bildirişlər*

1. İlahi ayələrə arxa çevirib, Allahın peyğəmbərlərinə itaətsizlik göstərən və zalım hakimlərə tabe olanlar Allahın rəhmətindən uzaqdırlar.
2. Dünyada bədnamlıq ilahi cəzalardan biridir.
3. “Zalımlara ölüm” Qur`an şüarlarındandır.[2]

**Ayə 61:**

﴿وَإِلَى ثَمُودَ أَخَاهُمْ صَالِحًا قَالَ يَا قَوْمِ اعْبُدُواْ اللّهَ مَا لَكُم مِّنْ إِلَهٍ غَيْرُهُ هُوَ أَنشَأَكُم مِّنَ الأَرْضِ وَاسْتَعْمَرَكُمْ فِيهَا فَاسْتَغْفِرُوهُ ثُمَّ تُوبُواْ إِلَيْهِ إِنَّ رَبِّي قَرِيبٌ مُّجِيبٌ﴾

**“Səmud qövmünə doğru qardaşları Salehi (göndərdik). O dedi: “Ey mənim qövmüm! Bir olan Allaha pərəstiş edin, sizin üçün Ondan savay mə`bud yoxdur. Odur sizi yerdən yaradan. Sizdən istəmiş ki, oranı abad edəsiniz. Ondan bağışlanma diləyin, sonra Ona doğru dönün. Həqiqətən, mənim Rəbbim yaxın və qəbul edəndir.”**

## *Nöqtələr*

◘Həzrət Saleh Nuh və Huddan sonra peyğəmbərliyə çatmış üçüncü şəxsdir.

## *Bildirişlər*

1. Peyğəmbərin xalqla bağlılığı qardaşyana bağlılıq idi.
2. Yaxşı olar ki, təbliğatçı təbliğ olunan məntəqədən olsun.
3. Bütün peyğəmbərlərin məqsədi yeganə Allaha pərəstiş olmuşdur.
4. Allaha ibadətin dəlil və fəlsəfəsi Onun bəşəriyyətə olan sonsuz lütfüdür.
5. İnsanın yaranış qaynağı torpaqdır.

---

[1] “Təfsire-Əl-mizan”; “Təfsire-nümunə”.
[2] “Hud”, 68, 95; “Mu`minun”, 41, 44.

6. İslam dünya və axirəti əhatə edən dindir. (Həm yer üzünün abadlığına, həm də tövbəyə də`vət edilir.)

7. Allahın istəyi yer üzünün abadlığıdır.

8. Müvəhhidlərin mə`budu düşüncəli, şüurlu, elmli və qüdrətli, eşidən və cavab verən mə`buddur. Bütlərdə isə bu xüsusiyyətlər yoxdur.

9. Allaha doğru qayıdış asandır və tövbə Allaha yaxınlaşma zəminidir.

10. Bağışlanma istənilsə və tövbə qılınsa Allah qəbul edər.

11. Allah-təala hamıya yaxındır. Bizi Allahdan uzaqlaşdıran öz düşüncə və rəftarımızdır.

**Ayə 62:**

﴿قَالُواْ يَا صَالِحُ قَدْ كُنتَ فِينَا مَرْجُوًّا قَبْلَ هَذَا أَتَنْهَانَا أَن نَّعْبُدَ مَا يَعْبُدُ آبَاؤُنَا وَإِنَّنَا
لَفِي شَكٍّ مِّمَّا تَدْعُونَا إِلَيْهِ مُرِيبٍ﴾

**“(Səmud qövmü) dedi: “Ey Saleh! Sən həqiqətən, bundan öncə bizim aramızda ümid yeri idin. İndi bizə atalarımızın pərəstiş etdiklərinə pərəstiş etməyi qadağan edirsən? Həqiqətən, bizi də`vət etdiyin şeyə şəkkimiz var. (Bu də`vət) bizi sənə qarşı bədgüman etmişdir.”**

## *Nöqtələr*

◘Kafirlər həzrət Salehə öncə belə dedilər: “Sən bizim ümid yerimiz idin, biz səni sevirdik.” Onlar düşünürdülər ki, bu sözlərdən sonra həzrət Saleh mövcud rabitələri qorumaq üçün öz də`vətindən əl çəkər.

## *Bildirişlər*

1.Təbliğatçının adı və keçmişi təmiz olmalıdır.

2. Azğınların tə`rifi bizi yuxuya verməməlidir. (Düşmənin bizi tərif etməkdə məqsədi var.)

3. Peyğəmbərlər xurafi əqidələri aradan qaldırırlar.

4. İnsan ata-babalarının və keçmişdəkilərin əqidəsini kor-koranə qəbul etməməlidir.

5. Tarix ötdükcə qövmlərin mədəniyyəti bir-birinə qarışmışdır.

6. İnsanlar öz ata-babalarının əqidəsindən asanlıqla əl çəkmirlər. (Dərhal islah təmənnasında olmayaq.)

7. İstənilən yeni bir söz və proqram xalqda tərəddüd yaradır.

8. Əgər şəkk təhqiq və hidayət zəmini üçün müqəddimə olmazsa, böyük bir süqutun amilinə çevrilər.

**Ayə 63:**

﴿قَالَ يَا قَوْمِ أَرَأَيْتُمْ إِن كُنتُ عَلَى بَيِّنَةً مِّن رَّبِّي وَآتَانِي مِنْهُ رَحْمَةً فَمَن يَنصُرُنِي مِنَ اللّهِ إِنْ عَصَيْتُهُ فَمَا تَزِيدُونَنِي غَيْرَ تَخْسِيرٍ﴾

**"(Saleh) dedi: "Ey mənim qövmüm! Sizin fikriniz budur ki, əgər Rəbbim tərəfindən mö`cüzəm olsa və Onun rəhmətinə nail olsam (ağzımı bağlayıb təbliğ etməməliyəmmi?) Əgər Allaha qarşı günah işlətsəm (risalətimi yerinə yetirməsəm), Onun qəzəbi qarşısında kim mənə yardım göstərəcək? Siz mənə yalnız zərər-ziyan artırırsınız."**

## *Bildirişlər*

1.Səmavi dinlər və ilahi rəhbərlər xalqı tövhidə zorla yox, aşkar dəlil və mö`cüzə ilə də`vət edirlər.

2. Nübuvvət məqamı Allahın Öz bəndələrinə olan xüsusi bir rəhmətidir.

3. Peyğəmbərlər öz risalələrində səhlənkarlığa yol verdikdə Allahın qəzəbinə gəlirlər.

4. Xalqın xoşuna gəlib onların himayəsini qazanmaq fikri ilə Allah və Onun yolundan əl çəkməyək. Azğın camaat başqaları üçün yalnız zərər-ziyan artırır.

5. Haqla müxalifətçilik zərərdir.

**Ayə 64:**

﴿وَيَا قَوْمِ هَـذِهِ نَاقَةُ اللّهِ لَكُمْ آيَةً فَذَرُوهَا تَأْكُلْ فِي أَرْضِ اللّهِ وَلاَ تَمَسُّوهَا بِسُوءٍ فَيَأْخُذَكُمْ عَذَابٌ قَرِيبٌ﴾

**"(Saleh öz mö`cüzəsinin bəyanında dedi:) "Ey mənim qövmüm! Allahın bu dişi dəvəsi sizin üçün bir mö`cüzədir. Onu azad buraxın, Allahın yerində otlasın. Onu incitməyin ki, tezliklə sizi əzab bürüyər."**

## *Nöqtələr*

◘Həzrət Salehin dəvəsi bir sıra imtiyazlara malik idi. Dağın köksündən çıxmışdı, təmasda olmadan balaya qalmışdı, bir günə bütün kəndin suyunu içirdi, məntəqə əhalisinin ehtiyacı qədər süd verirdi, xalqın bu dəvəyə heç bir qulluq məs`uliyyəti yox idi.

◘Həzrət Saleh xalqa buyurdu: "Mən sizin bütlərdən bir şey istəyim, siz də mənim Allahımdan bir şey istəyin. Hansı müsbət cavab versə, hamımız ona pərəstiş edək." Müşriklər qəbul etdilər. Onlar istədilər ki, dərhal dağın köksündən

hamilə bir dəvə çıxsın. Allah onların istəyini yerinə yetirdi. Deyilən şərtlərə malik bir dəvə dağın köksündən xaric oldu.[1]

## *Bildirişlər*

1. Peyğəmbərin dəlil və mö`cüzəsi xalq tərəfindən hiss olunmalıdır. Onlar bu mö`cüzəni anlamalı, müşahidə etməlidirlər.
2. Allahın qüdrət əli açıqdır və O, qüdrət sahibidir. Allah Öz peyğəmbərinə dəvənin dağın köksündən çıxması kimi mö`cüzə verə bilər.
3. Salehin dəvəsi böyük bir mö`cüzə idi.
4. Müqəddəsliklərə hörmət göstərmək lazımdır.
5. Müqəddəsliklərin təhqiri dərhal əzabla nəticələnir.

**Ayə 65:**

﴿فَعَقَرُوهَا فَقَالَ تَمَتَّعُواْ فِي دَارِكُمْ ثَلاَثَةَ أَيَّامٍ ذَلِكَ وَعْدٌ غَيْرُ مَكْذُوبٍ﴾

**“(Bütün bu xəbərdarlıqlara baxmayaraq Səmud qövmü) dəvəni kəsdilər. (Saleh) dedi: “Üç gün evlərinizdə bəhrələnin, (sonra ilahi əzab yetişəcək). Bu, doğru bir və`ddir.”**

## *Nöqtələr*

◘Rəvayətdə oxuyuruq ki, dəvəni bir nəfər öldürdü. Bununla belə Qur`an bütün xalqın dəvəni öldürdüyünü bildirir. Bunun səbəbi ətrafdakıların qatillə razılaşması idi. İslamın nəzərincə, hər bir fərdin günahı onun tərəfdar və hamilərinin də ayağına yazılır.[2]

◘***Sual***: Üç gün möhlətin mə`nası nə idi?

***Cavab***: Bunun bir sıra səbəbləri var: Tövbə üçün fürsət vermək, ruhi sıxıntıya salmaqla əzabı artırmaq (əgər bir şəxsə üç gün sonra öləcəyi xəbər verilsə, həmin üç gün onun ruhuna ən böyük zərbə olur), bu müddətin tə`yini qeybi bir xəbər olduğundan, peyğəmbərin haqq olmasının növbəti bir sübutu idi.

## *Bildirişlər*

1. Başqalarının günahı ilə razılaşmaq onların günahına şəriklikdir.[3]
2. Allahın xəbərdarlıqlarını zarafat saymayın.
3. Müqəddəsliklərin təhqiri qəti əzabla nəticələnir.

**Ayə 66:**

﴿فَلَمَّا جَاء أَمْرُنَا نَجَّيْنَا صَالِحًا وَالَّذِينَ آمَنُواْ مَعَهُ بِرَحْمَةٍ مِّنَّا وَمِنْ خِزْيِ يَوْمِئِذٍ إِنَّ رَبَّكَ هُوَ الْقَوِيُّ الْعَزِيزُ﴾

---

[1] “Təfsire-Ətyəbul-bəyan”.
[2] “Vəsail”, c. 11. s. 409-411.
[3] “Nəhcül-bəlağə”, k. 12, 20.

**“(Üç gün ötdükdən sonra) Bizim (əzab) fərmanımız gəldi. Saleh və onunla birlikdə iman gətirənlərə Öz rəhmətimizlə nicat verdik və onları həmin günün zəlalətindən (xilas etdik). Həqiqətən, sənin Rəbbin yenilməz qüvvə sahibidir.”**

## *Nöqtələr*

“Xizy” dedikdə aşkar olması ilə insanı rüsvay edən eyb nəzərdə tutulur.

Zəlzələ, sel, yoluxucu xəstəliklər kimi təbii bəlalar kafirlərlə yanaşı mö`minləri də əhatə edə bilər. Necə ki, bir qrup insanın ehtiyatsızlığından çoxları əziyyət çəkir. Mö`minlər Allahın kafirlərə nazil etdiyi qəzəbdən o zaman nicat tapırlar ki, “əmr be mə`ruf” və “nəhy əz münkər”i tərk etməmiş olsunlar, azğınlıqlar qabağında susmasınlar.

## *Bildirişlər*

1. Allah-təala peyğəmbərləri və onların ardıcıllarını öz əzabından qoruyur.
2. Allahın qəzəbindən qurtulmaq üçün iman və peyğəmbərə tabeçilik zəruridir.
3. Peyğəmbərə tabeçilik insanın başıucalıq və izzət səbəbidir.
4. Kafirlərin arasında bir neçə mö`minə nicat vermək Allah üçün çətin deyil.
5. Allah-təala peyğəmbərə təsəlli verir ki, Mən sənin müxaliflərinlə lazımı şəkildə rəftar etməyə qadirəm. Çünki O, yenilməz qüvvə sahibidir.

**Ayə 67:**

﴾وَأَخَذَ الَّذِينَ ظَلَمُواْ الصَّيْحَةُ فَأَصْبَحُواْ فِي دِيَارِهِمْ جَاثِمِينَ﴿

**“Zalımları (səmadan gələn) bir səs bürüdü. Onlar Öz evlərində üzü üstə düşdülər (və öldülər).”**

**Ayə 68:**

﴾كَأَن لَّمْ يَغْنَوْاْ فِيهَا أَلاَ إِنَّ ثَمُودَ كَفرُواْ رَبَّهُمْ أَلاَ بُعْدًا لِّثَمُودَ﴿

**“(Səmud qövmü səs və zəlzələdən elə məhv oldu ki,) sanki heç vaxt orada sakin olmamışdı. Bilin ki, həqiqətən, Səmud öz Rəbbini inkar etmişdi. Bilin ki, Səmud (ilahi rəhmətdən) uzaq oldu.”**

## *Nöqtələr*

◘“Casimin” dedikdə dizi üstə oturmaq və ya üzü üstə düşmək başa düşülür. Necə ki, elektrik cərəyanı insanı dondurub, hərəkət etməyə qoymur. “Yəğnəv” dedikdə bir məkanda dayanmaq mə`nası başa düşülür.

◘İnadkar və zalım Səmud qövmünün işi bu ayədə bağlanmış olur.

◘Həzrət Saleh ərəb peyğəmbərlərindən və Səmud qövmündən idi. Bu qövm Mədinə və Şam arasındakı Əl-Qəra məntəqəsində yaşayırdı. Onların məşğuliyyəti əkinçilik və bağçılıq idi. Hazırkı Tövratda Salehin adı çəkilmir.[1]

[1] “Təfsire-Əl-mizan”.

◘Hazırda səsdən iti sür`ətli təyyarələrin uğultusu evlərin şüşəsini qırdığı kimi, dünyanın da son nöqtəsi səmadan enən bir səslə qoyulasıdır. Həmin səs yer üzündəki həyatı sona çatdırasıdır.[1] Qiyamət və məhşər səhnəsi də əzəmətli bir səs vasitəsi ilə bərpa olacaq.[2]

## *Bildirişlər*

1. Zalımların Allah qəzəbinə gəlməsinin səbəbi onların öz ətrafındakılara zülm-sitəmləridir.
2. Allahın cəzası təkcə Qiyamətə aid deyil. Zülm-sitəmin elə bu dünyada da cəzası var.

### Ayə 69:

﴿وَلَقَدْ جَاءتْ رُسُلُنَا إِبْرَاهِيمَ بِالْبُشْرَى قَالُواْ سَلاَمًا قَالَ سَلاَمٌ فَمَا لَبِثَ أَن جَاء بِعِجْلٍ حَنِيذٍ﴾

**“Həqiqətən, Bizim elçilərimiz İbrahimə müjdə gətirib dedilər: “Salam.” (İbrahim) dedi: “Salam.” Çox ötmədi ki, onlara (qonaqlıq üçün) qızarmış bir buzov gətirdi.”**

## *Bildirişlər*

1. Mələklər Allahın izni ilə insan şəklinə düşə bilirlər.
2. Sözə salamla başlamaq lazımdır.
3. Salam səmavi bir şüar, ilahi bir qaydadır.
4. Salama gözəl tərzdə cavab verilməlidir.
5. Qonaq qəbulunda iti olmaq lazımdır.
6. Tanınmayan bir şəxsi də qonaq qəbul etmək dəyərdir.
7. Peyğəmbərlər qonaqpərvər və səxavətli idilər.
8. Qonaqdan aclığı və nə yemək istədiyi barədə soruşmayaq.
9. Qonağa özümüz xidmət edək.
10. Qonağı xörəyin yanına yox, xörəyi qonağın yanına aparaq.
11. Qonağı yaxşı şəkildə qəbul etmək lazımdır. “Zariyat” surəsində oxuyuruq ki, həzrət İbrahim öz qonaqlarına kabab verərdi.

### Ayə 70:

﴿فَلَمَّا رَأَى أَيْدِيَهُمْ لاَ تَصِلُ إِلَيْهِ نَكِرَهُمْ وَأَوْجَسَ مِنْهُمْ خِيفَةً قَالُواْ لاَ تَخَفْ إِنَّا أُرْسِلْنَا إِلَى قَوْمِ لُوطٍ﴾

---

[1] “Yasin”, 49.
[2] “Yasin”, 53.

**“(İbrahim) onların (qonaqların) yeməyə əl uzatmadılarını görüb narahat oldu və qəlbinə qorxu düşdü. (Düşündü ki, onlar öz pis məqsədlərini rahatca həyata keçirmək üçün çörək kəsmirlər.) Amma qonaqlar dedilər: “Qorxma, həqiqətən, biz Lut qövmünə (əzab üçün) göndərilmişik.”**

## *Nöqtələr*

◘Həzrət İbrahimin keçirdiyi qorxu adi insanların qorxusundan fərqlənirdi. İbrahim tarixin bütsındıranı idi və heç vaxt nədənsə qorxmamışdı. Amma təhlükə ehtimalı fərqli bir məsələ idi.

◘İşdə mərhələləri gözləmək lazımdır. Həzrət Lut və onun qövmü həzrət İbrahimin tabeçiliyində olan qövmlərdən idi. Bu səbəbdən də Lut qövmünün məhvi üçün həzrət İbrahim bu işdən xəbərdar edilirdi.

## *Bildirişlər*

1. Mələklər maddi qidalardan istifadə etmirlər.
2. Peyğəmbərlərin elmi məhduddur.
3. Həzrət İbrahimin dövründə qonağın süfrəyə əl uzatmaması onun ev sahibi ilə düşmənçilik nişanəsi sayılırdı.
4. Bə`zən insanın qorxusu mə`lumatsızlıqdan qaynaqlanır.
5. Mələklərin vəzifələrindən biri əzab gətirməkdir.

**Ayə 71:**

﴾وَامْرَأَتُهُ قَآئِمَةٌ فَضَحِكَتْ فَبَشَّرْنَاهَا بِإِسْحَقَ وَمِن وَرَاء إِسْحَقَ يَعْقُوبَ﴿

**“Onun zövcəsi ayaq üstə durmuşdu. Beləliklə o, (sirli qonaqlar mələk olduqda) sevincindən güldü. Beləliklə, ona İshaq (adlı oğulla) və İshaqın adınca Yəqub (adlı nəvə) ilə müjdə verdik.”**

## *Nöqtələr*

◘“İbrahimin zövcəsi ayaq üstə durmuşdu. (Söhbətləri eşidib) güldü. Biz ona İshaq (adlı bir övlad)la, İshaqdan sonra Yə`qub (adlı bir övlad)la müjdə verdik.” İbrahimin zövcəsinin ayaq üstə durması bir neçə səbəblə izah olunur: ibadət üçün; qonaqlara xidmət üçün; get-gələ və söhbətlərə nəzarət üçün.

◘“Zihk” sözü gülmək mə`nasını bildirir. “Zəhk” sözü isə aybaşı mə`nasını ifadə edir. İbrahimin zövcəsi qonaqların süfrəyə əl uzatmamasının İbrahim üçün təhlükə olmadığını bildiyindən gülə bilərdi. Bə`zi təfsirlərdə isə bu gülüş başqa cür mə`nalandırılır: İbrahimin zövcəsi (Sara) yaşlı bir qadın idi və uzun illər idi ki, aybaşı olmurdu. O, övladı olacağını eşitdikdə birdən belə hala düşdü və anladı ki, Allahın iradəsi ilə övlad sahibi ola bilər. İmam Sadiq buyurmuşdur: “Zəhikət” sözü onun aybaşı olmasını bildirir.”[1]

---

[1] “Təfsire-Nurus-səqəleyn”.

## *Bildirişlər*

1. Bə`zi səhnələrdə qadının da iştirakı lazım gəlir.

2. Qadının ruhu kişinin ruhundan zərifdir. Həzrət İbrahim də əhvalatı eşitmişdi. Amma yalnız Sara güldü.

3. Qəmli xəbərlər arasında müjdə də olur.

4. Ən üstün müjdə ardıcıl və davamlı ne`mət müjdəsidir. Ola bilsin ki, övladlardan biri o birindən sonra gəldiyi üçün "Yə`qub" ("Üqb" sözündən) adlandırıldı.

5. Peyğəmbərlərin adı öncədən tə`yin olunmuşdur.

6. İlahi mələklərin hər bir dəstəsinin öz vəzifəsi olsa da, haqqında danışılan mələklərə bir neçə iş tapşırılmışdı. Onlar Lut qövmünü məhv etməli, İbrahim və Saraya övlad müjdəsi verməliydilər.

**Ayə 72:**

﴿قَالَتْ يَا وَيْلَتَى أَأَلِدُ وَأَنَاْ عَجُوزٌ وَهَـذَا بَعْلِي شَيْخًا إِنَّ هَـذَا لَشَيْءٌ عَجِيبٌ﴾

**"(İbrahimin zövcəsi) dedi: "Vay olsun mənə! Özüm qoca bir qarı, ərim qoca bir kişi olduğu halda övladımmı olacaq? Doğrusu, bu, təəccüblü bir işdir!"**

## *Nöqtələr*

◘İbrahimin zövcəsi təəccüb etməkdə haqlı idi. Çünki bu qadın gənc yaşından bəri sonsuz olmuşdu.[1] İndi isə onun 90, əri İbrahimin 100 yaşı vardı.

◘"Əl-mizan" təfsirində nəql olunduğuna əsasən, "bə`l" başqasına ehtiyacı olmayan, ayaq üstdə dura bilən insana deyilir. Öz xərcini təklikdə ödəyə bilən ər də "bə`l" adlandırılmışdır. Suya ehtiyacı olmayan xurma ağacına da "bə`l" deyilir.

## *Bildirişlər*

1. Qadın elə bir məqama ucala bilər ki, mələklərlə danışar.

2. Allahın qüdrətinə təəccüb imana zidd deyil.

3. Allahın qüdrətini öz məhdud imkanlarımızla ölçməyək. (Bə`zən zahiri vasitələr səmərəsiz olur.)

**Ayə 73:**

﴿قَالُواْ أَتَعْجَبِينَ مِنْ أَمْرِ اللّهِ رَحْمَتُ اللّهِ وَبَرَكَاتُهُ عَلَيْكُمْ أَهْلَ الْبَيْتِ إِنَّهُ حَمِيدٌ مَّجِيدٌ﴾

**"(Mələklər İbrahimin zövcəsinə) dedilər: "Allahın işinə təəccübmü edirsən? Siz ev əhlinə Allahın rəhmət və bərəkəti nazil oldu. Həqiqətən, O, mədh olmuş və böyükdür."**

[1] "Zariyat", 29.

## *Nöqtələr*

◘Bir gün Əmirəlmö`minin Əli (ə) rastlaşdığı bir dəstə müsəlmanı salamladı. Onlar həzrətin salamına uzun-uzadı cavab verdilər. Həzrət buyurdu: "Salama mələklərin İbrahimə dediklərindən artıq cavab verməyin. Salamın cavabına "və rəhmətullahi və bərəkatuh" artırmaq kifayətdir."[1]

◘***Sual***: Hazırki ayədə mələklər həzrət İbrahimin zövcəsinə onun "əhli-beyti" deyə xitab etdilər. Adətən hər bir şəxsin zövcəsi onun ev əhli sayılır. Nə üçün İslam Peyğəmbərinin (s) zövcələri onun əhli-beytindən sayılmır?

***Cavab***: Əgər sözün yalnız lüğət mə`nasına istinad etsək, "Əhli-beyt" sözü insanın zövcəsinə aid olur. Amma bə`zən sözün mə`nasını dəyişən dəlillə rastlaşırıq. Məsələn "Hud" surəsinin 46-cı ayəsində Nuhun oğlu onun əhli sayılmır. Necə ki, həzrət Peyğəmbər (s) Salman haqqında buyurur: "Salman bizim əhli-beytdəndir."[2] Təthir ayəsi[3] haqqında bir çox rəvayətlər var. Peyğəmbər (s) müəyyən şəxsləri öz əbası ilə örtərək yalnız onları əhli-beyti saymışdır. Həzrət öz zövcəsi Ümmü-Sələməyə əbaya daxil olmağa icazə verməmişdir.

## *Bildirişlər*

1. Bə`zən mələklər peyğəmbər olmayan kəslərlə də danışırlar.
2. Mələklər tərəfindən qadına da xitab oluna bilər. (Mələklər həzrət İbrahimin zövcəsinə inanmamağı qadağan etdilər.)
3. Heç vaxt Allahın qeybi yardımlarından ümidimizi üzməyək.
4. Bir işə təəccübdən yaxa qurtarmaq üçün Allahın saysız ne`mətlərini yada salaq. (Odu İbrahimə soyudan, onu bütlərə qalib edən Allah qoca qarı və qoca kişiyə də övlad əta edə bilər.)
5. Saleh övlad Allah tərəfindən rəhmət və bərəkətdir.

**Ayə 74:**

﴿فَلَمَّا ذَهَبَ عَنْ إِبْرَاهِيمَ الرَّوْعُ وَجَاءتْهُ الْبُشْرَى يُجَادِلُنَا فِي قَوْمِ لُوطٍ﴾

**"Elə ki, qorxu və dəhşət İbrahimdən uzaqlaşdı və ona (övladla bağlı) müjdə gəldi, Bizimlə Lut–qövmü haqqında (onlara şəfaət vermək məqsədi ilə) mübahisəyə başladı."**

## *Nöqtələr*

◘Həzrət İbrahimin mübahisəsi, "Ənkəbut" surəsinin 31-ci ayəsində bəyan olunmuş mübahisə ola bilər. İbrahim mələklərə dedi: "Həzrət Lut, Allahın peyğəmbəri həmin məntəqədə olduğu halda oranı necə alt-üst edirsiniz?!" Onlar cavab verdilər: "Biz onların halından tam xəbərdarıq, Lut və onun ardıcıllarına nicat verərik."

---

[1] "Təfsire-Məcməül-bəyan".
[2] "Bihar", c. 18, s. 19.
[3] "Əhzab", 33.

## *Bildirişlər*

1. Elm ruhi aramlıq üçün müqəddimədir. (İbrahim məsələdən agah olub arxayınlaşdı.)
2. Peyğəmbərlərdəki qorxu ötəri bir haldır.
3. Əvvəlcə təhlükəni aradan qaldırmaq, sonra mərhəmət diləmək lazımdır.
4. Ruhi aramlıq həmnövlərə diqqət (insanın insana diqqəti) üçün zəmindir.
5. Həyəcanlı vaxtda qərar qəbul etməyək.
6. Ne`mətlə bağlı müjdə bizi başqalarının taleyindən xəbərsiz qoymasın.
7. Peyğəmbərlər öz tabeçiliklərində olanların fikrindədirlər.
8. Təkcə öz qövmümüz və tayfamızın fikrini çəkməyək.
9. İlahi müqəddərat qətiləşmədiyi bir vaxt israrın, şəfaət diləməyin, dua və təvəssülün tə`siri var.
10. Allahın mələkləri və mə`murları ilə mübahisə Allahla mübahisədir.

**Ayə 75:**

﴿إِنَّ إِبْرَاهِيمَ لَحَلِيمٌ أَوَّاهٌ مُّنِيبٌ﴾

**“Doğrudan da, İbrahim dözümlü, ah-nalə çəkən, tövbə və dua əhli idi.”**

**Ayə 76:**

﴿يَا إِبْرَاهِيمُ أَعْرِضْ عَنْ هَذَا إِنَّهُ قَدْ جَاء أَمْرُ رَبِّكَ وَإِنَّهُمْ آتِيهِمْ عَذَابٌ غَيْرُ مَرْدُودٍ﴾

**“(Allahın Lut qövmü ilə bağlı qərarı qəti olduğundan mələklər İbrahimin şəfaət istəyinə belə cavab verdilər:) “Ey İbrahim! Bundan gözünü çək. Həqiqətən, Allahın fərmanı çıxarılıb və qarşısı alınmaz əzab hökmən onları yaxalayacaq.”**

## *Nöqtələr*

◘74-cü ayədə həzrət İbrahim Lut qövmünə əzabla bağlı mübahisəyə başladı. 76-cı ayədə buyurulur ki, ey İbrahim, bu mübahisədən əl çək. Bu iki ayə arasında İbrahimin şəxsiyyət və məqamının qorunması üçün onun yalnız canıyananlıqdan mübahisəyə qatıldığını önə çəkmək məqsədi ilə bu Allah peyğəmbərinin həlimliyi, ah-nalə əhli olması, təslimçiliyi qeyd olunur.

## *Bildirişlər*

1. Peyğəmbərlər bəşəriyyətin ən canıyanan rəhbərləridirlər. Onlar öz dözümləri, ah-nalələri, duaları ilə xalqın qurtuluşu üçün çalışırlar.
2. Hər hansı xəbərdarlıqda insanın məqam və şəxsiyyəti gözlənilməlidir.
3. İbrahim şəfaət istədiyi vaxt əzabın qətiliyindən xəbərsiz idi.
4. Allahın əzabı da tərbiyə məqsədi ilə nazil olur.
5. Bə`zən peyğəmbərlərin də şəfaəti qəbul olunmur. Allahın fərmanı qəti olduqda heç bir məqam onun qarşısını ala bilməz.

**Ayə 77:**

﴿وَلَمَّا جَاءتْ رُسُلُنَا لُوطًا سِيءَ بِهِمْ وَضَاقَ بِهِمْ ذَرْعًا وَقَالَ هَـذَا يَوْمٌ عَصِيبٌ﴾

**“Mələklərimiz Lutun sorağına gəldikləri vaxt onların gəlişindən qəmgin oldu və sıxıntıya düşdü. (Öz-özünə) dedi: “Bu gün çətin bir gündür!”**

## *Nöqtələr*

◘Allahın elçiləri gözəl gənclər simasında gəldiklərindən Lut öz qövmünün qonaqlara münasibətdə pis fikrə düşəcəyindən narahat oldu.

◘“Zaqə bihim zər`ən”, yə`ni “əli heç bir yerə çatmadı”. Bu tə`bir həzrət Lutun aciz qalmasına işarədir.

## *Bildirişlər*

1. Peyğəmbərlərin elmi məhduddur. (Həzrət Lut bilmirdi ki, onun qonaqları insan qiyafəli mələklərdir.)
2. Pisliklə mübarizənin ilk mərhələsi qəlb mübarizəsidir.
3. Ev sahibi qonaqları qorumağa borcludur.

**Ayə 78:**

﴿وَجَاءهُ قَوْمُهُ يُهْرَعُونَ إِلَيْهِ وَمِن قَبْلُ كَانُواْ يَعْمَلُونَ السَّيِّئَاتِ قَالَ يَا قَوْمِ هَؤُلاء بَنَاتِي هُنَّ أَطْهَرُ لَكُمْ فَاتَّقُواْ اللّهَ وَلاَ تُخْزُونِ فِي ضَيْفِي أَلَيْسَ مِنكُمْ رَجُلٌ رَّشِيدٌ﴾

**“Lutun pis işlər görmüş qövmü tələsik onun yanına gəldi. (Həzrət Lut onların mələklərə təcavüzünün qarşısını almaq üçün öz qızlarına işarə edərək) dedi: “Ey mənim qövmüm! Bunlar mənim qızlarımdır. (İzdivac məqsədiniz varsa, onlarla evlənə bilərsiniz.) Onlar sizin üçün daha pakdır, Allahdan qorxun, məni qonaqların qarşısında rüsvay etməyin. Aranızda (günah əvəzində izdivacı qəbul edən) bir nəfər yetkin yoxdurmu?”**

## *Nöqtələr*

◘“İhra” sözündən olan “yuhrəun” sözü “qovmaq” mə`nasını bildirir. Yə`ni cilovu qırılmış bu azğın qövmü alovlanmış şəhvət həzrət Lutun qonaqlarına doğru qovurdu.

◘“Əthər” (daha pak) dedikdə izdivacın daha pak, livatın (homoseksualizmin) isə pak olduğu nəzərdə tutulmur. Sadəcə, müdara məqsədi ilə izdivacın günahdan üstün olduğu bildirilir.[1]

◘İztirab, sıxıntı və çətinliklər içində iste`dadlar və ruhi hallar çiçəklənir. Əgər mələklər həzrət Lutun yanına gələn kimi özlərini tanıtdırsaydılar, Lut ah-nalə çəkib izdivac təklif etməz, onlara nəsihət verərdi.

◘***Sual***: Necə olur ki, peyğəmbər öz mö`min qızını kafir kişiyə təklif edir?

---

[1] “Təfsire-Əl-mizan”.

***Cavab***: Bəlkə də evlənmədən öncə iman şərt qoyulacaq idi ki, evlənən tərəflər iman gətirsinlər. Ya da ki, "bənati" dedikdə, xalqın qızları nəzərdə tutulmuşdur. Çünki peyğəmbər ümmətin atası olduğundan, xalqın qızlarını öz qızı kimi təqdim edir. Belə də ola bilər ki, həmin dövrdə uyğun izdivaca icazə verilirmiş.

## *Bildirişlər*

1. Bə`zən cəmiyyət o qədər pozulur ki, xalq qaçaraq günaha üz tutur.
2. Azğın nəfs insanı günaha çəkir.
3. Bir günah o biri günaha yol açır.
4. Pis işlərin qarşısını almaq üçün öncə düzgün yol və xeyir işlər xalqa göstərilməlidir.
5. İffət və paklıq guşənişinlik yox, təbii get-gəl arasında paklığı gözləməkdir. (Həzrət Lut xalqın qarşısında qızlarına işarə etdi.)
6. Cəmiyyətin hidayəti üçün moizə bəs etmir. Bə`zən fədakarlığa, isara ehtiyac var.
7. Qız atası izdivac təklif edə bilər.
8. Cinsi ehtirası söndürmək üçün yeganə düzgün yol izdivacdır.
9. Cəmiyyətdə günah adiləşmişsə də, insan "nəhy əz munkər" etməyə, insanları pis işdən çəkindirməyə borcludur.
10. Həmcinsbazlıq (homoseksualizm) keçmiş dinlərdə də haram və mənfur sayılmışdır.
11. Tə`sir ehtimalı az olsa da, pis işdən çəkindirmək zəruridir.
12. Qonağa hörmətsizlik ev sahibinə hörmətsizlik sayılır.
13. Qonaqpərvərlik o qədər dəyərlidir ki, ən şərif insanlar bu yolda böyük əziyyətlərə qatlaşmışlar.
14. Qonağın müdafiəsi insanlıq haqqıdırsa, qonağa biganəlik namərdlikdir.
15. "Nəhy əz münkər" edərkən, xalqı pis işdən çəkindirərkən onların mərhəmət hisslərindən bəhrələnək.
16. Həmcinsbazlıq kişilik, rəşadət və qeyrətlə bir araya sığmır.

**Ayə 79:**

﴿قَالُواْ لَقَدْ عَلِمْتَ مَا لَنَا فِي بَنَاتِكَ مِنْ حَقٍّ وَإِنَّكَ لَتَعْلَمُ مَا نُرِيدُ﴾

**"(Lut qövmü) dedi: "Sən özün bilirsən ki, sənin qızlarından heç bir istəyimiz yoxdur. Nə istədiyimizi özün yaxşı bilirsən."**

**Ayə 80:**

﴿قَالَ لَوْ أَنَّ لِي بِكُمْ قُوَّةً أَوْ آوِي إِلَى رُكْنٍ شَدِيدٍ﴾

**"(Həzrət Lut) dedi: "Kaş ki, sizə qarşı bir gücüm olaydı, ya da möhkəm bir arxaya sığınaydım!"**

## *Nöqtələr*

◘Həzrət Lut bu ayədə buyurur ki, əgər mənim mö`min tərəfdarlarım olsaydı, sizinlə mübarizə edib, qonaqlarımın müdafiəsinə qalxar, ən azı əmin-aman bir yerə aparardım.

◘İslam Peyğəmbərindən (s) nəql olunmuş bir hədisdən belə anlaşılır ki, o, dünyaya vida deyib Allaha qovuşdu və öz qövmünün şərindən azad oldu.[1]

◘Həmcinsbazlıq böyük günahlardandır. Bu günahın cəzası e`dam və qamçıdır. Uyğun cəza günahkarın e`tirafı və ya ədalətli şəxslərin şəhadəti ilə icra olunur.

## *Qur`an və hədislərdə livatın (həmcinsbazlıq) günahı*

◘Qur`anın müxtəlif ayələrində həzrət Lut və onun qövmünün əhvalatı bəyan olunmaqla bu qövmün çirkin əməli böyük günah kimi tanıtdırılır və ciddi şəkildə haram buyurulur. Uyğun günahla bağlı bə`zi tə`birləri nəzərdən keçirək. Çirkin iş[2]; israf[3]; günah[4]; zülm[5]; xəbislik[6]; cəhalət[7]; azğınlıq.[8]

◘Rəvayətlərdə də bu günahla bağlı sərt hədələr nəzərə çarpır. Rəvayətlərdə bildirilir ki, əgər bir cavanla livat edilsə, Allahın ərşi lərzəyə gələr və qiyamətdə Allah onlarla danışmaz.[9] İmam Sadiq (ə) buyurmuşdur: "Əgər bir şəxsi iki dəfə daşqalaq etmək qərarı çıxarılsa, o şəxs livat əhlidir."[10] Həzrət Peyğəmbər (s) buyurmuşdur: "Başqalarını livata çağıran şəxs xalqı özünə livata də`vət edənədək dünyadan köçməz."[11] Livatda hər iki tərəf e`dam olunur. Belə bir cəzanın səbəbi, rəvayətlərə əsasən, həmin günahın insan nəslini kəsməsi və fəsaddır.[12]

◘Rəvayətlərdə özünü kişiyə oxşadan qadınlar və özünü qadına oxşadan kişilər çirkin livat əməli üçün zəmin yaratdıqlarından şiddətlə məzəmmət olunurlar.

## *Bildirişlər*

1. İnsan günah nəticəsində elə məsx olur (dəyişilir) ki, ən təbii yol ona çirkin, ən çirkin yol ona gözəl görünür.
2. Qüdrət, imkan, tərəfdar sahibi olmaq cəmiyyəti islah etmək fikrində olan peyğəmbər və islahatçıların ilkin istəyidir.
3. Əgər qüdrət, hökumət, təşkilat və silahlı qüvvə olmasa, peyğəmbərlər də çirkin işlərin qarşısını ala bilməz.

---

[1] "Təfsire-Fi Zilalil Qur`an".
[2] "Ə`raf", 79.
[3] "Ə`raf", 80.
[4] "Ə`raf", 83.
[5] "Hud", 82.
[6] "Ənbiya", 74.
[7] "Nəml", 54.
[8] "Ənbiya", 74.
[9] "Bihar", c. 70, s. 63.
[10] "Bihar", c. 76, s. 67.
[11] "Bihar", c. 76, s. 67.
[12] "Nəhcül-bəlağə", h.252.

4. Çalışaq ki, fəsadın qarşısını alaq. Bunu bacarmadıqda günahkar mühitdən uzaqlaşaq.

5. Bə`zən peyğəmbərlər də öz qövmləri arasında qərib olmuşlar.

6. Qonağın müdafiəsi və onun təhqirinin qarşısının alınması üçün atılan hər bir addım zəruridir.

**Ayə 81:**

﴿قَالُواْ يَا لُوطُ إِنَّا رُسُلُ رَبِّكَ لَن يَصِلُواْ إِلَيْكَ فَأَسْرِ بِأَهْلِكَ بِقِطْعٍ مِّنَ اللَّيْلِ وَلاَ يَلْتَفِتْ مِنكُمْ أَحَدٌ إِلاَّ امْرَأَتَكَ إِنَّهُ مُصِيبُهَا مَا أَصَابَهُمْ إِنَّ مَوْعِدَهُمُ الصُّبْحُ أَلَيْسَ الصُّبْحُ بِقَرِيبٍ﴾

**“(İş bu yerə çatdıqda qonaqlar) dedilər: “Ey Lut! Biz sənin Rəbbinin elçiləriyik. (Bizə görə narahat olma, çünki) onlar heç vaxt sənə əl uzada bilməyəcəklər. Gecənin bir vaxtı ailəni (bu məmləkətdən) çıxar və sizdən heç biriniz (arxaya) dönüb baxmasın. Amma zövcəni (özünlə götürmə, çünki) hamıya çatacaq bəladan ona da yetişəcək. Həqiqətən, onların (məhv) vaxtı sübhdür. Sübh yaxın deyilmi?!”**

## *Nöqtələr*

◘“İsra” kökündən olan “əsri” sözü gecə hərəkət mə`nasını bildirir.

◘“İlləmrəətəkə” cümləsi ya Luta zövcəsindən savay öz əhlini gecə köçürmək əmrini verir, ya da zövcəsindən savay kimsənin geriyə baxmamasını tapşırır. Lutun zövcəsi həmin məntəqədən çıxarkən günahkar qövmə görə nigaran olduğundan köçdən geri qaldı və nəticədə əzaba düçar oldu.

## *Bildirişlər*

1. Allah bir qövmü həlak etməmiş onun peyğəmbərini xəbərdar edir.
2. Mö`min o qədər cəld və ruhi hazırlıqlı olmalıdır ki, qısa bir müddətdə yerini dəyişə bilsin.
3. İnqilab və günahkar məntəqənin məhvi zamanı mal-mülk və ev əşyalarına vaxt ayırmayaq.
4. Peyğəmbərlə qohumluq qurtuluş səbəbi deyil.
5. Dəyər sistemi qohumluq yox, ləyaqət prinsipi üzərində qurulmuşdur.
6. İnsanlar yol seçimində azaddır. Hətta peyğəmbərin arvadı belə onun evindəcə azğınlıq yolunu seçir.
7. Dini şəxsiyyətlərin hesabını qohum-əqrəbanın hesabından ayıraq.
8. Allah hər bir iş üçün vaxt müəyyənləşdirmişdir.
9. Allahın qəhr-qəzəbi üçün tələsməyək.

**Ayə 82:**

﴿فَلَمَّا جَاء أَمْرُنَا جَعَلْنَا عَالِيَهَا سَافِلَهَا وَأَمْطَرْنَا عَلَيْهَا حِجَارَةً مِّن سِجِّيلٍ مَّنضُودٍ﴾

**“Elə ki (qəhr-qəzəb) əmrimiz gəldi, həmin məmləkəti alt-üst etdik, lay-lay gil daşlardan başlarına yağış yağdırdıq.”**

**Ayə 83:**

﴿مُّسَوَّمَةً عِندَ رَبِّكَ وَمَا هِيَ مِنَ الظَّالِمِينَ بِبَعِيدٍ﴾

**“(O daşlar) Rəbbinin yanında nişanlanmışdı. Bu (daşqalaq cəzası) başqa sitəmkarlardan uzaq deyil.”**

## *Nöqtələr*

◘“Siccil” dedikdə elə bir kütlə başa düşülür ki, o nə gil kimi yumşaqdır, nə də daş kimi bərk. “Mənzud” sözü isə üst-üstə, ard-arda mə`nasını bildirir. Nişanlanmış daş dedikdə, ya hər bir daşın xüsusi bir şəxs üçün nişanlandığı, ya da həmin daşların yer daşlarından fərqləndiyi nəzərdə tutulur.

◘Bu ayə Lut qövmünün aqibətini bəyan edir. Xülasə olaraq deyə bilərik ki, həzrət Lut öz qövmünün peyğəmbəri idi, həzrət İbrahimin dövründə yaşamışdı və onun dinini təbliğ edirdi. Həzrət Lut həzrət İbrahimlə birlikdə Fələstinə yola düşdü və sonra Mö`təfikat adlı məntəqəyə gedib oranın bütpərəst, aşkar livat edən əhlini doğru yola çağırdı. Həzrət Lut nə qədər çalışdısa nəsihətlərinin tə`siri olmadı və nəhayət, onu qovmaqla hədələdilər. Onlar Luta dedilər: “Ey Lut, əgər nəsihətini kəsməsən səni sürgün edərik.”[1] Nəhayət əzab mələkləri nazil oldu. Onlar öncə həzrət İbrahimi, sonra həzrət Lutu məsələdən xəbərdar edib həmin məntəqəni viran qoydular.

◘“Hicr” surəsinin 73-cü ayəsində bildirilir ki, Lut qövmünü dəhşətli bir səs bürüdü. Ola bilsin ki, məntəqəni viran qoyan da həmin o səs oldu. Yerin tə`kindən göyə sıxılan böyük daşlar sonradan onların başına endi.[2] Bəlkə də daş yağdığı əsnada ərşdən gələn dəhşətli səs məntəqəni öz ağuşuna almışdır.

## *Bildirişlər*

1. İnsan fitrətini viran qoyan kəslərin cəzası yurdlarının başlarına çevrilməsidir.
2. Allah Öz qüdrəti ilə su yerinə daş yağdıra bilər.
3. Əxlaqi və cinsi azğınlıq zülmdür.
4. Qərb və Amerika kimi həmcinsbazlığa (homeseksualizmə) rəsmi azadlıq verənlər Allahın qəhr-qəzəbini gözləsinlər. Bu məntəqələri viran olmaq təhlükəsi gözləyir.

**Ayə 84:**

﴿وَإِلَى مَدْيَنَ أَخَاهُمْ شُعَيْبًا قَالَ يَا قَوْمِ اعْبُدُواْ اللّهَ مَا لَكُم مِّنْ إِلَهٍ غَيْرُهُ وَلاَ تَنقُصُواْ الْمِكْيَالَ وَالْمِيزَانَ إِنِّي أَرَاكُم بِخَيْرٍ وَإِنِّي أَخَافُ عَلَيْكُمْ عَذَابَ يَوْمٍ مُّحِيطٍ﴾

---

[1] “Şuəra”, 167.
[2] “Təfsire-Əl-mizan”.

**“Mədyənə doğru qardaşları Şüeybi (göndərdik). O dedi: “Ey mənim qövmüm! Allaha pərəstiş edin, sizin üçün başqa bir mə`bud yoxdur. Ölçü və çəkini əskiltməyin. Həqiqətən, mən bu işdə sizin üçün xeyir görürəm. Doğrusu, mən sizi bürüyəcək günün (Qiyamət gününün) əzabından qorxuram.”**

## *Nöqtələr*

◘Bu günki adı “Məan”, Tövratdakı adı “Mədyan” olan Mədyən şəhəri Əqəbə körfəzinin şərqində yerləşmişdir. Bu şəhərin əhalisi həzrət İsmailin övladları idi. Onların Misir, Livan və Fələstinlə ticarət əlaqələri vardı. Bə`ziləri də Sina dağı ətrafında yerləşən bir qəbilənin “Mədyən” adlandırıldığını bildirmişlər.

◘Ümmətlər müxtəlif dövrlərdə müxtəlif fəsadlar törətmişlər. Lut qövmü cinsi azğınlığa uğramışdısa, Şüeyb qövmü əskik satır, ticarət qanunlarını pozurdu.

## *Bildirişlər*

1. Peyğəmbərlərin be`səti ilahi sünnə, davamlı tarixi cərəyan olmuşdur.
2. Həzrət Şüeybin risaləti yalnız Mədyən məntəqəsinə aid idi.
3. Hər bir qövm üçün onun öz arasından peyğəmbər seçilir.
4. Bir Allaha pərəstiş müvəhhid baxışlara əsaslanır.
5. Allaha ibadət etmək kifayət etmir, müşriklərdən üz döndərmək də zəruridir.
6. Peyğəmbərlər yalnız e`tiqadi və əxlaqi məsələlərə nəzarətlə kifayətlənmir, iqtisadiyyata diqqət yetirir, iqtisadi fəsadlarla mübarizə aparırdılar.
7. İstisadi fəsaddan və fırıldaqçılıqdan qurtulmağın yolu təkcə rifah və tə`minat deyil. İmam Sadiq (ə) “həqiqətən sizə xeyir görürəm” tə`birinin bolluq və ucuzluğa işarə olduğunu bildirir.[1]
8. Xalqı pis işdən çəkindirmək üçün onu həvəsləndirmək lazımdır.
9. Yaranış və məad e`tiqadına də`vət bütün peyğəmbərlərin ilkin də`vətləri olmuşudur.
10. Hesab gününə inam bütün işlərdə təqva zəminidir.
11. Allahın qəzəbindən qaçmaq olmaz.

### Ayə 85:

﴿وَيَا قَوْمِ أَوْفُواْ الْمِكْيَالَ وَالْمِيزَانَ بِالْقِسْطِ وَلاَ تَبْخَسُواْ النَّاسَ أَشْيَاءهُمْ وَلاَ تَعْثَوْاْ فِي الأَرْضِ مُفْسِدِينَ﴾

**“(Həzrət Şüeyb tə`kid etdi ki,) ey mənim qövmüm, ölçü və tərəzini insaf və ədalətlə tamamlayın və xalqın malını əskiltməyin. Fəsad törədib yer üzünü xaraba qoymayın.”**

---

[1] “Təfsire-Nurus-səqələyn”.

## *Nöqtələr*

◘"Bəxs" kökündən olan "təbxəsu" sözü əskiltmək mə`nasını bildirir. "La tə`səv" sözü isə fəsad törətməmək mə`nasındadır.

## *Bildirişlər*

1. Hərtərəfli ədalətin bərqərarı peyğəmbər hərəkatının nailiyyətlərindəndir.
2. Günah cəmiyyətdə adət şəkli aldıqda ardıcıl xatırlatmalarla onu aradan qaldırmaq lazımdır. Bu ayədə ölçü və çəki məsələsi bir neçə dəfə yada salınır.
3. Alış-verişə, iqtisadi proseslərə nəzarət lazımdır.
4. Yalnız mö`minlərə yox, bütün xalqa münasibətdə ədalət prinsipini gözləmək zəruridir.
5. Əskiltməmək təkcə çəkisi və ölçüsü olan, dartıla bilən şeylərə aid deyil. Xalqla alış-verişin bütün sahələrində ədalət gözlənilməlidir.
6. İqtisadi məsələlərlə xalqın haqqını tapdamaq fəsadın ən bariz nümunələrindəndir. Çünki qeyri-sağlam iqtisadiyyat cəmiyyəti məhv edir.
7. Fəsaddan da pisi fəsad ruhiyyəsində olmaqdır.

**Ayə 86:**

﴿بَقِيَّةُ اللّهِ خَيْرٌ لَّكُمْ إِن كُنتُم مُّؤْمِنِينَ وَمَا أَنَاْ عَلَيْكُم بِحَفِيظٍ﴾

**"Əgər imanınız olsa, Allahın sizin üçün saxladığı (halal mal, əskiltməklə əldə etdiyiniz maldan) daha üstündür. Mən sizə nəzarətçi deyiləm."**

## *Nöqtələr*

◘"Bəqiyyətullah" dedikdə bu ayədə halal sərmayədən əldə olunmuş qazanc nəzərdə tutulur. Rəvayətlərdə isə bütün mübarək vücudlar "bəqiyyətullah" adlandırılmışdır. O cümlədən, cəbhədən qələbə ilə dönən mö`min döyüşçülər belə adlandırılırlar. Çünki onlar Allahın iradəsi ilə geri dönmüşlər. Əsrin imamı həzrət Mehdi (ə) də "Bəqiyyətullah" adlandırılmışdır. Çünki onun şərif vücudunu Allah xalqın hidayəti üçün saxlamışdır. Rəvayətdə oxuyuruq ki, "bəqiyyətullah" həzrət Mehdinin (ə) mübarək adlarındandır.[1] Biz həzrətə (ə) bu adla salam veririk: "Əssəlamu ələykə ya bəqiyyətəllahi fil ərəzin." Həzrət Mehdi (ə) Məkkədə zühur edəcəyi vaxt bu ayəni tilavət edib buyurar: "bəqiyyətullah mənəm." Başqa mə`sumlar da "bəqiyyətullah" ləqəbi ilə çağırılmışlar.[2]

## *Bildirişlər*

1.Cüz`i, amma halal və pak ruzi çox, amma haram ruzidən üstündür.

---

[1] "Bihar", c. 46, s. 259.
[2] "Təfsire-kənzud-dəqaiq".

2. Dünya fani, axirət isə həmişəlikdir. Bu səbəbdən də axirətə meyl dünyapərəstlikdən üstündür.

3. Əgər əskik satmasaq müştərilər artar, nəticədə qazancımız çoxalar.

4. Haramı halaldan üstün sayan kəsin imanı şübhəlidir.

5. İnsanlar öz əqidəsində azaddırlar. Hətta peyğəmbərlər də onları məcbur etmirlər.

6. İnsan haram yediyi üçün bədbəxt olsa, kimsə ona zamin deyildir.

**Ayə 87:**

﴿قَالُواْ يَا شُعَيْبُ أَصَلاَتُكَ تَأْمُرُكَ أَن نَّتْرُكَ مَا يَعْبُدُ آبَاؤُنَا أَوْ أَن نَّفْعَلَ فِي أَمْوَالِنَا مَا نَشَاء إِنَّكَ لَأَنتَ الْحَلِيمُ الرَّشِيدُ﴾

**“(Mədyən camaatı) dedi: “Ey Şüeyb! Namazın sənə əmr edir ki, (biz) atalarımızın pərəstiş etdiyini boşlayaq? Həm də malımızı istədiyimiz kimi sərf etməyək? Sən ki, dözümlü və dərrakəlisən! (Bizdən istədiklərin nədir?)”**

## *Bildirişlər*

1. Bütün peyğəmbərlər müxaliflərlə qarşı-qarşıya gəlmişlər.

2. Ötən dinlərdə də namaz olmuşdur.

3. Namaz Şüeyb ayininin bariz nümunəsidir.

4. Həqiqi namaz insanı başqalarının hidayətinə, “əmr be mə`ruf” və “nəhy əz münkərə” vadar edir.

5. Aşkar dəlillərə göz yumub ata-babaların yanlış əqidəsinə təqlid etmək bir çox azğınlıqların qaynağıdır.

6. Din nə siyasətdən, nə də iqtisadiyyatdan ayrıdır.

7. Peyğəmbər ayinləri qeyd-şərtsiz, heyvani azadlığı inkar edir.

8. Bir şeyə sahib olmaq onu istənilən bir istiqamətdə sərf etmək üçün dəlil ola bilməz. (Şüeyb qanunlarında məsrəfə nəzarət qanunu vardı.)

9. Bə`zən müxaliflər bizi susduğumuz üçün tə`rifləyir.

10. Müxaliflər bə`zən istehza olaraq tə`rifləyirlər.

**Ayə 88:**

﴿قَالَ يَا قَوْمِ أَرَأَيْتُمْ إِن كُنتُ عَلَىَ بَيِّنَةٍ مِّن رَّبِّي وَرَزَقَنِي مِنْهُ رِزْقًا حَسَنًا وَمَا أُرِيدُ أَنْ أُخَالِفَكُمْ إِلَى مَا أَنْهَاكُمْ عَنْهُ إِنْ أُرِيدُ إِلاَّ الإِصْلاَحَ مَا اسْتَطَعْتُ وَمَا تَوْفِيقِي إِلاَّ بِاللّهِ عَلَيْهِ تَوَكَّلْتُ وَإِلَيْهِ أُنِيبُ﴾

**“(Şüeyb) dedi: “Ey mənim qövmüm! Düşünmürsünüzmü ki, əgər Rəbbim tərəfindən aşkar bir dəlilim varsa və O mənə gözəl bir ruzi (nübuvvət) əta etmişsə, (necə Ona müxalif olum?) Mən sizi çəkindirdiyim bir şeyə müxalif olmaq istəmirəm. Mənim gücüm həddində islahdan savay bir istəyim yoxdur və Allahın lütfündən başqa bir tövfiqim yoxdur. (Buna görə də) Ona təvəkkül etmişəm və Ona doğru qayıtmışam.”**

## *Nöqtələr*

◘Ötən ayədə kafirlər e`tiraz etdilər ki, nə üçün biz öz malımızı azad sərf edə bilməyək? Həzrət Şüeyb bu ayədə cavab verir ki, sizə öz məsrəfinizdə şərt qoymağım düşmənçilik və şəxsi mənafe üçün yox, yaşayış və cəmiyyətinizin islahı üçündür.

## *Bildirişlər*

1. Nübuvvət aşkar mö`cüzəyə əsaslanır.
2. Peyğəmbərlər hər şeyi Allahın bəxşişi bilirlər.
3. Güman etməyək ki, əskik satmaq və haram yeməklə yaxşı yaşaya bilərik. Çünki peyğəmbərlər və övliyalar günaha batmadan gözəl ruzi əldə etmişlər. (Yaxşı ruzi dedikdə, əskik satmaq və zülm bahasına əldə olunmamış ruzi başa düşülür.)
4. İnsanı ruziyə çatdıran onun zirəkliyi yox, Allah və Onun lütfüdür.
5. Həzrət Şüeyb kafirlərin "bizim malımız" sözü müqabilində " mənə gözəl ruzi verilib" deməklə maddi çətinliyi olmadığını bildirir.
6. Yaxşıya də`vət edib pisdən çəkindirən kəs özü doğru yolda olmalıdır. Peyğəmbərlər təkcə göstəriş vermirdilər. Onlar özləri də ən üstün əməl nümunələri idilər.
7. Peyğəmbərlər nəinki ilahi göstərişə qarşı çıxmır, hətta bu barədə düşünmürlər.
8. Peyğəmbərlərin məqsədi insanların və cəmiyyətin islahıdır.
9. Peyğəmbərlərin işi zamanla yox, onların gücü ilə müəyyənləşir.
10. Addım atmaq bizdən, tövfiq isə Allahdandır.
11. İşdə ciddi sə`ylə çalışaq. Amma bilək ki, müvəffəqiyyət Allahın əlindədir.
12. Təvəkkül o vaxt səmərə verir ki, insan səy göstərsin.
13. İslahatçı özü saleh, imanlı olmalı, təvəkkül və duadan uzaq düşməməlidir.
14. Bu ayədə "əmr be mə`ruf" və "nəhy əz münkər" edənlərə bə`zi tapşırıqlar verilir: özünüz əməl əhli olun; məqsədiniz cəmiyyətin islahı olsun; işdə tövfiqi, yardımı Allahdan bilin; daim Ona təvəkkül edin; çətinliklər zamanı Ona sığının

**Ayə 89:**

﴿وَيَا قَوْمِ لاَ يَجْرِمَنَّكُمْ شِقَاقِي أَن يُصِيبَكُم مِّثْلُ مَا أَصَابَ قَوْمَ نُوحٍ أَوْ قَوْمَ هُودٍ أَوْ قَوْمَ صَالِحٍ وَمَا قَوْمُ لُوطٍ مِّنكُم بِبَعِيدٍ﴾

**"(Şüeyb dedi: "Ey mənim qövmüm! Mənimlə düşmənçilik və müxalifət sizi o işlərə sövq etməsin ki, Nuh, Hud, Saleh qövmü kimi (əzaba) düçar olasınız. (Bilin ki,) Lut qövmü (onların başına gələn) sizdən uzaq deyil."**

## *Bildirişlər*

1. Hətta müxaliflərlə də gözəl tərzdə danışaq.
2. Bir nəfərlə düşmənçiliyə xatir özümüzün və cəmiyyətin xoşbəxtliyi üçün təhlükə yaratmayaq.

3. Bəşər qövmlərinin tarixi bir-birinə oxşardır. Onların təkrarlanması ibrət dərsidir.

4. Keçmişdəkilərin acı taleyini zarafat və təsadüf saymayaq. (Həzrət Nuh, Hud, Saleh və Lut Şüeybdən qabaq olmuşlar.)

5. Allah daim Öz əzabını nazil edə bilər. O, istənilən bir qövmü istənilən bir şəkildə, istənilən bir məntəqədə, istənilən bir zamanda məhv etməyə qadirdir. Necə ki, Nuh qövmü qərq oldu, Hud qövmü tufana düşdü, Saleh qövmü səmadan enən səslə həlak edildi, Lut qövmü viranlığa düçar oldu.

6. İbrət üçün ən yaxşı tarix ən yaxın tarixdir. Şüeyb qövmü Lut qövmü ilə həm məkan, həm də zaman baxımından yaxın idi.

**Ayə 90:**

﴿وَاسْتَغْفِرُواْ رَبَّكُمْ ثُمَّ تُوبُواْ إِلَيْهِ إِنَّ رَبِّي رَحِيمٌ وَدُودٌ﴾

**“Rəbbinizdən bağışlanma diləyin. Ona doğru qayıdın. Həqiqətən, mənim Rəbbim mehriban və sevəndir.”**

## *Nöqtələr*

◘“Vudd” dedikdə tə`sirli və davamlı bir dostluq nəzərdə tutulur.

## *Bildirişlər*

1. Müxaliflərə xəbərdarlıq etməklə yanaşı, onlar üçün islah yolu saxlamalıyıq.

2. Bağışlanma diləmək və günahdan uzaqlaşmaq Allah yoluna qayıdışın müqəddiməsidir.

3. Əgər tövbə qılsaq, Rəbbimiz tərəfindən müsbət cavab eşidərik.

4. Allahı elə tanıtdıraq ki, Ona doğru qayıdışa eşq olsun.

5. Allahın rəhməti bir anıq deyil. Bu rəhmət davamlıdır və onun böyük bərəkətləri var.

6. Allah təkcə tövbələri qəbul etmir, həm də tövbə edəni sevir.

**Ayə 91:**

﴿قَالُواْ يَا شُعَيْبُ مَا نَفْقَهُ كَثِيرًا مِّمَّا تَقُولُ وَإِنَّا لَنَرَاكَ فِينَا ضَعِيفًا وَلَوْلاَ رَهْطُكَ لَرَجَمْنَاكَ وَمَا أَنتَ عَلَيْنَا بِعَزِيزٍ﴾

**“(Kafirlər) dedilər: “Ey Şüeyb! Biz sənin bir çox sözlərini anlamırıq və səni öz aramızda zəif bilirik. Əgər tərəfdarların olmasaydı, səni daşqalaq edərdik. Sən bizdən üstün, qüdrətli və izzətli deyilsən.”**

## *Nöqtələr*

◘Kafirlər həzrət Şüeybə deyirdilər: “Biz sənin dediklərini anlamırıq.” Doğrudanmı, həzrət Şüeybin sözləri anlaşılmaz idi? Onun buyruqlarına nəzər salın:

1. Mənim mö`cüzəm və aşkar dəlilim var.

2. Mənim maddi çətinliyim və sizə ehtiyacım yoxdur.
3. Dediklərimə əməl edirəm.
4. Cəmiyyəti islah etmək istəyirəm.
5. Gücüm həddində çalışıram.
6. Allaha təvəkkül edir və Ona yalvarıram.
7. Keçmişdəkilərin aqibətini sizə xatırladıram.

Amma kafirlər həm onun sözlərini qulaqardına vurur, həm də özünü zəif sayırdılar. Onlar Şüeybin tərəfdarlarını da heç nə hesab edirdilər. Onlar Şüeybi həm işgəncə ilə hədələyir, həm də qüdrət və izzətini görməməzliyə vururdular.

## *Bildirişlər*

1. İlahi peyğəmbərlər və təbliğçilər doğru yolun təbliğində bir çox təhqirlərə və zorakılıqlara mə`ruz qalmışlar.

2. Peyğəmbər müxaliflərinin heç bir dəlil və məntiqi olmamışdır. Onların məntiqi təhqir, işgəncə və qətldir.

**Ayə 92:**

﴿قَالَ يَا قَوْمِ أَرَهْطِي أَعَزُّ عَلَيْكُم مِّنَ اللّهِ وَاتَّخَذْتُمُوهُ وَرَاءكُمْ ظِهْرِيًّا إِنَّ رَبِّي بِمَا تَعْمَلُونَ مُحِيطٌ﴾

**“(Şüeyb) dedi: “Ey mənim qövmüm! Məgər mənim qəbiləm sizin üçün Allahdan əzizdirmi ki, siz Ona arxa çevirirsiniz? Həqiqətən mənim Rəbbim etdiyiniz əməllərdən xəbərdardır.”**

## *Bildirişlər*

1. Xalqın, firqələrin haqqı ilahi haqlardan üstün tutulmamalıdır. İctimai-siyasi səhnələrdə Allah xəttini xəyali xətlərə qurban verməyək.

2. İnadkar fərdlərə xəbərdarlıq zəruridir.

**Ayə 93:**

﴿وَيَا قَوْمِ اعْمَلُواْ عَلَى مَكَانَتِكُمْ إِنِّي عَامِلٌ سَوْفَ تَعْلَمُونَ مَن يَأْتِيهِ عَذَابٌ يُخْزِيهِ وَمَنْ هُوَ كَاذِبٌ وَارْتَقِبُواْ إِنِّي مَعَكُمْ رَقِيبٌ﴾

**“(Şüeyb dedi:) “Ey mənim qövmüm! Əlinizdən gələni edin. Mən (də) öz işimi görəcəyəm. Tezliklə biləcəksiniz ki, zəliledici əzab kimin sorağına gələcək və yalançı kimdir. Siz intizarda olun, mən də sizinlə birlikdə intizardayam.”**

## *Bildirişlər*

1. Bə`zən peyğəmbərlər öz sözlərinin tə`sir edəcəyindən ümidlərini üzürdülər.

2. Xalqın hidayətindən ümidimizi üzsək də, öz mövqeyimizdə möhkəm dayanaq.

3. Moizə tə`sir etməyən yerdə hədə yolu tutulmalıdır.
4. Hədənin cavabı hədə ilə verilməlidir.
5. Xalq həzrət Şüeybi yalançı sayırdı.
6. Biz öz vəzifəmizə əməl edib ilahi yardım intizarında olmalıyıq.

**Ayə 94:**

﴿وَلَمَّا جَاء أَمْرُنَا نَجَّيْنَا شُعَيْبًا وَالَّذِينَ آمَنُواْ مَعَهُ بِرَحْمَةٍ مَّنَّا وَأَخَذَتِ الَّذِينَ ظَلَمُواْ الصَّيْحَةُ فَأَصْبَحُواْ فِي دِيَارِهِمْ جَاثِمِينَ﴾

**"Elə ki, (qəhr-qəzəb) fərmanımız gəldi, Şüeyb və onunla iman gətirənləri Öz rəhmətimizlə xilas etdik. (Həmin vaxt) dəhşətli səs zalımları əhatə etdi. Onlar evlərində üzü üstə düşdülər (və öldülər)."**

## *Bildirişlər*

1. Allahın zalımlara qəzəbinin gec-tezi var. Amma bu qəzəb labüddür.
2. Səmadakı şimşəklər təsadüfi deyil. Onlar Allahın fərmanı ilə nazil olur.
3. Allah iman əhlinə nicat verib arxa durur.
4. Peyğəmbərlərə iman onların himayə edilməsi ilə müşayiət olunmalıdır.
5. İman qurtuluş rəmzidir.
6. Peyğəmbər də`vətinə diqqətsizlik zülmdür.
7. Zülm və zalımın sonu fəlakətdir.
8. Allahın onlara əzabı o qədər iti və böyük idi ki, evlərindən bayıra çıxmağa macal tapmadılar. (Belə görünür ki, həmin əzab gecə nazil olmuşdur.)
9. Allahın qəzəbi nazil olduqda zalımların qaçmaq gücünü əlindən alır.

**Ayə 95:**

﴿كَأَن لَّمْ يَغْنَوْاْ فِيهَا أَلاَ بُعْدًا لِّمَدْيَنَ كَمَا بَعِدَتْ ثَمُودُ﴾

**"(Mədyən kafirləri elə məhv oldular ki,) sanki heç vaxt həmin məntəqədə sakin olmamışdılar. Agah olun ki, (Allahın lütfü) Səmud qövmündən uzaq olduğu kimi Mədyən xalqından da uzaq oldu."**

## *Nöqtələr*

◘Allahın qəzəbi istənilən bir mərmidən də həlakedicidir. Əgər göydən bomba yağdığı vaxt kimsə qaça bilirsə, Allahın əzabı nazil olanda məntəqə elə alt-üst olur ki, sanki orada heç vaxt kimsə yaşamamışdır.

## *Bildirişlər*

1. İlahi qəhr-qəzəbdən qurtuluş yolu yoxdur.
2. Zalımlara nifrin, onlara ölüm istəyi ilahi və Qur`ana məxsus bir yoldur.

**Ayə 96:**

﴿وَلَقَدْ أَرْسَلْنَا مُوسَى بِآيَاتِنَا وَسُلْطَانٍ مُّبِينٍ﴾

**“Həqiqətən, Biz Musanı mö`cüzə və aşkar dəlillərlə göndərdik.”**

**Ayə 97:**

﴿إِلَى فِرْعَوْنَ وَمَلَئِهِ فَاتَّبَعُواْ أَمْرَ فِرْعَوْنَ وَمَا أَمْرُ فِرْعَوْنَ بِرَشِيدٍ﴾

**“Fir`on və onun qövmünün ə`yan-əşrafına doğru (elçi göndərdik). Onlar (Musanın də`vətini qəbul etmək əvəzinə) Fir`onun əmrinə tabe oldular. Halbuki Fir`onun göstərişi faydalı deyildi.”**

## *Nöqtələr*

◘Qur`anda həzrət Musa və Bəni-İsrail haqqında nazil olmuş ayələr bütün digər mövzulardakı ayələrdən çoxdur. Həzrət Musa Qur`anın 30-dan çox surəsində yüz otuz dəfədən çox xatırlanır. Uyğun mövzu bu surədə ən xülasə şəkildə bəyan olunmuşdur.

◘“Sultan” dedikdə səltənət, hökmranlıq başa düşülür; bu söz bə`zən zahiri hökmranlıq, bə`zən də məntiqi hökmranlıq mə`nasını ifadə edir.

## *Bildirişlər*

1. Allah tərəfindən gəlmiş nümayəndələrin iddialarının nişanə və dəlilləri olmalıdır.
2. Peyğəmbərlərin məntiq və mö`cüzəsi bütün xalq üçün aydın və anlaşılasıdır.
3. Peyğəmbərlərin be`sətinin mühüm fəlsəfələrindən biri zalım qüvvəni aradan götürmək, bəşəriyyəti başqalarına bəndəçilikdən xilas etməkdir.
4. Xalqın çoxu zalım qüvvələrin ətrafında olmuşdur.
5. Zalım qüvvələrin təbliğ şüarlarını boykot etmək lazımdır. Fir`on xalqı aldadaraq onları doğru yola çəkdiyini bildirdiyindən, Allah-təala bu ayədə cavab olaraq bəyan edir ki, Fir`on qurtuluşa aparmırdı.
6. Elm və mə`rifət azğınlığın qarşısının alınması üçün bəs etmir. (Musa dəlillər gətirsə də, xalq Fir`ona itaət edirdi.)

**Ayə 98:**

﴿يَقْدُمُ قَوْمَهُ يَوْمَ الْقِيَامَةِ فَأَوْرَدَهُمُ النَّارَ وَبِئْسَ الْوِرْدُ الْمَوْرُودُ﴾

**“O (Fir`on), Qiyamət günü qövmünün önündə hərəkət edər və onları oda aparar. Onların daxil olduğu yer necə də pisdir!”**

## *Nöqtələr*

◘“Vird” dedikdə insanın daxil olduğu su başa düşülür. “Vurud” sözü isə suya doğru hərəkət mə`nasını bildirir. Amma bu söz sadəcə daxil olmaq mə`nasında işlənməyə başlamışdır.

## *Bildirişlər*

1. Hər hansı proqramın yetərli olmasının nişanəsi onun insanı cəhənnəmə yox, behiştə aparmasıdır.

2. Dünyada xalqın qabağınca gedənlər axirətdə də onları öz arxasınca ya behişt, ya da cəhənnəmə aparacaq. Ədalətli (nur) imam xalqı behiştə (nura), zalım (od) imam xalqı cəhənnəmə (oda) yönəldəcək.

**Ayə 99:**

﴿وَأُتْبِعُواْ فِي هَـذِهِ لَعْنَةً وَيَوْمَ الْقِيَامَةِ بِئْسَ الرِّفْدُ الْمَرْفُودُ﴾

**“Onlar dünyada lə`nətə düçar oldular, Qiyamətdə də belə olacaq. Onlara necə də pis əta olunar!”**

## *Bildirişlər*

1. Fir`on və başqa zalım qüvvələrin ardınca düşənlər dünya və axirətdə bədnamlığa və nifrinə düçar olar.

**Ayə 100:**

﴿ذَلِكَ مِنْ أَنبَاء الْقُرَى نَقُصُّهُ عَلَيْكَ مِنْهَا قَآئِمٌ وَحَصِيدٌ﴾

**“(Ey peyğəmbər,) bu (sözlər) abadlıqlar və şəhərlər haqqında sənə danışdıqlarımızdandır. Onlardan bə`ziləri hələ də qalır, amma bə`ziləri artıq viran olmuşdur.”**

## *Nöqtələr*

◘Ayədən belə bir mə`na anlaşıla bilər ki, bə`ziləri həlak edilsə də, onların əsərləri qalmışdır. Amma məhv edilənlərdən bə`zilərinin əsər-əlaməti də yoxdur.

◘Qur`anda göstərlilən əhvalat mühüm rolu və tə`sirləri var: (bu əhvalat) qəlbəyatımlı və cazibəlidir; bir çox dəlillər üçün düşüncəyə yol açır; dərs oxumamış bir peyğəmbər üçün mö`cüzə sayılır; eşidənlər üçün ibrət dərsidir.

## *Bildirişlər*

1. Tarixdən ibrət götürüləcək qədər danışmaq yetər.

2. Nuh, Hud, Saleh, Lut, Şüeyb, Musanın tarixi bəşər tarixinin mühüm hissələrindəndir.

3. Qur`an keçmişin tarixi ilə tanışlıq üçün bir mənbədir.

4. Yalnız Allah düzgün, sənədli və ibrətamiz əhvalatlar nəql edə bilər, bunu unutmayaq.

5. Qur`anın qeyd etdiyi əhvalatlar ən gerçək əhvalatlardır. Çünki bu əhvalatları Allah-təala nəql etmişdir.

6. Ümmətlərin tarixi onların nişanələri mövzusundan fərqlənir. Nişanələr məhv olub getsə də, tarix qalır.

**Ayə 101:**

﴿وَمَا ظَلَمْنَاهُمْ وَلَكِن ظَلَمُواْ أَنفُسَهُمْ فَمَا أَغْنَتْ عَنْهُمْ آلِهَتُهُمُ الَّتِي يَدْعُونَ مِن دُونِ
اللّهِ مِن شَيْءٍ لِّمَّا جَاء أَمْرُ رَبِّكَ وَمَا زَادُوهُمْ غَيْرَ تَتْبِيبٍ﴾

**“Biz onlara zülm etmədik. Onlar özləri özlərinə sitəm qıldılar. Rəblərinin qəzəbi yetişdikdə Allah əvəzinə çağırdıqları tanrılar onlara fayda verməyib, yalnız zərərlərini artırdı.”**

## *Nöqtələr*

◘“Təbb” sözündən olan “tətbib” sözü zərər-ziyanın davamlılıq mə`nasını bildirir.

## *Bildirişlər*

1. Zalımı cəzalandırmaq zülm yox, eynilə ədalətdir.
2. İnsanın taleyi onun əməl və rəftarlarından asılıdır.
3. Allahdan savay heç bir kimsə insana nicat verə bilməz.
4. Allahın iradəsi qarşısında kimsə müqavimət göstərə bilməz.

**Ayə 102:**

﴿وَكَذَلِكَ أَخْذُ رَبِّكَ إِذَا أَخَذَ الْقُرَى وَهِيَ ظَالِمَةٌ إِنَّ أَخْذَهُ أَلِيمٌ شَدِيدٌ﴾

**“Rəbbinin cəzası belədir–zülmkar şəhərləri və abadlıqları (Öz qəhri ilə) yaxalayır. Həqiqətən, Onun cəzası ağrılı və şiddətlidir.”**

## *Bildirişlər*

1. Allahın qəhr-qəzəbi və lütfü möhkəm və əbədi qanunlara əsaslanır. İlahi cəza müdafiə məqsədli və təsadüfi deyil.
2. Zülmkar ümmətlər Allahın qəhr-qəzəbinə düçar olur.
3. Yerində hədələmə ən tə`sirli tərbiyə vasitələrindəndir.
4. Allahın qəhr-qəzəbi onun rübubiyyət şə`nindəndir.
5. Bədbəxtlik və ilahi qəzəb amili insanın özüdür.
6. Allahın qəzəbi o zaman nazil olur ki, zülm məntəqənin simasına çökür.
7. Allahın qəhr-qəzəbini sadə və əhəmiyyətsiz saymayaq.

**Ayə 103:**

﴿إِنَّ فِي ذَلِكَ لآيَةً لِّمَنْ خَافَ عَذَابَ الآخِرَةِ ذَلِكَ يَوْمٌ مَّجْمُوعٌ لَّهُ النَّاسُ وَذَلِكَ يَوْمٌ
مَّشْهُودٌ﴾

**“Əlbəttə ki, bunda (xəbərdarlıqlarda) axirət əzabından qorxan kəs üçün nişanə (ibrət) var. O gün ki, xalq bir yerə toplanar, o gün ki, (hamı onu) müşahidə edər və hamı üçün aşkar olar (bütün əməlləri və ruhiyyəsi ortaya qoyular).”**

### *Bildirişlər*

1. Hər hansı əhvalat hansısa məqsədlə bəyan olunmalıdır.
2 Yalnız axirətə inananlar həqiqi Qur`an əhvalatlarından ibrət götürürlər.
3. Qiyamət qorxusu (hətta ehtimala əsaslansa da) ibrət səbəbidir.
4. Qiyamətdə xalqın toplanması və iştirakı ixtiyar üzündən yox, məcburidir.
5. Qiyamət günü şahidlik günüdür. Hər bir kəs və hər bir şey bir başqasının xeyrinə və ya zərərinə şəhadət verər. Həmin gün pərdələr qaldırılar.

**Ayə 104:**

﴿وَمَا نُؤَخِّرُهُ إِلاَّ لِأَجَلٍ مَّعْدُودٍ﴾

**"Biz onu (o günü) yalnız müəyyən müddət tə`xirə salarıq."**

**Ayə 105:**

﴿يَوْمَ يَأْتِ لاَ تَكَلَّمُ نَفْسٌ إِلاَّ بِإِذْنِهِ فَمِنْهُمْ شَقِيٌّ وَسَعِيدٌ﴾

**"O gün gələndə kimsə Allahın izni olmadan danışa bilməz. Onlardan bir dəstəsi bədbəxt, digər bir dəstəsi isə xoşbəxtdir."**

### *Nöqtələr*

◘"Səadət" sözü ne`mət səbəblərinin, "şəqavət" sözü bədbəxtlik səbəblərinin gerçəkləşməsidir.

### *Bildirişlər*

1. Qiyamətin bərpa vaxtı və dünyanın sonu öncədən müəyyənləşdirilmişdir.
2. Qiyamətin bərpası üçün müəyyənləşdirilmiş fasilə də məqsədlidir.
3. Qiyamət günü icazəsi olmayanlardan savay hamı susar.

**Ayə 106:**

﴿فَأَمَّا الَّذِينَ شَقُواْ فَفِي النَّارِ لَهُمْ فِيهَا زَفِيرٌ وَشَهِيقٌ﴾

**"Amma bədbəxt olmuş kəslər oddadırlar. Orada nalə və fəryad çəkərlər."**

**Ayə 107:**

﴿خَالِدِينَ فِيهَا مَا دَامَتِ السَّمَاوَاتُ وَالأَرْضُ إِلاَّ مَا شَاء رَبُّكَ إِنَّ رَبَّكَ فَعَّالٌ لِّمَا يُرِيدُ﴾

**"Nə qədər ki, göylər və yer var, onda (odda) əbədidirlər. Rəbbinin istəyi istisnadır. Həqiqətən, Rəbbin istədiyini edər."**

## *Nöqtələr*

◘“Zəfir” dedikdə nəfəsin çölə çıxması ilə müşayiət olunan fəryad nəzərdə tutulur. “Şəhiq” isə elə uzun nalədir ki, nəfəs həm də içəri alınır. Bə`ziləri ulağın səsinin əvvəlinin “zəfir”, sonunun “şəhiq” adlandırıldığını bildirirlər.

◘Cəhənnəmə gedənlərin bir dəstəsi orada qısa bir müddət, digər bir dəstəsi uzun bir müddət, üçüncü bir dəstə isə əbədilik qalır.

◘Əgər “xülud” sözü “əbədi” sözü ilə yanaşı işlənsə (“xalidinə fiha əbəda”) əbədilik mə`nasını bildirir. Qur`an “nə qədər ki, göylər və yer var” tə`birini işlətsə də, söhbət əbədilikdən gedir. Çünki ərəb dilində “nə qədər ki, göylər və yer var” tə`biri əbədiliyə işarədir.

## *Bildirişlər*

1. İnsan yanlış seçimi ilə öz bədbəxtliyinə səbəb olur.
2. Allah cəhənnəm əhlini istədiyi vaxt azad edə bilər. (Günahı az olanlar, bağışlananlar bir müddət sonra cəhənnəmdən qurtula bilərlər.)

**Ayə 108:**

﴿وَأَمَّا الَّذِينَ سُعِدُواْ فَفِي الْجَنَّةِ خَالِدِينَ فِيهَا مَا دَامَتِ السَّمَاوَاتُ وَالأَرْضُ إِلاَّ مَا شَاء رَبُّكَ عَطَاء غَيْرَ مَجْذُوذٍ﴾

**“Amma xoşbəxt olanlar göylər və yer durduqca behiştədirlər. Rəbbinin istəyi ilə bu əta qət olası deyil.”**

## *Bildirişlər*

1. İnsanların bədbəxtliyi onların öz istəyidir. Xoşbəxtlik isə yalnız Allahın tövfiqi ilə mümkündür.
2. Allah istədiyini edə bilsə də, bu ayənin son hissəsi və digər ayələrdəki və`dinə görə, behişt əhlini oradan çıxarmır. Behiştə daxil olan insan həmişəlik orada qalır.

**Ayə 109:**

﴿فَلاَ تَكُ فِي مِرْيَةٍ مِّمَّا يَعْبُدُ هَؤُلاء مَا يَعْبُدُونَ إِلاَّ كَمَا يَعْبُدُ آبَاؤُهُم مِّن قَبْلُ وَإِنَّا لَمُوَفُّوهُمْ نَصِيبَهُمْ غَيْرَ مَنقُوصٍ﴾

**“(Ey peyğəmbər,) bu kafirlərin pərəstiş etdiklərinə (onların batil olmasına) şəkk etmə. Onlar yalnız əvvəllər atalarının ibadət etdiyinə (bütlərə) ibadət edirlər. Həqiqətən, Biz onların qismətini əskiltmədən tam şəkildə verəcəyik.”**

## *Bildirişlər*

1. Rəhbər öz yolunda o qədər möhkəm və qətiyyətli olmalıdır ki, ümmətin azğınlığı onu süstləşdirməsin.

2. Şəxsiyyətlərə müraciət xalqa daha çox tə`sir edir.
3. Bütpərəstlərin və müşriklərin heç bir dəlil və məntiqi yoxdur.
4. Ata-babaların öz nəsillərinin əməl və rəftarına tə`siri var.
5. Bə`zən ata-babaların əqidəsinə inanc yanlış olur.
6. Allah kafir və müşriklərə də zülm etmir.

**Ayə 110:**

﴿وَلَقَدْ آتَيْنَا مُوسَى الْكِتَابَ فَاخْتُلِفَ فِيهِ وَلَوْلاَ كَلِمَةٌ سَبَقَتْ مِن رَّبِّكَ لَقُضِيَ بَيْنَهُمْ وَإِنَّهُمْ لَفِي شَكٍّ مِّنْهُ مُرِيبٍ﴾

**“Həqiqətən, Biz Musaya kitab (Tövrat) verdik. Onunla bağlı ixtilaf düşdü. Əgər Rəbbinin (əzabın tə`xiri ilə bağlı) sünnəsi öncədən müəyyənləşdirilməsəydi, hər halda (bu dünyadaca) onlar arasında mühakimə olardı (və cəzaya çatardılar.) Həqiqətən, onunla bağlı bədgümanlıqlarına səbəb olan bir şəkk içindədirlər.”**

## *Bildirişlər*

1.Tarixin heç bir dönəmində bir qövmün bütün fərdləri eyni əqidədə olmamışdır.

2. Dinlə bağlı ixtilaflar, bə`zilərinin iman gətirməməsi bizi narahat etməsin. Bu yeni bir hadisə deyil.

3. Qur`anda Tövrat “Nur kitabı” adlandırılsa da,[1] xalq yenə də bu nurla bağlı ixtilaf saldı.

4. Allah Öz sünnələrini qoruyur və ayaq altına düşməyə qoymur. Çünki hər kəsdən öncə qanunu verən kəs o qanuna hörmət etməlidir. (Allah dünyanı mühakimə yeri qərar verməmişdir.)

5. İlahi sünnələr Allahın rübubiyyət məqamına əsaslanır.

6. Səmavi kitabla bağlı ixtilaf edənlərə möhlət verilməsi ilahi sünnələrdəndir.

**Ayə 111:**

﴿وَإِنَّ كُلاًّ لَّمَّا لَيُوَفِّيَنَّهُمْ رَبُّكَ أَعْمَالَهُمْ إِنَّهُ بِمَا يَعْمَلُونَ خَبِيرٌ﴾

**“Şübhəsiz, Rəbbin onların bütün əməllərini (əməllərinin cəzasını) tam şəkildə verəcək. Həqiqətən, O, xalqın bütün əməllərindən agahdır.”**

## *Bildirişlər*

1. İlahi dünyagörüşündə heç bir əməl cavabsız, əvəzsiz deyil.
2. Əməlin əvəzi əskildilmədən verilir.
3. Allahın kamil cəzası insanların əməllərindən tam xəbərdarlıq əsasındadır.

**Ayə 112:**

---

[1] “Maidə”, 44; “Ən`am” 91.

﴿فَاسْتَقِمْ كَمَا أُمِرْتَ وَمَن تَابَ مَعَكَ وَلاَ تَطْغَوْاْ إِنَّهُ بِمَا تَعْمَلُونَ بَصِيرٌ﴾

**"(Ey peyğəmbər,) sənə əmr edildiyi kimi möhkəm ol. Səninlə Allaha doğru gələnlər də (möhkəm olsunlar.) Həddi aşmayın, O, etdiyiniz işləri görəndir."**

## *Nöqtələr*

◘Rəvayətdə həzrət Peyğəmbərin (s) belə buyurduğu nəql edilir: "Hud" surəsi məni qocaltdı." Bildirirlər ki, həzrət Peyğəmbər (s) Hud surəsinin məhz bu ayəsini nəzərdə tutmuşdur.[1] Bu ayənin ilk cümləsi eynən başqa bir surədə bəyan olunsa da[2], məhz bu ayə uyğun xüsusiyyətlə tanınmışdır. Ola bilsin ki, bu ayəni tarixin burada bəyan olunmamış səhifələri ağırlaşdırmışdır. Həzrət Peyğəmbərin (s) ətrafındakılardan ona vəfalı olmayanlar da vardı. Həzrət onların vəfasızlığından əziyyət çəkirdi.

## *Bildirişlər*

1. Əgər Allah hamının gördüyü işin əvəzini əskiltmədən verirsə, möhkəm ol!
2. Peyğəmbər tarixinin nəticəsi sabitqədəmlikdir.
3. Sabitqədəmlik və möhkəmlikdə rəhbər birinci olmalıdır. (İlkin İslam dövründə Məkkə şəraiti müsəlmanlar üçün ağır idi və möhkəmliyə ehtiyac vardı.)
4. Möhkəmlik bütün sahələri əhatə etdikdə dəyərli olur. İnsan ibadətdə, təbliğdə, çətinliklər qarşısında möhkəm olmalıdır.
5. İnsanın əməlləri ilahi göstərişə əsaslanmalıdır. Qiyasa (yersiz müqayisəyə), təxəyyülə əsaslanan əməl puçdur.
6. Ümmət möhkəm olmadıqda rəhbərin möhkəmliyi səmərə vermir.
7. Allaha doğru qayıdışın qiyməti ağırdır. Bu qiymət doğru yolda sabitqədəmlik və tövbədən öncəki yola qayıtmamaqdan ibarətdir.
8. Hər şey ilahi göstərişə əsaslanmalıdır və ifrata varmaq olmaz.
9. Rəhbər və ümmət düz yolla hərəkət etməlidir. İfrat və təfritdən çəkinmək lazımdır.
10. Dində sabitqədəmlik Allah tərəfindən mükafatlandırılır.

**Ayə 113:**

﴿وَلاَ تَرْكَنُواْ إِلَى الَّذِينَ ظَلَمُواْ فَتَمَسَّكُمُ النَّارُ وَمَا لَكُم مِّن دُونِ اللّهِ مِنْ أَوْلِيَاء ثُمَّ لاَ تُنصَرُونَ﴾

**"Zülmkarlara meyl etməyin, onlara sığınmayın. (Əzab alovu) sizi də bürüyər və bu halda sizin üçün Allah qarşısında heç bir yardımçı tapılmaz. (Heç bir tərəfdən) yardım almazsınız."**

---

[1] "Təfsire-nümunə".
[2] "Şura", 15.

## *Nöqtələr*

◘Rəvayətlərdə bildirilir ki, zalıma məhəbbət və itaət ona sığınmaq nümunələrindən sayılır. Rəvayətdə oxuyuruq: "Zülmkar şəxs qohumun və ya dostun olsa da, ona ümid bağlama."[1] "Kafi" kitabında nəql olunur ki, əgər zülmkar bir şey bağışlamaq üçün əlini cibinə salacağı qədər yaşamasına razı olsan, zalıma sığınmısan və bil ki, Allah bu işi qadağan etmişdir.[2]

◘Əmr sahibinə itaət vacib, zalıma sığınmaq haramdırsa, demək, əmr sahibi (rəhbər) zalım ola bilməz. Günah zülm nümunəsi sayıldığından əmr sahibi hətta mə`sum olmalıdır.

Zalıma sığınmaq odla nəticələnir. Görün zalımın öz vəziyyəti necə olacaq!

## *Bildirişlər*

1. Daxili və xarici zülmkara istənilən cür meyl və e`timad qadağandır. (Həmkarlar itaət və rəhbərliyə layiq deyil.)
2. Zülmkara sığınmaq kəbirə (böyük) günahdır. (Qur`anda od və`d olunmuş hər bir günah kəbirə günahdır)
3. Zalıma sığınmaq əvəzinə Allaha təvəkkül edək.
4. Sitəmkara sığınmağın nəticəsi qürbət və tənhalıqdır.

**Ayə 114:**

﴿وَأَقِمِ الصَّلاَةَ طَرَفَيِ النَّهَارِ وَزُلَفًا مِّنَ اللَّيْلِ إِنَّ الْحَسَنَاتِ يُذْهِبْنَ السَّيِّئَاتِ ذَلِكَ ذِكْرَى لِلذَّاكِرِينَ﴾

**"Günün iki tərəfində və gecə vaxtları namazı bərpa edin. Həqiqətən, (namaz kimi) yaxşı işlər pislikləri məhv edir. Bu (fərman) zikr əhli üçün xatırlatmadır."**

**Ayə 115:**

﴿وَاصْبِرْ فَإِنَّ اللّهَ لاَ يُضِيعُ أَجْرَ الْمُحْسِنِينَ﴾

**"Möhkəm ol, həqiqətən, Allah yaxşı iş görənlərin mükafatını zay etmir."**

## *Nöqtələr*

◘Rəvayətdə "günün iki tərəfi" deyilərkən sübh və qürub vaxtı, "gecə vaxtları" deyilərkən axşam namazının nəzərdə tutulduğu bildirilir.[3]

Əlbəttə ki, bu ayə gündəlik namazları tam şəkildə bəyan etmir.

◘Bir şəxs öz çirkin əməllərinə görə narahat idi. Ona görə də məsciddə namazdan sonra Peyğəmbərdən (s) onu cəzalandırmasını istədi. Həzrət (s) ona

---

[1] "Təfsire-kənzul-dəqaiq".
[2] "Kafi", c. 5, s. 108.
[3] "Təfsire-kənzüd-dəqaiq".

buyurdu: “Həmin pis işdən sonra cəmiyyət namazında iştirak etdiyin üçün Allah səni bağışladı.”[1]

◘İmam Sadiqdən (ə) soruşdular ki, zalımlıqla pul qazanan bir şəxs “yaxşı işlər pis işləri məhv edir” ayəsinə ümid edib fəqirlərə yardım göstərirsə, həccə gedirsə, bu düzgündür? Həzrət (s) buyurdu: “ Günahı günahla yumaq olmaz.”[2] Belə bir şəxsin əldə etdiyi mal xalqındır. Xalqın malını isə istənilən bir şəkildə sərf etmək haramdır.

## *Qur`anın ən ümidverici ayəsi*

◘Həzrət Əli (ə) ətrafındakılardan soruşdu: “Qur`anın ən ümidverici ayəsinin hansı ayə olduğunu bilirsinizmi?!” Hərə öz halına uyğun bir ayə söylədi. Bə`ziləri bu ayəni oxudular: “Allah şirkdən savay bütün günahları bağışlayır.”[3] Digərləri başqa bir ayəni oxudular: “Hər kəs xilaf iş görüb zülm etsə və sonra tövbə qılsa, Allahın bağışlayan və mehriban olduğunu görər.”[4] Oradakılardan bir dəstəsi başqa bir ayəni oxudu: “Ey bəndələrim, öz haqqınıza münasibətdə israf etmisiniz. Allahın rəhmətindən mə`yus olmayın. Çünki O, bütün günahları bağışlayır.”[5] Bir başqaları bu ayəni ən ümidverici ayə kimi tanıdıqlarını bildirdi: “Çirkin bir iş görən və özünə zülm edən kəslər Allahı yada salar və günahlarına görə bağışlanma diləyərlər. Allahdan savay günahları bağışlayan kimdir?![6]

Həzrət (s) onları dinlədikdən sonra sözə başladı: “Həbibim Peyğəmbərdən (s) eşitmişəm ki, bu ayə Qur`anın ən ümidverici ayəsidir: “Və əqimus-səlatə tərəfəyin nəhari...”[7] Sonra Peyğəmbər (s) sözünə belə davam etdi: “Ya Əli, and olsun bizi xalqa doğru müjdəçi və qorxudan olaraq göndərən Allaha, insan dəstəmaz aldıqda günahları yuyular, üzü qibləyə dayandıqda pak olar. Ya Əli, gündəlik namazlarını qılan kəs hər gün beş dəfə evinin qarşısındakı çayda yuyunan kəs kimidir.”[8]

## *Bildirişlər*

1. Rəhbər xalqa nümunə olmalıdır.
2. Namazı bütün şərtləri ödəməklə və kamil qaydada yerinə yetirmək lazımdır. “İqamə” sözündə tamlıq mə`nası var.
3. Namaz mö`minlərin qəlbinin qüvvəsidir. Ötən ayədə sabitqədəmliyin və zalımlara e`timadsızlığın zəruriliyi bəyan olundu. Bütün bunlar üçün yüksək ruhiyyəyə ehtiyac var. Ona görə də Allah bu ayədə namaz vasitəsi ilə ruhun gücləndirilməsini əmr edir.
4. Namazları qeyd olunmuş vaxtda qılmaq lazımdır.
5. Namaz yaxşı işin ən aşkar nümunəsidir.

---

[1] “Təfsire-Məcməül-bəyan”.
[2] “Təfsire-kənzüd-dəqaiq”.
[3] “Nisa”, 48.
[4] “Nisa”, 110.
[5] “Zumər”, 53.
[6] “Ali-İmran”.
[7] “Hud”, 114.
[8] “Təfsire-Məcməül-bəyan”. “Təfsire-kənzüd-dəqaiq”.

6. İnsanın əməlləri bir-birinə tə`sir göstərir.
7. Namaz göstərişi Allahın ən işıqlı öyüdüdür. (Namaz ilahi zikrdir.)
8. İlahi xatırlatmalardan hər insan bəhrələnə bilmir.
9. Namazın bərpası sə`y və hövsələ tələb edir.[1]

**Ayə 116:**

﴿فَلَوْلاَ كَانَ مِنَ الْقُرُونِ مِن قَبْلِكُمْ أُوْلُواْ بَقِيَّةٍ يَنْهَوْنَ عَنِ الْفَسَادِ فِي الأَرْضِ إِلاَّ قَلِيلاً مِّمَّنْ أَنجَيْنَا مِنْهُمْ وَاتَّبَعَ الَّذِينَ ظَلَمُواْ مَا أُتْرِفُواْ فِيهِ وَكَانُواْ مُجْرِمِينَ﴾

**“Nə üçün sizdən əvvəlki vaxtlarda xalqı yer üzündə fəsaddan çəkindirən elm və qüdrət sahibləri olmayıb? Məgər onların arasında az kəsəmi nicat verdik? Zalımlar onları məst və azğın edən mal və məqam sorağında idilər. Onlar günahkar adamlardır.”**

## *Nöqtələr*

◘“Bəqiyyə” sözü Qur`anda üç dəfə işlədilmişdir. Bu söz, ərəb lüğətində “fəzl və qüdrət” kimi mə`nalandırılsa da, Qur`anda “saxlanan” mə`nasını bildirir. Bu söz insanların nəfis şeyləri özü üçün saxlamasına işarə ola bilər. Başqa bir yanaşmaya əsasən, yalnız qüdrət və qüvvə sahibləri səhnədə qala bilir.

◘Ayədə Allah-təala bir qrupu elm və qüdrətə yiyələnib cəmiyyəti islah etmədiyi üçün qınayır.

Bu xəbərdarlıq Qur`anda “ləvla” sözü ilə bir neçə dəfə təkrarlanmışdır.[2]

◘114-cü ayədə namaz, bu ayədə isə “nəhy əz münkər” haqqında danışılmışdır. Namaz və əmr be mə`rufun yanaşı yada salındığı ayələr də var: “Ənkəbut”, 45; “Hud”, 114; “Loğman”, “Həcc”, 41.

## *Bildirişlər*

1. Bütün dövrlərdə ictimai fəsadlara biganə qalan insanlar məhkum və tənqid olunmuşlar.
2. “Nəhy əz munkər” vəzifəsinə münasibətdə ən böyük məs`uliyyət elm və qüdrət sahiblərinin öhdəsinə düşür.
3. Bütün cəmiyyətlərdə islahatçı və canıyanan fərdlər azlıq təşkil edir.

---

[1] “Taha”, 132.
[2] “Tövbə”, 122; “Maidə”, 63.

4. Keçmiş ümmətlərin süqut rəmzi onların fəsada biganəliyi və “nəhy əz münkəri” tərk etməsi olmuşdur.

5. Doğru yol təbliğçilərinin canıyananlığının və cəmiyyətin islahının nəticəsi ilahi qəzəbdən qurtuluşdur.

6. Zülm, əyyaşlıq və günah süqut üçbucağının tərəfləridir.

**Ayə 117:**

﴿وَمَا كَانَ رَبُّكَ لِيُهْلِكَ الْقُرَى بِظُلْمٍ وَأَهْلُهَا مُصْلِحُونَ﴾

**“Rəbbin xalqı islahçı olan abadlıqları zülm və sitəmlə həlak etmək qəsdində deyil.”**

## *Nöqtələr*

◘Peyğəmbər (s) buyurmuşdur: “Ayədə islah deyərkən insanların bir-birinə insafla yanaşması nəzərdə tutulur.[1]

◘Həzrət Peyğəmbər (s) buyurmuşdur: “Ey İbn-Məs`ud, xalqla insaflı rəftar et, onlara xeyirxah ol, mərhəmət göstər. Əgər belə olsan, aralarında olduğun şəhər əhli qəzəbə gəldikdə Allah sənə nəzər salıb, sənə xatir onlara rəhm edər.”[2]

## *Bildirişlər*

1. Allahın qəhr-qəzəbinin dəlili var.

2. Saleh olmaq bəs etmir, islahedici də olmaq lazımdır. (Allahın əzabından amanda qalma yollarından biri xalqın islah istəyidir.)

**Ayə 118:**

﴿وَلَوْ شَاء رَبُّكَ لَجَعَلَ النَّاسَ أُمَّةً وَاحِدَةً وَلاَ يَزَالُونَ مُخْتَلِفِينَ﴾

**“Əgər Rəbbin istəsəydi, bütün xalqı (məcburi surətdə) vahid bir ümmət qərar verərdi. Onlar hələ də ixtilafdadırlar.”**

## *Nöqtələr*

◘Qur`ani-məciddə insanların əqidə seçimində azad olmaları məsələsi dəfələrlə qeyd olunmuşdur. Allah xalqı doğru yola hidayət etsə də, onlar məcbur olunmur. İslam peyğəmbərinə (s) də xalqı məcbur etmək haqqı verilməmişdir. Həzrətin vəzifəsi xalqa haqqı xatırlatmaq və doğru yolu göstərmək olmuşdur.[3] Buna görə

---

[1] “Təfsire-Məcməül-bəyan”.
[2] “Bihar”, c. 74, s. 109.
[3] “Ğaşiyə”, 21.

də Allah təqva və günah yolunu insanın fitrəti dərk edəcək bir yolla çatdırmışdır. Bundan əlavə, cəmiyyətə peyğəmbərlər göndərilmiş, insanlar doğru yola də`vət edilmişlər. Yolunu öz istəyi ilə əyən insan özüdür.

## *Bildirişlər*

1. İnsanın yaranışındakı ilahi sünnə əqidə və düşüncə azadlığına əsaslanır.
2. Allahın iradəsinə qarşı çıxmaq mümkünsüzdür.
3. Heç bir dövrdə insanlar həmfikir olmamışlar.
4. İnsanlar arasındakı ixtilaf onların azad olduğunu göstərir.

**Ayə 119:**

﴿إِلاَّ مَن رَّحِمَ رَبُّكَ وَلِذَلِكَ خَلَقَهُمْ وَتَمَّتْ كَلِمَةُ رَبِّكَ لأَمْلأَنَّ جَهَنَّمَ مِنَ الْجِنَّةِ وَالنَّاسِ أَجْمَعِينَ﴾

**“Rəbbinin mərhəmət etdiyi kəslər (ixtilafa münasibətdə) istisnadır. (Allah) bunun üçün (rəhmət üçün) xalqı yaratdı. Rəbbindən fərman gəldi ki, cəhənnəmi cin və insanla dolduracağam.”**

## *Nöqtələr*

◘Bə`ziləri deyirlər: Ayədə bildirilir ki, xalq daim ixtilafdadır. Yalnız Allahın lütf və rəhmət kölgəsində olanlar ixtilafdan uzaqdır. Allah insanları həmin vəhdət kəlməsi üçün yaratmışdır.[1]

◘İnsanın yaranış fəlsəfəsi Qur`an ayələrində müxtəlif şəkillərdə bəyan olunmuşdur. “Zariyat” surəsinin 56-cı ayəsində oxuyuruq: “Biz cin və insanı yalnız ibadətdən ötrü yaratdıq.” “Mulk”, surəsinin 2-ci ayəsində isə belə buyurulur: “Allah ölüm və həyatı sizi sınağa çəkmək üçün yaratdı.” Haqqında danışdığımız ayədə isə insanın rəhmətə qovuşmaq üçün yaradıldığı bildirilir. Zahirdə belə görünür ki, insan üç məqsədlə yaradılmışdır: ibadət, sınaq və rəhmət. Amma məsələyə bir qədər dərindən nəzər saldıqda görürük ki, hər üç səbəbin müştərək nöqtələri var və bu müştərək nöqtə insan ruhunun, mə`nəviyyatının təkamülüdür.

◘Ötən ayədə bildirildi ki, insan azaddır. Bu ayənin sonunda isə cəhənnəmin mütləq insan və cinlə doldurulacağı bəyan olunur. Bu iki ayədən belə anlaşılır ki, insan yol seçimində azad olsa da, batili qəbul etdikdə cəhənnəmə düşür.

◘Çoxsaylı rəvayətlərdə bildirilir ki, xalqın ixtilafının aşkar nümunəsi mə`sum rəhbər məsələsinə münasibətdir. Təbii olaraq, Allahın rəhmətinə qovuşanlardan, əhli-beyt və mə`sum rəhbərlərin xəttində olanlardan savay bütün xalq yolunu azmışdır.[2]

---

[1] “Təfsire-Ətyəbul-bəyan”.
[2] “Təfsire-kənzüd-dəqaiq”.

◘İmam Sadiq (ə) buyurmuşdur: “Allah insanı yaratmışdır ki, müəyyən işlər görüb ilahi rəhmətə çatsın.”[1]

## *Bildirişlər*

1. Bütün ixtilafların yeganə həlli ilahi lütf və mərhəmətdir.
2. Yalnız ilahi yardımlar vəhdət amili ola bilər. Dünyəvi və maddi mehvərlər müvəqqəti, birtərəfli və xəyalidir.
3. Bəşərin yaranış fəlsəfəsi ilahi rəhmətin qəbulu və əldə olunmasıdır.
4. Allah müəyyən qanun və sünnələri Özünə zəruri edib.
5. Allahın qəti qəzəbi yalnız Onun lütfündən, peyğəmbərlərdən, səmavi kitablardan, moizə və xəbərdarlıqdan, möhlətdən sonra gəlir.
6. Allah insanı daxildən fitrət və ağılla təchiz edib, xaricdən peyğəmbərlər və səmavi kitablar göndərməklə höccəti tamamlamış, yetərincə sübutlar gətirmişdir.
7. Cəhənnəm məhduddur.
8. Cinlər də insanlar kimi vəzifəlidirlər, mükafatlanır və ya cəzalanırlar.

**Ayə 120:**

﴿وَكُلاًّ نَّقُصُّ عَلَيْكَ مِنْ أَنبَاء الرُّسُلِ مَا نُثَبِّتُ بِهِ فُؤَادَكَ وَجَاءكَ فِي هَذِهِ الْحَقُّ
وَمَوْعِظَةٌ وَذِكْرَى لِلْمُؤْمِنِينَ﴾

**“Peyğəmbərlərin sənə danışdığımız hər bir əhvalatı qəlbini möhkəmləndirmək üçündür. Bunda (bu xəbərdə) sənin üçün həqiqət, iman əhli üçün öyüd-nəsihət var.”**

## *Bildirişlər*

1. Tarixin mühüm dönəmlərinin nəqli tərbiyə üsullarındandır.
2. Peyğəmbərlərin əhvalatının bəyanı tərbiyəvi əhəmiyyətə malikdir. Bu əhvalatlarda gərəksiz söz və nöqtə yoxdur.
3. Qur`anda qeyd olunan əhvalatlar peyğəmbərlərin həyatından götürülmüş seçmələrdir.
4. Qur`an əhvalatları əyləncə üçün yox, öyüd-nəsihət üçündür.
5. Əhvalatlarda dəyərli sətirlərə diqqət yetirilməlidir.
6. Qəlbdə aramlıq yaradan əhvalat ən yaxşı əhvalatdır.
7. Qəlblərə aramlıq verən Allahdır.
8. Peyğəmbərlərin də ruhuna qüvvət verilməlidir.
9. Gerçək və daimi aramlıq batil yolla əldə olunmur.
10. Yalnız arxayın təbliğatçı öz təbliğ və moizəsində müvəffəqdir.
11. Bütün Qur`an əhvalatları həqiqətdir və dəlil-sübutludur.
12. Təbliğdə öncə aramlıq, sonra dəlilli kəlam, daha sonra moizə gəlir.
13. Ən yaxşı tərbiyə üsulları belə hazırlıqlı insanlara tə`sir göstərir.

---

[1] “Təfsire-Nurus-səqələyn”. “Tövhide-Səduq”, s. 403.

**Ayə 121:**

﴿وَقُل لِّلَّذِينَ لاَ يُؤْمِنُونَ اعْمَلُواْ عَلَى مَكَانَتِكُمْ إِنَّا عَامِلُونَ﴾

**“İman gətirməyənlərə de ki, əllərindən gələni etsinlər, Biz də edərik.”**

**Ayə 122:**

﴿وَانتَظِرُوا إِنَّا مُنتَظِرُونَ﴾

**“Siz intizarda olun, biz də intizardayıq.”**

## *Bildirişlər*

1. Hədə və müjdənin bəyanı peyğəmbərlərin vəzifəsidir.
2. İnsan azaddır və peyğəmbər də onu məcbur etmir.
3. Moizəni qəbul etməyən insana xatırlatmağın faydası yoxdur. Belələrinə hədə tə`sir göstərir.
4. Təbliğatçı öz yoluna və hədəfinə tam inanmalıdır.
5. Təbliğdə qarşı tərəflə onun ağıl və düşüncəsinə uyğun danışılma-lıdır. İnadkar insanlara münasibətdə qəhr-qəzəb daha tə`sirlidir.
6. Xoş aqibət peyğəmbər və mö`minlərin intizarındadır.

**Ayə 123:**

﴿وَلِلّهِ غَيْبُ السَّمَاوَاتِ وَالأَرْضِ وَإِلَيْهِ يُرْجَعُ الأَمْرُ كُلُّهُ فَاعْبُدْهُ وَتَوَكَّلْ عَلَيْهِ وَمَا رَبُّكَ بِغَافِلٍ عَمَّا تَعْمَلُونَ﴾

**“Göylərin və yerin sirri yalnız Allah üçündür. Bütün işlər Ona doğru qaytarılasıdır. Onun bəndəsi ol (yalnız Ona pərəstiş et) və Ona təvəkkül et. Rəbbin sizin əməllərinizdən xəbərsiz deyil.”**

## *Nöqtələr*

◘Qeyb elmi mütləq şəkildə Allaha məxsusdur. Amma Allahın izni ilə peyğəmbər də bu elmdən bəhrələnir.[1]

## *Bildirişlər*

1. Varlıq aləminin sirlərindən yalnız Allah xəbərdardır.
2. Yer və göyün (bütün varlıq aləminin) zahirindən əlavə batini də var.
3. Hər şeyin qayıdışı Ona doğrudur.
4. Qeybə iman ibadət və təvəkkül üçün zəmin yaradır.
5. Allaha təvəkkül edən insan Onun lütfünə nail olur.

---

[1] “Cin”, 26.

6. İnsanın əməllərindən xəbərdarlıq Allahın rübubiyyət şə`nindən-dir.

# Mündəricat


“TÖVBƏ” SURƏSİ ........ 9
9-CU SURƏ, 129 AYƏ ........ 9
ON, ON BİRİNCİ CÜZLƏR ........ 9
“TÖVBƏ” SURƏSİNİN SİMASI ........ 9
AYƏLƏRİN E`LAN OLUNMA MACƏRASI ........ 10
HÜNEYN DÖYÜŞÜNÜN SİMASI ........ 27
RƏVAYƏTLƏRDƏ ZƏKAT MƏSƏLƏSİ ........ 36
ƏBUZƏR VƏ “KƏNZ” AYƏSİ ........ 36
ON BİRİNCİ CÜZ ........ 86
“YUNUS” SURƏSİ ........ 116
(10-CU SURƏ, 109 AYƏ) ........ 116
“YUNUS” SURƏSİNİN SİMASI ........ 116
QUR`ANIN İMTİYAZLARI ........ 142
“HUD” SURƏSİ ........ 186
(11-Cİ SURƏ, 122 AYƏ) ........ 186
ON BİR, ON İKİNCİ CÜZLƏR ........ 186
“HUD” SURƏSİNİN SİMASI ........ 186
MƏADI İNKAR EDƏNLƏRİN ƏSASƏN İKİ İRADI VAR: ........ 189
ON İKİNCİ CÜZ ........ 190
NUH OĞLU PİSLƏRƏ QOŞULDUĞU AN ........ 216
PEYĞƏMBƏR YOLUNU İTİRDİ TAMAM. ........ 216
QUR`ANDA NUHUN SİMASI; ........ 221
QUR`AN VƏ HƏDİSLƏRDƏ LİVATIN (HƏMCİNSBAZLIQ) GÜNAHI ........ 240
QUR`ANIN ƏN ÜMİDVERİCİ AYƏSİ ........ 258